# Qızıl Səhifələr

## (kitabdan seçilmiş yazılar)

## *Azərbaycan Xalqının Milli Azadlıq Yolunda Mübarizəsi Tarixindən*



**Mir Cəfər Pişəvəri**

*Azərbaycan Demokrat Firqəsi Mərkəzi Komitəsinin Sədri və Azərbaycan Milli Hökumətinin Baş Vəziri*

**Təbriz- Elmiyyə Mətbəəsi 1946 – 1324**

*Hazırlayan*: ***açıqsöz***

# *Kitabın dizini*

*Hazırlayan:* **açıqsöz**


Müqəddimə

Azərbaycan Demokrat Firqəsinin Müraciətnaməsi

Bizim  Şüarlarımız Bunlardır

Firqəmiz İşə Başladı

Ruznaməmizin Dili

İki Yol Ayricinda Bizim Axır Sözümüz

Firqəmiz İrəli Gedir

Əyalət Əncüməni

Hamı Bilməlidir

Ayri Bir Yol Yoxdur

Güc Birlikdədir

Dözülməz Cinayət

Siyasi Firqənin Afəti

Ağayi Pişəvərinin Nitqinin Muxtəsəri

Əziz Vətəndaşlar

Qətnamə

Firqəmizin Tarixi İşi

Ehtiyaclarimiz Təmin Edilməlidir

Ayi Dostluğu

Ana Dili

Xaricə Vəzirləri Şurasına, London Əncüməninə

İrtica baş qaldırdı

Firqəmizin birinci Konqrəsi münasibətilə

Ərbab və Rəiyyət məsələsinin həlli

Bizi öz halimiza qoysunlar

Firqə oyuncaq deyildir

Azərbaycan öz tarixi vəzifəsini unutmaz

Birinci konqrəmiz

Muxtariyyət məsələsi və əncüməni əyaləti

Məramnaməmiz

Firqə konqrəsi xalqimizin ləyaqətini isbat etdi

Konqrənin ikinci gününün guzarişi

Yenə də malik və rəiyyət məsələsi

Vətən dili

Hər iş öz vaxtinda

Azərbaycan yatmamişdir

Azərbaycan Demokrat Firqəsinin Məramnaməsi

- Müqəddimə
- Ümumi siyasi məsələlər
- İqtisadi və ticarət məsələləri haqqında
- Fəlahət haqqında
- Xalq maarıfi haqqında
- Xalq səhiyyəsi
- Ədəbiyyat, incə sənət və mətbuat
- Milli məsələ
- Məhkəmə işləri
- Arteş haqqında

Tehran barmağı

Höviyyət hücrə və dükan ilə təyin edilməz

İftraamiz teleqrafi kim imza etmişdir?

Çağrılmamış qonaqlar bilməlidirlər

İntixabat fərmanini xalqimiz özü sadir etməlidir

Azərbaycan otuz il bundan əvvəlki mövqeyini tutmalidir

Dövləti muqtədir yəni çe?

Həqiqi siyasi işçilər tərbiyə etməli

Hara gedirsiz durun!

Kürdüstan Demokrat Firqəsinin birinci konqrəsi

Günün vəzifələri haqqında

Firqəmizin şəhər konfransi münasbətilə

Hovzələr firqənin əsasidir

Günün məsələsi haqqinda

Dərdi deyir çarəni danirlar

Məsnui təəsüb

Xalq öz başina çarə edir

Düşmənin hiyləsini anlamaq lazimdir

İkinci dövrənin şüarlari

Azərbaycanin sərvəti Azərbaycanda qalmalidir

Karlar eşitsin, korlar da görsün

Biz öz anadilimiz ilə oxumaliyiq

Böyük xalq yiğincaqlari

Azərbaycan Demokrat Firqəsi MK- sının iclasi və çixardiği qərarlar

Cinayətlərin mənşəyi

Uşaq tovlayirlar

Diydi ke xune nahəqe pərvane şəm ra - Çəndan əman nədad ke şəb ra səhər konəd!

Böyük milli konqrəmizin qüdrət mənbəyi

Ey azərbaycanın rəşid və qəyur sərbaz və əfsərləri

Vəhşət və iztirabı kim tolid edir?

İran şahənşahı həzrətlərinin xidmətinə

Xalqımızın böyük konqrəsi müvəffəqiyyətlə qurtardı

Azərbaycan milli məclisinin intixabatı dəsturu

Milli Məclis intixabatını hansı şüar ilə icra etməliyik ?

Azərbaycan məclis - müəssisan millisinin qərarları

Yenə intixabat barəsində

Tehran bu müamilədə qazana bilməz

İstemarçilarin təhdidi bizi tutduğumuz haqq yoldan qaytara bilməz. ya ölüm, ya azadliq, üçüncü yol yoxdur

Azərbaycan məclisi milli intixabatı münasibəti ilə milli heyətin bəyaniyyəsi

Xalq bizimlədir

Azərbaycanlı həmvətənlər

On min nəfərlik mitinq

Böyük işdən kiçik istifadə edənlərə nicat yoxdur

İza caə nəsrullah vəlfəth və rəyitinnas yədxolunə fiy diynillahi əfvacən

Xalq qayğısı işimizdə birinci yer tutmalıdır

Bara deyil böyük xəyanətin kiçik təzahüratındandır

Əziz həmvətənlər!

Buludlar çəkilir fəzalar işıqlanır

Qardaş qani tökülməsin

Məclisi Milli təşkili münasibətilə

Azərbaycan Heyət Milli Nümayəndələrin mərkəzi nümayəndəsi Ağayi Bəyat ilə mülaqat və müzakirələri

Mərkəzi Hökumət Nüməyəndəsi ilə aparılan danışıqlar haqqında

Azərbaycan Məclis Müəssisan Millisinin Bəyaniyyəsi

Azərbaycan Millətinə və Ümum İran Xalqına!

Məclis Milimizdən nə gözlənilir

Azərbaycan Məclis Millisində

Azərbaycan Milli Dövlətinin Tərkibi

Azərbaycan Milli Hökumətinin Proqramı

Azərbaycan Milli Dövlətinin Elamiyyəsi

Azərbaycan Məclisi Millisinin Daxili Nizamnaməsi

Azərbaycanın Daxili Dövlət Rəisi İlə Təbriz Padigani Fərmandehi Arasındakı Qərardadın Mətni

Təbriz Padigani Öz Əsləhəsini Yerə Qoydu

3-Cü Ləşgər Sərbazlarının qaçmağı və mütəvari olmağı

Dünən gecəki atışmalar

Azərbaycan Maarıf Vəzirinin Əmriyyəsi

Təbrizdə Azərbaycan Dövlət Darülfununi Təşkili Həqqində Azərbaycan Milli Hökumətinin Qərari

Dil haqqinda Azərbaycan Milli Hökumətinin Qərari

Yetim və Sahabsız Uşaqların Tərbiyəsi Həqqində Azərbaycan Milli Hökumətinin Qərari

Azərbaycan Milli Məclisinin Vilayətlər, Mahallar Və Bölük Əncümənləri Seçgisi Xüsusunda 13 nömrəli Qərarı

Azərbaycan Milli Məclisinin Bələdiyyə Seçgisi Xüsusundaki 14 nömrəli Qərarı

Azərbaycan Milli Hökumətının Qərari

Məclis millimizin rəyasət Heyətinə

Məclis Müəssisan və Qanun Əsası Haqqinda Məclis Millinin Təsvib Etdiyi Qanun Layihəsi

# Müqəddimə

Gündəlik ağır mübarizə vaxtında tarix yazmaq və ya ədəbi mövzular ilə məşğul olmaq müşkül bir işdir. Tarixi hadisələr barəsində açıq və aydın nəzəriyyə verib qabağa sürülən fikirləri dəlil və sübut ilə əsaslandırmaq iş və vaxt istir. Bunu əməli mübarizə dəryasında çırpınmaqda olan bir fədaidən gözləmək olmaz. Ona görə bu sətirləri oxuyanlardan xahiş edirəm yazdıqlarım haqqında qəzavət edərkən bu vəziyyəti nəzərdə tutsunlar. Mən bu sətirləri şöhrət və təzahür üçün yazmıram. «Azərbaycan» ruznaməsinin gündəlik şüмarələrini ürək döyüntüsü ilə təqib edib ona böyük ərziş qail olan dostlarımdan birisi dedi «yaz». Mən də böyük işlərdən vaxt oğurlayıb yorğun və əzgin dəqiqələrdə onun arzusunu əncam verdim. Məqsud millətimizin azadlığı yolunda apardığı mübarizələrdən nümunələr göstərməkdir. Onu olduğu kimi təsvir və tərsim etmək müvərrixlər, ədib və şairlərimizə tapşırmaq lazımdır. Bu onların milli və əxlaqi vəzifələridir. Bizim Firqəmiz dövlət vücuda gətirməklə məşqul olduğu üçün mən də başqa Firqə üzvləri kimi tarix yaratmaq işinə məşğulam. Qoy bizim vücuda gətirməkdə olduğumuz milli dövlətin tarixini müvərrixlər yazıb kağız üzərinə gətirsinlər. Biz o tarixi yaratmağa daha diqqət etməliyik.

Mən fəqət sadə bir dil ilə başlayıb deyə bilərəm ki, Azərbaycan xalqı özünün azadlıq mübarizəsini çox qədimdən başlamışdır. Bu mübarizə zaman və əsrlər təqazasına görə müxtəlif şəkillərdə zahir olub, müxtəlif şüarlar ilə təqib edilmişdir. Ola bilər ki, Azərbaycanın varlığını sübut edən hadisə və mübarizənin qəhramanlarından çoxusu aydın və açıq bir surətdə öz gördükləri işlərin məna və əhəmiyyətini dərk etməmişlər. Leykən onların götürdükləri qədəmlər xalqımızın varlığını və xüsusiyyətini isbat etmək üçün möhkəm dəlil və qəvi mədrək hesab oluna bilər. Birinci növbədə bir məsələni gərək aşkar surətdə bəyan etmək, o da Azərbaycanın fars dilinə olan nisbət və rabitəsidir. Mütəəsib fars yazıçı və müvərrixləri ağızları köpüklənmiş halda dad və fəryad salıb bizim fars olduğumuzu, indi danışdığımız dilin moğullar vasitəsilə bizə təhmil edildiyini isbat etmək istirlər. Biz moğullar və başqa fateh millətlər barəsində bəhs etmək istəsək böyük bir kitab yazmağa məcbur olarıq. Burada fəqət bu qədər demək lazımdır ki, Azərbaycan moğul istilası zamanında mütərəqqi və mütəməddin bir millət olduğu üçün qətən asanlıq ilə vəhşi qəbilələrdən ibarət olan o camaatın naqıs dilini qəbul etməzdi və az bir zamanda yabançı bir dil bir millətin içərisində elə rişə sala bilməzdi ki, onun əfradından bir nəfər də olsa qədim dilə aşina olmasın və ya o dildən taza dildə heç bir əsər və əlamət görülməsin. Ya zələzlədən ya vəlvələdən biləxrə Azərbaycanımızda öz milli dilimizdən başqa bir dil yoxdur. farsların bizə təhmil etmək istədikləri dil isə xoşbəxtanə pişrəft edə bilməmişdir. Dilimizin nüfuzu daha əzim və rüşdi daha dərindir. Onun tarixi isə avamfərib və mütəəssib fars yazıçılarının puç iddialarının xilafına olaraq çox da köhnə və qədimdir.

Kəsrəvi kimi boş boğazlar belə farsçılıq təblığatı apardıqları halda Azərbaycanın xüsusiyyətini etiraf etmək məcburiyyətində qalıb Azərbaycanda fars dilinin şaxəsi olan Azəri dilinin mərsum olduğunu iddia etməkdədirlər. Biz bu Azəri dilini də rəd etmirik. Demək qədim zamanlarda belə Azərbaycanlı dil cəhətindən xüsusiyyətə malik imiş. Bu sözün tarix yazan nəzərində böyük əhəmiyyəti vardır. Kəsrəvi və ya sair farsçılıq təbliğ edənlər tək qazıya getmiş, ona görə iddialarını həqiqət saymağa adət etmişlər. Vəli biz əsl həqiqəti açıb xalqa göstərməliyik. Əsl həqiqət isə budur ki, Azərbaycan heç vaxt fars dilini ana dili kimi

qəbul etməmiş, ondan ədəbiyyat və şer sahəsində çox az istifadə etmişdir. farslar bəzi Azərbaycan şairlərinin farsca yazdıqlarını bizim fars olduğumuza dəlil göstərirlər. Bu gülünc və kudəkanə bir işdir. Əgər bu iddiani qəbul etmiş olsaq bütün iranlıların Ərəb olduğunu qəbul etməliyik. Çünki Ərəb istilasından sonra minlərcə fars ədib, şair və mütəfəkkirləri öz əsərlərini Ərəb dilində yazıb intişar vermişlər. Qətən əsrimizin başlanğıcında belə Ərəbcə yazıb oxuya bilməyən iranlı savadsız hesab olunardı. Və indi də fars dili Ərəb ədəbiyyatının və Ərəb nüfuzunun əsarətində davam etməkdədir. Bu həqiqəti görə - görə beş - üç Azərbaycan şairinin farsca şer yazmasını dəlil göstərib Azərbaycanlıların fars olduqlarını sübut etməyə çalışanlar həqiqətən müğriz və cahil adamlardır.

Nizaminin fars dilində şer yazmasın onun farslığına dəlil göstərənlər, İbn Müqəffə, İbn Sina və sair fars filsoflarının Ərəbcə yazdıqlarına əcəba nə məna verə bilərlər ? Osmanlı sultanlarının yazdıqları fars şerlərini kimin hesabına yazmaq lazımdır ? Bu adamlar bir azca gözlərini açıb mövzuya diqqət ilə baxsalar, bu sözləri ağızlarına alıb danışamağı belə məsxərə hesab edərlər. Ədəbiyyat məxsusən şer heç vaxt milliyyət çərçivəsində qalmaz. Uzun müddət Fəransədə latin və yunan dilində yazılmayan əsərlər ədəbi hesab edilməzdi. Rus şair və ədiblərindən bəzi əsərlərini firəng dilində yazanlar olmuşdur. Böyük alman şahı Fredrikin firəng dilində şer yazması və onun böyük firəng yazıçısı Volter ilə olan mühasibatı əfsanə deyildir. Əfsus ki, gündəlik cari mübarizə icazə vermir, vəilla şairlərimizin yazdıqları fars şerləri məxsusən Saeb Təbrizi və Nizaminin şerlərini onların farslığına dəlil göstərənlərə deməli söz və diş sındıran cavablarımız çoxdur.

farsçılar Nizamini mənimsəmək üçün onun « Qum»lu olduğunu isbat etməyə çalışırlar. Bu əhməqanə bir işdir. Onlar bu iddia ilə demək istirlər ki. Azərbaycanlı fars deyilimiş və Nizami Qumdan köçüb gəncəyə getmiş, orada yəni Azərbaycan dili danışan Gəncəlilər arasında öz ana dilində yəni farsca şer yazmişdir, biz bu yalan iddiadan doğru istifadə edib ona Azərbaycanlıların hətta Nizami zamanında belə fars olmadıqlarına farsların etiraf etdiyi kimi baxırıq. Amma Nizami isə fars deyil xalis Azərbaycanlı imiş. O Gəncədə doğulub orada fovt etmişdir. Xəmsənin təsvir etdiyi dağlar, dərələr, çəmənlər və Nizaminin şerini təzyin edən güllər, çiçəklər hamısı gözəl Azərbaycan mühitinin məhsuludur. Mütəəssifanə o vaxt saraylarda fars ədəbiyyatına qimət verildiyi üçün Azərbaycan şairi öz şerlərini o dildə yazmaq məcburiyyətində qalmişdir. Nizaminin farsca şer yazması Kəsrəvinin özünə məxsus fars dili vücuda gətirməsi və mənim «Ajir» ruznaməsi vasitəsilə yaratdığım taza fars şivəsinə oxşayan bir hadisə dir.

Təsəvvür etmirəm Kəsrəvi otuz il Tehranda yaşadığı halda ləhcəsini təğyir verib xalis farslar kimi danışa bilsin, onun Hökmavar ləhcəsi zahirə çıxmasın. Öz barəmədə isə danışmaq istəmirəm. Xülasə fars dili bilib farsca şer yazmaq farslıq deyildir.

Taza fars nəsrinin müəssisləri içərisində Mirzə Mülkim xan böyük yer tutur, o isə bir nəfər Erməni dir. Azərbaycan adı taza ad deyildir. Azərbaycanlıların da fars olmamaları da tarixdə isbat edilmiş bir hadisə dir. Azərbaycan xalqı isə neçə min illik istila və əsarətə baxmayaraq hərgiz özünün xüsusiyyətini əldən verməyib İran imperatorluğu Ərəblərin böyük və müqtədir xəlifələrinin qəddar təsəllütü vaxtında belə tufanlı dəryalar arasından baş qaldıran sınmaz və sındırılmaz qayalar kimi möhkəm dayanıb, onun poladdan daha bərk sinəsi hər tərəfdən üzərinə hücum edən dəhşətli ləpələri sındırıb dağıtmış və zamanımızadək öz mövcudiyyətini saxlamağa müvəffəq olmuşdur. Firdovsinin Şəhnaməsində nəzərimizi cəlb edən İran sərkərdəsi Rüstəmin Ərəb həmləsi münasibətilə yazdığı tarixi məktub xalqımızın qəhramanlıq və şərəfini sübut etmək üçün qiymətli bir mədrəkdir. Firdovsi Rüstəmin dilindən şahı məğlub olduqda azad və mərd insanlar məskəni olan Azərabadgana pənahəndə olmağa tərğib edir. Ona tac və taxtın fəqət bu vasitə ilə saxlanıla biləcəyinə ümid bağladığını göstərir. Bu təsadüfi və ittifaqi bir vəsiyyətnamə deyildir. Onun səbəbini Azərbaycanın milli varlığında aramalı dir. Görünür min il bundan əvvəl belə Azərbaycanın İran

imperatorluğunda özünə məxsus mövqeyi var imiş və ora azadələr məskəni hesab olub onun xalqının mərd xasiyyətlərinə böyük İran sərkərdəsi inanıb bel bağlamış imiş. Təəssüb batlağında qərq olmuş fars müvərrixləri isə həmin xüsusiyyətlərdən qorxuya düşüb onu ortadan aparmaq üçün qərnlər boyu gizli və açıq mübarizədən bir an qəflət etməmişlər. Vəli həqiqəti əbədi olaraq ört - basdır etmək olmaz. Vətənmiz öz ağuşi məhəbbətində bəslədiyi böyük simalar vasitəsilə işıqlı günəş kimi övham və xurafat buludları arasından öz adını dünyaya göstərib, öz vücudunu aləmə tanıtdırmışdır. Zərdüştün böyük adını Azərbaycan namından ayrı salmağa heç bir müvərrix müvəffəq ola bilmə mişdir. fars müvərrixləri isə naçarlıqdan bu Azərbaycan dahisinin vücudunu Azərbaycanın irandan ayrılmaz cüz olmasına dəlil göstərirlər. Əvvələn dünyada ayrılmaz cüz yoxdur, elm və təməddün, gözü ilə görülməsi qeyr mümkün olan zərrəni, atomi belə təcziyə etməyə və ondan böyük müdhiş qüvvələr yaratmağa müvəffəq olmuşdur. Azərbaycan dahisi Zərdüştün bütün İranda intişar verdiyi əsaslar onun qeyr Azərbaycanlı və ya fars olmasına dəlil ola bilməz. Bunu biz qəbul edərsək həzrəti Məhəmmədin bir iranlı olduğunu qəbul etməliyik. Çünkü onun təlim etdiyi üsul da İranda əsrimizə qədər davam etməkdə dir. Zərdüştün təlim etdiyi əsas həqiqətən Azərbaycanın xüsusiyyətindən tovlid olmuş fikirlərin üzründə qurulmuşdur. Azərbaycanlı ziraət, bağbanlıq və zəhmət sayəsində öz həyatını təmin etməyə məcburdur. Onun torpağı və abhavası insanlari çalışmağa vadar edir. Zərdüşt zamanınadək Hind yolu ilə irana sirayət etmiş əqayid isə murtazlıq, laübalilıq (Nirvana ), fənafillahi tərğib edən Bərəhmən və Buda məzhəbi üzərində imiş. Bu isə Azərbaycanlıların həyatına uyğun gələ bilməzdi.

Ona görə Zərdüştün fəaliyyət və zəhmət təşviq edən məzhəbi bərqasa bir sürətlə Azərbaycanda sonra İranda intişar tapıb Hindin irfan (mistizm) və laübalilığa təşviq edən fəlsəfəsini sürüb ortadan çıxarmışdır. Əsrimizdə isə Azərbaycanlılar öz bənliklərin sübut etmək üçün böyük işlərə iqdam edib, böyük fədakarlıqlar göstərmişlər. Tehran Hökumətinin Təbriz şəhərini ikinci paytaxt hesab edib oranı vəliyəhdənişin qərar verdiyinə baxmayaraq Azərbaycan iyirminci əsərdə Tehranın istibdad pəncəsindən xilas olmaq üçün həmişə mübarizə aparmış heç vaxt oradan razı qalmamışdır.

Məşrutə inqilabında Azərbaycan milli qəhramanlarının göstərdikləri fəaliyyət və onların Tehrana çəkilib xainanə bir surətdə öldürülmələri təsadüfi bir iş deyildir. Azərbaycanda milli bir hökumət vücuda gətirib Tehran hökumətinə dirsək göstərən Şeyx Məhəmməd Xiyabaninin fəci bir surətdə qətl edilib onun qatili olan hacı Müxbirülsəltənənin salam və salavat ilə məclis nümayəndəliyinə qəbul edilməsi və onun Pəhləvi dövrəsində uzun müddət dövlət risi olması da inkar edilə bilməyən bir həqiqətdir. Bunlardan əlavə yüzlərlə Azərbaycan azadixah cavanlarını Qəsr Qəcər zindanında və cənubun cəhənnəmində daha pis abhavaya malik olan şəhərlərində vəhşiyanə bir surətdə məhv və nabud edilmələrini də sadə bir hadisə hesab etmək olmaz. Bunların hamısı Azərbaycanın xüsusiyyətini və onun Tehran ilə apardığı təbii mübarizəsini göstərir.

Şəhrivərdən sonra bu fikir daha aydın bir surətdə meydana çıxmışdı. Azadixahlarımızın on üçüncü məclis nümayəndələrini uzun müddət qəbul etməmələri və Fəhim əl Mülkün valiliyi zamani əncümən əyaləti və vilayətinin təşkil edilməsi haqqında Azərbaycan millət pərəsətlərinin iqdamatı nəticəsiz qalmış olsa belə xalqın milli azadlıq təmayülünə böyük bir dəlildir.

Bunların hamısı ilə belə 1324 cü il Şəhrivər ayının 12 sində müntəşir olan Firqə bəyannaməsi ilə dir ki, Azərbaycan xalqiələni və aşkar bir surətdə öz milli haqqını almağa tam mənasi ilə bir millət kimi qiyam etmişdir. O tarixdən də Firqə, Hökumət və Millətimizin dili və naşır əfkari olan « Azərbaycan» qəzetəsi intişara başlamışdır.

Beş aydan artıq tarixə malik olmayan bu qəzetə Firqə, Hökumət və Millətimizin quruluşu tarixi üçün ən böyük mədrək və ən rovşən bir ayna hesab oluna bilər. Oxucu onda Firqənin qədəm - bəqədəm irəli getdiyini və düşmənlər əleyhinə işlətdiyi şədid silahı aydın və açıq bir surətdə görə bilər.

Firqə müəssislərinin vəzifələri siyasi təşkilatların birləşməsi haqqında görülən tədbirlər nəhayət Firqə konfransı, Firqə konqrəsi, məhəllərdə Firqə müəssislərinin Firqə nizamnaməsi üzrə təşkil edilməsi, sonra böyük xalq mitinqlərindən doğan Məclisi Müəssisan (Milli Konqrə), onun təsvibi nəticəsində vücuda gələn Heyəti Milli (Müvəqqəti Hökumət), Məclisi Milli və Milli Hökumət barəsində qəzetimizin səhifələrinə canlı izlər və diri hislər zəxirə edilmişdir.

Jandarm cəlladlarının kəndlilərin başına gətirdikləri müsibətlər Tehran mürtəcelərinin barmağı ilə azadlıq hərəkatımızı ləkədar etməyə çalışan satılmış və alçaq daxıli milli düşmənlərin hərəkati Tehran dövlətini də Tehranda intişar tapan vərəqparaların qiyluqali əleyhinə aparılan birəhmanə mübarizə də qəzetimizin səhifələrində daha aydın bir surətdə inikas tapmişdir.

Bununla belə etiraf etmək lazımdır ki, milli mübarizəmiz əməldə böyük nəticələrə və böyük müvəffəqiyyətlərə müntəhi olduğu halda bu nəticələr barəsində nəinki Azərbaycanın xaricində bəlkə daxilində belə xalqa geniş məlumat vermək mümkün olmamışdır. İstibdad rejiminin yaratdığı şərait cəhətindən Azərbaycan qəzetəsi öz vaxtında xalqın əlinə çatmamışdır. Ona görə müasir adamlar belə gördüyümüz işlər və götürdüyümüz qiymətli qədəmlərin tarixi əhəmiyyətini dərk edə bilməmişlər.

12 Şəhrivər tarixli Firqə bəyannaməsi, birinci Firqə konqrəsinin təsvib etdiyi məramnamə, məclisi müəssisanımızın qəbul etdiyi qərarlar və demokratik dövlətlərə göndərdiyi rəsmi elamiyyə, nəhayət Məclisi Millimizin nizamnaməsi ilə onun vücuda gətirdiyi Milli Dövlət bərnaməsi, Firqəmizin gördüyü işləri sistematik bir surətdə təsvir edən sənədlərdir. Bu sənədlərin hamısı qəzetəmizin səhifələrində münəkis olduğu üçün, onun dövrəsi fövqəladə qiymətli bir kitab hesab olunacaqdır. Bu kitab gələcək nəsil üçün daha qimətli olduğunu nəzərdə tutub, onun tez bir zamanda toplanıb yenidən çap edilməsi lüzumunu Firqə tarixinə əlaqəmənd olanlar nəzərdə tutmalıdırlar.

Bu xüsusda bu risaləni nəşr edənlərin götürdükləri qədəm və gördükləri iş fövqəladə qiymətli bir işdir. Hətta demək gəlir ki, Firqə əsnadı və Azərbaycan qəzetəsinin əsas məqalələrindən toplanılan bu risalə qəzetənin dövrəsindən daha faydalı olacaqdır. Çünki burada ən lazımlı və ən mühüm mədrəklər gülçin edilib oxucuların ixtiyarında qoyulmasi ilə onların zəhmətləri azalmış, az savadalı oxucular üçün mətləbi seçmək və mövzunun əhəmiyyəti dərk etmək işkalı da bu vasitə ilə ortadan qaldırılmışdır.

Artıq Firqə, Hökumət, hətta Millətimizin mübarizə tarixi ilə aşina olmaq və gördüyümüz iş və yazdığımız mədrəklərin mənasını anlamaq istəyənlər bu risalədən böyük faydalar aparacaqlar. Bu isə risaləni vücuda gətirənlərin Milli hərəkatımıza böyük xidmət göstərdiklərini və onların bu hərəkata ürəkdən bağlı olduqlarını göstərir.

Xalqımız isə bu kimi təşəbbüsləri alqışlayıb onlara iqdam edənləri təşviq etməlidir.

**C. Pişəvəri  Təbriz - 14 bəhmən 1324, 3 fevral 1946**

# Azərbaycan Demokrat Firqəsinin Müraciətnaməsi

Aşkardır ki, dünya ölkələrində yaşayanlar çoxlu tarixi illət və səbəblərə görə vahid bir halda deyildirlər. Hər bir məmləkətin sərhəddi çərçivəsi arasında yaşayan qovm, qəbilə və millətlər dil, adət, rəsm və adab cəhətdən bir çox xüsusiyyətlərə malıkdırlər ki, əgər hər məmləkətin idarə və dövlət quruluşunda bu xüsusiyyətlər nəzərdə tutulmazsa, orada həqiqi demokrasi və milli hökumət imkanpəzir ola bilməz.

Əgər dünyanın böyük və mütərrəqi ölkələrini nəzərdə tutub milli hökumətlərin nailiyyətlərinin səbəblərini axtarsaq təsdiq etməliyik ki, bunların hamısı o əlaqə və təvəccöhə bağlıdır ki, millətlərin və tayfaların xüsusiyyətlərinə ətf edilmişdir.

Bizim bu iddiamızın canlı və böyük şahidi Amerika Birləşmiş Cümhuriyyətləri və Birləşmiş Sovet Cümhuriyyətləri və həmçinin Süvis dövlət quruluşudur.

Bu klassik demokrasi ölkələrdə milli ixtiyarat və fedrasiyon üsulunu gözləməklə millətlərin tam fərdləri məmləkətin müqəddəratını həll etmək və dövlət işlərində müdaxilə etməyə müvəffəq olmuşlar.

Puç və çürük iddiadır ki, deyirlər: məhəlli ixtiyarat və fedrasiyon üsulu mərkəziyyəti xələldar edə bilər. Amma bunun əksinə olaraq təcrübə sabit etmişdir ki, qəbilələr, millətlər və mərkəzdən xaricdə yaşayan əhalinin hər qədər müstəqil və sərbəst surətdə dövlət işlərinə müdaxilə və şirkətləri təmin edilərsə o nisbətdə onların vətənə əlaqə və məhəbbətləri artıq və möhkəm ola bilər. Bu mülahizə ilə və bu külli əslin üzərində dir ki, məşrutəxahlıq cərəyanını vücuda gətirənlər və İran qanun əsasisini yazanlar əyalət və vilayət əncümənlərini irəli çəkib çalışmışlar ki, bu vasitə ilə ümum İran xalqını məmləkətin müqəddəratını təyin etməkdə şərik etsinlər, əyalət və vilayətlərin məxsus ehtiyaclarını onların əhalisi vasitəsilə rəf etməyə çalışsınlar.

**Əyalət və vilayət əncümənlərinin sükut ilə keçirilməsi İran millətlərinin ictimai hüquqdan məhrum edilməsi deməkdir.**

Qətiyyən bürokrasi rejimi və mənasız mərkəziyyət vasitəsi ilə dir ki, İran məmləkəti bir ovuc fasid, oğru və istifadəçi ünsürlərin əlində oyuncaq olmuş və bu səbəb ilə tərəqqi və təkamül karvanından fərsəxlər ilə dalda qalmışdır və qətən nəhs bürokrasi rejiminin səbəbi ilə dir ki, iranlıların əksəri ictimai hüquqdan məhrum, məşrutiyyət və milli hökumətə bədbin olub İranı gələcəyinə məyusluq və ümidsizlik gözü ilə baxırlar.

İnkar etmək olmaz ki. bu gün bizim məmləkətimizdə milli hökumət və məşrutədən əsər qalmamışdır. İran dövləti əməldə iradəsiz və pozucu bir maşın halına düşmüşdür ki, onun başında duranlar xalqı qarət etməkdən başqa bir məqsəd və məqsud təqib etmirlər. Tamam fəsad, tamam bədbəxtliklər və tamam fəlakət, idbar buradan rişələnmişdir. Dərəbəylik üsulunun qüvvətlənməsi, diktator və diktatorpərəstlərin tapılması bu müzəxrəf və faydasız üsulun nəticəsidir ki, dörd - beş nəfər çürümüş rical güc ilə İran camaatına təhmil etmişlərdir.

Əgər İranda yaşayan ellər, millətlər, xalqlar məmləkətin ıstıqlalını gözləməklə bərabər öz yerlərində və öz hüdudlarında azad və muxtar olsaydılar və bacarsaydılar məmləkətin ümumi və külli qanunlarını gözləməklə bərabər öz müqəddəratını, özlərinin meyl və iradələri ilə təyin etsinlər, əgər onların haqları olsaydı özlərinin mədəni, iqtisadi və siyasi cəhətdən tərəqqiləri uğrunda öz əlləri ilə namünasib qeyd və şərtsiz çalışsaydılar, İranın vəziyyəti bu hala düşməz, məşrutə və qanun əsasi ki, hədsiz və saysız qurbanlar verməklə ələ gəlmişdir, əsərsiz qalmazdı. buna görə əgər bu üsul min illər davam edərsə mümkün deyil İran xalqı fəqir,

nikbət və biçarəlik dəryasından nicat tapıb tərəqqi və təkamül yoluna qədəm qoya bilsin və müstəbid, xunxar və biatifə ünsürlərin əlindən nicat tapmağa müvəffəq olsun. Əgər bu mənhus üsul baqi qalarsa siyasi firqələr və sair demokratik sazmanlardan hətta kiçik faydalar belə hasil olmayacaqdır. Liza ayrı bir çarə yoxdur, çox tez bir surətdə gərək qanun əsasinin icra və təkmili yolunda ciddən işə başlayıb milli hökumətin əməli edilməsini aşağıdan, yəni xalq içindən və camaatın geniş tudələrinin ehtiyacı üzərindən əyalət və vilayətdə yaşayan xalqların xüsusiyyətləri payəsindən qurmaq. Məhəlli ixtiyarat və fedrasiyon üsulunun səthi və sadə şəkli olan əyalət və vilayət əncümənləri taza bir fikir deyildir. Müasir və mütərəqqi ölkələrdən əlavə qədim tarixi və böyük məmləkətlərdə belə naçar olmuşlar ki, xalqın və millətlərin xüsusiyyətini nəzərdə tutub onların əllərini öz daxili işlərində açıq qoysunlar.

Böyük Daryuşun məmləkət təqsimatı fəqət və fəqət bu təbii ehtiyac üzərində vücuda gəlmişdi. Qədim İranın satrapnişinlikləri bugünkü fedrasiyon və xudmuxtarlıq (avtonomi) üsulunun ibtidai şəkilindən başqa bir şey deyildir. Hənuz İranda mərsum olan şahənşahlıq ünvanının bundan başqa bir təbir və təfsiri yoxdur.

Mərkəziyyəti əgər diktatorluq və xüdsərlik və zurguluqdan ötrü saxlamaq istəsək başqa bir sözdür və əgər istəsək onu məmləkətin mərkəziyyəti və demokrasi hökumətin başda duranı tanıyaq, o vaxt məcburuq o əyalət və vilayətlərin ki, qəvi milli və mədəni xüsusiyyətləri vardır, onlara icazə verək öz daxili işlərində azad və muxtar olsunlar ki, bu vəsilə ilə mərkəzlə mənəvi rabitə qüvvətlənə bilsin.

Vəqta ki, biz Azərbaycanın xüsusiyyətindən bəhs edirik və deyirik ki, bu geniş torpaqda dörd milyon yarım Azərbaycanlı yaşayır və bu camaatın dil, adab və rüsum cəhətindən İranın başqa əyalətləri ilə böyük fərqi vardır. vəqta ki, biz istəyərik bu xalq öz fərhəngi işlərində və öz torpağının abadlığında dəxalət etsin, hərgiz mərkəziyyətin əleyhinə olmayıb, bəlkə onun qüvvətlənməsinə çalışmış oluruq.

Bəzi qısa fikirli adamlar xəyal edirlər ki, zor ilə, o da çomaq və hov - cəncal gücü ilə bir xalqın dilini, xüsusiyyatını, adab və rüsumunu ortadan aparmaq mümkündür. Bu xam xəyal ilə onlar səy edirlər əşxası vadar və məcbur etsinlər ki, hətta Azərbaycanın uzaq kəndlərində belə öz ana dilindən başqa bir dil bilməyən kəndçilər üçün fars dilində danışsınlar. Bunlar təsəvvür edirlər ki, İran xalqını aldatmaq üçün yaratdıqları milli vəhdət sözü fəqət libasları və dilləri məsnui surətdə birləşdirmək vasitəsilə mümkün olacaqdır. Bunlar bilmirlər ki, dilin rişəsi anaların sinəsindən və xalqın adab və rüsumu ocaqlar başından qalxır. Nə qədər analar diri və ocaqlar yanmaqdadır, bir xalqın dilini və adab rüsumunu əvəz etmək mümkün olan işlərdən deyildir. Milli birlik o vaxt müyəssər ola bilər ki, xalqın hamısı öz xüsusiyyatını və daxili azadlığını saxlamaqla tərəqqi edib bir - birilə müsavi ola bilsin.

Azərbaycan xalqı mərkəzin çürümüş və kəsif ricalının siyasəti sayəsində özünün istedad, qabiliyyət və zəkasına baxmayaraq hər qism azadlıq və ixtiyardan məhrum edilmişdir. Onun oğullarının öz ana dilində təhsil etmək imkanları olmamışdır.

Onun ziyalıları xalqın fərhəng, behdaşt və sair ehtiyaclarını rəf etmək üçün heç bir haqq və ixtiyara malik deyildir.

Onlar öz ana yurdlarında və özlərinin qızıl törədən torpaqlarında fəqir və biçarəlik halında yabançılar və əsirlər kimi yoxsul halda yaşamaqdadırlar. Onun şəxsiyyətini, dilini və milliyyətini hər an tovhin və təhqir etməkdədirlər. Riza xanın şum siyasətinin mümsili və mərkəzi dövlətin rəsmi nümayəndəsi bəlkə Azərbaycan xalqı düşmənlərinin nümunəsi olan Əbdullah Müstofinin vəhnavər və təhqiredici sözləri bayquş səsi kimi hənuz Azərbaycan xalqının qulaqlarında təninəndazdır. Bir müəyyən iddədən başqa bütün Azərbaycan xalqı özlərinin adına, şöhrtinə, miliyyətinə şədid bir surətdə əlaqəmənddir. Bunlar həmişə səy

etmişlər ki, Azərbaycanın azadlığı və səadəti və bununla bərabər bütün İranın azadlıq və səadəti uğrunda ciddən canfəşanlıq etsinlər.

Biz mətləbin uzanmasını nəzərdə tutub Azərbaycanı müşəşə tarixindən bəhs etmək istəmirik. Bu xalqın mənşəyi və babalarının (qəyur Medilərin) böyük bir dövlət təşkil edib uzun illərcə müstəqil siyasi həyat sürdüklərini də irəli çəkməyirik. Səfəvi sultanlarının Azərbaycan oğullarından təşkil etdiyi qızılbaş ordusunun bu günkü İranı təşkilində gördükləri böyük işlər və göstərdikləri böyük qəhrmanlıqlardan da bəhs etmirik, hətta İranı və Azərbaycanın məşrutə cərəyanında Səttarxanın bayrağı altında fədakarlıq göstərən Azərbaycan mücahidlərinin fəaliyyətlərini də ayrı mövqeyə saxlayırıq.

Şeyx Məhəmməd Xiyabaninin azadlıq uğrunda başladığı qiyamı və bundan sonra meydana çıxan bütün qiyamlar və azadixahlıq hərəkətlərini də şərh verə bilməyəcəyik. Biz deyirik: Azərbaycan torpağında dörd milyonluq bir xalq yaşayır ki, onlar özlərinin qovmiyyətlərini təşxis vermişlər, özlərinə məxsus dilləri və ayrı bir adab rüsumları vardır. Bu xalq deyir ki, biz istəyirik ki, İranın istiqlaliyyətini və tamamiyyətini hifz etməklə bərabər öz daxili işlərimizi idarə etməkdə muxtar və azad olaq, edə bilək ki. öz evimizi öz meyl və iradəmizlə idarə edək və milli, məhəlli ehtiyaclarımızı öz gücümüzlə rəf edək.

Azərbaycan deyir: Təhran bizim dərdimizə yetişmir və bizim ehtiyaclarımızı təşxis verib çarə etməkdən acizdir. Bizim fərhəngimizin tərəqqisindən cilovgirlik edir. Bizim ana dilimizi təhqir edib başqa vətəndaşlarımız kimi sərbəst yaşamağa yol vermir. Bununla belə biz oradan rabitə mizi kəsmək iddiasında deyilik. Məmləkətimizin külli və ümumi qanunlarına itaət edəcəyik. Məclis Şurai Milidə və mərkəzi hökumətdə dəxalət və şirkət etməliyik. fars dilinin dövlət dili olmaq şərti ilə milli mədrsələrimizdə öz dilmiz ilə bərabər tədris etməyə imkan verəcəyik. Amma bunların hamısı ilə bərabər özümüz üçün bu haqqa qailik ki, gərək öz evimizin sahibi və ixtiyardarı olub, onu öz səliqəmizlə idarə etmək imkanına malik olaq.

Necə ki, yuxarıda dedik biz taza bir iş başlamamışıq, illərdən bəri dir ki, minlərcə Azərbaycan azadixahları və mütəfəkkirləri münfərid və dəstəcəmi bir surətdə bu müqəddəs fikir və ali məqsəd yolunda ki, Azərbaycanın və İranın həqiqi azadlıq və ıstıqlalının payası gərək onun üzərində qurulsun, mübarizə etmiş gizlin və açıq surətdə Azərbaycanlıları fərhəng azadlığı və xudmuxtarlıq üçün mübarizəyə dəvət etmişlər.

İndi ki, demokrasi məmləkətlərin qəhrəman cavanlarının mübarizəsi sayəsində faşizmin əsasi yıxılmış və millətlərin başqa millətlər üzərində ağalıq nəzəriyyəsinin puç bir iddia olduğu isbata yetmiş və bütün dünya millətlərinin sərbəst bir surətdə öz müqəddəratını təyin etmələri mənşurlar və peymanlar vasitəsilə elan olunmuşdur, bu halda Azərbaycan xalqı və Azərbaycan azadixahlari təbiidir ki, münfərid və mütəfərriqə halında azadlıq mübarizələrini idamə verə bilməzlərdi, ona görə lazım gəlirdi, bu mübarizəyə rəhbərlik etmək üçün möhkəm və münəzzəm bir firqə təşkilatı vücuda gəlsin. Azərbaycan Demokrat Firqəsi bu ehtiyacdan doğulmuş bir təşkilatdır. O təşkilat bütün demokratik və azadixah şəxsləri öz sırasına dəvət etməklə bir milli mərkəzi siql vücuda gətirəcək, Azərbaycan xalqını azadlıq hədəfinə doğru sövq edəcəkdir və bu vasitə ilə İran millətinin tərəqqi və təkamül yolunu açacaqdır.

Əlbəttə bu firqənin proqram və əsasnaməsi çox tezliklə konqrə tərəfindən təsvib və xalq arasında intişar tapacaqdır. Bununla bərabər Müəssislər Heyəti bu vasitə ilə firqənin əsasi nəzərini ümum xalqa elam etməklə onları öz sıralarına çağırmağa başlamışdır.

**Əziz həmvətənlər !** Budur, böyük tarixi mübarizə dövrü başlanır Azərbaycan Demokrat Firqəsi təbəqə və sinif fərqini nəzərdə tutmayaraq öz təşkilatında üzv olmağa və müqəddəs milli mübarizədə şirkət etməyə çağırır.

Bu firqənin qapıları, oğrular və xainlərdən başqa ümum Azərbaycan xalqının üzünə açıqdır. Hər kəs bizim şüarlarımızı və məqsədlərimizi qəbul edərəsə çox tezliklə özünü firqə təşkilatına üzv yazdırmalı və Azərbaycanın və ümum İranın azadlıq ələmdarının sırasına daxil olmalıdır.

# Bizim Şüarlarımız Bunlardır

1- İranın istiqlal və təmamiyyətini saxlamaqla bərabər Azərbaycan xəlqinə daxili azadlıq və mədəni muxtariyət verilməlidir ki, edə bilsin özünün fərhəngi yolunda və Azərbaycanın abadlaşması və tərəqqisi üçün ümum məmləkətin adilanə qanunlarını gözləməklə bərabər öz sərniviştını təyin etsin.

2- Bu mənzuru həyata keçirmək üçün çox tezliklə Əyalət və Vilayət Əncümənlərini intixab edib işə başlamalıdır. Bu əncümənlər fərhəngi, behdaştı və iqtisad sahəsində fəaliyət göstərməklə bərabər qanun əsası mucibincə təmam dövlət işçilərinin əməliyatını təftiş edib onların təğyir və təbdilində izhar nəzər edəcəkdir.

3- Azərbaycanın ibtidayi məktəblərində üç kilasa qədər dərslər fəqət Azərbaycan dilində aparılmalıdır və üç kilasdan yuxarı dövlət dili olmaq üzrə fars dili də Azərbaycan dili ilə yanaşı tədris edilməlidir. Azərbaycanda milli darulfununun təşkili Demokrat Firqəsinin əsas məqsədlərindən biridir.

4- Azərbaycan Demokrat Firqəsi sənaye və fabrikaların genişlənməsinə ciddi çalışacaq və səy edəcək ki, mövcud fabrikaları təkmil etməklə bərabər işsizliyi rəf etmək üçün, əl və maşın sənayeini genişləndirmək üçün vəsilələr yaradıb taza fabrikalar vicuda gətirsin.

5- Ticarətin genişlnməsini, Azərbaycan Demokrat Firqəsi çox lazim və ciddi məsələlərdən hesab edir. Bu günə qədər ticarət yollarının bağlı qallması çoxlu kəndlilərin, məxsusən bağdarların və xırda maliklərin sərvətlərinin əllərindən çıxmasına və onların dilənçi halına düşməsinə səbəb olmuşdur.

Bunun qabağını almaq məqsədi ilə Demokrat Firqəsi bazar tapmaq və Azərbaycan əmtiələrinin xaricə çıxarılması üçün tranzit yolları axtarmaq işinə ciddi iqdam etməyi və bu vəsilə ilə ümumi sərvətin nüqsanının qabağını almasını nəzərdə tutmuşdur.

6 - Demokrat Firqəsinin əsas məqsədlərindən biri də Azərbaycan şəhərlərinin abadlaşmasıdır. Bu məqsuda çatmaq üçün Firqə səy edəcək ki, çox tezliklə şəhər əncümənlərinin qanunu təğyir tapıb şəhər əhalisinə müstəqil bir surətdə şəhərin abadlığına çalışıb onları abırumənd və müasir hala salmağa imkan verilsin. Məxsusən Təbriz şəhərinin su ilə təmin edilməsi Azərbaycan Demokrat Firqəsinin çox fövri- cari məsələlərindəndir.

7 - Azərbaycan Demokrat Firqəsinin müəssisləri gözəl bilirlər ki, məmləkətin sərvət tovlid edəni və iqtisadi qüvvəsi kəndlilərin qüvətli qoludur. Ona görə bu Firqə edə bilənməz ki, kəndçilər arasında vicuda gələn hərəkəti nəzərə almasın. Buna görə də Firqə səy edəcəkdir ki, kəndlilərin ehtiyaclarını təmin etmək üçün əsaslı qədəmlər götürülsün. Məxsusən kəndli ilə ərbabların arasında müəyyən bir hüdud təyin etmək və bəzi ərbablar tərəfindən ixtira edilmiş qeyri- qanuni vergilərin qabağın almaq Demokrat Firqəsinin fövrı vəzifələrindəndir.

Firqə səy edəcək bu məsələ elə bir surətdə həll edilsin ki, həm kəndlilər razı qalsın və həmdə maliklər özlərinin gələcəyindən itminan hasıl edib, rəğbətlə kəndlərinin və öz məmləkətlərinin abadlığına çalışsınlar.

Xalisə yerləri və Azərbaycanı tərk edib qaçan və Azərbaycan xəlqinin zəhmətlərinin məhsulunu Tehranda və sayir şəhərlərdə məsrəf edən ərbabların yerləri, əgər tezlik ilə Azərbaycana müraciət etməsələr, Demokrat Firqəsinin əsasnaməsinə müvafiq olaraq kəndlilərin ixtiyarına verilməlidir. Biz özlərinin eyş və nuşundan ötəri Azərbaycanın sərvətini xaricə aparanları Azərbaycanlı hesab etmirik. Əgər onlar Azərbaycana qayıtmaqdan imtina etsələr, onlar üçün Azərbaycanda bir haq qail dəyilik. Bundan əlavə Firqə çalışacaq ki, çox səhl və sadə bir surətdə Azərbaycan kəndlilərinin əksəriyətini torpaq və əkin aletleri cəhətdən təmin etsin.

8 - Demokrat Firqəsinin mühüm vəzifələrindən biri də işsizliklə mübarizə etməkdir. İndidən bu xətər çox ciddi bir surətdə özünü göstərməkde dir.

Gələcəkdə bu sel gündən - günə qüvətlənəcəkdir. Mərkəzi dövlət və məhəlli məmurlar tərəfindən bu xüsusda heç bir iş görülməmişdir. Əgər iş bu minval ilə davam edərsə, Azərbaycan xəlqinin əksəriyəti fəna bir hala düşməyə məhkumdur. Firqə çalışır bu xətərin qabağını almaq üçün ciddi tədbirlər görülsün. Hələlik fabrikaların təsisi, ticarətin genişlənməsi, əkinçi təşkilatlarının təsis edilməsi, dəmir və şosa yolların çəkilməsi kimi tədbirlər, mümkündür bir qədər faydalı olsun.

9- İntixabat qanununda Azərbaycanın həqqində böyük zülm edilmişdir. Dəqiq iltilaata görə bu ölkədə dörd miliondan yuxarı Azərbaycanlı yaşamaqdadır. Bu qeyri adilanə qanun mucibincə Azərbaycana məclis- şovrai millidə, 20- vəkil yeri verilmişdir. Bu qətiyyən mütənasib bir bölgü dəyildir. Azərbaycan Demokrat Firqəsi səy edəcək Azərbaycan nüfusuna nisbət vəkil intixab etmə həqqi olsun. Bu təqəribən məclis nüməyəndələrinin üçdə birini təşkil edə bilər.

Azərbaycan Demokrat Firqəsi məclis intixabatının mütləqən azad olması tərəfdarıdır. O, dövlət işçilərinin daxili və xarici, həmçinin pulluların qorxutmaq və aldatmaq yolu ilə intixabat işınə qarışmalarına ciddən müxalifət edəcəkdir. İntixabat gərək təmam- İranda ani- vahiddə başlanıb, çox səri bir surətdə qurtarsın.

10- Azərbaycan Demokrat Firqəsi fasıd, müxtəlis və rüşvə alan şəxslər ilə ki dövlət idarələrinə soxulmuşlar, ciddi mübarizə edəcək və dövlət məmurları arasında saleh və dürüstkar şəxslərdən qədirdanlıq edəcək. Məxsusən Firqə çalışacaq onların maaşları və zindəganlıq şəraitləri elə islah olsun ki, onlar üçün oğurluq və xəyanət etməyə bahana qalmasın, onlar eliyə bilsinlər ki, özləri üçün abırlı həyat vicuda gətirsinlər.

11- Demokrat Firqəsi səy edəcək Azərbaycanda alınan vergilərin yarısından yuxarısı Azərbaycanın öz ehtiyaclarına sərf edilsin və qeyri- müstəqim vergilər ciddi surətdə azalsın.

12- Azərbaycan Demokrat Firqəsi bütün demokratik dövlətlər, məxsusən müttəfiqlərlə dostluq saxlamaq tərəfdarıdır və bu dostluğu davam etdirmək üçün çalışacaq mərkəzdə və şəhərlərdə İran ilə müttəfiq demokratik dövlətlər arasında dostluğu pozmaq istəyən xain ünsürlərin əllərini ictimai, siyasi və dövləti işlərdən kənar etsin.

Budur Demokrat Firqəsini yaradanların əsl məqsədləri.

Biz ümidvaruq ki, hər bir vətənpərəst Azərbaycanlı istər Azərbaycanın daxilində və ya Azərbaycandan xaricdə bu müqəddəs məqsədə çatmaq üçün bizimlə həmmsəda və əl bir olacaqdır. Təbii dir ki, insan əvvəl əgər öz evini islah etməsə məhəllə, şəhər və ya məmləkət üçün işləyə bilənməz.

Biz əvəl öz evimiz olan Azərbaycandan başlayırıq və inanırıq ki, Azərbaycanın islah və tərəqqisi İranın tərəqqisinə səbəb olacaqdır və vətənimiz bu vasitə ilə quldurların və mürtəcelərin çəngalından nicat tapacaqdır.

Yaşasın Demokrat Azərbaycan!

Yaşasın Müstəqil və Azad İran!

Yaşasın İran və Azərbaycan azadlığının həqiqi məşəldarı olan Azərbaycan Demokrat Firqəsi!

**(imzalar)- 14 şəhrivər**

# Firqəmiz İşə Başladı

Düşənbə günü firqəmizin müraciətnaməsi1 intişar tapdı. Bu müraciətnamə xalqımız tərəfindən geniş təvəcceh və böyük rəğbət ilə qarşılandı. Minlərcə Azərbaycanlı Azərbaycan şəhərlərində müraciətnamə yapışdırılmış divarların qabağında toplanıb ürək döyüntüsü ilə onu axıra qədər oxudu, düşündü, alqışladı. Bu vasitə ilə səadət və azadlığı üçün yol açıldığını hiss etdi.

Bu isti istiqbal və hərarətli təvəccöh göstərdi ki, tutduğumuz yol düz və intixab etdiyimiz hədəf doğrudur.

Bizim başqa firqələr kimi xalqı cəlb etməkdən ötrü ali sözlər ilə deyil, həqiqi yol göstərmək məqsədilə əməli tədbirlər vasitəsilə işə başladığımızı xalq özü çox gözəl bir surətdə təşxis verdiyi üçündür ki, müraciətnaməmiz ümumxalq tərəfindən bu qədər həvəs və rəğbət ilə qarşılanmağa səbəb olur.

Müraciətnaməmizin dili olduqca aydın və sərih idi. Burada xalqın istəkləri, arzuları, ehtiyacları açıq-aydın bir surətdə göstərilmişdi.

Biz İranın istiqlalına əlaqəmənd olduğumuz ilə bərabər Azərbaycan xalqının fərhəngki ixtiyaratı və öz müqəddəratını öz gücü ilə təmin etməsini arzu edirik.

Biz öz dilimnzdə fərhəng, behdaşt və dövlət idarəsi tələb edirik. Öz dilimizdə kitabımız, ruznaməmiz və ədəbiyyatımız azad bir surətdə vücuda gəlmək ilə xalqımızın mütərəqqi bir xalq olmasına imkan verilməlidir.

Biz birinci növbədə öz evimiz olan Azərbaycandan başlayıb buranın tərəqqisini təmin etməyə çalışırıq. Bunun üçün çox sadə və təbii bir təşkilat vücuda gətirməyi ciddən tələb edirik. Bu təşkilat İran qanuni-əsasi payəsnni təşkil edən əyalət və vilayət əncümənləridir.

Əyalət və vilayət əncümənləri təzə bir təşkilat deynldir. Onun böyük və tarixi keçmişi vardır. İran xalqları azadlıq və məşrutə almaq işində Azərbaycan xalqının əyalət əncüməninin fəaliyyətinə və fədakarlığına borcludur. Ona görə də müstəbidlər və azadlıq düşmənləri birinci növbədə bu təşkilatı ortadan çıxarmağa müvəffəq olmuşdur.

Firqəmiz xalqın iradə və gücünə dayanaraq bu haqqı alacaq, onun vasitəsi ilə xalqın azadlığını və ölkənin tərəqqisini təmin edəcəkdir.

Firqəmiz milli bir firqə olduğu üçün sinif və təbəqə nəzərdə tutmayıb ümum camaatı öz bayrağı altına çağırır. Bu vasitə ilə mərkəz və hökumət və yerli məmurların ləyaqətsizliyi nəticəsində meydana çıxan nifaq və bəzi yaramaz ünsürlərin narəva hərəkətləri sayəsində törənən hərcü-mərc və şuluqluğa xatimə verəcəkdir.

Qəzetimiz firqənin naşiri-əfkarı olduğu üçün müraciətnamənin əsaslarını unutmayıb, yeri gəldikcə onun təbir və təfsirinə çalışacaq və xalqı milli azadlıq üçün mübarizəyə hazırlayacaqdır.

Biz bilirik ki, Azərbaycan xalqının daxili və xarici düşmənləri firqəmizin meydana çıxmasına yara-salar1 günəşdən qorxan kimi qorxuya düşüb ziddimizə qalxacaqlar.

Qəzetimiz bu xain ünsürlər ilə şədid mübarizə etdiyinə görə oxucular üçün fövqəladə bir surətdə cəlbi-təvəccöh olacaqdır.

Bu şanlı vuruşmalarda biz qətən qalib çıxmalıyıq. Çünki yolumuz doğru və məqsədimiz müqəddəsdir. Biz rəşid bir millitin haqq və ixtiyarı üçün mübarizə edirik.

Azərbaycan xalqı öz azadlığını almaqla bütün İran xalqlarını da əsarətdən xilas edəcəkdir.

**«Azərbaycan» no 1. 5 sentyabr 1945-ci il 14 shehriver**

1 Məqsəd—Azərbaycain Demokrat Firqəsinin 12 şəhrivər 1324-cü il tarixli (3 sentyabr, 1945-ci il) nəşr etdiyi müraciətnaməsidir.

2 Orijnnalda «xəffaş» yazılmışdır.

# Ruznaməmizin[1] Dili

Ruznaməmiz Azərbaycan dilinə artıq əhəmiyyət verəcəkdir. Bizim dilimiz düşmənlərin boş iddialarına baxmayaraq çox geniş və qəni bir dildir. Onun kökü xalqımızın qanında və ürəyindədir. Biz onu ana südü ilə əmib vətənimizin ruhnəvaz havası ilə tənəffüs etmişik. Ona tohin edənlər, onu təhmili və məsnui göstərmək istəyənlər bizim həqiqi düşmənlərimizdir.

Çox xain və əcnəbi ünsürlər qərinələr ilə bu gözəl dili ortadan qaldırmağa çalışmışlar. Onun tərəqqisinə və yaşamasına mane olmaq məqsədilə məxsusən ən qəddar azadlıq düşmənləri. var qüvvəsini sərf etmişdir. Bununla belə o sarsılmaz və möhkəm bir halda xalqın içərisində qalıb öz mövqeini saxlamış, bu vasitə ilə mədəni və mütərəqqi bir dil olduğunu isbata yetirmişdir.

Azərbaycan dili deymi bir dil deyildir. Onun böyük xalq, geniş camaat qüvvəsi kimi arxası vardır. Dilimiz xalqın yaratdığı dastanlar, zərbüməsəllər, hekayə və nağıllar vasitəsi ilə dünyanın ən böyük dilləri ilə rəqabət edə bilər. Şairlərimiz, ədiblərimiz bu dil vasitəsi ilə öz ehsasatlarını və öz hunər və sənətlərini vücuda Gətirib xalqın nəzərini cəlb elə bilərlər.

Bizim vəzifəmiz onu genişləndnrmək, onu müasir hala salmaq, onun gözəlliklərini, incəliklərini toz-torpaq arasından çıxarıb təmiz və ali bir zərf içində xalqa təqdim etməkdən ibarətdir.

Azərbaycan dili o qədər qüvvətli və onun sərf və nəhv qaydaları o qədər möhkəm və təbiidir ki, hətta onun içinə varid edilmiş Fars və Ərəb kəlmələri ixrac edilsə belə onunla böyük fikirləri, ali məqsədləri yazıb şərh vermək mümkündür. Lakin biz xalqın istedadını nəzərdə tutub bu işi nagəhani bir surətdə görməyə ehtiyac hiss etmirik.

Əqidəmizə görə, yazı gərək xalqın danışdığı və anladığı bir metodla davam tapsın. Məqsədimiz ədəbi müsabiqə deyil. Xalqı başa salmaq, ona həqiqəti aşkar bir surətdə göstərməkdir. O cəhətdən biz xalq

tərəfindən qəbul edilib işlənilən ərəb və fars kəlmələrini müvəqqəti olsa belə saxlamaq lüzumunu inkar etmirik. Lakin onları öz dilimizin qaydalarına tətbiq edib ahənginə uyğun bir hala gətirməliyik.

Dünyada bnr dil tapılmaz ki, o tamamilə müstəqil olsun və qonşu dillərin təsirinə düşməsin. Bizim Azərbaycan dili də Azərbaycanın tarixi və coğrafi mövqeyinə görə əcnəbi dillərin təsirindən kənarda qalmamışdır. İstər-istəməz bir çox əcnəbi sözlər xalqımızın ağzına düşmüş, mürurizaman ilə milliləşmişdir. Biz dilin təkamülünü nəzərdə tutub o kəlmələrdən istifadə etməyi lazım bilirik. Lakin bundan sui-istifadə edib dil və yazını qəlizləşdirmək, vəhşi və mənası anlaşılmaz kəlmələri hesaba qatmağa ciddən müxalifət etməliyik.

Azərbaycan yazıçıları qəbul etdikləri bu çətin və ağır vəzifəni iman və əqidə ilə ifa etməklə dilimizin gözəlliyini və onun tərəqqi və təkamülünü təmin edəcəklərinə bizim ciddi imanımız vardır.

**«Azərbaycan» № 1, 5 sentyabr 1945-ci il. 14 shehriver**

1- 1945-ci ilin sentyabrın 5-də nəşr olunmuş Azərbaycan Demokrat Firqəsinin mərkəzi orqanı «Azərbaycan» qəzetidir

# İki Yol Ayricinda Bizim Axır Sözümüz

Tehrandan gələn xəbərlər İran xalqlarının iki yol ayrıcında qərar tutduqlarını göstərir.

Yç aydan əlavədir ki, mərkəzdə rəsmi və qanuni bir hökumət yoxdur. Əksəriyyət güc ilə Sədr1 hökumətini və ya onun nəzərini xalqa təhmil etməyə çalışır. Milli ünsürlər irtica xətərini hiss edib əksəriyyətin tədbirləri ilə çox ciddi bir surətdə mübarizə aparırlar.

Müharibə nəticəsində meydana çıxan, zahiri demokratik üsulu belə məhv etməyə başlamışlar. Eşitdiyimizə görə demokratik cəmiyyətlər qadağan edilmiş, azadixah qəzetlər qapadılmışdır. Bu cərəyanı İngiltərə xarici vəzirinin İran haqqında irad etdiyi nitqi qüvvətləndirmişdir.

Zahirdə irticai cərəyanın şüarları çox parlaq və aldadıcıdır. Bu hoqqabazlıq və şəyyadlıq ilə meydana atılan şüardır ki, dalında diktatorluq, quldurluq və istibdad gizlənmişdir. Bunlar vətənpərvərlik və istiqlal pərdəsi altında azadlıq hərəkatını pozmağa çalışırlar. İden və Bevin bu göstərişlər ilə günahı öz müttəfiqləri olan Şuralar İttifaqının üstünə salmağa çalışırlar. Bizim Şuralar İttifaqının siyasətindən və cavabından xəbərimiz yoxdur. Ancaq bunu bilirik ki, tamam bu təblnğat azadlıq hərəkatının qabağını almaq, demokrat dəstələrini biganəpərəstlik ilə ittiham edib meydandan qaçırmaq məqsədi ilə başlanmışdır.

Bu təsadüfi deyildir ki, Seyid Ziya və onun tərəfdarları Mister Bevin və Mister İdenin sözlərini eynən təkrar etməkdədirlər. Bunların hamısı bir çeşmədən suiçir. İranda qatı bir irticai dövlət yaratmaq, o dövlətin noxtasını London siyasətmədarlarının əlinə tapşırmaq niyyətindədirlər. Təzə bir Riza xan, müasir bir İran Hitleri vücudə gətirməyə çalışırlar. Azərbayçan camaatı bu macəraya qanı soyuqluqla baxa bilməz.

Tam ağırlıq bizim arxamıza düşmüşdür. Hər kəs yerindən tez durur Azərbaycan hesabına məqam qazanmaq, vəzarət və sərvət əldə etməyə çalışır.

Azərbaycan azadlıq ələmdarı olduğu üçün Tehranda çevrilən fırıldaqlara qurban ola bilməz.

Biz demokratiya və azadlığı var qüvvəmizlə saxlamağa and içmişik. Təzə bir Hitler meydana çıxsa da, onun Azərbaycana yolu ola bilməz. Təzə Riza xanlıq fikrinə düşən xainlərin Azərbaycanda hakimiyyət sürmək arzusu ürəklərində qalacaqdır.

Azərbaycan özü öz işlərini idarə etməyə qadirdir. Əgər Tehran hoqqabazları Londondan aldıqları ilham üzrə azadlığı məhv etməkdə davam edərsələr biz bir qədəm irəli qoyub tamamilə oradan qəti-rabitə etməyə məcbur olacayıq.

Qoy mürtəcelər, azadlıq və demokratiya üsulu əleyhinə çalışanlar öz hesablarını düşünsünlər və öz təkliflərini bir dəfə qəti surətdə anlasınlar.

Tehran hökuməti gərək bilsin ki, o, iki yol ayrıcında dayanmışdır. Azərbaycan öz yolunu intixab etmiş, o azadlıq və demokratiya üsuluna doğru gedəcəkdir. Əgər Tehran irtica yolunu intixab edərsə xudahafiz buyurub Azərbaycansız yoluna davam etsin.

Budur bizim axır sözümüz.

**«Azərbaycan» no 1, 5 sentyabr 1945-ci il. 14 shehriver**

1 Məqsəd Sədrüləşrafın başçılıq etdiyi İran dövlət kabi-nəsidir.

# Firqəmiz İrəli Gedir

Müraciətnamə intişar tapdıqdan sonra xalqda Firqəmizə nisbət böyük rəğbət meydana çıxmişdir. Hər gün şəhərin müxtəlif təbəqələrindən davtələblər dəstə - dəstə axıb təşkilatımızın müvəqqəti mərkəzinə gəlir üzv yazılmazğa çalışırlar. Qədim əzadıxahlar və imtahan vermiş demokratlar istər yazı vasitəsilə istərsə şəxsən bizim başladığımız böyük işi təbrik etməyə çalışırlar.

Eşitdiyimizə görə bəzi gözü açıq və düşüncəli ruhanilər mənbərlərdə xalqı bu müqəddəs təşkilata yazılmağa təşviq etmişlər. Get - gedə bədbinlik, suizənn, tərəddüd və iki ürəklilik azalmaqda, xoşbinlik, ümid və inam artmaqdadır.

Roşənfikr və cavan nəsil təşkilatımıza artıq əlaqə və məhəbbətlə yanaşmaqdadır.

Şüarlarimiz əməli və doğru olduğu üçün xalqın ruhunda böyük iyman və etiqad vücuda gətirmişdir.

Sakitlik və əmniyət tərəfdarı olduğumuz və bunu əmələn isbat etməyə çalışdığımız ücündür ki, istər kənədlərdə, istər şəhərlərdə, Firqəmiz çox səri qədəmlər ilə irəli getməyə başlamişdir. Firqəmizə yazılmaq istəyənlərin şəhər və kənədlərin görkməli və sağlam adamlarından olması, bizim xətt hərəkətimizin doğru olduğunu göstərməkdə dir.

Çox yerdə təbii bir surətdə konfranslar, mitinəqlər və yığıncaqlar təşkil edilib müraciətnaməmizin ətrafında xalqa tövzihat verilmişdir.

Azərbaycan xalqı bu təşkilata çox uzun müddətdir ki, ehtiyac his edirdi, ona görə müraciətnaməmiz onun tərəfindən çox tez anlaşılıb qəbul edilməkdə dir.

Dilimiz sadə, yolumuz düz və məqsədimiz aydın olduğu üçün xalq bizi tanıyıb anlamaqda çətinlik çəkmir.

Dil məsələsi, ixtiyar məsələsi, kəndçilər ilə ərbablar arasında çıxan ixtilafların sülh və sazış yolu ilə həl edilməsi, sənaye və ticarətin tərəqqi və tövsiəsi Azərbaycan xalqının fikrini işğal edib onu daimən düşünməyə vadar edən məsələ dir.

Firqəmiz bu məsələləri çox sadə bir yol ilə həl etməyi meydana sürdüyü ücündür ki, xalq ona yaxınlaşmaq, onun müsislərini tanıyıb öyrənmək ilə bərabr onun göstərdiyi yolu təqib etməyə başlamişdir.

**«Azərbaycan», nümrə 2, şəhərivrin 17 si, 1324 cü il**

# Əyalət Əncüməni

Əyalət əncüməni bizim qanuni haqqımızdır. Azərbaycanlılar onu silah gücü və qurbanlıqlar verməklə qazanmışdır. Biz onu təşkil etmək üçün heç bir qüvvədən icazə almağa məcbur deyilik.

Bu günə qədər müstəbidlər, məşrutə hökumətini öz əllərində alət edənlər və azadlıq düşmənləri bizim bu məşru haqqımızı paymal etməyə müvəffəq olmuşlar. İndi dünya dəyişib, demokratlık və azadlıq cəbhəsi qalib çıxmışdır. İrtica və istibdad qüvvəsi məhv olmağa məhkum edilmişdir. Ona görə biz fürsətdən isti-fadə edib haqqımızı öz gücümüzlə almalıyıq.

Tehran artıq öz zalimanə iradəsini bizə təhmil etməyə qadir deyildir. Bizim yolumuz aydın və aşkardır. Azadlığı alıb, onu əməli təşkilat vasitəsi ilə saxlamalıyıq.

Komitəmiz çox tez bir surətdə böyüməyə başlamışdır. Bu bizim azadlığımızın zamini ola bilər. Lakin bu kafi deyildir. Firqə siyasi və ictimai bir təşkilatdır və xalqı hidayət və təşkil edə bilər. Lakin ona hökumət edə bilməz. Xalqa hökumət edə bilən təşkilat əyalət əncüməni olacaqdır.

Bu əncümən gərək demokratik üsul ilə ümumxalq tərəfindən seçilsin. Bütün dövlət idarələri və onların başında duranlar öz işlərində bu ali dövlət təşkilatına tabe olub onun göstərişlərini icra etməyə məcburdurlar.

Azərbaycan əyalət əncüməninin böyük siyasi mənası vardır. Bu əncümən Tehran və İranın ayrı şəhərlərində baş qaldırmış irtica və ziddi-demokratik cərəyanına möhkəm bir yumruq və dişsındıran bir cavab olacaqdır.

Tehran irticai bizim əncümənin adını eşitdikdə titrəyib əl-ayağını itirməyə məcbur olacaqdır.

Azərbaycan Əyalət Əncüməni tək Azərbaycan məsələsinin həlli deyildir, bütün azadlıq məsələsinin həlli deməkdir.

Biz mərkəzdə və sair şəhərlərdə hürməyə başlayan müxaliflərə cavab verməyə belə tənəzzül etmək fikrində deyilik. Biz işə və əmələ əhəmiyyət veririk. Əməl, xainlər ilə xadimləri daha gözəl surətdə tanıda bilər.

Azərbaycanlıların möhkəm bir məsəli vardır, deyərlər: (İt hürər karvan keçər).

**«Azərbaycan» № 2, 8 sentyabr 1945-ci il. 17 shehriver**

# Hamı Bilməlidir

Firqəmiz hərc - mərc və şuluqluq ilə birəhmanə bir surətdə mübarizə edir.

Xalqın canı , malı , namusu hərgunə təərüzdən məsun olmalıdır.

İstər kəndlərdə, istər şəhərlərdə qanuni hökm olmadan heç bir kəsin evinə girmək olmaz. Heç kəsə tovhin və təhqir olunmağa yol verilməz.

Zor deyib ictimai və siyasi adlardan su istifadə edənlər birəhmanə surətdə təqib olunub cəzalanacaqlar.

Xalqın malına və hüququna təcavüz edən dövlət məmurları da qanun yolu ilə təqib olunub şədid mücazatlara məhkum edilməlidirlər.

Xalq gərək adilanə qanunlar və demokrasi dövlət bayrağı altında rahat və asudəlik ilə öz işinə məşğul olub rahat yaşaya bilsin. Bu bizim təqib etdiyimiz ən mühüm vəzifələrimizdəndir.

Maliklər ilə rəiyyət arasında çıxan ixtilafları sülh və sazış yolu ilə adilanə bir surətdə həll etmək lazımdır. Həddindən təcavüz edib qeyri qanuni vergilər vasitəsilə rəiyyəti soyub soğana döndərən ərbablar və mövqeyindən istifadə edib şəxsi mənafeyindən ötrü ərbab ilə kəndli arasında düşmənlik və vuruşma törədən macəracu və yalançı kəndli tərəfdarları – hər ikisi Azərbaycan xalqının düşmənidir.

Azərbaycan xalqı öz haqq və ixtiyarını almaq yolunda birləşməli, bir ailənin əfradı kimi əl ələ verməlidir. Nifaq yaradanlar bu böyük məqsədi xaldar edirlər.

Azərbaycana və azadlığa əlaqəmənd olanlar birinci növbə də nifaq və qardaş qanı tökməyə çalışan pis ünsürlər ilə mübarizə etməlidirlər.

Azadlıq əmniyyətə bağlıdır.

Zor və quldurluq hər kəsin tərəfindən olursa pis və qəbihdir, onunla gərək ciddi mübarizə aparılsın.

**«Azərbaycan» nömrə 2 , şəhrivər 17**

# Ayri Bir Yol Yoxdur

Eşitdiyimizə görə Tehranın vəziyyəti çox qaranlıqdır. Dövlət və məclisin əksəriyyətini təşkil edən mürtəce ünsürlər qanunu ayaqları altına alıb çox vəhşiyanə və qəddaranə bir surətdə azadlıq ilə mübarizəyə girişmişlər.

Bu mübarizə birinci növbədə azadixah mətbuatın qanunsızcasına toqifi və azadixah hisslərin fişar və sıxıntı altına alınması, ikinci növbədə diktatorluq, zülm və fişara müxalifət göstərən əfsərlər və nizamilərin qoşundan ixrac edilib abi-havası zəhərli olan şəhərlərə sürgün edilməsi şəklində meydana çıxmışdır.

Ziyalı əfsərlər və azadlıq uğrunda mübarizə edən əskərlərin sayı gündən-günə artmaqdadır. Bunlar artəşi, sərbazlığı təhqir və tohin edib, onları millət əleyhinə qaldırıb qardaş qanı tökməyə vadar edən ərkane hərb rəisi Ərfənin[1] apardığı xainanə siyasəti ilə ciddən mübarizə aparmaqdadırlar.

Xorasan hadisəsi qətən sadə bir ittifaq deyilmiş, görünür bütün hərbi qüvvələrdə irticaya qarşı böyük bir nifrət hissi oyanmışdır.

Mərkəzi dövlətin apardığı kəsif siyasət şimal şəhərlərində böyük müxalifət cərəyanı və nifrəthissi oyatmışdır. Bu nifrət bəzi yerlərdə ciddi şuriş halı almağa başlamışdır. Aldığımız xəbərlərə görə Türkmənlər Günbədiqabus şəhərini işğal edib, Gürganı mühasirəyə salmışlar. Mərkəz kəklik kimi başını qara quylamaqla, xalqın ehsasatının üzərinə pərdə  çəkmək  istəyir.

Bu xətti-hərəkət çox qorxulu və çox xətərnak bir xətti-hərəkətdir. Hətta Riza xan belə əvvəl işə girişdikdə bu cür gobudluqla rəftar etməyə cürət etmirdi. Aldığımız xəbərlərə görə «Fərman» ruznaməsinin müdiri «Şahəndə», «İranema» ruznaməsinin müdiri Təfəzzüli «Rəhbərin» məsul işçilərindən Həkimi çapxanada və idarədə işləyirkən toqif edilmişlər.

Bu toqiflərin nəziri fəqət Məhəmmədəli Mirza-nın başladığı irticai əməliyyat zamanı, yəni məşhur Bağşah hadisəsində görülə bilmişdir.

Görünür Sədrüləşraf cavanlığını yada salıb, yenə də cəlladlıq şuğlunu təkrar etmək fikrinə düşmüşdür.

Belə bir zamanda, Azərbaycan azadixahları bekar dura bilməzlərdi. Onların tarixi borcları və milli vəzifələri bu şədid irticaın əleyhinə ciddi bir surətdə mübarizəyə girişmək idi. Bu mübarizə qətən əvvəl Azərbaycanın daxili əmniyyət və azadlığını təmin etməkdən başlanmalı idi.

İnkar etmək olmaz ki, Azərbaycanda bəzi dövlət məmurlarının ləyaqətsizliyi və mənafeyi bir-biri ilə müxalif olan təbəqələrin ziddiyyəti sayəsində bir neçə gün bundan qabağa qədər böyük şuriş və hərc-mərclik hiss olunurdu.

Azərbaycan azadixahları bu vəziyyəti nəzərə aldıqları üçündür ki, birinçi növbədə əmniyyət vücuda gətirilməsi məsələsini ortaya sürməkdədirlər.

Biz bu xüsusda uzun mütaliə etdikdən sonra yəqin hasil edirik ki, möhkəm bir təşkilat vücuda gəlməzsə gündən-günə qüvvətlənməkdə olan selin qabağını sədd etmək mümkün olmayacaq. Ona görə birinci növbədə böyük bir firqə yaratmağa təşəbbüs etdik.

Firqəmiz xalq tərəfindən geniş rəğbətlə istiqbal olupdu. Yüzlərcə teleqraflar idarəmizə axmağa başladı.

Təşkilatımızdan daha əvvəl vücuda gələn partiyalar və cəmiyyətlər də xətti-hərəkətimizin düzgün olduğunu dərk edib, böyük həvəs və rəğbətlə bizə yaxınlaşmağa başladılar. Çox tez bir surətdə bütün Azərbaycanın sağlam fikirli adamları firqəmizin bayrağı altına toplanacaq, bu vasitə ilə burada möhkəm bir mərkəzi-siql vücuda gələcəkdir.

Əgər biz başqa firqələr kimi qeyri-əməli şüarlar ilə işə başlayıb böyük daşı götürsəydik qətən hədəfə yaxınlaşa bilməyəcək idik.

Ayrı bir yol ola bilməzdi. Çox sadə bir surətdə Azərbaycandan başladıq. Əvvəl buranı hərc-mərclikdən saxladıq və öz evlərimizi qarət və yıxmaqdan qorumaq lazım gəlirdi. Sonra da gələcək üçün böyük bir qədəm götürməyə ehtiyac var idi. O qədəm, məxsusən indi götürülməli idi.

Tehran irticaı qüvvət tapsaydı, biz iş görmək səhldir, hətta danışmaq imkanına belə malik ola bilməzdik.

Fürsətdən istifadə edə bilmək özü böyük istedad və ləyaqət istəyir. Biz fürsəti əldən verməyə razı ola bilməzdik.

Fürsət bizə qurbanlar bahasına mal olmuş qanuni-əsasini diriltmək imkanı vücuda gətirmişdir.

Əyalət Əncüməni və məhəlli Muxtariyyət məsələsi qanuni-əsasinin əsas və köküdür. Biz irticaın zəafindən istifadə edib onu əməli bir surətdə həyata keçirməliyik. Fürsəti əldən verdikdən sonra peşimanlıq fayda verməz. «Daldan atılan daş topuğa dəyər». Bu köhnə bir Azərbaycan məsəlidir. Onu heç bir vaxt unutmaq olmaz. Ərəblər «Və fittəəxir afat» demişlər. Bu doğru sözdür.

İndi Azərbaycan xalqının əlinə böyük bir fürsət düşmüşdür. Bundan istifadə etməmək xəyanətdir.

Bu kimi fürsətləri Azərbaycan azadixahları mövhum sözlərə inanıb mükərrər surətdə əldən vermişlər. Əgər Sərdari-Milli Tehrana inanmasaydı, əgər Şeyx Məhəmməd Xiyabani xain, yalançı və min üzlü müşavirlərinin sözlərinə əhəmiyyət verməsəydi, əgər Lahuti-yə xəyanət edən yalançı pəhləvanlar dara çəkilsəydi indi nə tək Azərbaycan bəlkə bütün İran dünyanın ən mütərəqqi, ən demokrat ölkələrindən biri olmuşdu. Bu səhvlər daima nəzərdə tutulub müzəbzəb və mürəddəd adamların xainanə təlqinlərinə qulaq asmayıb öz gücümüzə bel bağlamalıyıq.

Azadlığı və azadixahlığı özlərinə dükan qayırıb hər bir ciddi işi ixlal edənlərin həqiqi simalarını açıb xalqa göstərin!

Onların, yəni o maskalı azadixahların hiylələri nəticəsindədir ki, İran məşrutəsi kağız üstündə qalan əsərsiz bir dua və tilsim halına düşmüşdür.

**C**

**«Azərbaycan» no 3, 12 sentyabr 1945-ci il. 21 shehriver**

1 Məqsəd vaxtı ilə İran ordusunun baş qərargahı rəisi olmuş General Həsən Ərfə dir.

# Güc Birlikdədir

Aldığımız rəsmi məlumata görə Hizbe Tudei İranın Azərbaycan təşkilatı axırıncı geniş əyaləti konfransında Firqəmizin müraciətnaməsini diqqətlə müzakirə etdikdən sonra onu xalqımızın ehtıyaclarına dahi uyğun və munasıb təşxis vermişdir. Bu konfrans müraciətnamə və Firqəmizin təşkil xəbrini çox şadlıq ilə istiqbal edib, Azərbaycan xalqının səadtıini onun şüarlarında gördüyü üçün, bir çox siyasi səbəbləri nəzərə alaraq Hizbein mərkəzi komitəsilə ilə əlaqəni kəsib Firqə ilə birləşməyə qərara almışdır.

Bu xalqımızın birliyi və azadlığı yolunda böyük bir qədəmdir.

Biz Hizbe Tudeye İranın Azərbaycan təşkilatına rəhbərlik edən vətənpərəst və azadixah şəxəslərin bu böyük fədakarlıqlarını səmim qələblə alqışlayırıq.

Bu qəhraman Firqəçilər bizim xətt və hərəkətimiziin doğruluğunu etiraf edərək, alətmış mindən ziyadə nüfusa malik olan bir təşkilatı Firqəyə yapışdırmaqla Azərbaycan xalqı üçün gözəl bir nümunə olacaqlar.

Hizbe Tudeyi İran Firqəmizə öz şüarlarilə gəlməyə çalışmır. O bizim şüarlarımızı tamamiylə qəbül edir, bizim getdiyimiz yol ilə getmək istəyir.

Bizim yolumuz çox düz və aydın bir yoldur. Biz təbəqatı mübarizə aparmaq fikrində deyilik. Firqə tam mənasilə milli Firqədir. ovna oğru, xain və qanun əsasımızın düşmənlərindən başqa hər bir Azərbaycanlı üzv ola bilər.

Biz milli sənayeymizi yüksltməyə, ticarətimiz üçün dünya bazarlarına yol açmağa, kəndlilər ilə ərbablar arasında çıxan ixtilafları sülh yolu ilə həll etməyə çalışırıq. Hizbe Tudeyi İran başçıları bunların hamısını qəbül edib həyata keçirməyə bizə şəraft üzərində qovl vermişlər.

Bununla belə bu Hizbin üç sənhədən bəri apardığı mübarizə hərgiz onudula bilməz. Hizbe Tudei İranın məxsusən Faşizm əleyhinə apardığı qəhramananə mübarizəni biz həmişə iftixar ilə xatirlamalıyıq.

Bu gündən etibarən Tudə təşkilatı tarixə keçir. Bbiz onun böyük işləri ilə bərabr səhvlərini də nəzərdə saxlamalıyıq. Tudə üzvləri arasına soxulmuş yabancı ünsürlərin zərərini Firqənin ööz rəhbərləri də inkar etmək fikrində deyildir. Biz onlar ilə əl ələ verdikdən  sonra istifadəcu, yalançı və fasıd ünsürlərin taza təşkilatdan uzaqlaşdırlmalarını təəmin edəcəik.

Biz hamının eşidib bildiyi babalar sözü ilə bu tarixi yaddaştımızı qurtarırıq:

**Güc birlikddir !**

**Mir Cəfər Pişəvəri**

**«Azərbaycan». nümrə 5, şəhrivr 26**

# Dözülməz Cinayət

Cinayət..! Oxucularımız əlbəttə təəccüb edəcəklər, dözülməz cinayət..! Bu cinayət nədən ibarətdir. Sanı kimdir və kimə qarşı cinayət edilir?

Bəşəriyyət aləminin inkişafı və insan mədəniyyətinin əsrlər boyu tərəqqiyyatı nəticəsində bəşər cəmiyyətində bir para qəti və labüd üsullar vücuda gəlmişdir ki, avam demişkən sünni və şiyə bu üsullara inanır.

Dünyada olan bütün mədəni millətlərin qəbul və təsdiq etdikləri üsullardan birisi də milliyyət azadlığı prinsipidir. Məsələn beynəlmiləl hüquq məcmuələrində dərc olub və dünyanın əzəmətli demokrat dövlətləri tərəfindən təsdiq edilən Atlantik mənşurunda deyilir:

Hər xalqın müqəddəratı öz tərəfindən təyin edilməlidir. Milliyyət azadlığı və hər xalqın öz müqəddəratını təyin etmə işində azad və muxtar olması nə kimi təfərrüat və üsullardan təşkil tapır?

Dil azadlığı, milli mədəniyyət azadlığı və sairə iqtisadi, siyasi və ictimai azadlıqlar bu məsələnin əsas prinsipləridir.

Azərbaycan milləti dünyanın ən qədim və mədəni xalqlarından birisidir.

Azərbaycanın üç min ildən artıq parlaq tarixi var.

Bütün dünya ədəbiyyatında görkəmli yer tutan şairləri var. Belə böyük bir xalqın özünə layiq tarixi, milliyyəti, dili və ictimai xüsusiyyatı vardır. Bu dil ana dilimiz hacı Mirzə Həsən Rüşdiyyənin dediyi kimi, Azərbaycan dili-bu dil beş milyondan artıq nüfusu olan qəhrəman, mübariz və azadixah bir xalqın dilidir. Məqaləmizin ünvanını təşkil edən dözülməz cinayət hitlerizmin məhv olması ilə bütün dünyada puça çıxmış mənfur irq nəzəriyyəsinin amilləri Tehran mürtəcelərinin mədrəsələrdə, məhkəmələrdə və dövlət idarələrində bizim müqəddəs və doğma ana dilimizə qarşı olan bir cinayətdir.

Məsum Azərbaycan uşaqları çürümüş faşizmin tərəfdarları olan Tehran zimamdarlarının hakimliyi nəticəsində öz əziz ana dillərində təhsil etməkdən məhrum qalmışlar.

Əcəb zülmdür! 20-ci əsrdə Hitlerlər və Mussolinilər hökuməti demokrat qüvvələrin qabağında diz çökub, məhv olduğu bir zamanda, Tehran mürtəceləri hələ də, yenə də bizim milli mövcudiyyətimizi və tarixi varlığımızı inkar edərək mədrəsələrdə yüz minlərlə azərbaycanlı balalarının dilini kəsirlər. Onun Səttarxan və Şeyx Məhəmməd Xiyabanidən yadigar qalan əziz gövhərini tapdalayırlar. Budur bizim haqqımızda olan dözülməz cinayət...!

Bu cür dözülməz cinayətlərdən təngə gəlib öz mübariz varlığını Azərbaycan demokrat firqəsində görən Azərbaycan xalqı daha bu zülmlərə son qoyacaq və özü üçün qanuniəsasiyyə uyğun əyaləti və vilayət əncüməni və milli muxtariyyət yaradacaqdır.

**Səməndər**

**«Azərbaycan» no 3, 12 sentyadr 1945-ci il. 21 shehriver**

# Siyasi Firqənin Afəti

Bir firqə və ya cəmiyyət təşkil olar-olmaz salim, xeyirxah və fədakar şəxslər ilə bərabər bir iddə istifadəçi, yalançı və ictimai təşkilatları vəsilə qərar verib, özlərinə sərvət və saman qayırmağa çalışan ünsürlər və leşxorlar kimi onun ətrafına hücum edirlər. Bunu biz bu vaxta qədər meydana çıxan siyasi firqələrin hamısında görmüşük.

Bunlar xüsusi istifadə yolunda heç bir rəzalət və alçaqlıqdan çəkinməzlər. Bunların töhmət, iftira, yalan ad qoymaq kimi kəsif hərbələri vardır.

Bu parazit ünsürlər xarici və siyasi düşmənlərdən daha xətərlidirlər. Xarici düşməni tanıyıb onun əleyhinə mübarizə aparmaq asandır, lakin müftəxor və istifadəçi ünsürlər təşkilatın içərisini çürüdüb onu iflic hala sala bilərlər.

Bunlar cürbəcür şəkildə qabağa çıxa bilər. Kəndlərdə boynuyoğunluq və qolçomaqlıq göstərib illərdən bəri davam edən düşmənlikləri şədidləşdirmək və ondan maddi istifadə etməyə çalışarlar. Şəhərdə dövlət idarələrinə soxulub orada isti bir vəzifə tutmaq və bu vasitə ilə sui-istifadə etməyə can atarlar. hər şəkildə və hər mühitdə olur-olsun bunlar yol tapıb firqə adından istifadə etməyə, xalqa zor deyir, özlərinin xüsusi işlərini qabaqdan aparmağa səy edirlər.

Qədim azadlıq və məşrutiyyət hərəkatından istifadə edib, vəzifə, sərvət və şəxsiyyət qazanıb istibdada xidmət edən maskalı azadixahlar az deyildir. Onları siz də yaxşı tanıyırsınız. Təzə vücuda gələn firqəyə bunlar yol tapa bilər. Çalışaq firqəmiz bu kimi müzəvvir və fasid ünsürlərin əllərində alət olmasın.

Məqsədimiz ali, fikrimiz böyükdür. Böyük işi napak əllər ilə görmək olmaz. Təzahürçü,, lovğa və yalançı pəhləvanlardan pəhriz edin. Xalqın mal, can və namusuna göz tikən pis ünsürlərə əvvəldən içərinizə yol verməyin. Qorxaq və ikiüzlü adamlardan qaçın, bunlar sizi yarıyolda qoya bilərlər.

«Mən başımı saxlamaq üçün qarışmışdım» deyənləri çox görmüşük. O adamların zahiri sizi aldatmasın. Başını saxlamaq istəyib düşmənlərə bəli deyən adamları əvvəldən firqəyə yol verməyin. Qoy onlar gedib ayrı vasitə ilə başlarını saxlasınlar.

Biz heç kəsi güc ilə firqəmizə yazdırmaq fikrində deyilik. Xalqın hüsn-rəğbəti və təvəccehi bizə kifayət edər. Fəqət kəndlər və şəhərlərdən sel kimi axıb gələn camaata bel bağlamalıyıq.

Bizim böyük və ağır vəzifəmiz bu camaatı təşkil etmək və onun irada və qüdrətini ciddi surətdə xalq azadlığı yolunda işə salmaqdır.

Doğrudur biz bütün xalqı, sinif və təbəqə nəzərdə tutulmadan firqəmizə qəbul edirik. Vəli bu o demək deyil ki, biz azadixahlıq və vətənimizin tərəqqiyə doğru getməsini nəzərdən çıxarmışıq. Belə fikir etmək hərgiz doğru deyildir.

Biz vətənin və xalqın nicatını azadlıqda axtarıb və aramaqdayıq. Biz bunu gözəl bilirik ki, xalqımızın əksəriyyətini təşkil edən kəndlilər bu gunə qədər hər bir haqq və ixtiyardan məhrum qalmışlar. Biz bilirik ki, işsizlik xalqımızın böyük bir hissəsini fəlakətə və ölümə sövq etmişdir. Bizə məlumdur ki, fəhlələrimizin hüququnu təmin etmək üçün hələ də rəsmi bir qanun əldə yoxdur. Eyni zamanda biz hiss edirik ki,

ərbabların bəziləri kəndlərdə vüsətlənməkdə olan kəndli hərəkatından qorxuya düşüb yerlərin abadlığına, çeşmələrin təmirinə iqdam etmək fikrində deyildirlər. Hətta bəzi yerlərdə xirmənlər bila təklif haldadır. Bəzi istifadəçi ünsürlər malik ilə ərbab arasındakı ixtilafı şiddətləndirib bulanıq sudan balıq tutmağa çalışırlar.

Bunların hamısını bildiyimiz üçündür ki, biz ölkədə qanuni bir rejim, mötədil bir vəziyyət meydana gətirməyə iqdam etmişik. Çun təbiidir ki, kəndli ilə ərbab, fəhlə ilə sahibkarın mənafeyi çox vaxt bir-birinə müvafiq gəlməz. Lakin bir qisim mənfəətlər var ki, onlar müştərək hesab oluna bilər.

Məsələn, əmniyyət, xalqın siyasi azadlığı, məhkəmə və qanunlardan müsavi surətdə hər bir vətəndaşın istifadə etmək imkanı, əslən fəhlə ilə sahibkar və ərbab ilə rəiyyət arasında çıxa bilən ixtilafı aradan aparmaq üçün möhkəm bir qanun vücuda gətirilməsi kimi məsələlər vardır ki, biz onu çox tezliklə və birinci növbədə həll etməliyik.

Bunların hamısı mümkün olan işlərdəndir. Lakin siz çalışın iş pis adamların əlinə düşməsin.

**Mir Cəfər Pişəvəri**

**«Azərbaycan» № 4, 25 şəhrivər, 16 sentyabr, 1945-ci il.**

# Ağayi Pişəvərinin Nitqinin Muxtəsəri

Şəhriyvər ayının 19- da tebrizin Şir u Xürşid teatrının slonunun ağayi Pişəvəri Azərbaycan Demokrat Firqəsinin təsisi və onun şüarları mövzuunda saat yarımlıq müfəssəl bəyanat verdi. Biz burada onun xülasəsini oxucularımızın nəzərinə təqdim edirik.

**Ağayi Pişəvəri:** Təqribən il yarım bundan əvvəl bu salonda İranın bu müharibədən salım çıxıb öz istiqlalını hifz edəbiləcəyini dəlillərlə isbat etmişdim. İndi də o əqidəm baqıdır. Bu xüsusda bir söz ola bilməz. Çünkü dünyanın ən böyük simaları bu xüsusda İran millətlərinə təmin vermişlər.

Əslən istiqlal mövzuu qabil bəhs bir mövzu deildir. Kimsə onu inkar etmək istəmir. Sabıq demokrat firqəsinin rəhbərlərindən mərhum Müsavat bizə istiqlal sözünü ortaya atmamağı tövsiyə edirdi və deyirdi ki, bu məsələ məşkük və qabil bəhs olduğu vaxt mörvid bəhs olabılər. İran istiqlalı hətmi və qeyriqabil bəhs mövzulardandır.

Mən bu məsələni məxsusən irəli çəkdim ki, firqəmizin aydın və aşıkar olan süarları müğrizlər tərəfindən suitəbir olunmasın.

Burada ağayi Pişəvəri havada İran xəritəsini tərsim edərək əlavə edir: Mən açıq deyirəm bizim sözümüz və tələbatımız bu nəqşədən xaricdə deyildir. Biz İran sərhədi daxilində danışırıq. Bir dəfə hamı bunu nəzərdə tutursa danışıb anlamaq üçün asan olacaqdır.

Bu məclis mənim ikinci müfəssəl nitqimi xatirə gətirə bilər. O gün mən 16 min Azərbaycanlı tərəfindən məclisə intixab olunmuşdum. Ola bilsin o nitqi eşidənlərdən burada bir çoxları hazırdır. Mən o gün məmləkətin vəziyətini nəzərə alıb dedim bir vəkil vasitəsi ilə məmləkəti fəlakətdən qorumaq olmaz. O gün mən çox mütəəssir idim. Zira sadə bir kargər böyük şövq və təssür ilə mənim çiynimdən öpüb «Get səni allaha tapışırdım. Bəlkə bizim dərdlərimizə çarə edə biləsən» demişdi. Mən bilirdim məmləkətin məxsusən Tehranın hazırkı şəraiti durduqca mən o kişinin arzusunu əncam verməyə müvəffəq ola bilməyəcəyəm. Ona görə mən bu gün xalqa müraciət edib kömək istədim və dedim: Vəkil tək başına heç bir iş görəbilməz: Xalq özü əl- ələ verib öz dərdlərinə çarə tapəmalıdırlar.

Tehrana gedib məclisə varid olduqdan sonra yəs və naümidliyim şiddətləndi. Orada minlərlə telqraflar və təzəllüm əriyzələrinin cavabsız qaldığını gördüm: Şövq və həvəs ilə təşkilinə çalışdığımız Azadi fraksiyonuna varid olan şəxslərin çox kiçik və qərəzamız məqsədlər dalınca getdiklərini seyr etdim. Bütün məclis və dövlət təşkilatının beş uç muğrız oğru, yalançı və    hoqqabaz mürtəcelər əlində alət olduğunu bir daha təcrübədə anlamağa müvəffəq oldüm.

Bu müşahidat mənim ruhumda böyük təsir bağışladı. Bilirdim məclis kürsülərini qəsb edən xainlərilə mənim suyum bir arxa getmiyəcək və hiss edirdim ki, bu yol kəsənlər dəstəsi mənim aralarına girməyimə asanlıq ilə razı olmayacaqlar. Ona görə fürsətdən istifadə edib sözlərimi dedim. Məni 16 min rəy ilə intixab edib məclisə göndərən Azərbaycan xalqının ehtiyaclarını sayıb söylədim. Sözlərimi böyük bir diqqət və dərin bir sükut ilə eşidib təsdiq etdilər. Lakin təsdiqlər xəyanətlərini gizlətmək üçün qara bir pərdədən başqa bir şey deyildi. Fürsət əllərinə düşən kimi də «Bu Azərbaycanlı rahat oturan adama bənzəməyir bunu buradan uzaqlaşdırmaq lazimdir» deyib etibarnaməmlə  tülkülrə yaraşan alçaqlıq ilə müxalifət etdilər.

Bununla belə məyus olmayıb Cibheyi Azadi ətrafına toplanam azadixahların köməyi ilə mübarizəyə başladıq. Əfsus ki, hərarətli məqalələr, şiddətli cümlələrimiz təsirsiz və cavabsız qalldı. Tehran təkan yedi amma irticaa doğru, amma xalqların hüququnu ayaqlar altında payəmal etməyə doğru.

Vəziyət biləxərə elə bir ağır hal aldı ki, artıq Tehranda oturub məqalə yazmaqdan ya nitq etməkdən bir nəticə olabilməyəcəyini yəqin etdim. Naçar bir il bundan əvvəl təbrizdə uzun uzadı bəhs etdiyimiz məsələ ətrafında düşünməyə başladım.

Bu çox sadə bir tədbir idi. Mənim Təbriz məsləkdaşlarımdan çoxusu Tehrandan  bir iş çıxmayacağını irəli çəkib dedilər: Azərbaycandan başlamalı, buranı əvvəl islah etəməli, Azərbaycan xalqının öz gücü ilə burada milli Hökumət vicuda gətirəməliyik. Tehran, irticaın başı, istibdadın mərkəzidir. O, ətrafda baş qalldiran bütün hərəkətlərə müxalifdir. Birinci növbədə oradan göz yumub müstəqiymən burada iş görməliyik.

Bu fikirərin həqiqəti o vaxt nəzərimdə daha aşıkar bir surətdə cilvə etdi ki, dövlətin məsul məmurları ilə Azərbaycan xalqının təzəllüm və dadxahlıq telqrafları haqqında müzakirə etdim

Məsələn Bəyat dedi, mən radio vasitəsi ilə müraciət etmişəm artıq xalq ərizə və telqraf vasitəsi ilə özünə zəhmət verməməlidir. Başqaları daha acı, daha şədid cavab verdilər.

Sədr dedi, bir telqraf olmasın, min telqraf olsun mən bu kimi boş sözlərə cavab belə verməyəcəyəm.

Bu sözlərin ayri cavabı ola bilməzdi. Gərək xalqa müraciət etmək. Xalqın yumuruğunun gücü ilə azadlığı təmin etmək! Bu süarla mən Təbriz azadıxahlarının təklifi üzrə Tehrandan Azərbaycana hərəkət etdim.

Burada yaxın məsləkdaşlarım ilə bir daha ciddi surətdə İranın və Azərbaycanın daxili xarici vəziyətini təcziyə və təhlil etdikdən sonra bu böyük fikiri əməli etmək üçün böyük müstəqil bir firqə yaratmaq lüzumunu anladıq.

Bu firqə dünyanın təqib edib, anlayıb tanıdığı demokrat ünvanının altında olmalı idi. Biz də ünvanı qəbul edib xalqı onun ətrafına toplanmağa dəvət etmək məqsədi ilə keçən düşnəbə günü böyük bir müraciətnamə intişar verdik.

Bu müraciətnamə Azərbaycan xalqının uzun müddətdən bəri hiss etdiyi ehtiyaclar uğrunda mübarizə etdiyi haqq və ixtiyar üzərində yazılmışdır.

Biz Azərbaycan xalqının azadlıq yolunda apardığı mübarizə tarixini unuda bilmərik. Tehəran irticai Azərbaycana böyük zərbələr vurmuşdur. Biz orada kök salmış istibdad rejimindən heç bir umud gözləyə bilmərik. Tehran Azərbaycanın həmişə fışar altında qalmasına çalışmışdır. Orada Hökumət sürən xain ünsürlər bizim başçılarımızı məhv və nabud edib milli ğururumuzu sindirmaqdan bir an belə sərfnəzər etməmişlər.

Azərbaycan xalqının böyük sərdarı Səttarxanın xainanə bir surətdə Tehrana çəkilib öldürülməsi hənuz unudulmamışdır.

Müstəbiddlər Səttarxana müdaxilə etməyi böyük bir günah hesab edib onu Ətabək Bağında mühasirəyə saldıqları günlərdə Tehranın küçə, xiyaban və evlərinə belə Bəxtiyarı tüfəngçilərinin əlilə xalqın malı, canı və namusu tapdalanırdı. Mərkəz isə onları tənbeh etmək əvəzində xanlarını vizarət və sədarətə mənsüb edirdi.

Tehran həmişə Azərbaycan adından vəhşət edib o adı ağzına alanlarla biyrəhmanə rəftar etmişdir. Buna Sərdar Millidən sonra Azərbaycanın iftixarı olan mərhum Şeyx Məhəmməd Xiyabanı haqqında gördükləri haqsızlıqları şahid göstərmək olar.

Mən şəxsən onun qatılı Hacı Müxbirülsəltənənin etibarı təsvib olan gun məclisdə bir ruznamə müxbiri siftiylə hazır idim. O gün İran azadıxahlarının qeyrətli nümayəndəsi mərhum Süleyman Mirza bu alçaq xayinin etibarnaməsi əleyhinə etiraz etdi. O çox hərarətli bir surətdə mərhum Şeyxin İran azadlığı yolunda göstərdiyi fədakarlıqları sayıb söylədi və Hacı Müxbirülsəltənə utanmadı, tiribun dalına gedib dedi: «Doğrudur mən onu öldürdüm lakın, bu böyük bir xidmət dir. Çünkü Xiyabanı məmləkətə xəyanət edirdi».

Azərbaycan qəhrəmanlarının qanı ilə qurulan Məclis Şura bu cəlladın etibarnaməsini qəbul edib millət nümayəndəsi adlandırdı. Sonra da bu xayın Rizaxan əmriylə on sənədən artıq İran dövlətinin rəisi oldu. Bu onun elədyi xiyanətinə padaş və zəhmət haqqı idi.

Tehran bu işi görməklə Azərbaycan naminə danışmağı böyük bir xəyanət hesab etdiyini sübuta yetirdi. Şeyxi çox gözəl tanıyırsız, çoxlarız onun mənalı nıtqlərini eşitməyə müvəffəq olmüşsuz. Mən sizdən soruşuram o İrana hansı xəyanti rəva görmüşdü?

Mən o vaxt «Həqiqət» ruznaməsində bir Azərbaycanlı kimi məclisin bu xainanə hərəkətinə şədid bir surətdə etiraz edib «Sizin xain adlandırdığız məzarlar qarşısında təzim etməyi biz iftixar bilirik», kimi cəsuranə ibarət yazmaqla içərimdə şö`lələnməkde olan milliyyət hissini təskin etməyə çalışdım.

Əcəba! Şeyxin xəyanəti və günahı Azərbaycanlı adı daşımaqdan başqa nə olabılərdi?

Mərhum Mirza Kuçik Xanın Tehran haqqında çox acı bir sözü xatırıma gəldi. O deyirdi: «Tehran abad olmaq üçün bütün İran bərbad edilmişdi. İran abad olmaq üçün Tehranı bərbad etmək lazımdır». Mən bu sözü təsdiq edib Tehranı dağıdıb ortadan qaldırmağı tövsiyə etmirəm. Lakin bu sözdə bir doğruluq vardır kı, o da Tehranın xaricdə baş qaldiran azadlıq hərəkətləri onların meydana sürdügü böyük siymaları əleyhinə apardığı cəlladanə siyasətdən ibarətdir.

Həmin Mirza Kuçik Xanın özü də çox vəhşiyana bir surətdə öldürülüb onun başı İran azadlığının ğəddar düşməni olan Rizaxana töhfə göndərildi.

Azərbaycanın xalq və qəhrəman oğullarından Xorasanda qiyam edən mərhum Kolonel Məhəmməd Təqi Xan ilə də bu cinayəti işlətməkdən sərfənzər etmədilər.

Bunların hamısı göstərir ki, Tehranda kök salmış irtica və istibdab qüvvəsi xaricdə vicuda gələn azadlıq hərəkətlərini yatırmaq işində heç bir cinayətdən geri dormayacaqdır.

Bu cinayətlərə xatimə vermək üçün oranın qüdrətini məhəlli və milli ixtiyarlar vasitəsi ilə sındırmaq lazım gəlir.

Bu işdə Azərbaycan həmişə olduğu kimi indi də pişqədəm olmalıdır.Tehrandan azadlıq ummaq böyük iştibahdir. Orada azadlıq mübarizəsi aparan dəstələrin əl qolları bağlanılmışdır.

Təbiidir, Rizaxan yıxılan gün biz istədiyimiz milli Hökuməti vicuda gətirə bilməzdik. O vaxt inqilabdan bəhs edənlərin cavabında mən «Ajir» ruznaməsində bu işin qeyri mümkün olduğunu isbata çalışmışdım. O gün milli

hərəkət və inqilab cərəyanını idarə etməyə qadir bir siyasi firqə yox idi. Rəhbərsiz inqıiab nəticə verə bilməzdi. Amma indi vəziyət tamamilə dəyişmiş uç ill yarımlıq mübarizədə taza qüvvələr və möhkəm siyasi cəmiyətlər meydana çıxmışdır.

İndi mən inqilabdan bəhs etmək və onu ortaya sürmək fikirərində deyiləm. Mən istəyirəm deyim ki, bu gün xalqımız əgər öz haqq və ixtiyarını almağa iqdam edərsə onu əməli etmək imkanı vardır.

Mərkəzi işğal etmiş istibdad Hökuməti özünün ləyaqətsizliyin artıq isbat etmişdir. Məclis Şuradan heç ümid gözləmək olmaz. Orada yer tutan müstəbidlər sənədən artıqdır ki, sadə bir qanun keçirməyə müvəffəq olmamışlar.

Məşrutə və milli Hökumətin vicuda gəlməsi birinci növbədə məmləkətin büdcəsini yəni dəxl - xərcini təyin etməkdən ibarətdir.

Fəransanın inqilabı kimi bizim məşrutə inqilabı da bu məsələni həyata keçirmək yolunda vicuda gəlmişdir.

Bizim ondördüncü məclisimiz isə bu məsələni həll etməyə qadir olmamışdır. İndi alınan maliyatlar və sərf edilən pulların hamısı qeyri qanunu və oğurluq hesab olunur.

Mənim vətənpərəst tanıdığım əşxasdan biri deyirdi ki, sən nitqlərivin birində qanuna ehtiram edib ona tabe` olmaqdan bəhs etmişdin.

Mən bunu inkar etmirəm. Qanun möhtərəmdir. Qanunsuz bir ölkədə ədalət, əmniyyət, insaniyyət ola bilməz. Vəli qanun hər iki tərəfdən möhtərəm tutulmalıdır.

Fəransa inqilabının böyük mütəfəkkiri Jan Jak Ruso özünün məşhur əsrlərinin birində belə deyir: «Peyman iki tərəfli olmalıdır, o, bir tərəfdən pozulsa, ikinci tərəf onu saxlamağa məcbur deyildir».

Rusonun nəzərində qanunlar xalq ilə dövlət arasında mütəqabil qərardan başqa bir şei deyildir. İndi bizim Hökumətimizin başında duranlar və məclisimizin əksəriyyətini təşkil edənlər özlərinin qoyduqları qanunlar və yazdıqları qərardadları pozub ayaq altına salmışlar. Ona görə biz o qanunları ləğv edilmiş hesab etməyə məcburuq.

Bundan əlavə onlar həmişə qanunu özləri üçün bir aləti məl`əbə qərar vermişlər. Hər vaxt azadlığı məhv etmək xalqın haqq və ixtiyarını ayaqlamaq laziım gəlirsə, onları meydana çəkib istifadə etməyə çalışırlar. Xalqın nəfinə lazım olan qanunlar isə yaddan çıxarılıb arşivlərə verilmişdir.

Dostlarımdan biri Yəzdlilərin bir məsəlin yazmışdı: Güya Yəzd şəhərində yalançı bir rövzəxan varımış ki, mənbərə çıxdıqda qəşş edib arvatların üzərinə düşərmiş. Yəzdlilərdən biri axırda cana doyub demişdi: «Axund, mən nemiydanəm həmişə betərəfe bibi çəra qəşş mikoni?»

İndi bizim dövlət adamlarımızda qəşş edndə həmişə bibinin üstünə düşürlər. Yəni həmişə zalımanə qanunları meydana çıxarırlar. Adilanə qanunlardan heç bir əsər görmürük.

Biz Azərbaycanlılar qanunların əsasını və rişəsini böyük qurbanlıqlar bahasına almışıq. Mərkəzi Hökuməti özlərinin ata - babadan qalma irsi hesab edən xainlər onu əmələn silib, süpürüb gizlətmişlər. Bizim haqq və ixtiyarımızı təmin edən əyalət və vilayət əncümənləri qanunundan çox ildir bir əsər yoxdur. Mənə qanundan danışan ağadan buna cavab istərdim. Onun boş boğazlıqdan başqa bir hərbəsi olabılməz.

Biz həqiqəti açıq - aydın bir surətdə xalqa göstərəməliyik. Bizim meydana atdığımız şüarların əsasını da qanun təşkil edir.

Biz millətlərin və xalqların ixtiyarını təmin etmiş qanun əsasını diriltəmk yolunda mübarizəyə başlamışıq. Qanun əsası, əyalət və vilayət əncüməni olmasa quru mənasız bir kağazdan ibarət ola bilər.

Qanuna ehtiram edib onu müqəddəs saydığımız üçündür ki, biz birinci növbədə ən böyük, ən əsas qanun - yəni əncümən əyaləti məsələsini həyata keçirmək istəyirik.

Mən bu sözləri fəqət indi burada deməyə başlamamışam. Bir neçə gün fürsətdən istifadə edib hazır olduğum Məclis Şurayi Milli də bundan daha şədid bir ləhn ilə çıxış edib nümayəndə adı daşıyan yalançı pəhləvanlardan bu xususda ciddi iş tələb etmişdim. Halbuki, onların bir qədəm belə xalqa doğru gəlmələrinə ümidim yox idi.

Dediyim kimi içərimizdə fars məsəli mocibincə «aşdan isti kasalar» (kaseyi əz aş dağtər ) adamlar az deyildir. Dünən onlardan biri mənə irad ediri ki, «yenə yazırsız Azərbaycana dövlət tərəfindən əhəmmiyyət verilmir, yenə deyirsiz Azərbaycandan alınan vergilər ora məsrəf olunan büdcədən çoxdur. Azərbaycan Tehrana elə bir böyük vergi vermir, biz gərək Tehrandan təşəkkür edək ki, bizə çox yaxşı baxır. Əgər Tehran olmasa biz acımızdan ölərik».

Bu adamın ağlına mənim şübhəm yoxdur. Lakin ləcbazlıq və höccət ilə öz yalan və müğrizanə sözlərini xağa təhəmil etmək görürsüz insanı nələr deməyə vadar edir?

Bu naxələf adama mən dedim: Aya bilirsənmi ki, iyirmi il tamam Rizaxan Azərbaycanlıya batmanı dörd qirana aldığı qəndi 18 qirana yedirtdi? Aya anlamaq istəmirsən ki, Azərbaycanın zəhmətkeş dul arvadları bir qutu kibrit aldığı zaman bir riyalın uçdə ikisini maliyat verir? Həqiqət acıdır, lakin onu söyləməliyik. Mən məclisdə açıq surətdə dedim ki, «Bunu mən dəqiq hesab nəticəsində isbat edə bilərəm». Azərbaycan xalqına maarief büdcəsindən verilən pul adam başına təqsim edilərsə onu göstərən bir vahid tapmaq olmaz. Mən onu kibritə təbdil etdim. Nəticə bu çıxdı ki, hər bir nəfərə bir kibrit çöpündən az pay düşür.

O kor və kar adam o qədər xalqdan uzaqdır ki, bizim milli dəbistanlarda çalışan amuzgarlarımızın ayda otuz tümən hüquq alıb 12 saat çalışmalarından xəbəri ola bilmir. Ölsə də öz fəsahət və bəlağətinə o qədər məğrurdur ki, gündən aşıkar olan bu həqiqəti inkar etməyə çalışır.

Təbiidir. Biz bu kimi fasid, ləcuc və fitnəcu adamların sözünə qulaq asıb öz tutduğumuz yoldan qayıtmalı deyilik. Mən ona dedim biz çalışıb məqsədimizi əldə edəcəyik. Əgər sən doğru deyirsən buyur düş qabağa, baxaq nə iş görəcəksən.

Bu kimi boş boğazlıqlara biz əhəmmiyyət verə bilmərik. İş və fəaliyyət lazımdır. Söz, ibarət və boşboğazlıq xalqı yorub məyus etmişdir.

Bizim görməli işimiz çox sadədir. Əvvəl şəhərimizi islah etmək üçün intixab etdiyimiz şəhər əncümni işə başlamalıdır. Tehran bizim bu sadə və təbii haqqımızı belə payəmal etmək istəyir. Neçə aydır ki, şəhər əhli öz evini abad etmək, öz mədəni və məhəlli işlərini yoluna salmaq üçün əncümən intixab etmişdir. Lakin vizarət keşvər onu hətta zalımanə və qanun əsasının ziddinə olan Pəhləvi qanunu ilə də təsdiq etmir.

Nəticədə şəhər köhnə qəbristan halına düşmüş onun küçə və xiyabanlarında gənd və kəsafət başdan aşmaqdadır.

Dünyada demokrasi namı daşıyan heç ölkə yoxdur ki, oranın şəhrdarı işlərinə dövlət müdaxilə edə bilsin. Rizaxanın vicuda gətirdiyi bu mənhus səddi sındırıb şəhər əncüməni işə başlamalı və şəhəri xərabazar halına düşməkdən nicat verməlidir.

Biz, su məsələsində gördük ki, sadə bir surətdə intixab etdiyimiz komision şəhərin mühüm məhəllələrini bir neçə gün sü ilə təmin edəbildi. Əgər bu iş idamə verilərsə böyük nəticələr əldə edilə bilər. Ayrı işlər də belədir. Gərək himmət edib işə girişmək. Tehranın xainlər əlində olan vizarətxanalarından bir dfəə umudu kəsmək lazımdır. Bundan əlavə mürtəcelərin vicuda gətirdiyi şəraitin təsirlərindən bütün İran hərc - mərc halındadır. Mazəndaran və Gürganda olduğu kimi, İsfahan, Şiraz və sayir cənubu şəhərlərdə aşub və şurişlər baş qaldırmışdır. Tehranın özündə belə şuluqluğun qarşısını almağa dövlət qadir deyildir. Hökumət nizamı olduğuna baxmayaraq gecə saat ondan sonra şəhərdə görünmək qadağan edilmiş, lakin xalqın mal- canını hifz etmək mümkün olabilməmişdir.

Belə bir zamanda Azərbaycan demokrat firqəsi özünün böyük müraciətnaməsi ilə fəaliyyətə başlamışdır. Bir həftədən az olmayan bu müddətdə şəhərimizdə və bütün Azərbaycanda dərin bir sükut his edilir. Xalq bir mərkəz siql, bir pənahgah tapan kimi olmuşdur. Əmniyyət ümumunu təhdid edən hərəkətlər susdurulmuş, şuluqçu ünsürlər iskat edilməyə başlamışdır.

İndi Azərbaycan əmniyyət və aramış cəhətdən İranın ayri yerlərinin hamısından qabaqdır. Firqə bu müvəffəqiyyəti falinik hesab edib, götürdüyü sülh və əmniyyəttələblik siyasətini təqib edəcəkdir.

E`lamiyyəmiz ətrafda olduqca dərin təsir buraxmışdır. Düşmənlərimiz, məxsusən, Tehranda İran xalqlarının hüququnu ayaqları altına alan müstəbidd ünsürlər oxuyub titirəməyə başlamışlar.

Biz böyük bir firqə yaratmaqla dünyaya sabit edəcəyik ki, öz evimizi yabançı olmadan idarə etməyə ləyaqət və qüdrətmiz vardır. (gurultulu alqışlar)

Firqəmizin barəsində mən çox müfəssəl məlumat vermək istəmirəm. Bu qədər deməliyəm ki, müraciətnaməmizi hətəmən oxumuşsuz, onun bütün Azərbaycanda böyük təsiri olduğu bundan bilinir ki, İranı başdan- başa bürümüş olan şuluqluq və hərc- mərclikdən burada heç bir əsər yoxdur. İstər şəhərlərdə, istərsə də kəndlərdə xalq firqəyə etimad edib onun meydana atdiği əmniyyət süarını çox hüsn təvecehlə istiqbal edir. Azərbaycan indi tufanlı dərya kimi təlatümdə olan İran məmləkətində sakit və aram bir cəzirə halındadır.

Tehranda isə müraciətnaməmiz bomb kimi səslənmişdir. Onun orada çox az bir miqdarda intişar edilməsinə baxmayaraq çox səri bir surətdə xalqın nəzərini cəlb etmişdir. Onun təsiri elə özünü zor ilə İran xalqına təhmil edən Sədr kabinəsi mütəzəlzil olmuş, irticaın alçaq nökəri olan nümayəndələr əl ayaqlarını itirmişlər.

Çox ehtimal var ki, vurduğumuz böyük zərbənin əsərində Sədrin kabinəsi süqut edib, onun yerinə müvəqqəti olmaq üzrə bir muhəllil və ya azadıxah kabinə gətirsinlər. Lakin bu uşaq aldadan tədbirləri bizi ilğfal edə bilməz. Bir günlük, beş günlük üçün yox, həmişə azadlığı təmin etmək üçün  burada vicuda gətirməyə başladığımız mərkəzi siqli saxlamalı, onu mərkəzdə məhv etəmgə çalışan müstəbiddlərin başı üstündə möhkəm bir yumruq kimi tutmalıyıq.

Bundan əlavə, firqəmiz işə başladıqdan sonra vicuda gələn əmniyyət və aramlıq göstərdi ki, xalqımızın özünü idarə etməyə ləyaqəti vardır.

Məramnaməmizi hənuz intişar verməyə fürsətimiz olmamışdır. Çox tez bir zamanda çağrılan firqə konqrəsində onu təsvib edib ümumun nəzərinə təqdim edəcəyik. Lakin əsası məqsədlərimiz xalqdan gizli deyildir. Onu biz müracitnaməmizədə sadə bir dil ilə yazıb göstərmişik.

Biz birinci növbədə əmniyyət, ondan sonra milli hərəkatımızı idarə və İran azadlığını təmin etmək üçün əncümən əyalətidən ibarət olan bir mərkəz siql vicuda gətirməliyik.

Firqənin işi başqadır. Onu, dövlət və Hökumət yerinə qoymaq olmaz. O, xalqın gözünü açıb möhkəm bir intizam altına çəkmək, o vasitə ilə ümumun mənafeini təmin etməyə çalışır. Xalqın hüququ, fərdi və ictimaı işlərini idarəetmək dövlət təşkilatının işidir. Bu təşkilat iyalət və vilayt əncümənləri şkilində ola biləcəkdir.

Əncümənlərin ixtiyaratı çox vəsidir. Onlar bütün dövlət idarələrinın işlərinə yetişə bilər və əyalətin malı, fərhəngi və behdaştı məsələlərini müstəqil bir surtdə müzakirə edib bu xüsuslarda ciddi tədbirlər görə bilər.

Qanun əsası bütün İran xalqları və əyalətləri kimi, Azərbaycan xalqına da bu ixtiyarı vermişdir. Bildiyimiz kimi, Azərbaycan əncüməni İranın məşrutə tarixində böyük rol oynamışdır. O, əncümndə şirkət edənlərdən ağayi Rəfii (Nizamüldövlə)nin xoşbəxtanə burada təşrifləri vardır. Özləri də firqəmizin müəsislərindəndirlər. Aqayi Müstəşarüldövlə də bu tarixi əncümnin üzvlərindəndir.

Bu simalar biz Azərbaycan xalqının aldığı böyük haqq və ixtiyardan diri şahıd və möhkəm dəlil və mədrəkdirlər.

Burada böyük bir həqiqəti sizə gərək deyim. Bu mərufdur, deyirlər: «Haqqı almaq lazımdır, onu verənməzlər».

Mənim əqidəmə görə, bu kamil bir şüar deyildir. Mən deyirəm haqqı almaq şayəd ki, asan bir işdir. Onu saxlamaq şərtdir.

Əgər bizim qəhrəman məşrutəxahlarımız bu nüktəyə təvəcceh edib ilğfal olmasaydılar, indi Azərbaycan, bəlkə İran tamamilə dünyanın ən azad, ən dəmokratik məmlkətlərindən biri olmüş və düçar olduğumuz fəqər, fəlakət, aclıq və səfalət qabağımıza çıxmamışdı.

Azərbaycan xalqı qırx il bundan əvvəl təşkil etdiyi əncümən əyaləti vasitəsi ilə özünün siyası rüşd, və istedadını sübut etmişdir.

Firqəmiz bu istedad və ləyaqəti dünyaya sabit edib onun qabağına çıxarılan maniələri ortadan qaldırmalıdır.

Demokratlıq ən mütərəqqi və ali bir fikirdir. Biz onu tam mənasıyla həyata keçirməyə çalışəmalıyıq. Biz var qüvvəmiz ilə çalışacağıq ki, millət əfradının hamısı dövlət işlərinə müdaxilə edəbilsin və hər bir fərdin iradəsi məmləkətin müqddəratında müəssir olsun.

Bundan əlavə, qabağımızda böyük islahat durmuşdur. Əvvəli kəndli ilə ərbablar arasında tövlid olmuş ixtilafları adilanə bir tərz ilə həll və rəf etməliyik. Sonra fərhəng və behdaşt məsələsi bizcə ən böyük məsələlərdəndir. Fərhəng və behdaştsız bir millət öz istiqlal, həyat və azadlığını saxlaya bilməz.

Mən keçmiş nitqlərimin birində hənuz Fəransa, Aləman qüvvələrinin işğalı altında ikən həmin bu yerdə firəng millətinin yaşayıb azad bir surətdə öz həyatını idamə verəcəyini pişguluq etmişdim. Bu peyğəmbərlik deyil idi, mən o mədəni millətin fərhəngindən, tarixi mübarizələrindən, bilik və behdaşta olan təvəccehindən kamilən xəbərdar idim.

Bizim arzularımızdan ən böyüyü ümum xalqın savadlanmasıdır. Savadlı və sağlam xalq heç vaxt zülüm və fişara təhəmmül etməz. İnsanlarla heyvanlar arasında olan böyük fərq də bundan ibarətdir.

İnsan ictimai bir məxluqdur. O tək öz başına yaşarmır və onun məqsədi fəqət şəxsi həyatını təmin etmək deyildir. Bəşər ictima üçün yaşayır. Ona görə ictımaın mənafeini şəxsi mənafeindən yuxarı tutmalıdır.

Hərəks öz başını saxlamaqdan üçün yaşasaydı, dünyada böyük simalar, fədakar qəhrəmanlar və öz canlarını vətən və millət yolunda fəda edən rəşid insanlar tapılmazdı. Bu fədakarlıq fəqət bilik, fərhəng, təşkilat və əxlaq nəticəsidir. Biz gərək cəmaətin mənafeini öz şəxsi mənfəətlərimizə tərcih verməyə adət edək və bu vasitə ilə xalqımızı fəlakətdən qurtaraq.

İftixar, mal və mikənt şəxsi yaşayışda deyildir. Dünyada başı uca adamlar ümumən xalq xadimləri olmuşlardır, cavanlarımızı bu ruhda tərbiyə etəməliyik. İftixar, şərəf qazanmaq istəyirsən xalqa xidmət etməlisən. Bunu gərək hamı bilsin və bu yol ilə qazanılan şərəf və iftixarın məzəsini anlasın.

Biz tarıxdan çox danışa bilərik. Keçmişimiz də iftixarla doludur. Lakin bu kifayət etməz. İftixar və şərafəti özümüz öz əlimizlə kəsb etəməliyik. Sədinin həkimanə sözü bizə dərs ibrət olmalıdır.

Miyrase pedər xahi, elme pedər amuz

Kin male pəeər xərc təvan kərd be dəh ruz

Biz ata- babamızın gördüyü işləri özümüzə sərmaya qayırıb onu xərcləyib qurtarmayaq. Bəlkə şücaət, rəşadət və fədakarlıqda onlara təqlid edib getdikləri yol ilə gedək, onların qazandıqları iftixar və şərafətə nail olaq.

Bizim fikirimizi məşğul edən məsələlərdən birisi də dil məsələsidir. Bu, biz Azərbaycanlılar üçün çox mühüm və əsası məsələlərdəndir.

Fərhəng məsələsini biqeydlik ilə başdan salmaq olmaz. Çünkü millətlərin həyatı ona bağlıdır. Bədbəxtanə bu günədək məmləkətimizi idarə edənlər bu mövzuu sərsəri sayıb ona əhəmmiyyət verməmişlər.

Bundan əlavə, Azərbaycanın fərhəng  maarif mövzuunda məxsus bir vəziyət vardır. Əhalımız qərnlərdən bəri müəyyən bir dil ilə danışmaqdadır. Bu dili sadə qaba tədbirlər ilə əvəz etməyə çalışanların əllərində qane edici dəlilləri yoxdur.

Altı yeddi yaşında taza dil açmış uşağa yabançı bir dili təhəmil etəmk cinayətdir. Təlim tərbiyət ilə məşğul olanlar əksər Azərbaycanlıların əsəbiliyini bunda görürlər.

Anadilində yazıb oxumağı qadağan etmək fərhəng təkamülün qabağını almaqdeməkdir.

Beş milyonəndan ziyadə kənd və şəhərlərdə yaşayanlarımız qalsın, hətta məhəlli məktəblərdə təhsil edənlərimiz belə ömürlərinin axırına qədər fars dilini düzgün tələffüz etməyə qadır deyildirlər.

Rizaxan iş başına gəlib Azərbaycanı parçalamaq siyasətinə başlamadan əvvəl Azərbaycanda milli teatrlarımız səri bir surətdə tərəqqi etməkde idi. Xalq, arvad və kişi tamaşalarda kəmal meyl ilə hazır olub hünərvərlərimizin əsərlərin seyr edir və bu vasitə ilə əxlaq və mənəviyyat cəhətdən millətimiz tərəqqi etməkde dəvam edirdi. Fəqət məcburən teatrimiz fars dilinə təbdil edilən kimi nümayiş salonları

mız bağlanmağa məcbur oldu. Çünkü xalqımızın əksəri bu dili anlamağa qadır deyildi.

Dili vətənpərəstliyə müxalif görənlər vaqiən cahıl adamlar gərək olsunlar. Çünkü bu işin tazalığı yoxdur. Hənuz indi də məscidlər və mənbərlərdə vaizlərimiz xalqın anladığı Azərbaycan dilində vəz edib diyni vəzifələrini əncam verməyə dəvət edirlər. Biz Azərbaycan dilinin müxaliflərindən soruşuruq, bu işdə nə pislik vardır? Nəyə bir dilədən mənbərdə istifadə etmək olur, amma mədrəsələrdə olmür?

Vangəhi Azərbaycan dilində yazıb oxumaq məsələsinin tazalığı yoxdur. Qırx neçə il bundan əvvəl İran fərhənginin iftixarı sayılan Mirzə Həsən Rüşdiyə Təbərizdə təşkil etdiyi mədrəsənin ilbtidai dövrəsini ana dilində tədris etmişdir. Onun o tarixdə təlif və nəşr etdiyi dərs kitabı əlimizdədir. Bundan əlavə, burada yazıb oxumağı ana dilindən başlayanlar az deyildirlər.

Eşitdiyimizə görə ağayi Fiyuzat və ağayi doktor Rizazadə Şəfəq də bu dildə Azərbaycan məktəblərində vaxtında dərs demişlər.

Bundan əlavə, mən kəndlərdə və xırda şəhərlərdə müəllimlər gördüm ki, fars dilini əbədən bilməyən kəndli və əsnafa bu dildə fərhəng mövzuunda nitq edirdilər.

Məxsusən Salmasda bu gülünc işın lap qabarıq şəkilini keçən il görməgə müvəffəq oldum. Mən Salamas sözünü məxsusən işlətdim, çünkü bizim şahpur Əlirzaya iradətimiz yoxdur. Şahpur sözü onun əxlaqı cinayətlərini nəzərdə mücsm edir. Səttarxan xiyabanının da Pəhləvi adlanması qulaqlarımızı xəraş edir, ruhumuzu incidir. Təbrizdə Azərbaycanlını qurbanlıq qoyunu kimi parçalayan Rizaxan Pəhləvi adına xiyaban ola bilməz. Onu Təbriz əhalisi öz milli qəhrəmanı Səttarxan adına adlandırmışdır. Postxanamız bunu bir dəfə bilməli, Pəhləvi adına gələn məktubları geri qaytarmalıdır. Təbrizdə Pəhləvi xiyabanı yoxdur. Böyük xiyabanımız böyük Sərdarımızın adınadır. O belə gərək məşhur olsun.

Axırda təkərar edirəm, biz İranın istiqlalına kamilən əlaqəməndik. Onun bir qarış toprağını ayrı bir ölkəyə vermək fikiri abəda meydanda yoxdur. Bizim istədiyimiz qanun əsasının bizə verdiyi daxili haqq və mədəni xudmuxtariyyətdən ibarətdir. Dil məsələsi də bunun cüzvüdür.

Biz müraciətnaməmizdə dediyimiz kimi öz evimizin işlərini özümüz idarə etmək fikirindəyik. Ondan ötrü var qüvvəmizlə çalışacağıq.

Zor ilə İran xalqlarını əsarətdə saxlayanlar bunu bir kərə düşünməlidirlər...

(Ağayi Pişəvərinin nitqi hazırlar arasında əmiq təsir buraxaraq gurultulu və uzun sürən alqışlarla xatəmə tapdı.)

**(Azərbaycan» ruznaməsi yekşənbə 25 şəhrivər, şumarə 4, düşnəbə 26 şəhrivər,şumarə 5, 3 şənbə 27 şəhrivər, şumarə 6, 4 şənbə 28 şəhrivər, şumarə 7, 5şənbə 29 şəhrivər, şumarə 8, yekşənbə əvvəl məhr şumarə 10, düşnəbə 2 məhr, şumarə 11,**

# Əziz Vətəndaşlar

Məşrutə və qanun əsasini ələ gətirmək, Milli Hökuməti möhkəmlətmək, xalqın azadlığı və ölkənin istiqlalı üçün Azərbaycanın qəyur xalqı, dost və düşmənin təsdiq etdiyi bir şəhamət və fədakarlıqla canbazlıq edib, qurbanlar verib, qanını axıdıb və xəsarətlərə təhəmmül etmişdir.

Çox təəssüf olsun ki, bu nəcib xalq və bu qızıl tovlid edən torpaq istər məşrutədən qabaq, istər ondan sonra, Rizaxanın diktatorluğu dövründə və ya bu demokrasi dövrdə həmişə mərkəzi hökumətin bir ovuc mürtəce, xüdpəsənd və çürümüş adamları tərəfindən tovhin və təhqir edilmişdir.

Nüfus cəhətindən İranın üçdə birini təşkil edən Azərbaycan, azuqə və büdcə cəhətindən isə bəlkə də onun beşdə ikisini təmin edə bildiyi halda, mərkəzi hökumətin nəzərində əhəmiyyətsiz bir qiymətə belə malik deyildir.

Azərbaycan əhalisinin üçdə bir hissəsi İranın digər əyalətlərində veylan və sərgərdan dolanıb, yoxsulluq və fəlakət içində yaşamaqdadır.

Dövlətin Azərbaycan və Azərbaycanlılar haqqında qail olduğu təbizat (əlbəttə mənfi mənada) elə bir haldadır ki, onu izah etməyin lüzumu yoxdur. Fəqət Təbriz ilə Tehranın abadlıq və ümranını müqayisə etmək, İrana başdan başa dəmir yol çəkib Miyanada dayandırmaq, şəhrdarıların büdcəsini tənzim etmək, cirəbəndlik əcnasın miqdarı və bunun əhaliyə paylanması tərzi və yüzlərlə belə misallar o qədər dir ki, onları saymaq vaxtı uzatmaqdan başqa bir fayda verməz. Bunların hamısı bizim iddialarımızı sübut edir.

Mərkəzi hökumət müxtəlif dövrlərdə və indi Azərbaycan və Azərbaycanlılar haqqında rəva gördüyü zülm, sitəm və haqsızlıqları heç bir imperialist dövlət müstəmləkə ölkənin, bu ölkənin əhalisinin haqqında rəva görməmişdir.

Tarix bu 44 illik müddətdə Azərbaycanlıların əlinə elə münasib mövqelər vermişdir ki, onlar edə bilərdilər fürsətdən istifadə edib, məmləkətin qanun əsasisinin verdiyi hüququ ələ gətirə idilər. Lakin hər vaxt mərkəzi hökumətlərin hilə və təzvirləri Azərbaycanlılara aman verməmişdir. hər dəfə bir cür aldadıcılıq və hilə ilə onları başdan çıxartmışlar. Bunlar səhldir, hətta mərhum Sərdarmilli və Xiyabani kimi bərcəstə və mütəfəkkir adamları aradan aparıb, bu nəcib və vətənpərəst milləti müstəmələkə əhalisi kimi öz çəngallarında sıxışdırmışlar.

Tarix bizə sübut etmişdir ki, zəhmətkeş, tüccar, ( tacirlər ), əsnaf və malik, hər hankı bir təbəqədən olursa olsun, Azərbaycanlıların nicatı, Azərbaycan naminə, Azərbaycanlı naminə qardaşlıq əlini bir birinə verib, birlikdə Azərbaycanlı heysiyyət və şərafətini müdafiə etsinlər.

Xoşbəxtanə bu zamanlarda bir dəstə pakdamən və vətənpərəst əşxas ki, onların vətənə olan əlaqə məsələsindəki sabiqəsi hamıya vazeh və aşkardır, Azərbaycanın və Azərbaycanlıların tamam ehtiyaclarını, ən mühüm və səadət məsələlərini, yaxşı başa düşüb, Azərbaycan Demokrat Firqəsi adında bir firqə təşkil etmişlər. Hər bir azadixah demokrat Azərbaycanlı müraciətnamənin əsl hədəfi olan 12 maddəlik şüar altında fəaliyyətə başlamışdır.

Liza Hizbe Tudeyi İranın Azərbaycan əyalət komitəsi, Azərbaycan əyalət təşkilatının şəhrivərmah 1324 cü il tarixli Təbriz konfransının qətnaməsinə mütabiq tamam işçilərə, kəndlilərə, roşənfikrlərə, pişəvərlərə, sair azadixahlara, Hizbe Tudeyi İranın tamam üzvlərinə, Hizbə mütəmayil olan şəxslərə və ya bu Hizbin siyasətinə peyröv olanlar müraciət edib uca səs ilə deyir:

Ey Azərbaycanlılar! Siz keçmişin acı təcrübələrindən ibrət alın və indiyə kimi əlinizə düşən münasib mövqelərdən istifadə etməyib, əldən vermişsiniz, indi mütəəssir olun, bir təmiz qəlb və gözəl niyyət ilə, mərdanəliklə ayağa qalxın, hər bir Azərbaycanlıya şayəstə olan şəhamət və pozulmayan səmimiyyət ilə Azərbaycan Demokrat Firqəsinin müqəddəs şüarları altında birləşib, Azərbaycanın tərəqqi və təalisi, məşrutiyyət və qanun əsasinin ehyası, onun maddələrini himayət etmək, birinci növbədə, Azərbaycanın azad və abadlığı olan hədəfə çatmaq üçün mübarizə edib, öz ata - babalarınızın xatirələrini dirildin.

Budur, Hizbe Tudeyi İranın Azərbaycan təşkilatı konfransının qətnaməsi:

# Qətnamə

Cümə 16 şəhrivər 1324-cü il (7 sentuyabr 1945-ci) HizbiTudeyi-İranın Azərbaycan təşkilatının genişəyaləti konfransında Azərbaycan Demokrat Firqəsinin 12 şəhrivər haman il tarixli müraciətnaməsini oxuyub və onun ətrafında bəhs və mütaliə etdikdən sonra konfrans bu qərara gəldi, Azərbaycan Demokrat Firqəsi Azərbaycan xalqının ehtiyaclarını doğru və düzgün düşünüb, ona yaxınlaşmışdır. Azərbaycan xalqı qırx il əvvəldən məşrutiyyət və azadlıq, qanuni-əsası və milli hökumət quruluşu üçün İran daxilində yaşayan millətlərin hamısından artıq fədakarlıqlar edib, qurbanlar verib və xəsarətə mütəhhəmil (təhəmmül) olmuşdur. Buna qırx il tarix boyu yazılan bütün ruznamələr hətta mürtəce ruznamələrin səhifələri də belə şahiddir. Bununla belə istər Rza xan diktaturasından qabaq, istər Rza xan dövrü istər isə şəhrivər 1941-dən bu tərəfə Azərbaycan xalqı hər gün, hər saat və hər dəqiqə iqtisad, maarif, səhiyyə və zindəganlıqda olan bütün sahələrdə geri gedib və öz fəqr və fəlakətini artırmışdır. Azərbaycan kəndləri və şəhərləri gördüyümüz kimi xarabazarlığa dönmüşdür. Azərbaycan xalqı ona baxmayaraq ki, İranın Mərkəzi Hökuməti üçün bütün əyalət xalqlarından artıq ərzaq və maliyyat verir, bütün əyalət xalqlarından dalıda qalmışdır. Mərkəzi Hökumət nəzərində təhqir və tohinə məruzdur.Azərbaycan xalqının üçdə bir hissəsi istiysal nəticəsində Tehran və digər əyalət şəhərlərində səfil və sərgərdən bir halda yaşayırlar. Azərbaycan və onun xalqı Mərkəzi Hokumət nəzərində imperialist məmləkətlərin müstəmləkələrindən heç də fərqli deyildir. Təbiidir ki, hər hizbə o millətin səadəti, azadlığı, öz məmləkətinin ümran (abadlıq) və abadlığı onun əsas məqsədini təşkil edir. Azərbaycan xalqının digər əyalətlərdə yaşayan xalqlar kimi olan ümum ehtiyaclarından savay bir sıra xüsusi ehtiyacları da vardır ki, onu HizbiTudeyi-İran və onun mərkəzi komitəsi və götürdyü siyasi xətdi təmin edə bilmir. Bu xüsusi ehtiyacları Tehranda yaşayan Azərbaycan mühitindən uzaq olan bu mərkəz təmin etməkdən acizdir. Bu ehtiyacları birinci növbədə Azərbaycanın daxilində olub və onun mənafeini yaxından düşünüb və hifz etməyi öhdəsinə alan bir mərkəz təmin edə bilər. Azərbaycan xalqı söz, yox iş və

əməl adamıdır. Azərbaycan xalqı heç bir vaxt illər boyu məclis nümayəndələrinə intixab olacaq şəxslərə alət olub, öz qiymətli vaxtını tələf edə bilməz. Bu xalqı bu yola sövq etmək xəyanətdir. Azərbaycan xalqı nə qədər tez öz sərneveştini müəyyən edib və öz müqəddəratını əlinə alarsa, daha doğrusu, Azərbaycanın daxili xudmuxtarlığını təsbit və təhkim edərsə, milləti bir o qədər xoşbəxt və məmləkəti bir o qədər abad olacaqdır.

Çağırılmış olan Hizbi-Tudeyi-İranın Azərbaycan təşkilatının əyaləti plenumu Təbriz şəhər komitəsi, Əyalət və şəhristan təftiş komisiyonu və bütün Azərbaycan vilayət və məhəlli komitələrindən intixab olunmuş nümayəndələrinin geniş konfransı qəti etdi:

Azərbaycan xalqının tərəqqi, təali (inkişafı) və səadəti və Azərbaycanın ümran və abadlığının təmini yolunda Hizbi-Tudəyi-İranın Azərbaycan təşkilatı istər rəhbərlik nöqteyi-nəzərincə hizbin mərkəzi komitəsindən qət rabitə edərək, (əlaqə kəsmək) bütün təşkilat ilə birlikdə Azərbaycan Demokrat Firqəsinə ilhaq olmağı qərara alır və birləşmənin vəsailini fərahəm etmək üçün Ağayi Sadıq Badigan – 84, Zeynalabidin Qiyami – 80, Məmməd Hüseyn Burhani – 61, Yədulla Kəlantəri – 59, Əbülhəsən Vaqif – 56 ray ilə (5) nəfərdən ibarət olan komisiyon intixab olundu. Əyaləti komitəyə qəti ixtiyarət verilir ki, intixab olunmuş komisiyonun nəzriyyatını həyata tətbiq edib və lazım elamiyə versin.

Yaşasın Azərbaycan xalqının gələcək hoşbəxt həyatı! Yaşasın onu təmin edəcək Azərbaycan Demokrat Firqəsi!

**Konfransın Heyəti Rəiysəsi 1324/6/16**

Konfransın qərarəna görə, Hizb Tudeyi İranın Azərbaycan təşkilatının Azərbaycan Demokrat Firqəsinə ilhaq olunması üçün Ayrılmış beş nəfərlik komision məzkur firqhin mərkəzi komitəsi ilə mulaqat və müzakirat aparıb, aşağıdakı işrləri nəzərdə tutmaq ilə birləşmək məsələsi icra olunsun:

1- Demokrat Firqəsinə mülhəq olan Hizbi Tudeyi İran üzvləri, Hizbi Tudiyə daxil olduqları sabiqə qeyd edilib nəzərdə tutulsun.

2- Hizbin intizam və disiplininə müraat etməmiş adamlar və ya əhali arasında əxlaq pozğunlu ilə məşhur olanlar ki, bir nəhv ailə hizbə daxil ola bilmişlər, belə adamlar Demokrat Firqəsinə qəbul edilməsinlər, belə ki, Hizbi Tudənin əyalət komiytəsi əvəllcədən təsfiyə işlərinə başlamaq fikrində idi.

Liza Hizbi Tudeyi İranın Azərbaycan əyalət komitəsi bu qərara gəlmişdir və Hizbi Tudeyi İranın Azərbaycan əyaləti təşkilat üzvlərinin hamısına ixtar olunur ki, Azərbaycanın hər yerində olan vilayət və məhəlli komiytələr, hovzər, tamam təşkilatı, arşiv, oraq və əsasiyyəni öz məhəllərində Azərbaycan Demokrat Firqəsinə mülhəq edib,ilhaq cələsəsinin surətini runevişt edib əyalət komiytəsinə göndərsinlər.

**Hizbi Tudeyi İranın Azərbaycan əyalət komitəsi**

**( "Xavəre no" Hizbi Tudeyi İranın Azərbaycan əyalət komitəsi orqani şumarə 92, 21 şəhriyvər 1324, 12 septambr 1945)**

# Firqəmizin Tarixi İşi

Firqəmizi vücuda gətirməyə pişqədəm olan Müəssislər Heyəti keçən pəncşənbə günü müvəqqəti təşkilat komitəsi intixab etdikdən sonra iyirmi günə qədər rəsmi konqrə təşkilini o komitəyə tapşırdı. Bu taza bir firqə üçün böyük və ağır bir vəzifədir. Onu arzu olunan şəkildə əncam vermək üçün bütün firqə üzvləri yorulmaq bilmədən çalışmalıdır.

Bu günə qədər də Təbrizdə və ətraf şəhərlərdə on mindən ziyadə müxtəlif təbəqələrdən firqəmizin üzvlüyünə qəbul edənlər olmuşdur. Buna əlli mindən ziyadə bizə mülhəq olmaq istəyən Hizbe Tudeyi İran üzvlərini əlavə etdikdə geniş və böyük bir cəmiyyətin ətrafımıza toplandığını görəcəksiz. Bu cəmiyyəti təşkil edib onları intizam altına almaq və aralarından konqrəyə nümayəndələr intixab etmək beş - üç nəfərin əlindən gələn işlərdən deyildir. Bu işdə dediyimiz kimi hamı çalışmalıdır.

Konqrənin tamamilə demokrat ünsürlərdən və ümum təbəqat nümayəndələrindən təşkil olunmasını nəzərdə tutub sabıq Hizbe Tudə üzvlərindən fədakarlıq gözləyirik. Bunlar hər yerdə çalışıb müstəqimən demokrat Firqəsinə yazılan üzvlərdən (mümkün olduğu qədər ) intixab edib konqrəyə göndərməlidirlər.

Məhəllərdə firqə birləşdiyi hallarda bunu nəzərdə tutmalıdır. Hizbe Tudəyə və onun fədakar üzvlərinə biz çox ehtiram edirik. Leykən onlar Demokrat Firqəsinin məram və şüarlarını nəzərdə tutub taza və ümum təbəqata mənsub olan üzvlərə fəaliyyət meydanı vermək üçün güzəştə getməli. Bəzi yerlərdə onların saylarının azlığını nəzərdə tutmayıb birinci növbədə onlardan intixab etməlidirlər.

Hizbe Tudeyi İran əməldə təbəqatı bir hizb olmuşdu. Onun sıralarına fəhlə, kəndli və bəzi aşağı təbəqəyə mənsub olan roşənfikrlərdən başqa təbəqələrə yol verilməzdi. Onun vəzifə və şüarları da fəqət bu təbəqələrin məqasidi üstündə təyin edilirdi. Ona görə Hizbe Tudə üzvləri çox sol tanınmış və sol şüarlar işlətməyə adət etmişlər.

Demokrat Firqəsinə mülhəq olmaq istəyən şəxslər gərək öz danışıqlarını və şüarlarını tədil edib, bizim təqib etdiyimiz şüarları qəbul eləsinlər.

Əgər bizim ilə milli azadlıq yolunda çalışmağa hazır olmuşlarsa hətta özlərinin rəftar, kirdar və qoftarlarını da bizim rəftar, kirdar və qoftarlarımıza tətbiq edib uyğunlaşdırıb, tamam mənasilə bir demokrat olmalıdırlar.

Biz üzvlərimizdən iş tələb edirik. Boş sözlər və xalqı mütənəffir edən (demaqoqlara) avamfəriblərə yaraşan acı töhmətlərin bizim bazarda rəvaci yoxdur.

Biz milli azadlığı tamın etmək üçün hər kəsdən fədakarlıq tələb edirik. Malik, rəiyyət, ərbab və kargər hamı Azərbaycanın tərəqqi və səadəti yolunda bu fədakarlığı göstərməlidir.

Biz arada çıxan ixtilafları saziş yolu ilə həll etməyi ciddi və lazımlı bir mövzu bilirik. Mübarizə lazımdır. Leykən o milli azadlıq və vətənin tərəqqisi yolunda aparılmalıdır.

Kim azadlıq və tərəqqiyiə muxalifət edərsə, o millətimizin qəddar düşməni dir. Onunla amansız bir surətdə mübarizə etməliyik.

Kim əmniyyəti ixlal edib xalq arasına nifrət salırsa, hər təbəqədən olur olsun, o xalq arasından ixrac olunub ictimai hüquqdan məhrum edilməlidir.

Konqrəmizdə şirkət etmək istəyənlər və ona nümayəndə intixab etməyə gedənlər bu xətt hərəkəti nəzərdə tutmağa məcburdurlar.

**Mir Cəfər Pişəvəri**

**«Azərbaycan » nömrə 6,27 şəhrivər , 1324 cü il ,**

# Ehtiyaclarimiz Təmin Edilməlidir

Hər bir xalq və camiənin həyat və bəqası, yəni yaşayıb yaratması, müəyyən şərait və vəsaitdən asılıdır.

Milli şəkildə və beynəlmiləl məzmunda mədəniyyət, geniş xalq kütlələrinin sağlamlığını təmin edən səhiyyə, əhalinin varlıdan tutmuş yoxsula qədər hamının savadlanıb, təhsili-elm etməsi, sənaye və karxanaların genişlənib iqtisadiyyat və sərvətin tərəqqisi, sairlər hal-hazırda bir xalqın həyat və bəqası üçün zəruri şəraitdir.

Əgər bu şəraitdən biri naqis olarsa, o xalq naçar olaraq, mədəniyyət qafiləsindən dalı qalıb və nəhayət, məhv olub gedəcəkdir.

Beynəlmiləl irticanın muzduru olan Seyid Ziya-nın 1299-cu şəmsi (1921-ci il) dövlət çevrilişindən əvvəl və Riza şah Pəhləvinin hökumətindən qabaq, Azərbaycan özünün xüsusi coğrafi mövqeiyyəti sayəsində Asiyanın sərvətli ölkələrindən birisi idi. Azərbaycanda, Azərbaycan dilində qəzetlər nəşr olurdu. Mədrosələrdə Azərbaycan dilində dərs keçirilirdi.

Azərbaycan dünyanın böyük ölkələri ilə ticarət və iqtisadiyyat münasibəti yaratmışdı. Beləliklə, Azərbaycanın XX əsrin əvvəllərinədək özünə layiq sərvət və ticarəti, maarif və mədəniyyəti var idi.

Lakin Seyid Ziya və Riza şah və bunların tərəfdarları vücuda gəldikdən sonra, Azərbaycan məhv olmağa üz qoydu.

Tehranın mürtəce hökuməti Azərbaycan xalqına öz doğma ana dilində yazıb oxumağı qadağan eləyərək, onun milli mədəniyyətini puça çıxartmağa başladı.

Təbrizin dünya ilə iqtisadi və ticarət rabitələrini qət edərək xalqın maddi sərvətinin ən alçaq səviyyələrə tənəzzül etməsinə səbəb oldu.

Azərbaycanda orta məktəblərin qapıları daxı bağlanıb yalnız kiçik ibtidai məktəblər, o da çox pis vəziyyətdə qaldı.

Azərbaycan xalqının milyonlarla nüfusunun əmək bəhrəsini müxtəlif ünvanlarla qəsb edib xalqı taladı, səhiyyə, maarif və mədəniyyətdən, nümunə üçün də olsa, heç bir asar qoymadı.

Beləliklə, 30 ilin ərzində Azərbaycanın iqtisadi, ictimai vəziyyəti orta əsrlər mədəniyyəti səviyyəsinə tənəzzül edib və nəhayət, min ildən artıq təntənəli tarixi olan bıyük Azərbaycan xalqı məhv olmaqda idi. Minlərlə hökmranlar bizi məhv etmək istəyirdilər. Azərbaycan Demokrat Firqəsi çoxmilyonlu və mübariz Azərbaycan xalqının namuslu hərəkatı ilə bu bədbəxtliklərə son qoyacaqdır.

Azərbaycan Demokrat Firqəsi öz şüarlarını xalqın sinəsində alovlanan odlardan  almışdır.

Xalqa təkiyə edib, xalqın arzu və əməllərpni həyata keçirən bir firqə həmişə müzəffərdir. Bizim işimiz haqdır və qalibdir.

**Səməndər**

**«Azərbaycan» № 6, 18 septambr 1945-ci il. 27 şəhrivər**

# Ayi Dostluğu

Firqəmizi qorumaqda şirkət edən məsləkdaşlarımızın boyunlarında olan ağır yüklərdən biri də bizə yaxşılıq etmək istəyənlərin anlaq, huş və zəkalarını yoxlamaqdan ibarətdir. Siyasi təşkilat sadə bir ittihadiyyə deyildir. Onda çalışmaq istəyənlərdən təbii ağıl və şüurdan əlavə məslək, əqidə və siyasi bilik tələb edilir. Qabağa çıxan siyasi, hüquqi, milli və ictimai məsələlərdə düzgün düşüncə və açıq fikir istənilir.

Biz çox gözəl bilirik ki, bir çox tarixi səbəblərə gırə xalqımız dünyanın müasir və mütərəqqi xalqlarından yüz illərcə dalı qalmışdır. Bu xalqı birləşdirib böyük məqsədə tərəf aparmağa çalışan bir firqə mütərəqqi xalqlar içərisində vücuda gələn firqələr kimi üzvlərinin hamısını savadlı və siyasi məlumata malik adamlardan toplaya bilməz. Xalqımız avam, cahil və dalı qalmış xalqdır. Onun mədəni və siyasi cəhətdən tərbiyə edilməsi də firqəmizin öhdəsinə düşür. Biz naçar və məcburuq minlərcə kənd və şəhər zəhmətkeşlərini təşkilatımızın içərisinə alıb, orada tərbiyət edək. Bu inkaredilməz bir həqiqətdir. Bununla belə firqənin əsas səngərləri gərək düzgün, düşüncəli və sağlam fikirli adamların əlinə tapşırılsın.

Cahil adamlar bilib anlamadan firqəyə böyük zərbələr vura bilər. Məxsusən kəndlərdə firqə sözü çox yanlış təbir edilmişdir. Onun başında duranlar çox yerlərdə dıvlət idarələrinin vəzifələrini mənimsəmiş və bəzi yerlərdə firqə məsulları öz vəzifələrini unudub dehdar və kəndxudalardan əlavə məhkəmələrin və qanuni idarələrin də işini əllərinə almışlar.

Onlar bilməlidir ki, vurmaq, döymək və xalqın hüquqi işlərinə qarışmaq firqə rəhbərlərinə yaraşan işlərdən deyildir. Biz kənd ya şəhərlərdə firqə ünvanı daşıyan təzə kəndxudalar, təzə jandarmlar və boynuyoğun qolçomaqlar meydana çıxarmaq fikrində deyilik. Bunların dostluğu ayı dostluğundan daha xətərnak ola bilər.

Kəndlərdə və şəhərlərdə çalışan fnrqə məsləkdaşlarımız bnrinci növbə təbliğatçı, ikinci növbədə təşkilatçı olub xalqı firqənin ətrafına toplamaqla böyük məqsədimizi icra etməyə çalışmalıdırlar.

Onlar gərək bilsinlər ki, firqə başçısı qədim imamcümələrin işini görməli deyildir...

Kəndliyə zor demək, öz şəxsi dost-düşmənliyini firqə sıralarına yeritmək istəyən istifadəçi ünsürlərlə firqəmiz amansız bir surətdə mübarizə edəcəkdir...

Məxsusən kəndlərdə sadə və salim kəndliləri uzaqlaşdırmaqla Tudə təşkilatına soxulan istifadəçi canavarlardan ciddi surətdə ictinab edib, onları demokrat firqəsinin qapısından içəri qoymaq olmaz, firqə əvvəldən işi möhkəm götürməli, şööbə və komitələri təmiz və düzgün adamlar əlinə tapşırmalıdır.

Təşkilatımız qoy ədədcə böyük olmasın, amma intizam və istehkamca qüvvətli olmalıdır. Oğru, yalançı, lovğa, əvamfərib və xalqı pisləyib özünü qabağa çəkən adamları qovub eşiyə salmaq lazımdır.

Firqə, şəxslər deyil, ümum millətin səadəti üçün çalışır, ümum zəhmətkeşlərə nicat vermək istəyir. Beş yumurta iki batman soğan ilə kəndliyə nicat vermək istəyən və bu vasitə ilə kəndlərdə nifaq salanlar kəndlilərə ayılar kimi xidmət edirlər.

Doğrudur, ərbabların zülmü həddən aşmış, dövlət məmurlarının da qarnı doymaq bilmir. Lakin gərək bu məsələni firqəmiz əsaslı bir surətdə bütün ölkə içərisində həll etsin.

Bu yolda çox ciddi qədəmlər götürülmüşdür. Azərbaycanda yaşayan maliklər ilə danışıq başlanmış, çox tez bir surətdə ümumi bir qərar çıxarılacaqdır.

Azərbaycanı tərk edib gedən maliklər bizdən heç bir kömək gцzləyə bilməzlər.

Kəndlini alət edib öz ciblərinin xeyrinə çalışanlar firqəmizdən tamah dişlərini çəksinlər. Biz onların kiçik məqsədlərinə alət ola bilmərik. Bu gündən sonra gedib цz yerlərində oturmalıdırlar.

Əgər kəndlərdə ərbablar kцhnə mahnılarını başlamaq istəsələr firqəmiz onlara цzünün haqq sözlərini. deməyə qadirdi.

Biz əmniyyət və birliyə hər bir işdən artıq əhə.miyyət veririk.

Bunu hər bir kəs düşünməlidir.

**Mir Cəfər Pişəvəri**

**«Azərbaycan» № 7, 19 septambr 1945-ci il. 28 şəhrivər**

# Ana Dili

Dünyada hər şeydən şirin, sevimli, cazibədar ana dili dir. Hər hansı millətin azad ana dili olmasa, o millət məhv və nabud olar. Çünki ana dili olmayan millətin maarifi və ədəbiyyatı ola bilməz, maarifi olmayan bir millətə yabançı ellər qəyyum və yaxud ağa olub onları qul halında saxlayarlar. Odur ki, neçə illərdir Azərbaycan xalqının dilini və hüququnu qəsbkar qovmlar əlindən alıb, özlərinə həmişəlik qul hesab eləyib cəbbaranə rəftar etməkdə idilər. Hətta zülmün dərəcəsi o qədər şiddətli olmuşdu ki, Azərbaycan camaatına öz ana dilində dərs oxumağa icazə verilmədiyi kibi, idarələrdə də öz dili ilə danışmağa da icazə vermirdilər. Bu şiddətli zalımanə fişarlara baxmayaraq rəşid odlar, alavlar ovladı Azərbaycanlılar öz sevimli ana

dillərində xəlvət söhbət edib və xüsusi ictimalarında danışıq aparırdılar və məscidlərdə isə üləma Azərbaycan dilində camaata danışırdılar.

Ey dünyanın rəşidtər övladları hesab olunan Azərbaycanlılar, bu gün dünyanın əsir millətləri öz haqlarını qasiblərdən almağa icma ediblər və haqlarını almaqdadırlar. Bəs nə olub bizə dalıda qalaq, biz də dünya millətləri cərgəsinə daxil olub öz qanuni haqlarımızı istəməliyik və bütün dünyada olan azadixah xalqlara sübut etməliyik ki, bizim də öz ana dilimiz və ədəbiyyatımız vardır, biz də qeyr xalqlar kimi azad yaşamalıyıq və azad müstəqill maarifimiz olmalıdır.

**Ildırım**

**(« Azərbaycan» nömrə 8, şəhrivər 29, səptambr 20)**

# Xaricə Vəzirləri Şurasına, London Əncüməninə Göndərilən Teleqraf (1)

**Amerika** Müttəhid Cümhuriyyətləri, Xaricə Vəziri cənab Brenes,

**İngilistan** Xaricə Vəziri Cənab Boven,

**Şuralar** Cümhuriyyətləri İttifaqı Xaricə Vəziri cənab Molotov,

**Fransa** Xaricə Vəziri cənab Bidö,

**Çin** Xaricə Vəziri cənab Van-Şiy-Betisz.

Böyük demokratik dövlətlər qanlı faşist üsul-idarəsini məhv etdikdən sonra dünyanın çox məmləkətləri adilanə demokratik üsul-idarəsi yaratmışdır. Qabaqlarda zülm altında əzilən cahanın çoxlu qovm və millətləri tarixi Atlantik Mənşuruna (Xartiyasına) müvafiq olaraq öz müqəddəratlarını təyin etməyə başlamışdır.

Hər xalq öz milli mədəniyyətini, iqtisadiyyatını və güzəranını qaldırmaq üçün demokrası rejimin nemətlərindən istifadə etmək istəyir. Mütəəssifanə İranda gün-bu gün diktatorluq təhlükəsi artmaqda və faşist ünsürləri Riza şahın mənhus hakimiyyətindən sonra əldə edilən natamam azadlığı belə boğmaq üçün hər cür fitnələrə əl atmaqdadır. Həm əyalətlərdə və həm də paytaxtda azadxahlar təqib olunur. Demokratik hərəkatı təmsil edən ruznamələr (qəzetlər) və cəmiyyətlər silah gücü ilə dağıdılır. İrtica qüvvələri təzədən sabiq Riza şahın istibdad rejimini istəmək üçün İranın namuslu azadxahlarının qanını tökməkdən çəkinmirlər.

İranda beş milyon nüfusa malik olan biz Azərbaycanlıların vəziyyəti daha təhəmmül edilməzdir. Azərbaycan milləti uzun illərdən bəri irandakı azadlıq nehzətinin ələmdarı olmağına baxmayaraq öz torpaqlarında fəqr və biçarəlik halında, hər cür hüquqdan məhrum halda yaşamaqdadır. İranda bu vaxta qədər ağalıq edən irtica hakimiyyəti nəticəsində Azərbaycan milləti öz milli mədəniyyəti tərəqqisinə çalışmaq, xaraba şəhərlərini abadlaşdırmaq və xalqın fəlahət (kənd təsərrüfatı) behdaşt (səhiyyə) və sair

ehtiyaclarını rəf etmək və hətta öz uşaqlarını ana dilində belə oxutmaq üçün heç haqq və ixtiyara malik deyildir. Dünyanın qədim xalqı olan və min illər ərzində böyük mədəniyyət və sənət əsərləri yaratmış Azərbaycan xalqı indi istibdad və diktatorluğun aradan götürülməyə başlandığı bir zamanda öz hüquqlarını tələb edib və bu müqəddəs yolda mübarizəyə qalxmışlar.

Biz Azərbaycanlılar Atlantik Mənşurunda göstərilən hər bir millətin öz müqəddəratını özü təyin etmək əqidəsinə dərin bir iman bəslədiyimizi və bu acı vəziyyətimizi böyük mütəffiq dövlətlərin təşkil verdiyi vəzirlər şurasına yetiririk.

Biz bütün İranda həqiqi demokrasi üsulun bərpasının və Azərbaycan xalqına daxili azadlıq və muxtariyyət verilməsini, ümum məmləkətin adilanə qanunlarını gözləməklə bərabər, Azərbaycanın öz sərneviştini özü təyin etməsini istəyirik.

Biz böyük mütəffiq demokrasi dövlətlərin xalqımızın bu tarixi və adilanə tələbində bizə kömək etmələrini, beş milyondan artıq Azərbaycan xalqı adından tələb edirik.

Azərbaycan xalqı əmindir ki, bütün millətlərə və qövmlərə milli azadlıq və xilaskarlıq vəd etmiş böyük müttəfiq demokrasi dövlətlər bizim də tələbimizi və təbii haqqımızı nəzərdə tutacaq və öz köməklərini bizdən əsirgəməyəcəklər.

Bu qətnamə Təbriz şəhərində Şir Xorşid teatri binasında 1500 nəfərdən mütəcaviz Azərbaycanın müxtəlif təbəqələrindən təşkil olunmuş konfransda qəbul olunmuşdur.

**«Azərbaycan», Ruznaməsi, nömrə 10, 1 mehr 1324, septambr 23**

1- Böyük dövlətlərin xaricə vəzirlərinin Londondakı toplantısına göndərilən teleqraf

# İrtica Baş Qaldırdı

Hələ müttəfiqlərin qoşunları Tehran darvazasından rədd olmamışdı ki, irtica baş qaldırıb azadlıq yolunda mübarizə edən siyasi cəmiyyətləri fişar altına almağa başlamışdır.

Bəndəri Ənzəli nümayəndəsinin hökuməti nizami məmurlarından Zərrinkəfş vasitəsi ilə şədid bir surətdə yaralanmasını ruznaməmizdə yazmışdıq. Təzə gələn xəbərlərdə deyilir ki, bir çox azadixahlar toqif edilmiş, sol cərəyana mənsub olan cəmiyyətlər qadağan olunmuş. məruf və məşhur azadixahların mühüm bir hissəsi zindana salınmışdır.

Zindanilər arasıpda İran kargərləri şurasının məşhur katiblərindən Riza Rusta da vardır.

Rusta guya Parisdə təşkil olunan Beynəlxalq Kargər İttihadiyyələrinin konqresində şirkət etmək üçün viza alıb bir neçə saatdan sonra  əziymət edəcəyimiş.

Sədr dövlətinin bu vəhşi hərəkəti İranda hökmran olan faşizm hakimiyyətinə sözsüz bir dəlildir. Qoy dünya kargərləri görub, eşidib anlasınlar ki, azadlıq cəbhəsinin ciddi müdafiəçiləri dərəbəylər və müstəbidlər

tərəfindən nə kimi şərait altında mübarizə aparmaq məcburiyyətindədirlər. Qoy Amerikanın, Fransanın, İngiltərənin fəhlələri bilsinlər ki, İranda demokratiya və azadlıq boş və mųvhum sözlərdən ibarətdir.

Qoy bütün zəhmətkeş dünya bilsin ki, bərbəriyyət və zorakılıq elə bir mərhələyə gəlib çatmış ki, minlərcə xalqın hüzurunda suiqəsdə, tohin və təhqirə məruz qalan, məclis nümayəndəsi məclisdə öz şikayətini deməyə qadir olmayır. O, yaralı halda danışmaq istəyirkən xain, yalançı və fitnəkar ünsürlər kəmali-namərdlik ilə məclis iclasını tərk edirlər. Özünün şəhaməti və istedadı sayəsində bütün İranda şöhrət və məhəbbət kəsb edən nümayəndə məcbur olur məclisin tamaşaçıları üçün sözlərini desin.

Bu qabili-təhəmmül bir vəziyyət deyildir. Müttəfiqlərimiz gərək bu irticaın qarşısını almaqda İran azadixahlarına kömək etsinlər. İrtica yaralı əjdaha kimi qudurub həmləyə keçmişdir. Müttəfiqlər bu məsələdə gərək bitərəf qalmasınlar. Ondan ötrü ki, irticanın xainanə pəncəsi altında əzilənlər onların dostluğundan başqa ayrı bir ittiham ilə müttəhim deyildirlər.

Bu gün Tehran həbsxanalarını dolduran azadixahlar il yarım bundan əvvəl ziddi-faşist olduqları üçün həmin oğru və cahil fərmandehlər tərəfindən tohin və təhqir edilirdilər. İndi də bu yalançı pəhləvanlar, bu pəhləvanlar ki, sərbazlığın və İran millətinin şərafəti və namusu hesab olunan əfsərliyin heysiyyət və abırını ayaqlar altına alıb dövlət avtomobillərindən istifadə edərək uzaq şəhərlərə qaçmışdılar. İndi də miyhənpərəst və fədakar sərbaz və əfsərlərin başını aşağı salmaq üçün xalqın başına bəla kəsilib azadlığın kųkünü kəsməyə, azadixahları ayaqdan salmağa çalışırlar.

Biz bu yalançı pəhləvanların şücaətlərini imtahandan çıxarmışıq. Bunlar silahsız xalq üçün qəhrəmandırlar. Mərhum böyük yalançı pəhləvan1 bunu özünün son hərəkəti, yəni paytaxtı tərk edib İsfahana doğru qaçması ilə isbat etmişdi.

İran xalqı təcrübədə görüb anladığını bir daha imtahan edə bilməz. Bizə yalançı qəhrəmanlar və füqəra başında bəla kəsilən qəhrəmanlar deyil, millətin etimadını qazanıb onun səadəti yolunda varlığı ilə mübarizə edən milli azadixahlar rəhbərlik etməli, dövlətimiz, hökumətimiz demokrasi üsuluna inanan şəxslərin əlinə tapşırılmalıdır.

**Mir Cəfər Pişəvəri**

**«Azərbaycan» №11, 24 septambr 1945-ci il.2 mehr**

# Firqəmizin Birinci Konqrəsi Münasibətilə

Müəssislər cələsəsinin qərarı üzrə 1324-cü il mehr ayının 9-da (1 oktyabr 1945-ci il) firqəmizin birinci konqresi dəvət edilmişdir. Bu konqreyə Azərbaycanın tamam şəhərlərindən nümayəndələr gəlməyə hazırlaşırlar.

Bu gün axşam 5-də ümum üzvlərimizin böyük iclası Firdovsi salonunda(1) təşkil ediləcəkdir. Bu iclasda şəhər təşkilatımızın əsası qurulmalıdır.

Konqremizin qarşısında böyük bir vəzifə vardır. O dərvaqe təşkilatımızın məclisi-müəssisan vəzifəsini ifa edəcəkdir.

Konqre çox təcili çağrılmışdır. Lakin o xalqın ehsasatı, şövq və zövqi üzrə qurulur. Ona görə, onun təsmimləri gələcək konqrələr üçün çox qiymətli ola biləcəkdir.

Konqrə birinci növbədə gərək firqəmizin məramnaməsini təsvib etsin. Gələcək fəaliyyətimizin bərnaməsi olan bu böyük sənədin tənziminə artıq dərəcə diqqət etməliyik. Firqəmizin yorulmaq bilməyən müəssisələri bu az müddətdə onu yazıb hazırlamağa müvəffəq olmuşlar. Konqrə isə onu nəzərdən keçirib islah edəcəkdir.

Müraciətnaməmizdə olduğu kimi məramnaməmizin də əsasını məşrutə və qanuni-əsasının ehyası, Azərbaycan xalqının öz daxili işlərini idarə etməkdə muxtar olmasını təmin etmək üçün tezliklə əyalət və vilayət əncümənlərinin intixabı ilə bərabər ana dilimizdə yazıb-oxuyub dövlət idarələrindən istifadə etmək məsələsi təşkil edir.

Bu əsas üzrə məramnamədə kənd və torpaq məsələsi, maarpf və fərhəngin tərəqqisi, Azərbaycanın sənətiləşdirilməsi, həmçinin ticarətimizin düzgün yola qoyulub gündən-günə artmaqda olan işsizliyin qabağının alınması kimi mühüm həyati məsələlər ətrafında əməli tədbirlər və sadə yollar göstərilmişdir.

Biz istərdik konqrəyə intixab edilən məsləkdaşlarımız bu xüsuslarda hazırlanıb öz fikirlərini açıq və aydın surətdə bəyan etməklə firqənnn quruluşunda iradələrini dəxalət versinlər.

Hətta firqəmizə daxil olmamış xeyirxah əşxasın da göstərişlərini biz kəmali-məmnuniyyətlə nəzərdə tutmağa hazırıq.

Firqəmiz xalq firqəsi olub ümum millətə dayandığından xalqın fikrinə çox ciddi surətdə əhəmiyyət verməlidir. Bunu biz həmişə yadımızda saxlamalıyıq.

İnkar etmirik hər bir təşkilat üçün olduğu kimi, təşkilatımıza müxalif olanlar tapıla bilər. Əgər bu müxalifət sırf əqidə və məslək üstündə olmuş olsa bizim bədimizə gəlməz. Lakin, yalançı, müğriz, xudxah və istifadəçi, yaxud mürtəcelər tərəfindən təhrik ya tətmi edilən ünsürlər tərəfindən göstərilən müxali-fətlərlə mübarizəmiz amansız və rəhmsiz olacaqdır.

Əqidə, fikir, məslək bizim nəzərimizdə demokrat olduğumuz üçün möhtərəmdir. Məramnaməmizdə dəxi bu mövzuu çox sərahətlə yazmışıq. Lakin şəyyadlıq, siyasi külahbərdarlıq, fitnəculuq və xalqın ruhunu müzürr təbliğat ilə zəhərləmək, fikir, əqidə və təşkilat azadlığına zərbə olduğu üçün firqəmiz tərəfindən böyük xəyanət sayılır və biz bu kimi cərəyanların genişlənməsinə imkan verə bilmirik. Tülkülər kimi gizlənib müstəbid ruznamələrə yalan xəbər yazanlar adlarını yazılarının altında qeyd etsə idilər, xalq görüb bilərdi ki, nə kimi axmaq və kiçik adamları bizim qarşımıza çıxarmaq fikrindədirlər.

Marağada rəisi-cümhuru nampzəd göstərmək, 888 nömrəli xəfiyyə namından ölü toyuğu küldürə bilən iftiralarla, hətta Tehranın gözübağlı bitərəflərini iğfal etmək mümkün deyildir.

Firqəmpzin müəssisləri öz sözlərin əlani surətdə ruznaməmizdə yazıb xalqa göstərirlər. Böyük konfranslarda danışılan sözlərimnz xalqdan gizli deyildir. Bununla belə yalan şayiələr ilə öz könüllərini şad etmək istəyənlər əcəba dünyanın ən axmaq adamları deyildirmi?

Bizim yalan şayiələrdən elə bədimiz gəlmir. Çünki xalq onların intişar verənlərin müğriz olduğunu bu vasitə ilə daha tez təşxis verə bilər. Qoy hər nə ə-lərinə gəlir yazıb Tehrana göndərsinlər. Ya Tehranda öz

idarələrinin pəncərəsindən eşiyi görə bilməyən ruznamə müdirləri istədikləri sözü quraşdırıb ruznamələrində yerləşdirsinlər. Bunların camiədə heç bir təsiri ola bilməz. Biz həmişə yazmışıq: Yolumuz düz və məqsədimiz aşkardır.

Biz Azərbaycan xalqının səadətini və İranın səfalət və fəlakətdən xilasını istəyirik.

**Mir Cəfər Pişəvəri**

**«Azərbaycan» nö 12, 25 septambr 1945-ci il, 3 mehr**

1 Təbrizdə Firdovsi adına orta məktəb

# Ərbab Və Rəiyyət Məsələsinin Həlli

Ərbab və rəiyyət məsələsi şəhərin xaricində ənzarı cəlb edən məsələərdən biridir. Rəiyyət məqamate mərbutə tərəfindən göndərilən bəxşnaməyə dayanıb Pəhləvi dövrəsində və ondan irləli zamanlarda bəzi tamahkar ərbablar tərəfindən ixtira olunan bidətləri vermək istəmir. Ərbablar isə toyuq bir qiçllıdir deyə, bir qədəm də olsun irəli gəlmir, bir diynar da güzəşt etməyə tənəzzül etmirlər.

Nəticədə xərmənlərin çoxu yığılmamış qalmışdır. Başqa bir tərəfdən də kənlilərin içində bəzi adamlar tapılıb ki, balətanı dibdən vurub bəhrə vermək belə istəmirlər.

Bu məhsulun paymal olması, yağış və qar alətında qalmasına müncər ola bilər. Ona görə mümkündür kəndlini aclıq vadar etsin öz əlinin rəncini ərbabın icazəsinə müntəzir olmadan təsərrüf etsin. Bu surətdə ərbabların narizayəti və dad- qalı ocalacaq, rəiyyət və ərbab ixtilafı gündən günə genişlənənəcəkdir.

Bildiyimizə görə ərbabların əksəri bu ixtilafın tezliklə rəf olmasına tərəfdardırlar. Onlar izafı vergilərdən sərfnəzər etməyə razıdırlar. leykən bəzi nainsaf və boynu yuğunlar bu işə mane olur. öölkədə şuluqluq və hərcmərc yaratmaq üçün zəminə hazırlamağa səəy edir, onsuz da başlanmış həriqi alovlandırırlar.

İstər əmniyyətiyyət və asayişi bərqrar etmək, istərsə ədl və insafi gözləyib zor deməyin qabağını almaq, istərsə məhsulun tələf olmasına yol verməmək üçün dövlət məmurları bu işə bir axır quymalıdır.

Biz arzu edirik ağayi ustandar rəsmən bir bəxşnamə ilə ərbab və rəiyyətin təkliflərini müəyyən etsin və kəndliyə nə qədər vergi vermək lazım olduğunu yazıb göstərsin və hansı bidətlərin ləğv edildiyini ərbablara qandırsın.

Əgər bununla belə ərbablar ixtilafı davam etdirməkdə israr edrsə kəndin ağsaqqalarından bir neçə nəfər və kəndlərdə dövlət nümayəndəsi olan kətxudaların hüzüri ilə xərmənlər götürülsün. Bu surətdə ərbab öz haqqını götürmək istəməzsə, öz əlilə özünə zərər vurmuş olur.

Əgər bu xüsusda ciddi bir qədəm götürülməzsə meydana çıxan hər hadisə və ittifaqa səmacət edən ərbablar ilə kəndliləri əllərində alət edən macəracu ünsürlərdən əlavə dövlət məmurları da məsul hesab olunacaqlar.

Firqəmiz bu ixtilafın adilanə bir surətdə rəf edilməsinə ciddən tərəfdardır. əmniyyətiyyət ümumuni hifz etmək üçün güzşətə hazır olan ərbablara, biz var qüvvəmizlə kömək edəcəyik. Şərartpeşə və macəracu adamların əlində alət olmayacayıq. Qanuni bəhrə verən kəndlilər də bizm səmimi dostlarımız olduğu üçün çalışacayıq onların haqları paymal olmasın. Leykən yumurtadan, döşək pulundan, bayramlıqdan, quzu və cücə kimi birəhmanə vergilərdən ötrü dünyanı qan dəryasına döndərmək istəyən ərbablar ilə, fürsətdən istifadə edib malik və rəiyyət ixtilafı, hərcmərc və şuluqluğa çəkmək istəyən macəracu və istifadəçi ünsürlər ilə Firqəmiz xalq düşmənləri kimi müamilə edəcəkdir.

**Mir Cəfər Pişəvəri**

**(«Azərbaycan» şümarə 13, mehr 4, - septambr 26 )**

# Bizi Öz Halimiza Qoysunlar

Tehran ruznamələrindən biri frirqəmizi tənqid edərkən yazmışdı ki, azərbaycanlıların şikayəti yersizdir. Çünki İranın ayrı əyalətlərinə də təvəccöh edilməmişdir.

Biz ayrı əyalətlər barəsində bəhs etmək istəmirik. Mümkündür bu iddia çox həqiqətə yaxın olsun. Lakin Azərbaycanın mərkəzi olan Təbriz şəhərini o məqalə yazanlar gəlib görsəydilər təsdiq edərdnlər ki, Cəndəq və Bəndərabbas ilə də belə rəftar edilməmnşdir. Urmiyə, Ərdəbil, Xoy, qətən Kaşan və Qum ilə müqayisə edilə bilməzlər. Halbuki, Riza xan meydana çıxmazdan əvvəl bu şəhərlər abadanlıq və mədəniyyət cəhətdən hətta Tehranın özündən belə irəlidə idilər.

Təbrizdə teatr, tamaşaxanalar olduğu zamanda Tehranda bu ad ilə adlandırmaq mümkün olan bir müəssisə belə yox idi. Astarada xalqın öz köməyi və təşəbbüsü ilə açılan mədrəsənin nəzirini İsfahanda görmək olmazdı. Təbrizin, Ərdəbilin ticarət müəssisələri bütün İranda şöhrət və etibarda birinci hesab olunardı. Urmiyyənin gözəlliyi, abadlığı İranı siyahət edən avropalıların əsərlərində mühüm yerlər tutardı.

İndi istəyirdik Azərbaycan haqqında məqalə yazanlar gəlib bu şəhərləri nəzərdən keçirə idilər. Təbriz hətta Qəzvin ilə müqayisə edilə bilməz. Orada əqəllən təzə üsulla icad edilmiş üç asfalt xiyabana təsadüf edplir. Böyük Təbriz şəhərinin mərkəzi xiyabanının yarısı belə asfalt deyildir. Yayda toz-torpaq, qışda palçıq və mirdablar sürünüb sürüklənən camaatı burada saxlayan fəqət naçarlıqdır.

Qışda yanacaq yoxluğu, yayda su qəhətliyindən tebrizin hamamlarından istifadə etmək qeyri-mümkün olan işlərdəndir.

Bağçalar və həyətlərdə olan ağac və göyərti quruyub məhv olub gedir. Xalqın susuzluqdan fəryadı göylərə qalxır.

Sadə bir təhqiqat aparılarsa əhalinin yüzdə yetmişi traxom və sair göz naxoşluqlarına mübtəla olduğunun iddia deyil, həqiqət olduğu aşkara çıxar. İşsizlik xalqımızın əksəriyyətini təhdid edir. Bu cəhətdən şəhərlərimizi tərk edib bir parça çörək dalınca başqa şəhərlərə mühacirət edənlərin sayı gün-gündən artır və qorxulu bir şəkil alır.

Mədrəsələrimiz çox fəna bir haldadır. Xalqın təvəççöh və rəğbətinə baxmayaraq hətta şəhər əhalisi uşaqların yüzdə onunu mədrəsəyə göndərə bilmir. Aclıq və fəlakət nətiçəsində altı yaşlı balaların zəhmətindən birəhmanə surətdə istifadə edilir. Xalı karxanalarında, parça toxuyan əl dəzgahlarında çalışan kargərlərin yüzdə həştadı kiçik yaşlı tədris və tərbiyətə möhtac uşaqlardır. Bunların gündə iki riyal,, bəlkə otuz şahı müzd alanları vardır. Beləliklə, azərbaycanın nəsli kəsilir və Azərbaycan xərabəzar hala düşür.

Azərbaycan xalqı İranın ayrı əyalətlərində yaşayan xalqlara bənzəməz. Bizim kəndlilərimiz qol güçü ilə hasil yaradır. Baqbanlarımız zəhmət və rənc sayəsində abadlıq vücuda gətirirlər.

Ab-həvamızın sərtliyi və ölkəmizdə uzun müddət davam edən qış fəsli xalqımızı fəal və zəhmətkeş, qüvvətli bir xalq olmağa vadar etmişdir. Ona görə nə tək Azərbaycan bəlkə bütün İranda vücuda gələn sənaye bu xalqın qüdrət və dözümünə minpətdardır.

Bəndərşahdan Bəndərşahpura qədər qurulan dəmir yol xətti bizim zəhmət və rəncimizin məhsuludur. Mazandaran və sair şəhərlərdə vücuda gələn fabrikləri Azərbaycan kargərləri dolandırır. Hətta, Tehranın ağır işləri bizim kəndlərimizi tərk edib çörək dalınca gedən cavanlarımızın öhdəsindədir.

Tehran ruznamələri tək qaziyə gedir. Azərbaycan ilə İranın ayrı yerlərində fərq yoxdur deməklə, özlərinin cəhalət və qərəzlərini sübuta yetirirlər.

Azərbaycan Tehrandan bir şey istəmir. Onu öz halına qoysalar kafidir. Ona imkan versələr, öz əlilə öz işlərini idarə etsin, bəsdir. Tehran bizi iflic və müəttəl etmişdir. Göz açmağa yol vermir, xırda bir iş görmək istərsək nəfəsimizi kəsir, əl-qolumuzu bağlayır.

Hər gün bir oğrunu üstandar, fərmandar ünvanı altında əlinə böyük bir çəmədan verib, üstümüzə göndərir. Təzə və iti bir ülküc ilə min dəfələr ilə qırxılmış başlarımızı qırxmaqdan utanmırlar. Neçə aydan ziyadədir şəhər əncüməni intixab etmişik. Hələ onun təsdiqindən bir xəbər yoxdur. Oğrular, dövlət pulunu mənimsəyənlər başımıza hakim kəsilib hər bir qədəmdə qarşımıza əngəl çıxarırlar.

Nə üçün əlli illərlə məmləkəti müəttəl edən oğru, yalançı və xain məmurlar yenə gərək məmləkətə əlaqəmənd olan fəal və təzənəfəs bu azərbaycanlılardan qabaq tutulsun?

Azərbaycanlı, hətta bu naqis qanunlar baqi qalsa belə özünü idarə etməyə qadirdir. Tehrandan biz heç bir kömək istəmirik. Bizi öz halımıza qoysunlar. Bu fəqir vəziyyətdə belə onların xain məmurlarıidan yüz qat yaxşı bir surətdə işləyə bilərik.

**«Azğrbaycan», nö 14, 27 septambr 1945-ci il. 5 mehr**

# Firqə Oyuncaq Deyildir

Xalqın firqəmizə olan hüsn-rəğbəti çoxlarını yuxudan oyadıb təşkilatımıza çəkməkdədir. Müxtəlif təbəqə və dəstələrə mənsub olan əşxas, dəstə-dəstə gəlib yazıb özlərini üzv olmağa müərriflik edirlər.

Bu axının içərisində yaxşı adamlar və sağlam fikirli azadixahlar, təcrübəli demokratlar olduğu kimi,. yalançı ünsürlər də vardır.

Bu ünsürlər kənarda müxalifət etməkdən məyus olub, bizə təşkilatımızın içərisində oyun açmaq fikrindədirlər.

Bunların bəzisi çox şeytanlıq və bədzatlıq ilə işə girişmişlər. Əvvəl firqədən, çəmiyyətdən, məram və məsləkdən dəm vurur, sonra xırda və əhəmiyyətsiz nəzərə gələn iradlarla sadə üzvlərin etimadından sui-istifadə etməyə çalışırlar. Bunların neyrəng və hiylələri çox mahiranədir. Bir vaxt üzvlərimizin və müəssislərimizin bəzilərini təmcid edir, ancaq bir, ya neçə nəfərə nisbət bədbinlik göstərirlər. Ayrı bir vaxt firqə başında duranlardan birinə təməllüq deyir, ayrılarını yarayan-yaramayan töhmətlər ilə ləkələndirməyə və bu vasitə ilə ortaya nifaq salmağa çalışırlar.

Əlbəttə, bu hoqqaların qabağını almaq çox tez bir zamanda mümkün olacaqdır və firqə üzvləri çox tezliklə onları tanıyıb ağızlarını yumacaqlar. Bundan çox bəhs etməyə gəlməz.

Qorxmalı-yaramaz ünsürlərin başçısı əqidə və məslək müxaliflərinin təşkilatımıza soxulmalarıdır. Bunun indidən qabağı alınmazsa firqə çox tez bir zamanda şikəst tapa bilər.

Bunlar firqəmizin sıralarına qeyd və şərtlə daxil olmaq istəyənlərdir.

Bunlar o adamlardır ki, deyirlər: Biz sizin şüarlarınızın hamısını qəbul edə bilmərik. Onların bəzisi bizim səliqəmizə uyğun deyildir. Biz demokrat olarıq amma bu maddələrə səs vermərik. Biz onlara deməliyik ki, siz buyurun öz məsləkinizə müvafiq bir firqə yaradın. Bizim məsləkimiz budur. Kim bu məsləki tamamilə qəbul edərsə bizim cərgəmizə daxil ola bilər. Kim qeyd və şərt qoymaq istəyirsə, buyurub getsin. Firqə ondan ötrü deyil ki, hər kəs onun içində özünə məxsus bir məslək və bir prinsip icad etsin. Firqə həmfikirlər, həmməsləklər təşkilatıdır. Onun bütün üzvləri bir məram və bir nizama tabe olmalıdırlar.

Yalançı ünsürlər eşitdiyimizə görə şəhərlərdə təşkilatımıza yol tapa bilmişlər, onların içərisində mərmuz adamlar da vardır.

Biz bunu aşkar surətdə deyirik: Demokratik firqəmizin məram və nizami daxilində hər kəs öz fikrini bəyan edə bilər. Şüarlarımızı tamamilə qəbul edən əşxasın şədid tənqidlərin eşitmək bizim ən mühüm vəzifələrimizdəndir. Lakin şüardan kənarda edilən təkliflər bizim düşmənlərimizin təlqini olduğu üçün əbədən nəzərdə tutulmayacaq. O fikirlər tərəfindən israr edənlər istər firqənin konqresində, istər ayrı müəssisələrdə görünürsə çox sadə bir surətdə təşkilatdan ixrac ediləcəkdir.

Ətrafa intixab işindən ötrü gedən firqə məmurları bunu açıq və aydın bir surətdə firqəyə dövtələb olanların nəzərinə yetirməlidirlər.

Əgər bu kimi adamlar konqreyə intixab edilmiş olsalar zəhmət çəkib gəlməsinlər. Onları etibarnamə komisyionu rədd edəcəkdir.

Demokrat firqəsində demokrat olmayan adamlara yer yoxdur.

Müraciətnaməmizdə göstərilən şüarları islah etmək mümkündür. Lakin onların əsas və prinsipini dəyişmək olmaz.

Milli dildə tədris, məhəlli və iqtisadi muxtariyyətin qanuni əsası üzərində qurulması, lazım olan əyalət və vilayət əncüməni kimi məsələlər dəyişilməz.

Bundan əlavə bəzi sol söz danışan, özünü daha azadixah göstərmək istəyən adamların da zərərli sözlərinin qabağı alınmalıdır. Bunlar əgər öz xətərnək şüarlarını təkrar edərlərsə, sağ və irticai ünsürlər kimi firqədən uzaqlaşdırılırlar. Bunlar Azərbaycanın ilhaqi məsələsini intişar verənlərdir.

Azərbaycanı İrandan ayırıb ayrı məmləkətə yapışdırmaq sözü fəqət firqəmizin bütün düşmənləri tərəfindən intişar tapmışdır. Biz bu şüarların yalan və mənasız olduğunu əməldə isbat edirik. Biz İranın istiqlal və tamamiyyətinə şədidən əlaqəməndik. Azərbaycan isə İran daxilində öz mədəni, milli haqqına malik olmalıdır.

Bu haqq və ixtiyarı Azərbaycan xalqı qırx il bundan əvvəl silah gücü ilə almağa müvəffəq olmuşdur. Biz onu diriltmək istəyirik.

Yalançı demokratlar isə deyirlər: Azərbaycan sözü-nu belə ağıza almaq olmaz. Əslən azərbaycanlının dili: yoxdur.

Yainki Azərbaycanın varını çəkib Tehrana aparanlar barəsində danışmaq zülfi-yarə toxunmaq deməkdir.Əsrimiz bu sözlərə gülər və onu diyənləri məsxərə edər.

Belə demokratlar buruyub Zülfüqari (1) kimi öz xüsusi və ailəvi demokrat firqələrini qursunlar, bizim onlar ilə rəfaqətimiz tutmaz.

**Mir Cəfər Pişəvəri**

**«Azərbaycan» № 15,28 septambr 1945-ci il. 6 mehr**

1 Azərbayçanın Zəncan mahalında iri torpaq sahibi olmuşdur.

# Azərbaycan Öz Tarixi Vəzifəsini Unutmaz

Azərbaycan azadixahlarının firqə təşkili ilə məşğul olduqlarını görünür, Tehran müstəbidləri onların ümum İran azadlığına laqeyd olmaları kimi tələqqi etmişlər. Bu doğru bir təfsir deyildir. Tehran və İranın ayrı şəhərlərində azadlığı məhv etməyə başlayan qara qüvvələr öz təkliflərini düşünməlidir.

Azərbaycan Tehranın oyunlarına çox mənfi və bədbiplik ilə baxır. Bu sadəlik ilə məşrutə və qanuni-əsasını ortadan aparmaq olmaz. Beş-on nəfər müstəbid istədiyi kimi xalqın qan və silah gücü ilə aldığı azadlığı poza bilməz. Xain və müstəbid məclis vəkilləri bir daha qan və qurbanlıq tələb edirlər.

Sədrüləşrafın qəbul edilməsi, azadixah cəmiyyətlərin qadağan olunması, ruznamələrimizin qapanması, azadlıq yolunda mübarizə edən qəhrəmanların həbs edilməsi İran millətinə elan-hərb deməkdir. Sədr hökuməti və məclisin müstəbid nümayəndələri bu elani-hərbdən qalib çıxa bilməyəcəklər.

On və on beş nəfərdən çox olmayan Səttar xan dəstəsi bir gün bütün dünya ictimaiyyətinə qarşı dayanaraq məşrutəni irəlilətməyə müvəffəq oldu. Onun altmış mindən ziyadə mütəşəkkil şagirdləri bu asanlıq ilə

məşrutə və azadlıq pərçəminin ayaqlar altına salınmasına yol vsrəcəklərini arzu edənlər qətən axmaq və divanələr ola bilər.

Azərbaycan Demokrat firqəsi bütün İran xalqlarının azadlıq və nicat ordusudur. Bu firqə iyirmi beş günlük sürdüyü ömründə böyük müvəffəqiyyət qazanmış, onun sədası bütün Azərbaycan şəhərlərini bürümüşdür.

İyirmi beş gündə altmış min üzv toplamaq dünya tarixində az təsadüf olan işlərdəndir. Xalqı bu azadixah təşkilatın tərəfinə toplayan əcəba iman, əqidə və ehsasatdan başqa nə ola bilər? Bu ehsasatın qabağını heç bir qüvvə sədd edə bilməz.

Biz məqalələrimizin birində yazmışdıq: «Əgər Tehran özünü irticaın qucağına atarsa, biz öz azadlığımızı müstəqil bir surətdə təmin edəcəyik». O işimizin başlanğıcı idi. İndi firqəmizin qüdrəti o qədər artmışdır ki, bir qədəm irəli qoyub deyirik: «Əgər Tehran tutduğu irticai yoldan qayıtmaq istəməzsə, biz onu qəhr və qəzəb ilə o yoldan qaytarmalıyıq».

İran azadixahları arxayın olsunlar ki, Azərbaycan onları tərk etməyib, həmişə olduğu kimi qəti çarpışmada onların möhkəm arxası olacaqdır.

Bizim əmniyyət və asayiş şüarlarımızı sui-təbir edib xalqın əmniyyət və asayişini ayrı yollar ilə pozmaq istəyənlər od ilə oynadıqlarını bir dəfə anlamalıdırlar.

Azərbaycan xalqı yatmamışdır. O, bu gün hər bir zamandan qüdrətlidir. Əgər üç həftə bundan irəli azadixahlar səfində intizamsızlıq, əcələ və hədəfsiz hərəkətlər nəzərə çarpırdısa, bu gün onları idarə etməyə qadir müntəzəm bir mərkəz vücuda gəlmişdir.

İxtilaf və nifaq nəğməsi çalmağa başlayanlar ağızlarını yumub yerlərində oturmalıdır.

Biz təkrarən demişik: Təbəqatı mübarizə aparmırıq. Əmma, əgər bizim hüsni-əməlimizdən sui-istifadə edib azadixahlar və xalqın zəhmətkeş təbəqəsini fişar altına almaq istəyənlər tapılarsa, firqəmizin onlara nisbətən rəftarı çox şiddətli olacaqdır.

Tehran bunu bir dəfə bilsin ki, Azərbaycan azadixahları onların xəyanətkar hərəkətlərini dəqiq bir surətdo təqib edirlər.

Sədrüləşrafı hökumət başına keçirən məclis İran millətinə və məşrutiyyətə xəyanət etmişdir. Çünki, bu müstəbid İran azadixahlarının və İran məşrutəsinin baş duşmənlərindəndir.

Xainlərin cəzasını millət özü təyin edəcəkdir.

İran azadixahları ciddən umidvar olmalıdır. Sədrüləşrafların xain əllərilə zindanlara salınmış, mübarizə aparan azadlıq qəhrəmanlarına qardaşlıq salamı!

**Mir Cəfər Pişəvəri**

**«Azərbayian» nö 16, 30 septambr 1945-ci il. 8 mehr**

# BİRİNCİ KONQRƏMİZ

Birinci konqrəmiz seşənbə günü başlayır. Bu konqrə firqə binasının payasy olduğu üçün onun qərarlarına Artıq dərəcə diqqət etmək lazımdır.

Konqrəmiz firqə səflərinə daxil olan minlərcə zəhmətkeş və sair təbəqələrin nümayəndələrinin yığıncağıdır. Ona görə milli azadlıq və demokratizm əsasları üstündə fəaliyyətinə davam edəcəkdir.

Konqrəyə gələn nümayəndələr İran istiqlaliyyət və təmamiyyətinə əlaqədar olduqları halda Azərbaycanın xüsusiyyatını nəzərə alıb əncümən əyaləti və vilayətinin təxirsiz bir surətdə dəvət edilməsi ilə məhəlli ixtiyarat və daxili azadlığımızı qanun əsasi üzərində təmin etmək kimi böyük bir məsələni həl edəcəklər.

Azadlıq və demokratlıq düşmənləri firqəmizin səri pişrəftindən vəhşətə düşüb əleyhimizə geniş tıbliğat başlamışlar. Bunlar səflərimizə sel kimi axıb gələn xalqın fikrini zəhərləmək yolunda heç bir rəzalətdən geri durmurlar. Yalançı məclis nümayəndələri və ömürlərini əvvələdən axıra qədər oğurluq və zəhmətkeşlər qanını sormaqla sərf edən müqatiəkarlar ilə bizi daxili və xarici müstəbidlərə və onların iftira və töhmətlərinə cavab verməyə sərf etməyəcəyik. Bizim cavabımız əməl və iş olmalıdır.

Föhşlər və nasəzalar nə qədər artarsa bizim fəaliyyətimiz on qat ondan şədid olmalıdır. Bizi beş- üç nəfər macəracu adlandırmaqla həqiqətin üstünü örtmək istəyənlər qoy firqəmizin ətrafına toplanan xalq dəstələrini görüb titrəsinlər. Düşmənlərin həmləsi səflərimizi daha da möhkəmləndirəcəkdir.

Şüarlarımız mərmuz və gizli deyildir.

Vətənimizi gizli surətdə biyganələrə satanların bizim azadləq hərəkayımızı çirkləndirmələri çox təbiidir. Konqrəmiz bu fitnəəngiz sözlərin firqə içərisinə yol tapa bilməsinin qabağını almaq üçün əsası tədbirlər görəcəkdir.

Azərbaycana fəqət kəndi soymaq və pul və şallaq gücü ilə nümayəndə olmaqdan başqa əlaqəsi olmayan və oranın sərvətini yığışdırıb Amrikaya göndərən xainlər qoy firqəmiz ilə açiq mübarizəyə girişsinlər, və onlardan gözlənir çünki Demokrat Firqəsi onların bir daha pul və şallaq gücü ilə vəkil çixmalarına axır qoydu.

**Mir Cəfər Pişəvəri**

**("Azərbaycan" şümarə 17, mehr 9, oktobr 1)**

# MUXTARİYYƏT MƏSƏLƏSİ VƏ ƏNCÜMƏNİ ƏYALƏTİ

Tehranın dad-fəryadı yersizdir. Bu dad-fəryad İran millətinin deyil, məmləkətin əsarətindən sui-istifadə edənlərindir ki, hovçuluqla, bizim başladığımız milli işi əsərsiz qoymaq istəyirlər. Demokratik bir ölkədə əhzab və əqaid azaddır.

Əhzab öz fikir və əqidələrini istədikləri kimi yazıb intişar verə bilərlər. Bu günə qədər vətənimizin Federativ və ya Xudmuxtar əyalətlərindən təşkil edilməsi məsələsinin öz məramnamələrində yazan cəmiyyətlər az olmamışdır. Hətta Seyid Ziyanın Şəairi-milli adı altında yazıb intişar verdiyi elamiyyədə açıqdan-açığa İranın müttəhid dövlətlər halına salınması irəli sürülmüşdü. Bu gün bizim əyalət əncüməni vasitəsi ilə daxili ixtiyaratımızın təmin edilməsi şüarını Azərbaycanın İrandan ayrılması adlandıran yalançı məclis nümayəndələri o gün bir kəlmə də olsun bu xüsusda danışmadıqları halda, bu gün riyakar dul arvadlar kimi göz yaşı tökməyə başlamışlar.

Bəs görünür mətləbin kökü ayrı yerdədir.

Onlar əyalət əncüməni ya Azərbaycan dilindən vəhşət etmirlər. Onları qorxuya salan böyük azadlıq məsələsidir. Onlar tarixin təkrarından vəhşətə düşmüşlər. Onlar qorxurlar Azərbaycan məşrutə aldığı kimi onu diriltməyə qiyam etsin. Onlar qorxurlar Azərbaycan Demokrat Firqəsi onların zor və pul vasitəsi ilə nümayəndə çıxmalarına xatəmə qoysun.

Bu təsadüfü deyil, əleyhimizə elamiyyə sadir edən xainlər Azərbaycanın sərvət və samanını Tehrana çəkib aparanlardır.

Biz inkar etmirik, əlimizə qüdrət düşərsə Azərbaycanı tərk edib Tehrana və ya ayrı şəhərlərdə Azərbaycanın gündən-günə genişlənməkdə olan azadlıq hərəkatına müxalifət edən xainlərin əmlakının müsadirə olunub millət ixtiyarına verilməsini təmin edəcəyik.

Bu təzə bir iş deyildir. Böyük Fransa inqilabı bunu bütün dünyaya öyrətmişdir.

Xalqın dəstrənci ilə toplanmış sərvət onun azadlığı əleyhinə sərf edilə bilməz və buna yol vermək xəyanətdir. Firqəmizin bu şüarını mülkiyyət əleyhinə təbir və təfsir edənlərin müğriz və fitnəkar olduğu məlumdur. Torpaq məsələsi və yer islahatı bütün mütərəqqi dövlətlərin bərnaməsini təşkil etdiyi halda, bir firqəni kəndliyə himayət etməkdə müqəssir hesab etmək olmaz.

Əgər əəlahəzrət şah ilə Royter müxbirinin müsahibəsi doğru isə, əgər şah yer bölgüsünü şəxsən meydana atmış olsa və bu təbliğat üçün və nüfuz qazanmaq üçün deyilməmiş olsa, onda siyasi bir firqənin azadlıq üçün və vətənin tərəqqisi üçün pişnəhad etdiyi ictimai tədbirlərinə gərək sui-təbir edilsin? Təzə beş nəfər müstəbiddin yaxa parə etmələrinin nə əhəmiyyəti ola bilər. Biz öz açıq və aydın şüarlarımız ilə nə tək Azərbaycanın bəlkə bütün İranda yaşayan 15 milyonluq camaatın azadlığını təmin etmək yoluna qədəm qoymuşuq. Bu ali və müqəddəs məqsədə çatmaq üçün bütün Azərbaycan xalqı bizim arxamızca gedəcəkdir.

**Mir Cəfər Pişəvəri**

**("Azərbaycan" şümarə 18, mehr 10, oktobr 2- 1945)**

# MƏRAMNAMƏMİZ

Konqrənin ikinci günü başdanbaşa Firqə məramnaməsinin ətrafında keçdi. Nümayəndələr əsas maddə üzərində çox şədid əlaqə ilə bəhs etdilər. 48 maddədən ibarət olan bu böyük məramnamədə ictimai, siyasi, iqtisadi, fərhəngi və mədəni həyatımızın yenidən qurulması, ölkəmiznn ən mütərəqqi və mütəcəddid bir ölkə halına salınması üçün əsas və əməli tədbirlər göstərilmişdi. Konqrə onu şədid müzaknrədən sonra müxtəsər təğyirat ilə müttəfiqürrəy olaraq qəbul etdi.

Milln muxtariyyət, dil azadlığı və bir də torpaq məsələsi çox hərarətlə müzakirə edildi. Nümayəndələr bu məsələlərin tamamilə açılıb anladılmasını öz sualları və çıxışları ilə ortaya sürüb, nəhayət bir çox təğyiratdan sonra qəbul etdilər.

Nümayəndələrimiz məramnaməmizin təkmilləşməsi üçün əllidən ziyadə təklif yazmışdılar. Bunların bəzilərindən istifadə olundu. Bəzisi isə kifayət qədər izah edildikdən sonra rədd edildi.

Konqrəmiz məramnamə kimi əsas və mühüm məsələni öz ana dilimizdə müzakirə etdi və göstərdi ki, dilimiz şeir və ədəb dili olduğu kimi, siyasi, ictimai və dövləti məsələləri həll etməkdə artıq dərəcə yararlı bir dildir.

Məramnaməmizin rəsmi surətdə qəbul edilməsi ilə Firqə özünün yolunu tapdı, dediqodulara son qoydu. Əkərçe müraciətnaməmiz bu vaxta qədər məramnamə yerində işlənilir, təzə üzvlər onun əsasını qəbul etməklə fnrqə sıralarına daxil ola bilərdi. Lakin bu kafi deyildir. Məramnaməsiz Firqə ola bilməzdi. Bundan sonra bu nüqsan tamamilə aradan qalxır. Kim Firqəyə girmək istərsə əvvəlcə məramnaməmizi qəbul edir, sonra dərxast verib üzv olur.

Biz dəfələrlə yazmışıq: Kim iftixar edərsə gəlib Firqəmizə yazıla bilər. Mütərəddid və ikiüzlü, qorxaq və bir ayağı müstəbidlər yanında, o biri ayağı azadixahlar ətrafında olan süst üpsür adamlara bizim heç bir surətdə ehtiyacımız yoxdur.

Mərkəzdə və şəhərlərdə təşkilat işi ilə məşğul olanların vəzifəsi bu gündən sonra asanlaşır. Onlar bir kimsə ilə bəhs etməyəcək, şübhəli adamların nazını çəkmək ilə vaxtlarını itirməyəcəklər. Kim məramnaməmizi qəbul edirsə buyursun, gözümüz üstündə yeri vardır. Kim özünün şəxsi səliqəsini bizə qəbul etdirmək fikrində isə, buyurub gedə bilər, deyib təşkilat işlərini aparacaq hədəf və məqsədimizə yetişməkdən ötrü başladığı böyük işi təqib edəcəkkdir.

**Mir Cəfər Pişəvəri**

**(“Azərbaycan” şümarə 21, mehr 13, oktiyabr 5)**

# FIRQƏ KONQRƏSİ XALQIMIZIN LƏYAQƏTİNİ İSBAT ETDİ

Konqrəmizin Azərbaycanın ən görkəmli simalarından təşkil tapmış olduğu sabit edir ki, yerlərdə xalqın gözə görünən, başbilən və adlı- sanlı qismi Firqəmizin ətrafına toplanmaqdadır. Əvvəlinci cələsədə kongrənin içəri üzü tamamilə aşkara çıxdı. Səlmas nümayəndəsi aqayi Mükərrəmülmülk, Maku nümayəndəsi aqayi Murad Bəyat Maku, Ərdəbil nümayəndəsi aqayi Həsən Cövdət, Sərab nümayəndəsi aqayi Haşiminin mənalı nitqləri göstərir ki, kongrə müraciətnaməmizi iman və əqidə üzrə qəbul edənlərdən təşkil olunmuşdur.

«Biz İran və Azərbaycanın nicatını bu Firqənin bayrağı altında görürük. Onun müqəddəs şüarlarını həyata keçirmək üçün canımız, malımız və namusumuz ilə mübarizə edəcəyik».

Bu idi şəhərlərimizdən gələn nümayəndələrin axır sözü. Məxsusən aqayi Mükərrəmülmülkün dil məsələsi haqqında söylədiyi məntiqi və mətin sözləri xalqın ana dilimizə olan təvəccöh və əlaqəsini çox gözəl surətdə aşkara çıxardı.

Aqayi Mükərrəm dedi: «Azərbaycanlılara moqulların güc ilə öz dillərini təhmil etdiklərini iddia edənlər çox nadan adamlardır. Moqullar yüz ildən artıq Azərbaycanda hökumət edə bilmədikləri haldl öz dillərini bizə təhmil etmişsə, əcəba altı yüz ildən ziyadə hökumət edən Farslar nə üçün bu dili dəyişdirməyə müvəffəq olmamışlar?

Bu isbat edir ki, dili zor və ya ayrı vasitələr ilə dəyişdirmək olmaz. Dilimizin müxalifləri fəqət bu puç iddiaları ilə Azərbaycanın fərhəngini boğmaq, bu vasitələr ilə xalqımızı cəhalətdə saxlamağa can atırlar».

Aqayi Mükərrəm bu sözləri ürəkdən dediyi üçün onun nitqi kongrəmizin təvəccöhünü cəlb etdi. Gurultulu alqışlarla kongrə göstərdi ki, natiq onun əfkarının müfəssiri olmuşdu. Konqrəmizdə milli muxtariyyət məsələsi çox böyük yer tutmuşdur. İranın istiqlaliyyət və təmamiyyəti məhfuz olmaqla Azərbaycanın öz daxili işlərini azad bir surətdə idarə etməyə qadir olması və bunu əməli etmək üçün bilatəxir əyalət və vilayət əncümənlərinin çağırılması ətrafdan gələn nümayəndələrimizin kongrədən tələb etdiyi ən əsas bir məsələdir.

Həmin gün kəndlərdən və ətrafdan təbrik gələn minlərcə kənd və şəhər zəhmətkeşləri öz şüarları ilə bildirdilər ki, xalqımızın geniş əksəriyyəti Firqəmizə etimad edir, ondan öz həyatını yaxşılaşdırmaq yolunda böyük ümid gözləyir.

Konqrə sadə bir yığıncaq deyil. Firqənin payə və əsasını möhkəm zəminə üzərində qurmağa layiq ciddi bir ictima olduğu üçün sözə yox, işə artıq dərəcə əhəmiyyət verib, ona görə təzahür və uzun nitqlərdən pərhiz edib məramnamə və nizamnamə təsvibi kimi böyük və əsasi mövzularla məşğul olmaqdadır.

Konqrə götürdüyü qədəm və başladığı işin qiymətini və məsuliyyətini çox gözəl bir surətdə düşünüb anlamışdır. Ona görə nümayəndələrin hamısı istər nitqlərində, istərsə pişnəhadlarında çox diqqət və mətanətlə izhariəqidə edirlər.

Bu vaxta qədər Azərbaycanda sabiqəsi olmamış bir ictima olduğuna baxmayaraq, kongrəmiz tam mənası ilə müasir və münəzzəm bir yığıncaqdır. Bunun özü isbat edir ki, xalqımız özünü idarə etməyə layiq və qadir bir xalqdır.

İki gün ərzində məramnamə kimi əsas bir məsələnin həlli isbat edir ki, bizim kongrəmiz, mərkəzi parlaman

adlanan məclisdən, fəaliyyət və yaradıcılıq cəhətdən təsəvvürə gəlməyən bir fasilədə irəli düşmüşdür..

Məclis il yarımda kiçik bir qanun keçirməyə müvəffəq ola bilməmişdir. Çünki onu təşkil edənlərin əksəri yalançı xain, xudpəsənd və müğriz adamlardır. Konqrə bir gündə gələcək böyük bir Firqənin əsasını qurmaq, bəlkə məmləkəti mütərəqqi və müasir bir hala salmaq yollarını təyin etmək kimi böyük işi əncam verməklə isbat etdi ki, onu təşkil edənlər, onda iştirak edənlər vahid bir ruh, vahid bir məslək, vahid bir yol təəqib edən fədakar, ciddi və layiq adamlardır.

Xalqları əsarət altında saxlayıb güc ilə hökumət sürmək istəyən xainlər gözlərini açmalı və xalqın istedad və ləyaqətini təsdiq etməlidirlər.

Konqerimizin mənası olduqca böyük və onun gördüyü böyük işlər olduqca mənalı olduğundan biz onun barəsində gələcək nömrələrimizdə müfəssəl məlumat verməliyik.

**Mir Cəfər Pişəvəri**

**(“Azərbaycan” şümarə 20, mehr 12, oktiyabr 3)**

# KONQRƏNIN İKINCI GÜNÜNÜN GUZARIŞI

Mehr aynın - 11 də sübh saat 8. 5 - da Azərbaycan Demokrat Firqəsinin üçüncü cələsəsi təşkil tapdı. Əvvəl ağayi Reyhani Zəncan əhalisi tərəfindən konqrənin iftitahını təbrik etdilər.

Sonra ağayi Nurullah Yekani Xoy əhalisi tərəfindən konqrənin təşkilini təbrik edərək qeyd etdilər ki, Təbrizdə bir gün var idi ki, azadlıq kəlməsini dilə gətirənlərin dilini rişədən çıxardırdılar. İndi isə haman tarixi Təbrizdə azadlıq adına konqrə təşkil verilir. Mən bu iftixarı səmimanə öz firqə yoldaşlarıma təbrik edirəm.

Baxın, bu divarlarda asılan təsvirlər Azərbaycanın iyid oğullarının simalarıdır. Onlar azadlıq uğrunda öz canlarini fəda ediblər. Ağalardan xahiş edirəm bu şühədanın ehtiramına bir dəqiqəlik sükut ilə ayağa qalxsınlar... ( cəlsədə olanlar ümumiliklə ayağa qalxıb bir dəqiqə sükut edirlər ) .

Sonra ağayi Yekani Azərbaycanın parlaq tarixindən bəhs edərək öz nitqini «Yaşasın Azərbaycan Demokrat Firqəsi», «Yaşasın vətənin nicatı uğrunda şücaətlə mübarizə aparan şərəfli igitlər» cümləleri ilə xatəmə verdi.

Ağayi Yekaninin nitqi qurtardıqdan sonra ağayi Borhani Əlmdar - Gərgər və Mərənd əhalisi tərəfindən, ağayi Vüsuq Marağa əhalisi tərəfindən, ağayi Yusif Babaxan Azərbaycanda yaşayan Asurilər tərəfindən konqrənin açılışını təbrik etdilər.

Nümidələrin təbərikləri xatəmə tapdıqdan sonra ağayi Pişəvəri tribun dalında qərar dutaraq dedi: «Nizamnamə mocibincə bu gün məramnamənin ətrafında bəhs olunacaq. Buna görə də bir para şifahi tozihlərin lazım olması münasibti ilə məramnamə ətrafında müxtəsər danışacağam. Əvvəl kəmal təəssüflə yad edirəm ki, dünən bir para macəracu adamlar Firqənin əleyhinə totiə etmək fikrində idilər. Amma biz belə adamlara fürsət verməyəcəyik və özümüz şiddətlə onları təqib edib, öz cəzalarına yetirəcəyik. Hər kəs olursa olsun, onun topança atmağı əmniyyəti xələldar etməkdir.

Bizim düşmənlərimiz çün pul xərc etmək vasitəsi ilə istəyirlər ki, öz şum nəqşələrini əməli etsinlər. Amma onlar hərgiz müvəffəq olmayacaqlar». Ağayi Pişəvəri sonra məramnamənin əvvəlinci qismətini şərh verdilər və onu aydınlaşdırmaq üçün beynəlmiləli şəraitdən və müttəfiq dövlətlərin mənşurlarından bir neçə misallar zikr etdilər. Məramnamənin ikinci qisməti haqqında qeyd etdilər ki, bu məramnamədə xüsusilə Azərbaycanın dili, adət və rüsumi, coğrafiyası və tarixi xüsusiyyatı ətrafında çox söhbət olacaqdır. Biz iranın istiqlalı və Azərbaycanın daxili muxtariyyətini istirik. Kimin bu məramlara əlaqəsi var qalsın. Kim bu şüarlar ilə müxalifdir indidən getsin !

Azərbaycanlının öz ölkəsini idarə etməyə ləyaqəti var və onu əməli etməyə də qadır dir. Yenə təkrarən deyirəm biz bir az iddə də olsaq, bu məramnaməni başa yetirəcəyik (gurultulu alqışlar). O adamlar ki, bu məramnamə ilə müxalifdirlər bizim aramızdan çıxsınlar». Məramnamənin üçüncü qismətini şərh verdikdən sonra ağayi Pişəvəri dedi: «İranın bəzi nöqtələrində camaat azdır və bəzi yerlərində çoxdur. məclis nümayəndələrinin sayı qanun mocibincə gərək əhalinin çox və azlığı ilə mütənasib olsun. Vəli bu qanuna iranda əbədən müraat etməyiblər və ona görə də həmişə bizim nümayəndələrın sayı məclisdə az olubdur. Bundan sora gərək məclis nümayəndələrının üçdə birini Azərbaycan nümayəndələri təşkil versinlər. Bizim gərək 50 nəfər məclisdə nünmayəndəmiz olsun! Pul zoru ilə, şallaq gücü ilə nümayəndə olanların qabağı alınmalıdır. Bundan sonra məclis nümayəndələri gərək şallaq gücü ilə intixab olmasınlar. Millət öz rəğbəti ilə onları intixab edəcəkdir.

Biz bundan sonra icazə verməyəcəyik ki, mühəndis Pənahilər və ya Siqətülislamilər kimin təhmili nümayəndələr Azərbaycanlı naminə məclisdə danışsınlar. Azərbaycanın ana dilinə çox əhəmiyyət verməliyik. Gələcəkdə uşaqlarımız öz ana dillərində oxumalıdırlar. İdarələrdə gərək öz dilimizdən istifadə olunsun. O adamlar ki, özlərini Azərbaycanlı nişan verib Rizaxanın mənhus siyasətını irəli sürməyinə kömək edirlər, Azərbaycanlı deyillər. Said nə Marağalıdır nə Azərbaycanlı. O və onun əmsalı özlərini Azərbaycanlı hesab etməyə haqları yoxdur.

Biz burada cəhd edəcəyik ki, mərkəzi hökumətindən öz haqlarımızı alaq. Bəyannamədə qeyd olunan kimi iqtisadiyyatımızı gündən günə genişləndirməliyik. Ondan ötrü ki, iqtisadi istiqlaliyyəti olmayan millət həmişə bədbəxt bir halda yaşamalıdır. Bu xəta bir fikir dir ki, deyiblər: İran kəşavərzi bir məmləkətdir. Onu sənəti etmək olmaz. Əksinə olaraq bizim məramnaməmiz iranın istiqlalı və Azərbaycanın azadlığını onun iqtisadi istiqlalında təşxis veribdir. »

Aqayi Pişəvəri kargər və karfərmanın münasibatı haqqında və Azərbaycanın behdaşt və fərhənginin əsəfəngiz vəziyyətindən bəhs etdikdən sonra öz nitqlərinə davam verdilər: «Tehranda yaşayan Azərbaycanlılar ki, öz eyş u işrət qəsrlərini Azərbaycan fəhlə və kəndçilərinin əlinin zəhməti ilə qaldırırlar, bunu bilməlidirlər ki bir daha onlara fürsət verilməyəcək ki, Azərbaycanın sərvətin Tehrana aparıb orada xərc etsinlər. »

Ağayi Pişəvərinin nitqi qurtardıqdan sonra ağayi Fərşi məramnamə oxumağa başladılar. Məramnamənin müqəddiməsi bütün nümayəndələrın rəyi ilə qəbul olundu.

Sonra məramnamənin maddələrini ağayi Padgan oxudular. Məramnamə 48 maddədən ibarətdir və ümum nümayəndələr tərəfindən qəbul olundu. Məclis axşam saat 6 yarımda qurtardı. Beşinci cələsə mehr ayının 17 sinə movkul oldu.

**(«Azərbaycan» şümarə 21, mehr 13, oktyabr 5)**

# YENƏ DƏ MALIK VƏ RƏIYYƏT MƏSƏLƏSI

Firqəmiz əmniyyətiyyət və asayişi özünün ən mühüm vəzifələrindən hesab etdiyi üçün birinci qədəmdə kəndli ilə ərbab arasında çıxan ixtilafları həll etməyə iqdam etdi.

Bunun üçün özünün ən məsüliyyətli və sözü keçən üzvlərindən neçə nəfər intixab etdilər ki, məsül dövlət məmurları və bəzi maliklər ilə danışığa girişildi. Onlara bu vaxta qədər çox yerlərdə xərmənlərin yığılmasını anlatdılar. nəticədə hər üç tərəfin rızası ilə bir bəxşnamə tənzim edildı, bəxşnamənin icrasi ustandarın şəxsinə mühəvvəl olundu. Bu vasitə ilə ümid olunurdu ki,, ixtilaf ortadan qaldırılsın. Mütəəssifanə hər bir yaxşı əməldən su istifadə etməyə çalışan təmma ünsürlər və boynu yoğun təcavüzkarlar bu qiymtli işə daim əngəl törətməkdədirlər.

İdarəmizə bəzi maliklər tərəfindən mübaşirlərə və kətxudalara yazılmış bəzi məktublar gəlib çıxmışdır ki, insan onları gördükdə əsarət və bərbəriyyət dövrəsi xatirinə gəlir.

Maliklərdən biri yazır: rəiyyət çox qələt edir, əyalət də həmçinin, Ayrıları da bu minval. Yer mənimdir, istədiyim vergini alacağam. Yumurta da gərək yığılsın, yağ da, yorğan pulu da, bayramlıq da, yonca da, sərdirxti də, bəhrəni də əgər çox danışsalar dörtdən bir əvəzində üçdə bir yığmalısız.

Bu adamcığaz elə zənn edir ki,, indiki kəndli yüz il bundan qabağın kəndlisidir. Anlamaq istəmir ki, kəndlinin gözü açılmışdır. Onun qabağında münəzzəm bir təşkilat vardır. Bundan əlavə məmləkət başlı başına deyildir ki, hər kəs hər nə istərsə öz kefi istədiyi kimi edə bilsin. Hirs və tamah və ləcacətin də əndazəsi vardır.

Biz və bizim yoldaşlarımız əlbttə kəndli ilə ərbab arasında çıxan ixtilafların sülh və saziş yolu ilə həll edilməsinə çalışırıq. Bu o demək deyildir ki, vəhşiliyə və qan içməyə də rizayət verəcəyik.

Eşitdiyimizə görə bəzi kəndlərdə ərbablar jandarm gücündən istifadə etməyə başlamışlar. Bu doğru bir hərəkət deyildir. Jandarm hüquqi işlərə qarışa bilməz. O fəqət ədliyyənin qüvveyi mücriyyəsidir, məhkəmənin rəsmi hökmu ilə rəftar edə bilər.

Vangəhi jandarmın kəndli ilə malik işinə qarışması maliklərın də xeyrinə deyil.

Biz təcrübədə görmüşük ki,, jandarn və dövlət məmurlarının əlinə düşən iş onlar üçün taza bir qarət yolu olur və onların təcavüzkarlığı, zülm və şərarətinə taza bir meydan açır.

Jandarma rücu edən malik həm kəndliləri soymağa və həm özünün mənafeyini məhv etməyə çalışır.

Jandarmeri və ya əmniyyətiyyə yaxşı idarə olunursa, əgər müğriz və müstəbid şəxəslərin hava və həvəslərini təmin etməyə xidmət etməzsə çox yaxşı bir müssisədir.

Vəli əfsus ki, bu axır vaxtlarda, məxsusən mərkəzdə onu xalqın azadlıq hərəkatını boğmaq yolunda işlətməyə başlamışlar.

İranda jandarm müssisəsinin uzun bir tarixi var. Birinci növbədə xarici müsətşarlar vasitəsi ilə təşkil olunan jandarmeri milli bir qüvvə hesab olunurdu. İstibdad köməkçisi olan qazaq qüvvəsinin ziddinə olduğu üçün xalq onu sevər və çox məhəbbətlə onun işlərinin pişrəftinə çalışardı.

Keçən cəng zamanı (1914 - 17 ) bu qüvvə çox gözəl imtahan verdi və onun içərisindən çıxan vətənpərəst qəhramanlar millətin rəğbətini qazandı.

Dünyada yaxşılığa və xalqın xoşu gələn hər bir işə və hər bir idarə və şəxsə düşmən olan Rizaxan o milli qüvvəni ortadan qaldırdı. Qalib çıxan bir rəqib kimi onun rişəsini kəsdi, başında duranları cürbəcür adlar ilə ortadan apardı, və hətta onun adının belə qalmasına yol vermədi. Onun yerində anasının əmcəklərini kəsən quldurlardan əmniyyətiyyə təşkilatı vücuda gətirdi.

Əmniyyətiyyə iyirmi il tamam xalqa cəllad kəsildi, kəndlərdə vurdu, yıxdı, dağıtdı, basdı, kəsdi, yedi və kimsənin ona müxalifət və ya etiraz etməyə qüdrəti olmadı.

Şəhrivərdən sonra xalqı ümidvar etmək məqsədi ilə onun adını dəyişdirdilər. Qədim jandarmın tarixi şöhrətindən istifadə etmək üçün taza təşkilata o adı verdilər.

Müharibə zamanı, müvəqqəti demokratlıq zamanı müstəbidlər və boynu yoğunların müttəfiq dövlətlərin qüvvələrindən qorxub siçan dəliyi arayıb gizləndikləri günlərdə jandarm çox mülayimətlə rəftar etməyə başladı.

Bu çox təbii bir iş idi.

Leykən irtica başını qaldıran kimi Amerika paltarı geydirilmiş köhnə əmniyyətiyyə özünün fisqini büruza verdi. Rizaxan dövrəsində gördüyü işləri tazadan daha şədid bir surətdə görməyə başladı.

Tehranda və iranın ayrı yerlərində iş indi bu haldadir. Azərbaycanın bəzi kəndlərində bala bala zəmzəmələr eşidilir, deyirlər bu dəsturu Sədr müstəqimən özü sadir edib Onlara göndərmişdir.

Bizim hələ Tehran məsələsi ilə məşqul olmaq imkanımız yoxdur, leykən azərbaycanda bu işə yol verilməyəcəkdir.

Biz vaxtında jandarm idarəsi başınd duranlara xüsusi surətdə öz nəzərimizi demişik. Onlar zahirdə əmniyyətiyyəti bitərəfanə surətdə hifz edib jandarm qüvvəsinin ssiyasi işlərə müdaxilə etməyəcəyini iddia etmişlər. Allah eləsin verdikləri qovl doğru çıxsın, Allah eləsin ki,, Tehranda aparlan irticai hiylənin burada başlanması doğru olmasın. Belə olursa jandarm kəndlərə yol tapa bilməz və əmniyyət puzulduqda jandarm rəisləri çox da faydalı çıxa bilməzlər.

Əmniyyət hifz edilməli, jandarmlar qanuna riayət etməli, maliklər tamahlarını azaldıb kəndli ilə sazişə girişməli.

Azərbaycan xalqının səadti bunu tələb edir. Kim bunun əleyhinə olursa o xalqn düməni hesab olunacaqdır.

Aldğmz taza xəbərlərdə deyilir ki,, Həştərudda əcəm kəndi maliki Sadiq Müctehidi jandarmların köməyi ilə rəiyyəti bir otağa yığıb on bir nəfəri yaralaməş və iki nəfəri öz əlilə öldürmüşdür. Jandarma əmr edib döyün kəndliləri. Jandarm əmrinə itaət etmədiyi üçün jandarmı da qətlə yetirmişdir.

**Mir Cəfər Pişəvəri**

**(«Azərbaycan» şümarə 22, məhr 15, oktyabr 7)**

# VƏTƏN DİLİ

(Azərbaycan dilində birinci dərs kitabına dair)

Biz keçən məqaləmizdə qəzetin 11ci nömrəsində Azərbaycanın böyük xalq maarif xadimi Rüşdiyyənin müxtəsər şərhi- halını yazıb qeyd etdik ki, Rüşdiyyə böyük təcrubəli bir müəllim idi. O, təəlim və tərbiyyət üsulunun əsası olan anadilini təbliğ və tərvic edirdi. Belə ki, o hər şeydən əvvəl Azərbaycan əlifbasını asanlaşdırmaq fikrinə düşmüş və sovti üsul ilə Azərbaycan dilini dərs demək təşəbbüsündə olmuşdur. Bu üsulun köməyi ilə uşaqlar öz ana dillərini 60 saatlıq tədris müddətində yazıb- oxumağı öyrənə bilirlər.

Azərbaycan dilinin tədrisi üçün Rüşdiyyənin təəlif etdiyi məşhur kitab, qırx il bundan qabaq Təbrizdə çap və nəşr olmuş «Vətən Dili» adlı tarixi əsərdpr. Bu əsərin müxtəsər elmi təhlilindən qabaq zikr etmək lazımdır ki, hacı Mirzə Həsən Rüşdiyyənin Azərbaycan dilində təəlim alan şagirdləri bu gün Azərbaycanın ən məruf görkəmli maarif xadimlərini vücuda gətirmişlər. Onlar Riza şah dövründəvə halhazırda «Farsıdan Farsıya» təhsil alan bəzi bədbəxt cavanlar kimi savadsız, iradəsiz və süst deyildilər. Onlar yaşayıb yaratmağa öyrənmişlər. Onlar öz ana dillərini, Azərbaycan dilini göz bəbəyi kimi sevib qorumağı özlərinə ən mühüm bir vəzifə hesab edirlər.

Yeri gəlmişkən qeyd etmək lazımdır ki, bir çox satqın və xain dövlət başçıları və Tehranın digər yazıçı və qəzetçiləri bizi Azərbaycan dilini, xalqın öz dilini oxumağı və bununla Azərbaycan xalqının milli mədəniyyət və muxtariyyətinin bünövrəsini yaratmaqda «xain» hesab edirlər. Biz Firqəmizin qərarı üzrə bunların həzyanlarına cavab verməyəcəyik. Lakin demək istəyirik ki, xub ağalar! Yüz ildən artıq ömrünü maarif və mədəniyyətin inkişafı uğrunda vəqf etmiş Mirzə Həsən Rüşdiyyələr də xain idilər? Hörmətli yazıçı və qəzetçilər, aya 3 min ildən artıq mədəniyyət tarixi olan çoxmilyonlu böyük millətin öz dilində yazıb oxumağı və savadlanıb tərəqqi etməsi xəyanətdir?

«Vətən Dili» ana dili deməkdir. Böyük maarifpərvər bu kitabı yazarkən həqiqi bir rəvanşünas kimi uşaqların yaş səviyyəsini, qəlbini və əhvali- ruhiyyəsini nəzərə alaraq onun idrak qabiliyyətinə müvafiq surətdə hekayə və misalları tərtib etmişdir.

Müəllif daha çox kitabın dil və üslubuna fikir vermişdir. Dilin sadə, təbii olmasını, uşaq üçün çətinlik törətməyəcəyini və həyatı dərk etmək üçün sözün böyük əhəmiyyətini nəzərə alan Rüşdiyyə Azərbaycan dilinin saflıqını qorumağa xüsusi səy etmişdir.

O, ayrı- ayrı şeylər və məfhumları uşağın zehninə həkk etmək üçün ən canlı və həyatı bir üsul seçir. Bu da atalar sözləri vasitəsi ilə məfhumları anlaşdırmaqdır. Uşaq ailədə eşitdiyi atalar sözü vasitəsi ilə müəllifin aşılamaq istədiyi təzə bir məfhumu daha tez mənimsəyir, uzun müddət zehnində saxlayır.

Nəsihətçilik kitabda əsas məsələdir. Lakin Rüşdiyyənin nəsihətçiliyi xürafatdan xalidir. Müəllifin məqsədi yalnız canlı insan tərbiyə etmək olduğu üçün o, ən təsirli vasitələrdən istifadə etmişdir. Kitabda dərc olunan hekayə və mənzumələrdə əxlaqi nəticələr əlahiddə qeyd olunur. «Vətən Dili» kitabı Azərbaycanda, doğma Azərbaycan dilinin birinci dərs kptabı kimi tarixdə qalacaq və xalq onun müəllifini qədirdanlıqla yad edəcəkdir.

**Səməndər**

**(“Azərbaycan” şümarə 23, mehr 16, oktiyabr 8)**

# HƏR İŞ ÖZ VAXTINDA

Biqeydlik və bu günün işini sabaha qoymaq vaxtı, saat və dəqiqəni nəzərdən uzaq saxlamaq ictimai işlərin irəliləməsində böyük əngəllərin törənişinə səbəb ola bilər.

Mühit və ictimai həyatımız ətalət, tənbəllik və laübalılıq yaradan bir mühit olduğu üçün Firqəmizdə məsuliyyətli işləri boyunlarına götürənlər bu xoətərnak  xəstəliklərdən daima pərhiz etməlidirlər.

Əgər bu günə qədər Firqəmiz böyük müvəffəqiyyətə nail olmuşsa, o şüarlarımızın doğru və düzgüilüyündən əlavə, Firqəni yaratmaq istəyənlərin diqqətləri və müəyyən nəqşə, bərnamə üzrə işləməklərinin nəticəsidir. hər iş öz vaxt və saatında görülməlidir. Bu olmasa iş axsar, axırda nəticəsiz qalar.

İndi biz başlanğıc və təsis dövrəsini keçirmişik. Birpnci kongrənin qurtarmasilə müqəddimə bitib qurtardı. Təşkilat rəsmiyyət tapdı. Əsaslı məramnamə və nizamnaməyə malik olduq. Qanuni və rəsmi mərkəzi komitə vücuda gətirdik.

Bupdan sonra təşkilat dövrü başlanır. Təşkilat intizamsız, nəqşəsiz və bərnaməsiz ola bilməz. Bir də siyasi bir Firqə öz üzvlərindən Firqə əxlaqı tələb etməzsə məqsəd və hədəfinə yetişə bilməz.

Firqə əxlaqı, Firqə idarə və rüsumu millətin və ölkənin gələcəyi və müqəddəratını təyin etmək üçün ən vacib şərtlərdəndir. Hər bir demokrat gərək xalq içərisində düz, adil, münsif və qərəzsiz tanınmaqla, xalqın etimadını qazana bilsin. Bu birnci şərtdir. İkinci şərt isə bəzən daha mühüm hesab olunur. Bu şərt Firqəyə əlaqə, işə can yandırmaq, intizam və nəqşəni çox şədid bir diqqətlə gözləməkdir. Komitələr, konfranslar və hövzə iclasları gərək müəyyən saatda təşkil tapsın və müəyyən məsələləri bərnamə və planda təyin olduğu kimi həll edib öz vəzifəsin yerinə yetirsin.

Aban ayının onuncu gününə qədər bütün vilayət və şəhər konfransları başa çatmalı və qanuni Firqə komitələri intnxab olunmalıdır. Bunu bir dəqiqə belə təxirə salmaq olmaz.

Yerli Firqə komitələri gərək işlərini elə başlasınlar ki, mərkəzi komitənin bu qərarı yüzə- yüz əməli ola bilsin. Hər saatın bir təqazası və hər günün bir tələbi var. Gün və saatımızın tələb və təqazası budur.

Hər kəs öz vəzifəsini diqqətlə yerinə yetirməli. Qəbul etdiyi işi müəyyən saatda göstərildiyi kimi görməlidir.

Firqə boşboğazlar yığıncağı deyildir. O diri, fəal, fədakar insanların amal və hədəfi əldə etmək üçün mal, can və varlığı ilə mübarizə meydanına qədəm qoyan mücahidlərin ordusudur. Bu ordunun silahı bilik, iman, məslək, intizam və fəaliyyətdir.

Hər bir demokrat öz işində bu şüarı nəzərdə tutmalıdır.

**Mir Cəfər Pişəvəri**

**(“Azərbaycan” şümarə 17, mehr 9, oktiyabr 1)**

# AZƏRBAYCAN YATMAMIŞDIR

Eşitdiyimnzə görə doktor Müsəddiqin oğrular yuvası adlandırdığı Məclisi Şura İran xalqının fəqir və yoxsul cibindən Azərbaycan zəhmetkeşlərinin fərhəng,, behdaşt kimi ümumi ehtiyaclarımıza sərf etmək məqsədilə verdiyi vergidən ayda yüz əlli min riyal Seyid Mehdi Fərruxun ixtiyarına qoymuşdur ki, gəlib Azərbaycanda azadlıq və demokratik hərəkatı boğub ortadan aparsın.

Fərruxa bundan əlavə geniş ixtiyar verilmişdir. Hətta deyirlər əmniyyə və nizami qüvvəsi də onun əlinə tapşırılacaq. Bu vasitə ilə Azərbaycanda diktatorluq məqamı kəsb edəcəkdir.

Hələ Tehranın darvazasından xaric olmamış onun burada aparmaq fikrində olduğu xainanə və müstəbiddanə siyasətin əsəri zahir olmaqdadır.

ustandarlıq kəfili ağayi Nikxu Tehrana çağırılmış, şəhrdari rəisi ağayi İlhami xidmətdən çıxarılmışdır.

Əz- qərari- məlum ağalar Azərbaycanda olan dövlət idarələrini Azərbaycanlılardan təmizləmək fikrindədirlər.

Bunu icra etmək üçün Fərrux bütün idarələrimizi öz adamlarının əlinə tapşıracaqdır. Eşitdiyimizə görə o özü ilə on nəfərdən artıq uca rütbəli məmur gətirir. Bu məmurlar idarələrimizdə sədaqətlə çalışan Azərbaycanlıların yerlərini işğal edəcəklər.

Görünür, Azərbaycanlıların dillərini kəsmək lazımdır, deyən xain nümayəndələr bir nəfər də olsun Azərbaycan dili bilən işçiyə idarələrimizdə yol verməyəcək, güc və zor ilə millətimizi Farslaşdırmaq istəyənlər bu vasitə ilə Azərbaycan xalqını dövlət idarələrindən tamamilə əl üzməyə vadar edəcəklər.

Biz məxsusən dövlət məmurlarının Firqəmizə daxil olmalarına çox da həvəs göstərməmişdik. Ondan ötrü ki, Tehran hökumətinin tam mənası ilə mürtəce ünsürlər və biganələrin korkoranə bir surətdə aləti olan şəxslərin əlində olduğunu bilirdik.

Biz bilirdik ki, Sədr hökuməti əsl mənada Seyid Ziyanın getdiyi yol ilə gedir. Bu gün İranın əl- qolunu bağlayıb biganələrə təslim etməyə çalışır. Ona görə də fürsətdən istifadə edib, əlsiz, ayaqsız dövlət məmurlarını aclığa məhkum edə bilər. İndi isə pərdə qaldırılmış, həmlə başlanmışdır. Belə bir mövqeydə Firqəmiz bitərəf dura bilməz. Azərbaycanın hökuməti Azərbaycanlıların öz əllərində olmalıdır. Biz var qüvvəmiz ilə həmvəqənlərimizin hüququndan difa edəcəyik.

Azərbaycan xalqının milli mərkəz siqli olan Firqəmizin gözü açıq olduğu üçün bu xalqı qafilgir etmək olmaz.

Azərbaycanlı oyaqdır.

**Mir Cəfər Pişəvəri.**

**(“Azərbaycan” şümarə 25, mehr 19, oktiyabr 11)**

# AZƏRBAYCAN DEMOKRAT FIRQƏSININ MƏRAMNAMƏSI

**Müqəddimə**

Əsrimizdə vücuda gələn cahanşümul böyük siyasi və ictimai hadisələr göstərdi ki, xalqları əsarət altına alıb onların zəhmətindən su istifadə etmədən keçinə bilməyən köhnələşmiş və çürümüş ictımai vəziyyətin məhv olması dövrü gəlib çatmışdır.

Bu gün dünyanın xalqları açıqdan - açığa zülm və fişar zəncirlərini əbədi olaraq qırıbb, bəşəriyyətin böyük qurbanlar bahasına qazandığı azadlığı hər qiymətə olursa olsun saxlamaq istəyirlər. Ona görə hər yerdə demokratlıq tərəfdarları ilə irtica arasında və öz hakimiyyətini saxlamağa can atan bir ovuc zalımlar ilə azadlıq istəyən xalq arasında qızğın mübarizə günü gündən şiddətlənir.

Bu gün ictimai, iqtisadi və fərhəng cəhətdən ibtidai halda yaşayan tayfalar və qəbilələr belə hər cür fişar və təzyiqin əleyhinə çıxıb öz həyatlarini müstəqil və azad tərzdə qurmaq istəyirlər.

Beynəlmiləl irtica mərkəzi olan Faşist Alman cahangirliyi üzərində müttəfiqlərin və demokratik qüvvələrin qələbə çalması, nəinki Avropanın irəlidə gedən xalqlarını vəhşət və iztirabdan xilas etdi, bəlkə bütün dünyanı və o cümlədən şərqin sənaye cəhətdən dalda qalmış zəif ölkələrində yaşayan xalqların azad olmaq və Demokratik dövlət yaratmaq ümidini gücləndirdi.

Azərbaycan öz gələcəyinə böyük ümidlə baxan azad və demokratik həyat yaratmaq üçün hər cür fədakarlığa hazır olan ölkələrdən biridir.

Yüz illərlə xalqımızı əsarət altında saxlamaq siyasətini təqib edən daxili və xarici cinayətkarlar milyonlarca Azərbaycanlıların qan tər ilə vücuda gətirdikləri sərvətini çəkib aparmaqla kifayətlənməyib, onun böyük tarixini, qədim mədəniyyətini, ahəngdar dilini, bir sözlə milli varlığını inkar edir və onu əsarət halında saxlamağa çalışırlar. Lakın xalqımız heç bir zaman düşmənlərinə baş əyməmişdir. O ağır mübarizələrdə öz toprağın, şərafətini saxlamağa müvəffəq olub öz tarixini, dilini və mədəniyyətini hifz etmişdir.

Səttarxan və Şeyx Məhəmməd Xiyabani kimi böyük simalar, Azərbaycan xalqının azadlığı uğrunda apardıqları mübarizələrdə böyük fədakarlıqlar göstərmiş və dünyanı heyrətə salmışlar.

İstibdad və irtica əleyhinə mübarizə də Azərbaycan xalqı bütün öz həmvətənlərinə köməklər etmişdir. İndi də İranda həqiqi azadlıq - istiqlal və demokrasi üsul idarə yaratmaq Azərbaycan xalqının ali hədəfidir. O, İranda əqəlliyyət təşkil edən bütün xalqların, əzcümlə Kürdlər, Ermənilər və qeyrilərinin apardıqları azadlıq hərəkatının pişvalarından sayılır. İranlıların hamısını birləşdirən və dost edən bu arzu və amaldır. Çünki Rizaxan istibdadının zülmü bu xalqların hamısını ayaqdan salmışdır. Bu macəra bir də təkrar olursa yenə hamı İran xalqı istisnasız bir surətdə fəlakətə sövq ediləcək dir. Rizaxan istibdadi Hitlerin faşist əfkar və amallını vətənimizə keçirərək zülm və əsarəti gücləndirdi. İran daxilində yaşayan Azərbaycanlı, Kürd, Asuri və Ermənilər doğma ana dilində yazıb oxumaq, kitab və ruznamələr nəşr etmək, sənət və teatr əsərləri yaratmaq, yerli idarə və məhkəmələrdən istifadə etmək imkanını man və qadağan etdi. Nəticədə xalqlar arasında böyük nifaq vücuda gətirdi. Bu istibdad heykəlinin yıxılmasından 4 il keçdiyinə baxmayaraq, yenə

də o mənhus siyasət davam etməkdə, bəlkə onu meydana çıxaran mürtəce ünsürlər get - gedə həyasızlaşaraq xalqa hücuma keçib onun demokratik hərəkatını boğmaqdadır.

İrtica məmləkətimizin sənaye cəhətdən tərəqqi edib güclü və qüdrətli olmasini istəmir, onu Nuh əyyamından qalma vəziyyətdə saxlamağa cəhd edir. Xüsusən xalqımızın tərəqqi çərxini geri döndərmək istəyən bu mürtəceanə siyasət əleyhinə ciddən qiyam etməlidir. Bütün İran xalqlarının ümumi arzularından başqa Azərbaycanın bir çox yerli xüsusiyyətləri də vardır ki, xalqımızın fikri bu böyük siyasi, iqtisadi və mədəni xüsusiyyətlərlə məşğuldur. Biz var qüvvəmizlə öz milli varlığımızı isbat edib, vətənimizin tale və müqəddəratını öz güc və iradəmiz ilə təyin etməliyik. Dünya vəziyyətinin yaratdığı fürsətdən istifadə edib həyatımızı istədiyimiz kimi, yəni həqiqi demokrasi üsulu daxilində azad yaşamaq əsası üzrə qurmalıyiq. Bu fürsətdən istifadə etmək üçün təbəqə və sinif ayrılığı nəzərdə dutmayıb hər bir azadixah Azərbaycanlının çalışması lazımdır. Bütün Azərbaycanda yaşayan camaat milliyət, dil ayrılığını nəzərə almayıb bu yolda əl - ələ verib səy və təlaş göstərməlidir. Demokratlıq və azadlıq ideali yolunda bütün vətəndaşlar vahid bir tən kimi birləşməli və hər cür mübarizəyə hazır olmalıdır.

Azərbaycan İranın ayrı yerləri kimi müasir və mədəni məmləkətlərdən yüz illərlə dalı qalmışdır. Əsrimiz maşın, elektrik, elm əsri və böyük sənaye və maşınlar ilə təchiz olunmuş sənət və fəlahət əsridir. Biz iftixarlarla dolu tariximizə layiq olmaq, əcdadımızın əzəmət və şöhrətini yenidən canlandırmaq fikrindəyik. Vətənməzi mütərəqqi sənaye və həqiqi bir ölkəyə çevirməliyik. yoxsa güclülərin əsarəti altından qurtara bilməyib çox tez bir zamanda məhv ola bilərik.

Siyasi, iqtisadi və mədəni həyatını zamanın təqazasına görə qura bilməyən və çürümüş köhnə ictimai vəziyyətin məngənəsində əsır qalan bir millət uzun bir müddət öz istiqlal və azadlığını saxlamağa müvəffəq olub imperialist dövlətlərin əsarətindən xilas ola bilməz. Bu ictima və təbiətin pozulmaz qanunlarındandır.

Ona görə Azərbaycan Demokrat Firqəsi Azərbaycanın sənaye, ticarət və elmi fəlahət cəhətdən tərəqqisi həqiqi xalq hakimiyyəti və milli demokratlıq üsulunun qələbəsi üçün zəruri şərtlərdən sayılır.

Firqəmiz elə bir zamanda işə başlayır ki, bütün dünyada demokratlıq cəbhəsinin qəlbə çaldığı kimi, dünyanın zəif və gücsüz millətləri Atlantik mənşuri əsası üzərində öz həyatlarını istədikləri kimi qurmaq hüququnu əldə etməyə müvəffəq olmuşdur. Milli Demokratik bir təşkilat olan Azərbaycan Demokrat Firqəsi İranın və biləxxəs Azərbaycanın xüsusiyyətlərinə görə özünün ən yaxın vəzifələrini aşağıdakı şəkildə təyin edir.

## Ümumi siyasi məsələlər

1 - Azərbaycan Demokrat Firqəsi İranın tamamiyyət və istiqlalını müdafiə etməklə bərabər, Azərbaycanın milli və yerli xüsusiyyətlərini nəzərə alaraq onun iqtisadi, siyasi və milli mədəni tərqqisini sürətləndirmək məqsədi ilə bilatəxir əyalət və şəhər əncümənlərinin intixabına başlanmasını tələb edir.

2 - Azərbaycana İran daxilində mədəni, iqtisadi, ticarət, dil və fərhəng cəhətdən məhəlli xudmuxtariyyət və öz həyatını istədiyi kimi qurmaq üçün geniş hüquqlar təhsil etmək Firqəmizin əsas vəzifələrindəndir.

3 - Firqəmiz fərd azadlığının təmin edilməsini insanlıq və həmvətənlik hüququnun müqəddəs əsaslarından sayır və onun yolunda mübarizə edir.

4 - Məmləkəti fəlakətə sövq etmiş, onun iqtisadi, ictimai və siyasi tənəzzülünə səbəb olub xalqı zülm və cəhalətdə saxlayan müstəbidlər hakimiyyəti ciddi surətdə məhv edilməlidir və bir daha diktatorluğa yol verilməməlidir.

5 - Xalqa söz azadlığı verilməlidir. Müstəbidlər və Faşizm əfkarini təbliğ edən mürtəcelər bu böyük nemətlərdən məhrum edilməlidir.

6 - Xalqın ümumi rəy verməsi yolu ilə məmləkətin dərdlərini qanan və onun yaralarini sağaltmaq istəyən və buna qadır olan həqiqi demokratik dövləti yardılmalıdır.

7 - İstisnasız olmaq üzrə igirmi yaşına çatmış bütün kişi və arvadlar intixab etmək, 27 dən 80 yaşına çatanlara intixab olmaq ixtiyari verilməlidir. İntixabatda təhdid və tətmi kimi xainanə hərəkətlərin qəti surətdə qabağı alınmalıdır. Xalq müstəqim, mütənasib, məxfi bir surətdə öz qanuni rəyini bildirmək imkanına malik olmalıdır. Ancaq bu yol ilə həqiqi xalq nümayəndəsi olan vətən və millət xadımlərini intixab etmək mümkün ola bilər.

Təbsirə: intixabat bütün məmləkətdə təxirsiz olaraq müəyyən və qısa bir müddətdə əncam tapmalıdır.

8 - Bütün müttəfiq və demokratik millətlər və xüsusən yaxın qonşumuz olan Şura Cümhuriyyətləri İttifaqı ilə olan səmimi dostluğumuzu saxlamaq, xarici siyasətimizin əsasini təşkil etməlidir.

9 - Dövlət təşkılatı istibdad və diktatorluq tərəfdarlarından və faşıst fikirli adamlardan təmizlənməli dir. Dövlət qulluqçuları, məsələn jandarm və polis məmurlarının qanunsuz və təcavüzkaranə hərəkətlərinə heç vəch ilə yol verilməməlidir. İxtilas və rüşvətxorluq tamamilə aradan qaldırılmalıdır.

**İqtisadi və ticarət məsələləri haqqında**

Azərbaycan Demokrat Firqəsi məmləkəti tərqqi yoluna çıxartmaq və xalqın azadlığını xarici və daxili irticanın təərüzündən qorumaq üçün vətənimizin iqtisadiyyatının əsaslı surətdə dəyişilməsini və aşağıdakı iqtisadi tədbirlərlə həyata keçirilməsini lazım və vacıb bilir:

10 - Dövrünü keçirib çürümüş iqtisadi üsul ali və müasir iqtisadi - ictimai şərait ilə əvəz olunmalıdır. Xalqımız öz milli və ağır sənayeini vücuda gətirib, onu müasir bir hala salmalıdır və elə tədbirlər görməlidir ki, çox tez bir zamanda ölkəmizin sənaye məhsuluna olan eəhtıacını öz karxanaları vasitəsilə təmın etmək mümkün olsun və məmləkət düçar olduğu fəqr və fəlakətdən nicat tapıb mütərəqqi sərvətmənd məmləkətlər rədifinə keçə bilsin.

11 - İstibdad dövründə aparılan xainanə siyasət nəticəsində Azərbaycanın sərvətləri çəkilib aparılmış və orada nə bir görkəmli karxana və nə bir fabrık, nə də ayrı bir mühüm sənət ocağı vücuda gəlməmişdir. Bunu nəzərə alaraq Azərbaycan Demokrat Firqəsi Azərbaycanda milli sənaye yaradılmasını, fabrık, məktəb və mərizxana vücuda gətirib, yollar çəkilməsi üçün vəsilələr vücuda gəlməsini ciddən tələb edir və əyalət və vilayət əncümənləri vasitəsilə buna nail olacağına ınanır. Azərbaycanın gəlirinin böyük qismi bu yuxarıdakı tədbirlərlə Azərbaycanın abadlığına sərf edilməlidir.

12 – Ticarəti hər cür vasitələrlə genişləndirmək və xalqın maddi həyatini yaxşılaşdırmaq üçün ışsizlik əleyhinə qəti tədbirlər görülməlidir. İqtisadi həyatı və ticarət işlərini elə aparmaq lazımdır ki, ümumən

tüccar, xüsusən xırda və orta alverçi və əsnaf iqtisadi çətinliyə rast gəlməsin. Bütün məmləkətdə iqtisadi dirilik canlansın, bütün xalqın maddi həyat şəraiti yaxşılaşsın.

13 - Pulun qiymətdən düşməsinin qabağını almaq üçün tədbirlər görülməlidir.

14 - Zəhmətkeş və yoxsulların iştiraki ilə tolid və təavuni şirkətlər və xırda karxanalar yaratmaq və mövcud dəstgahlar və əl karxanalarına kömək edib onların iflasdan qurtarmalarına himmət sərf etməlidir.

15 - Sənayein tərəqqi və təkamülünü sürətləndirmək, kargərlərin vəziyyətini yaxşılaşdırmaq məqsədilə aşağıdakı maddələri qanun şəklinə salmaq lazımdır:

a. ) bütün ölkədə 8 saatlıq ış təyin edilməəi və izafi işə mütənasib əlavə müzd verilməlidir.

b. ) Fəhlə, qulluqçu və mütəxəssislər üçün ictimai biymə qanuni yaradıb həyata keçirməlidir.

t. ) İttihadiələr və tamam zəhmətekş təşkilatları haqqinda xüsusi qanun yaratmalıdır.

p. ) On dörd yaşına qədər uşaqların işlədilməsi qadağan edilməlidir, 14 yaşından 18 yaşına qədər olan uşaqlar üçün iş müddəti 6 saatdan artıq olmamalıdır.

c. ) Yetim və ehtiyacı olan uşaqların işdən çıxarılıb küçələrdə qalmaması üçün dövlətin hesabına xüsusi yetimxanalar açmaq və məktəblərdə yoxsul uşaqlarına təhsili davam etdirmək üçün pulsuz yemək və paltar verilməlidir.

ç. ) 14 yaşından 18 yaşına qədər olan uşaqlar üçün xüsusi sənət məktəbləri açılmalıdır. Burada da uşaqlar gündə 4 saat işləməklə sənət öyrənməəi və 4 saat da dərs oxumalıdır.

d. ) Bütün kargər və müstəxdimlərin hüquqları məhfüz olmaq şərtilə həftə də bir dəfə istirahət günü, azadlıq günləri, milli və dini bayramlarda istirahət və ildə bir ay mürəxxəslik verməli.

z. ) Hamilə arvadlara vəz həmlə 6 həftə qalmış, vəz həmldən 6 həftə sonraya qədər mürəxxəslik verilməli dir, bütün hüquqları məhfüz olmaq şərtilə

16 - Xalqın mənafeini nəzərə almaq şərtilə vergi üsuluna yenidən baxmalı, hər vətəndaşın iqtisadi vəziyyəti və gəlirinə görə vergi təyin edilməli, qeyr müstəqim vergilər bacardıqca azalmalıdır.

17 - Göstərilən iqtisadi tədbirləri həyata keçirmək üçün kafi sərmayə ilə Azərbaycan Milli Banki təşkil edilməlidir.

## Fəlahət haqqında

Azərbaycan Demokrat Firqəsi Azərbaycan kəndlisinin ac, yoxsul hala düşməsinin gunahını indiyə qədər kəndlərdə olan feodal (dərə bəylik) üsulunda görür, buna görə də Firqə hesab edir ki :

18 - Tez bir zamanda kəndli ilə ərbab münasibatını müəyyən etməkdən ötrü xüsusi qanun vəz edilməlidir. Dövlət yerlərini fövriyyətlə kəndlilərə, pulsuz olmaq şərti ilə paylamaq lazımdır. Həmçinin istibdad dövrünün tərəfdarı olan və Azərbaycanı qoyub qaçmış ayrı mülkədarların da əmlaki müsadirə olunub kəndlilərin ixtiyarına verilməli dir.

19 - kəndlilərə fəlahəti canlandırmaq və əkinəcəyi artırmaq məqsədilə uzun müddətli və nazil tənzil ilə çox borc verməк üçün Bank Kəşavərzinin iş şəraitini dəyişdirib onu bu ehtiyacı təmın etməyə qadır bir hala salmaq lazımdır.

20 - Bəzi ərbablar tərəfindən təhmil edilmiş bidətlər, birəhmanə vergilər qaldırılmalı və elə bir şərait yaranmalıdır ki, kəndli öz məhsulu ilə ailəsini idarə edib ınsana layiq həyat qura bilsin.

21 - Fəlahət işini nizama salmaq, zəhmətkeş kəndlinin vəziyyətini yaxşılaşdırmaq üçün kəndlərdə kəndli cəmiyyətləri yaranmalıdır. Bu cəmiyyətləri kəndlilərin özələri idarə etməlidir.

22 - Kətxudalar kəndlilərin arasından seçilməlidir. Fəlahəti müasir elm və sənətin böyük müvəffəqiyyətləri əsasında qurmaq üçün dövlət kəndlilərə traktor və sair fəlahət maşınları ilə kömək etməlidir.

24 - Jandarm və dövlət qulluqçularının öz məqamlarından su istifadə edib kəndlilərin var - yoxlarını əllərindən almalarına yol verilməməlidir.

25 - Azərbaycan kəndlisini quraqlıq və susuzluq qorxusundan qurtarmaq üçün dövlət hesabına çeşmə vücuda gətirib, artezian quyuları qazdırmaq və onlar çaylar və göllərin suyundan lazımınca istifadə etmək imkani verməli, bu yollar ilə fəlahət məhsulu artırılmalı və kəndlinin vəziyyəti yaxşılaşdırılmalıdır.

## Xalq maarıfi haqqında

Azərbaycan Demokrat Firqəsi savadsızlıq və cəhalət ilə mübarizə etmək üçün xalq maarifi haqqında aşağıdakı vəzifələri irəli sürür:

26 - Məclis şurayi milli tərəfindən təsvib edilən təlimati məccani və icbarinin səri bir surətdə icrasını tələb edirik.

27 - Ana dili milli mədəniyyətin tərəqqisi üçün qüdrətli bir vasitə dir. Ona görə balalarımıza bilatəxir istər dövləti və istərsə xüsusi mədrsələrdə öz ana dilimizdə tədris etməlidir. Bunun üçün bilatəxir dərs kitabları və sair tədris ləvazimatı hazırlamaq lazımdır. Azərbaycanda yaşayan başqa millətlər: Kürdlər, Ermənilər, Asurilərin də öz ana dillərində mədrsə açmaq haqq və ixtiyari ilə Firqəmiz kamilən müvafiqdir.

28 - Azərbaycan xalq maarıfinin tərəqqi və təkamülünü təmın etmək üçün Təbrizdə Milli Danişgah vücuda gətirməlidir.

29 - Yaşlıları savadlandırmaq və onlara müəyyən xüsusi bilik vermək üçün bütün şəhər və kəndlərdə ayrıca məktəblər və sənət evləri açılmalıdır. Bu məktəblərdə maddi səhülət və təhsil şəraiti yaratmaq və onları müəllim cəhətindən təmin etmək üçün xüsusi tədbirlər görmək lazımdır.

30 - İbtidai məktəbdən tütmüş ali məktəbə qədər bütün dərs kitabları və bərnamələrinə yenidən baxmalı, istibdad və zülmü təbliğ edən sözlər nə varsa onlardan çıxarılıb atılmalı və taza nəsli demokrasi və azadixah ruhda tərbiyə etmək üçün taza dərs kitaabları və bərnamələr yaradılmalıdır.

31 - Şəhərlərdə və kəndlərdə maarıf və elm təşkilatlarının sayı artırılmalı, kitabxanalar, qiraətxanalar təşkil edilməli, əhali üçün münəzzəm surətdə və pulsuz konfranslar verməli, elm və fərhəng vasitəsilə xalqı ictimai nöqsanlarımızı aradan aparmaqdan ötrü mübarizəyə cəlb etməlidir. Yeni nəslimizi məhv eləyən

tiryəkxanalar, əxlaqsızlıq evləri və qumarxanaları aradan götürməlidir. Bütün bu işlərdən məqsəd xalqın gözünü açmaq, əxlaq və mənəviyyatı yüksəltmək, onu vətənin istiqlalı və azadlığını saxlamaq və qorumaq üçün ciddi mübarizələrə hazırlamaqdan ibarətdir.

## Xalq səhiyyəsi

Xalqın sağlamlığı onun həyat mübarizəsi üçün mühüm şərtlərdən dir. Buna görə də səhiyyeyi ümuminin qeydinə qalmağı Azərbaycan Demokrat Firqəsi böyük məsələlərdən bilir, o xüsusda aşağıdakı tədbirlərin həyata keçirilməsini tələb edir:

32 - Mövcüd naxoşluqları sağaltmaq kafi deyil, əmrazın qabağını almaq üçün ciddi tədbirlər görmək lazımdır.

33 - Küçələrdə, bazarlarda, evlərdə natəmizliyə, çirkaba, pintiliyə yol verilməmək üçün tədbirlər görülməlidir.

34 - Qızdırma, titrətmə (malarıa) əleyhinə ciddi mübarizə aparılmalıdır və bu kimi məmləkət mərəzləri törədən səbəblər aradan qaldırılmalıdır. Batlaqlar qurudulmalı, bağlar və ağacların sayı artmalıdır.

35 - Keçəllik, teraxuma və sair müsri naxoşluqları aradan qaldırmaq üçün dövlət ciddi tədbirlər görməli və bu işə maddi və mənəvi kömək yetirməlidir.

36 - Əhaliyə gündəlik həyatında lazım olan behdaşt məlumatı vermək üçün konfranslar təşkil etməli, radio vasitəsilə xalqı başa salmalı və bu məqsədlə xüsusi kitabçalar nəşr olunmalıdır.

37 - gələcək nəslin tərbiyəsi üçün şəhərlərdə və kəndlərdə körpələr və yaşlı uşaqlara məxsus cəmiyyətlər və dövlət hesabına tərbiyə evləri açılmalıdır.

## Ədəbiyyat, incə sənət və mətbuat

38 - Xalqın mənəvi və ruhi qəzası olan ədəbiyyat və sənaye zərifənin tərəqqisi üçün hər bir şəraiti yaratmaq lazımdır. Bu məqsədlə Təbrizdə Azərbaycan yazıçıları və hünərvərlər cəmiyyəti təşkil olunmalıdır. Bu cəmiyyətlərin Azərbaycanın başqa şəhərlərində və kəndlərində şöbələri olmalıdır.

39 - Yazıçı və hünər sahiblərinin zəhmət və haqlarını nizama salan yaradıcılıq hüququnu təmin etmək üçün dövlət büdcəsində kafi mıqdarda kömək təxsis edilməli, hünərvərlərin vücuda gətirdiyi əsərlərə padaş verilməlidir.

40 - Nəqqaşlıq, mücəssəməsazlıq və musiqi sahəsində Azərbaycan xalq yaradıcılarını əbədi sənətlərini saxlamaq məqsədilə dövlət tərəfindən müəssisiələr və kargahlar (atelye) vücuda gətirməli və ustadların əlinin altında istedadlı cavanlara sənət örgətməlidir.

41 - Azərbaycan dilində kitab nəşrinə mane olan adamlar vətən xaini və xalq düşməni kimi məsuliyyətə alınmalıdır.

42 - Müəllimlərin, dövlət idarələrində işləyən xırda məmurların maaşını təmin etməlidir.

43 - Teatrın böyük ictimai tərbiyə ocağı olduğunu nəzərə alaraq Təbriz və başqa Azərbaycan şəhərlərində olan teatrların məxarici dövlət tərəfindən təmin edilməlidir.

44 - Azərbaycanın tarixi yadıgarlarini hifz etmək üçün Milli bir Muzey vücuda gətirmək lazımdır.

**Milli Məsələ**

45 - İran məmləkətinin daxilində yaşayan hər bir millətin daxili muxtariyyəti və öz müqəddəratini təyin etmək hüquqi əyalət və vilayət əncümənləri vasitəsilə təmin edilməlidir

46 - Azərbaycanlılar kimi xüsusiyyətə malik olan İran xalqları ictimai təşkılatlar və dövlət idarələrində öz ana dillərindən istifadə etməli və bu idarələrdə milli dillər maneəsiz olaraq işlədilməlidir.

**Məhkəmə İşləri**

47 - Rizaşah dövrəsində hoqqabazlıq və zor ilə keçirilmiş bütün irticai qanunlar ləğv edilib onun əvəzində azadlıq və demokratlığa uyğun qanunlar vəz edilməli. Qazıların istiqlalı qəti surətdə təmin olunmalıdır. Şəhrbani və jandarm məmurlarının ictimai işlərə qarışmalarına ciddən axır qoyulmalıdır.

48 - Məhkmələr hər cür təzyiqdən azad olmalı və ancaq ədalət və haqqa arxalanmalı, siyasi və mətbuat mühakiməsi heyət münsifə hüzuru ilə icra edilməlidir. Məhkmələrdə işlər çox səri bir surətdə əncam verilib müttəhimləri bilatəklif saxlamaq cürm məhsub olunmalıdır. Məhkəmə və müddəi əlümumun rəsmi əmri olmadan heç bir kəsin evinə girib təftiş etmək olmaz. Şəhrbani və jandarm məznun olduğu əşxası inzibat təriqi ilə 24 saatdan artıq tovqifdə saxlaya bilməz. Günahsız həbs və tovqiflər cürm hesab olunub ona mürtəkib olanlar cəzalanmalıdır.

49 – Keçən cinayətkarları məhkməyə cəlb edib və onların 24 illik hesablarına yetişib cürmləri isbat edilərsə fövrən icra olunmalıdır.

**Arteş haqqında**

50 - Arteşin islahi və onun demokrat ölkəyə layiq bir arteş kimi idarə olunan münasib bir vəzə salınmalı, həmçinin nizam vəzifə qanununu xalq nəfinə dəyişmək lazımdır.

**(« Azərbaycan» şümarə 24, mehr 18, oktyabr 10 )**

# TEHRAN BARMAQĞI

Tehran irticainin qara barmağı Azərbaycan kəndlərində görsənməyə başlanır, bu isə kəndlərdə saysız-hesabsız jandarmlardan ibarətdir.

Kəndliləri güc ilə çəkib fitnə və fisada sövq edirlər. Ərbabların əmlakını hifz etmək və bəhrə almaq bahanası ilə kəndliləri döyür, əzir, incidir və narahat edirlər.

Biz çox gözəl bilirik ki, Azərbaycan maliklərinin böyük bir qisməti sülh və aramiş tərəfdarıdırlar. Vəli müftinlər onların adından xəlqi narahat edir və cür bə cür bahanalar ilə kəndlərdə hüquqı işlərə qarışırlar.

Firqəmiz var quvvəsilə aramişi saxlamağa çalışır Vəli fitnəkarlar öz mənhus siyasətlərindən əl götürmək istəmirlər.

Buna indiki şəraitdə cəng- əsab deyərlər. Keçmiş müharibə isbat etdi ki, bu cəng - əsab bir nəticə verə bilməz.

Biz qanuni yol ilə dadgostəriyə müraciə etdik. Açıqdan açığa dedilər ki, bu işlər bizə aid deyil, biz xalqın işinə yetişə bilmərik.

Görürsünüz ki, millət və məmləkətin müqəddəratı kimlərin əlində dir? O deyir: biz hüquqı işlərə qarışa bilmərik, kim güclü isə öz işini qabaqdan aparmalıdır.

Biz üsulən Liqvan hadisəsinə həmişə müxalifət etmişik. Leykən təcrübədə sabit oldu ki, dadgostəri məmurları özləri bu kimi hadisələry əmələn vücuda gətirməyə çalışırlar.

Jandarm və əmniyə təşkilatının başında duranların,Liqvan hadisəsində böyük cinayətkarlıqları olmuşdur. Əgər ogun bunlar məsuliyətə cəlb edilsə idi, bu kimi hərəkətlər olunmazdı və bu gün ədliyə rəisi və müddəi-ülümüm kəndlərdə baş verən cinayətləri öz boyunlarından atmaqla taza bir şurişin meydana çıxmağına yol verməzdilər.

Biz bunilə bütün xəlqimizi təhəmmülə, səbirə və mətanətə dəvət edirik və eyn zamanda fitnə və fisad tovlid edənlərin simaların açmaq üçün onların gördükləri işlərin mədarık və əsnad üzrə yazılıb təşkilatımıza verilməsi tövsiyə olunur.

**Mir Cəfər Pişəvəri. ("Azərbaycan" şümarə 26, mehr 20, oktiyabr 12)**

# HÖVİYYƏT HÜCRƏ VƏ DÜKAN İLƏ TƏYİN EDİLMƏZ

Dünən gizli bir surətdə bağlanan naməşru (qanunsuz) nöqtə aşkar bir surətdə doğrulub, dunyaya qədəm qoydu. Bir aydan bəri Hacı Seyid Hüseyn Karvansarası və başqa qaranlıq hücrələrdə çalışan mərmuz əlləri tapıb düzəldib, imza etdiklərini iftiraamiz teleqrafın surəti Tehranın irtica ruznamələri vasitəsilə gəlib, Təbrizdə intişar tapdı.

Biz demokrası üsulunun ciddi tərəfdarı olduğumuz üçün bu kimi işlərdən mütəəsir olmayaraq, əlbəttə, hər kəs öz fikrini, öz əqidəsini intişar verməkdə azaddır. Bu şərait ki, onun intişar verdiyi sənəd və mətləb özgələrin haqqını paymal (ayaq altına salmaq) etməsin.

Azadlıq əleylhinə yazılan bu teleqrafda bu əsl əbədən gözlənilməmişdi. Teleqrafları yazanlar 10 min nüsxələrdə çap və nəşr edilmiş rəsmi bir sənədi təhrif, təfsir etmək kimi bu kudəkanə (uşaqlıq) yola qədəm qoymuşlar.

Şəhrivərin 29-da (sentyabrın 19-da) Şirxuşrud salonunda ictima etmiş min beş yüz nəfərlik cəmiyyəti təhqir etmək kişilərə, şərafətli adamlara yaramaz.

London konfransına bu 1500 nəfəlik cəmiyyət tərəfindən müxabərə edilən teleqrafda hər kəs Azərbaycanın təfkiki və təcziyəsi (ayırmaq) məsələsi barəsində teleqraf yoxdur. Iran üsul-idarəsində bəhs edilmiş məşrutə və demokrasi əsaslarının ortadan qaldırılması göstərilmişdi.

Bunun əleyhinə olaraq, teleqrafı düşünmədən imza edən həmvətənlərimizə və bu xüsusda Ağayi Tağızadənin Londondan göndərdiyi teleqrafları oxumağı tövsiyə edirik.

Azərbaycan xalqının teleqrafında Azərbaycanın bərbadlığı təsvir olunub, əncümən əyaləti və vilayəti vasitəsilə xalqımızın daxili muxtariyyatının təmin edilməsi irəli çəkilmişdir.

Bu haqq və ixtiyarı Azərbaycan xalqı silah gücü ilə almışdır və bu haqqı var qüvvəsilə diriltməyə çalışacaqdır.

Teleqrafımızın ziddini imza etdirən ağalar bunu Azərbaycan xalqına ayrı rəngdə göstərməklə və azadlığa böyük zərbələr endirməyə iqdam etmişdilər.

Dil məsələsi bizim həyat və məmat məsələmizdir. Biz ciddi bir məhkəmə olsa isbat edərik ki, müxaliflərimizin yüzdə onu belə fars dilincə danışa bilməzlər və danışdıqları halda, xalqı güldürməkdən məsun qalmazlar.

Dili bahana edib xalqı azadlıq əleyhinə təhrik etməkdən namərdanə bir iş ola bilməz.

Bundan əlavə ağalar gərək bilsinlər ki, Təbriz 5-3 bazar karvansarasından ibarət deyildir. Azərbaycanlı deyəndə tək 10 və 15 nəfər Təbriz bazarını əllərində alət qərar verən istifadəçi möhtəkirlər nəzərdə tutulmur.

Azərbaycanda 5 milyon nüfus yaşayır. Bunların hamısı bu torpağın sahibi olduğu üçün onun gələcəyi barəsində danışıq haqqına malikdirlər.

Demokrat ölkələrdə rəy hücrə və dukan ilə təyin edilməz. Şəxsiyyət, mülk vəəmlaka bağlı deyildir. Hüviyyət təşxisi (tanımaq) üçün banklarda da etibar axtarmazlar.

Azərbaycanda doğulub, orada nəşvu-nüma (inkişaf) edib, yaşayan bütün insanlar oranın övladı hesab olunur və onun barəsində danışmağa haqlıdırlar.

Qaranlıq hücrələrdə xalqın cibini soymaqdan başqa məqsəd təqib etməyən 5-3 möhtəkir 5 milyonluq xalqı məchullül-huviyyə adlandıra bilməz və onun dilindən danışmaqla dünyanı aldatmağa müvəffəq olmazlar.

Bundan əlavə firqəmizin bəzi karxana sahiblərinin tamahı nəticəsində meydana çıxan təbəqatı ixtilafı yatırmaq yolunda mübarizə edib, aramış və ətiyyəti təmin etdiyi bir halda, evlərinin pişiklərinə qədər teleqraf imza edən bəzi macəracu sərmayadarların bu işi azadlıq səfində çalışan qüvvələrə daldan xəncər vurmaqdadır.

Ağalar bu vasitə ilə təbəğati ixtilafı şiddətləndirir. Sönməkdə olan həriqi (od) təzədən genişləndirirlər. Biz çox gözəl bilirik, bu kimi yaramaz işlər bir neçə nəfər mərmuz adamların nahiyyəsində (tərəfindən) xalqı məsmum etmək üçün intişar tapmaqdadır, yəni bazar adamlarının belə onların əsli məqsətdən xəbərləri yoxdur. Bu teleqrafları imza edənlərin çoxu gəlib idarəmizdə özlərinin imza etdiyi teleqrafı anlamadıqlarını

etiraz edirlər.

Azadlıq əleyhinə fitnə və fəsad törədən ünsürlərin azadixahlar əlinə verdikləri bu mədrək barəsində bizim deyəcək sözümüz çoxdur və firqəmiz isə bu xüsusda öz təsmimini elan edəcəkdir.

Biz bu sözləri fəgət ruznaməvisizlik vəzifəsi olaraq, yazdıq əqidəmizə görə müxaliflərin diş sındıran cavabı firqə səflərini möhkəmləndirmək və xalqımızın sağlam və fədakar əfradını onun başına toplamaqdır.

Bizim sözümüz haqqdır, haqq ölmaz batil isə məhv olmağa məhkumdur. Əleyhimizə vurulan teleqraflar isə dürüst Məhəmmədəli Mirzənin tərəfdarlarının ləhnini xatirə gətirir və eynən islamiyyədən çıxan ziddi azadi teleqraflara bənzəyir.

Tarix təkrar olunur, hətta bu teleqraflarda islamiyyə teleqrafını imza edənlərin övladının adı nəzərə gəlir. O famillər aşkar bir surətdə meydana çıxır. Qoy olsun Azərbaycan azadixahları bir gün bu pərdələri yırtıb, bu xain simaları xalqa göstərməlidilər. Nə qədər tez olursa, o qədər xalqın xeyrinədir.”

**Mir Cəfər Pişəvəri**

**(“Azərbaycan” şümarə 24 mehr 29, oktiyabr 21)**

# İFTRAAMİZ TELEQRAFI KİM İMZA ETMİŞDİR?

Dünənki nümrəmizdə bazar əhlinin çoxunun bəzi macəracular tərəfindən iğfal olunduqlarını yazmışdıq. Məqaləmiz bir az üstü örtülü olduğu üçün keçən gün oxucularimizdan bir neçəsi idarəyə müraciət edib mövzüün açıq və sərih bir surətdə yazılmasını təqaza etdilər. Bu təqazayi məşrui cavabsız qoymamaq məqsədilə naçar olduq əlimizdə olan məlumatdan cüzi bir qismini intişar verək.

Qoy oxuyub, düşünüb mənasını dərk etməyən telqrafları imza edənlər gözlərini açıb görsünlər kimin əlilə tora düşmüşlər.

Təqribən bir ay bundan irəli Seyid Ziya dəstgahının ciddi, rəsmi və fəal əllərindən hesab olunan Feqhi Azərbaycanda fitnə və fəsad tovlid etmək məqsədilə böyük etibar ilə Tehrandan Təbrizə gəlir və burada gətirdiyi pullar, vədə - vəidlərlə bazar dəlallarınadən bir neçəsini ələ keçirir. Seyid Ziya və sayir mərmuz məqamat ilə mərbut olan bəzi əsraramiz şəxəslərdən kömək alıb işə başlayır. İki üzlü və xain adamlar isə bu oda ətək vurur, nəhayət başdan başa töhmət və iftiradan ibarət olan tovhinamız və xalqın içinə nifaq salan telqraf, timçə və karvansaraların qaranlıq güşələrində hoqqabazlıqla imzalanıb müxabirə edilir.

Sonra ağaye Feqhi məmuriyətini axəra yetirmək üçün Ərdbilə, oradan da Şahsevən ellərini şərartə sövq etmək üçün onların içinə əzimət edir.

Biz bu barədə uzun - uzadı bəhs etmək istəmirik. Əgər telqrafı imza edənlər doğrudan - doğruya fədakar və düz adam olsaydılar, haman min beş yüz nəfərlik ümumi cəlsədə gərək etiraz edə idilər. Çünki, onların çoxu da olmasa mühüm bir qisminin bu cəlsədə huzurları var idi və Londona müxabirə olunan telqraf isə etirazsız və müttəhidülrəy bir surətdə təsdiq edilmişdi.

Hələ müxalifətamiz telqrafı imza edənlər arasında bəzi adamlara təsadüf olunur ki, hər iki tərəfin əsnadına dəxalət etmişlər. bir adam ki, özü - öz riza və rəğbətilə Əncümən Əyaləti və Vilayəti tələb edən bir elamiyəni imza edir, o şəraftinə əlaqəmənd olsaydı onun xilafına gərək təzahür etməyəydi.

Bundan əlavə imzaların içərisində cani və qatillər də vardır. Sadiq Müctehidi öz əlilə üç nəfəri qətlə yetirib, doqquz nəfəri şədid bir surətdə məcruh etmişdir. Bu kimi əlləri məzlumların qanına bulaşmış canilərin imzasilə yanaşı imza qoyanlar, əcəba gördükləri işin qəbahətini his etmirlərmi?

Biz dünənki nümrəmizdə dediyimiz kimi əşxasın şəxsiyti ilə işimiz yoxdur. Lakin bəzi şəxəslər vardır ki, onları xalqa tanıtmmaaq olmaz.

Bazar camaatı əgər Fəqihini tanıya bilə idilər, qətəən onun toruna düşməzdilər.

Telqrafı imza edən cavanlar əgər bilsə idilər ki, onların imzaları xain əllər vasitəsilə oğurluq ilə əldə edilmiş pula satılmışdır, əbədən o telqrafı imzalayan adamların ətrafına yaxın düşməzdilər. Mütəəssifanə bu həqiqətdir, biz istədik onu aşikar edib qəzavəti bitərflərin vicdanlarına həvalə edirik.

**Mir Cəfər Pişəvəri**

**(“Azərbaycan” şümarə 30 mehr 25, oktiyabr 17**

# ÇAĞRILMAMIŞ QONAQLAR BILMƏLIDIRLƏR

Xalqımızın şiddətli etirazına baxmayıb, Tehran bizə iyirmi il bütün məmləkəti əsarət, qaranlıq və cəhalətdə saxlayıb, onu fəlakət halına salan Rizaxan rejiminin qəhramanlarından bir neçhsini sovqat göndərdi.

Bir neçə gün bundan əvvəl Seyid Ziyanın oğrulanmış pulların gücü ilə azadixahları, bəlkə bütün xaalqı tövhin və təhqir edən telqrafın intişarı da hənüz taza işdir. Başdan başa Azərbaycan kənədlərində bəzi jandarmlar tərəfindən bərpa edilən böyük fitnə alavının gündən günə şidəttlənməsi də hər kəsə bəlli dir.

Az çox siyasət ilə aşina olanlar bilirlər ki bu üç böyük saxta hadisə kamilən bir biri ilə mərbutdur.

Mərmüz əllər bu vasitə ilə zahiri azadlığımızı boğmaq, Tehranda başladıqları mürtəceanə oynu burada da təkrar etməyə başlamışlar.

Xalq bu xüsusda öz fikrini demiş və bu xainanə siyasətin hər bir tərəfini vaxtında dünyaya elan edib ondan tovlid olabılən hər bir su nəticənin günahını öz boynundan atmışdır. Bizə bəziləri qisase qəbl əz cinayət olmaz məsəli mocibincə deyirlər ki, qoy sizin etiraz edib sevmədiyiniz məmurlar gəlib işə başlasınlar. Ondan sonra siz qəzavət ediz. Bu ayrı əşxasın barəsində doğru ola bilərdi. Amma başımıza atəş və pul ilə göndərilən çağrılmamış taza qonaqların çoxunu biz tanıyırıq. İmtahan olunan bir işi daha imtahan edənlər peşmanlıqdan başqa bir naticə əldə edə bilməzlər.

Biz bunları qirx il imtahandan keçirmişik və daha tanıyırıq.

Əlavə bər in bunların bəzisi hətta axır günlərdə belə İran xalqının məhvi demək olan bir tərəfli siyasətin açıq amillərindən olmuş, məmləkəti qəvi pəncə və qəhhar bir biyganə siyasətə tabe düşməyə çalışmşlar.

Bunları azərbaycana göndərməklə, Sədr hökuməti İranı qprxulu pərtgaha sövq etmişdir.

Məmləkətin sərnevişti ilə oynayan beş üç mürtəce bu kimi ənudanə siyasətlə özələrinin məmləkətə xain olduqlarini bir daha isbat etdilər. Bunalar iyirmi il Rizaxan tərəfindən şiddətli bir surətdə təqib olunan bir tərəfli siyasətin məzəsini anladıqları halda əgər vətənpərəst adamlar olsaydılar onun təkrarından pərhiz etməli idilər. Lakın bunlar öz şəxsi və təbəqati mənafeyini hifz etmək üçün böyük xəyanətdən çəkinməyib o xətərnak yolu tazadan şiddətli bir sürətlə getməyə başlamışlar.

Biz öz sözümüzü demişik. Çağrılmamış qonaqların gəlməsi nətiycəsində hər bir su hadisə üz verərsə o onların və onları pul və silahlaر ilə təchiz edib üstümüzə göndərnlərin öhdəsinə dir.

Qonaqlar unutmasınlar ki, Azərbaycan, İsfahan, Yəzd və Kirmana bənzəməz. Beş üç bazar dəllaları da Azərbaycan xalqının nümayəndəsi deyildir. Xalq azadlığa əlaqəmənd dir. Yonca yeyib aldığı qanun əsasını hifz edəcək, məşrutənin pozulmasına yol verməyəcəkdir.

Qələm azadlığı, dil azadlığı, vicdan və əqidə azadlığı, ictima və cəmiyyət azadlığına toxunmaq olmaz. Bunu bir kərə taza qonaqlar bilmli dirlər. O xalqın namusudur, buna əl atanların əlləri kəsilər və özləri məhv və nabud olarlar.

**Mir Cəfər Pişəvəri**

**(«Azərbaycan» şümarə 31, məhr 26, oktyabr 18 )**

# İNTİXABAT FƏRMANINI XALQIMIZ ÖZÜ SADİR ETMƏLİDİR

İndiki14 cü məclis məmləkətimizin əsası qanunların pozub gülünc bahanalar ilə azadlığı məhv etməyi qərara aldı. İndiki əksəriyyəti təşkil edən xainlər iki yol ayrıcında irtica və istibda yolunu intixab etdilər. İndiki qullabi vəkillər kəmfürsətlərə yaraşan tülkülük ilə əllərinə düşən fürsətdən istifadə edib, xalqın qanuni haqqını əlindən almağa təsmim tutdular. Bizim təklifimiz rovşən dir. Biz var qüvvəmiz ilə haqqımızdan difa edib, məşrutəni saxlayacağıq.

Məclis qanun əsası mucibincə tətil ola bilməz, onu tətil olmağa yol verə bilmərik. Ona görə mərkəzi komitəmizin ən yaxın zamanda dəvət olunmuş ümumi iclası bu xüsusda ciddi qərar çıxarmalıdır.

Azərbaycan xalqı aldığı azadlığı saxlamağa qadır olduğu üçün cavanlarının al qanı ilə yazılmış məşrutə qanunlarını məhv olmağa yol vermiəcəkdir. Bütün İran azadixahlarının gözü Azərbaycandadır. Bütün İran demokratları bizdən iş gözləyirlər. Firqəmiz bu intizar və ümidlərin puça çuxmasına yol vermiəcəkdir. Biz buna ürəyimizin dərin yerindən inanırıq. Firqə irticai məclisin xainanə zərbəsinə mərdlərə yaraşan bir şücaətlə cavab verməlidir. Xalqımız məclis intixabatının çox tez bir surətdə başlanmasını tələb edir. Firqə böyük qədəmi götürməlidir.

Haqqı verməzlər, onu almaq və saxlamaq lazımdır. Xalqımız öz haqqını almağa və saxlamağa qadır olduğu üçün, onun böyük Firqəsi çox tez və ciddi təsmim tutmalı və onu icra etməli dir. Qoy Tehran mürtəceləri öz təkliflərini bir dəfə düşünsünlər. Onlar qanunu pozub məşrutəni küllən tətil etdilər. Ona görə bizim azadlıq və məşrutəni diriltmək yolunda gördüyümüz tədbirlərə etiraz edə bilməzlər. **Seçgi fərmanını xalqımız özü**

**sadır etməli dir.** Tehran bu yolu öz əlilə bizim qarşımıza qoymuşdur. Buna müxalifət edən xain ünsürlər də gərək hesablarını anlasınlar. Burada tək Azərbaycanlı deyil, bütün İranılıarın həyat və mümat məsələsi həl olunur. Pul gücü, hiylə və neyrəng ilə meydana atılan hoqqabazlar, xalqın arzusu mucibincə cəzalanacaqlar. Azadlıq qurbanlar tələb edir, biz bu qurbanları verməyə amaddəyik.

İrtica qan tökməyə təşnə dir. vəli azadixahlar onun bu məqsədlə qalxızdığı əllərini kəsməli, arzularını puça çıxarmalıdır.

Biz intixabatı başlamalı, onu demokratik bir tərzdə və bitərəfanə bir surətdə axıra yetiyrməliyik. Qoy Tehran mürtəceləri xalq tərəfindən seçilən vəkillərimizi qəbul etməsinlər. Onda bizim təklifimiz məlumdur. Biz İranın ayrı yerlərində də bu işin başlanmasını ümid edirik. Lakin görünür həmişə olduğu kimi birinci qədəmi götürmək Azərbaycanın öhdəsinə düşmüşdür. Olsun, bu iftixarlı işi də biz başlarıq.

Təkrar edirik, məhəllərdə aparılan Firqə konfransları tezliklə xatimə tapmalı, şəhərlərdə və kənədlərdən gələn komitə üzvləri və məsul Firqə rəhbərləri bu böyük təsmimi düşünüb icra etməyə hazırlanmalıdırlar.

Bundan əlavə Firqə üzvləri var qüvvələri ilə bu xəyanəti açıb xalqa göstərmək, əfkar aməni azadlıq yolunda mübarizəyə hazırlamaq kimi böyük bir vəzifə qarşısında dırlar.

Qoy Seyid Ziyanın pulu və biyganələrin tədbiri ilə meydana atılan xain ünsürlər maskalarını yırtıb öz həqiyqi siymalarını göstərsinlər. Xalq bu kimi xain ünsürləri cəzalandırmağa qadırdır. Mürtəcelərə və azadlıq düşmənlərinə nəcat yoxdur.

**Mir Cəfər Pişəvəri**

**(« Azərbaycan» şümarə 33, məhr 29, oktyabr 21)**

# AZƏRBAYCAN OTUZ İL BUNDAN ƏVVƏLKİ MÖVQEYİNİ TUTMALIDIR

Əgər cavnblar bilmirsə, yaşlılar bilir ki, birinci dünya müharibəsindən qabaq, Azərbaycan, xüsusən Təbriz İranın, bəlkə Yaxın Şərqin ən böyük ticarət mərkəzlərindən hesab olunurdu.

Geniş ticarətin tərəqqisi mövcibincə Təbriz, Ərdəbil, Əhər, məxsusən Urmiyə gündən- günə tərəqqi edir, böyüyür, abadlaşır, müasir hala düşürdü. Azərbaycanda üzümçülük, badamçılıq və başqa dəyərli meyvələr vücuda gətirmək, köhnə və qaydasız əkinçiliyi ikinci sıraya salır, xalqın iqtisadi vəziyyətini gündən- günə yaxşılaşdırır, ölkənin ümumi sərvətini artırırdı, təəssüf ki, birinci dünya müharibəsinin meydana çıxardığı böyuk dəyişiklik hər bir yerdən artıq Azərbaycanın fəlakətinə səbəb oldu. Bu vasitə ilə onun ticarət yolları kəsildi. Nəticədə əl- qolu bağlandı. Nə tək şəhərlər, hətta kəndlər belə bu dəyişikliyin nəticəsində boşalmağa, xarabazara dönməyə üz qoydu. Qiymətli məhsul verən ərik, hulu, badam, hətta üzüm ağaclarını belə kəndlilər kəsib, yandırdıqdan sonra bağların yerində buğda, arpa əkməyə məcbur oldular.

Müharibədən sonra Riza xan iş başına gələnə qədər Azərbaycan xalqı əsrlərdən bəri yığıb saxladığı zəxirə ilə baş saxlayıb, ticarət yollarının açılması ümidi ilə ölmədiril bir surətdə gün keçirirdi.

Riza xan işə başlamaqla bu ümid tamamilə yasa döndü. Çünki, onun təqib etdiyi birtərəfli siyasət Azərbaycan ticarət malının ən münasib və ən faydalı müştərisi olan Şura Ölkələri bazarını tamamilə İrandan uzaqlaşdırdı. Nəticədə gözəl Təbriz ticarət cəhətdən ikinci, üçünçü və dördüncü sıraya keçib, xarabazar bir kənd halına düşdü. Onun böyük tacirləri naçar oldular öz sərmayələrini Tehrana və başqa ticarət şəhərlərinə köçürüb, özlərinə təzə bir bazarlar arasınlar.

Pəhləvi özünün cahilanə siyasəti nəticəsində məmləkətə böyük zərər vurduğu halda Azərbaycanı tamamilə ayaqdan salıb, xalqın yaşayış vasitələrini tamamilə məhv edib ortadan qaldırdı. Müharibə başlanan zaman Təbriznn, Ərdəbilin, Urmiyənin ən fəlakətli dövrləri idi. Müharibə isə onu bir qədər də şiddətləndirdi. hərgah xalq tərəfindən bəzi ciddi tədbirlər görülməsəydi və Qızıl Ordu müsaidət göstərməsəydi həmin dörd ilin muharibə zamanı buranın bütün məhsulu və azuqəsi çəkilib aparılacaq və camaat tamamilə acından tələf olub kedəcək idi. Hər halda indi Azərbaycanımız iqtisadi cəhətdən çox xətərli bir haldadır. Əgər vəziyyət belə davam edərsə xalq hamısı naçar öz ev- eşiyini tərk edib başqa yerlərə kedəcəkk, gündən-günə ölkə yoxsullaşıb tamamilə ayaqdan düşəcəkdir. Bu fəlakətin qarşısını almaq, vətənimizi fəlakətdən tamamilə nicat verib, otuz il bundan əvvəlki məqama çatdırmaq üçün Firqəmiz ciddi surətdə düşünməyə, düzgün və sağlam tədbirlər görməyə başlamışdır.

Bu tədbir gözəl nəticələr verməkdədir. Xalqımız xüsusən, tacirlər gərək Firqənin başladığı bu böyük işi ciddi surətdə istiqbal edib onun əməli olmasına var qüvvə ilə kömək göstərsinlər.

Biz çalışacayıq ki, Şura malları Azərbaycan yolu ilə gəlib, İranın başqa bazarlarına göndərilsin. Təbriz, Ərdəbil və Urmiyə böyük ticarət mərkəzləri halına düşsünlər.

Bizim əkinçilik məhsulumuz və həmçinin xoşkbarımız Şura bazarlarına, həmçinin Avropa bazarlarına yol tapsın. Həmçinin Avropa bazarları ilə ticarətə girişmək üçün Azərbaycan bazərganları Şura dəmir yollarından və sair nəqliyyat vəsaitindən istifadə etmək imkanına malik olsunlar.

Biz inanırıq ki, Firqənin təqib etdiyi bu iqtisadi tədbirlər nəticəsində şəhərlər və kəndlərimiz təzədən çiçəklənməyə və gülməyə başlayacaq, xalqa yaşamaq və xoşbəxt olmaq üçün geniş meydan veriləcəkdir.

Müharibə Azərbaycan ticarətini asanlaşdırmaq üçün təbii vasitələr vücuda gətirmişdir. Bu vasitələrdən ciddi surətdə istifadə etmək lazımdır.

İndi bizim sərhəddimizə iki dəmir yolu gəlib çıxmışdır. Müharibədən əvvəl onlardan istifadə etmək imkanı yox idi. Onların biri Culfa ilə Bakını birbirinə bağlayan ən qısa dəmir yoludur. İkincisi isə Astaradan Bakıya çəkilən yoldur. Bu yollar vasitəsi ilə Azərbaycanın ticarət malı bütün Şura bazarlarından başqa, Avropanın ən uzaq guşələrinə belə gedib çıxa bilər. Tacirlərimiz gözlərini açıb dünyaya açıq bir nəzər ilə baxmalıdırlar. Azərbaycanın gələcəyi böyükdür.

İran ticarətinin yarıdan çoxu həmişə Rusiya ilə olmuşdur. Bundan sonra vəziyyət tələb edir ki, bu faydalı alver daha da genişlənsin.

Qabağa çıxan bu fürsətdən istifadə etmək lazımdır. Ona görə gərək Firqənin götürdüyü bu ciddi qədəmi təqib etmək və İran ticarətinin məcrasını Azərbaycandan salmaq, yuxarıda qeyd etdiyimiz dəmir yollarından ciddi surətdə istifadə etmək lazımdır.

**Mir Cəfər Pişəvəri**

**(“Azərbaycan” şümarə 34 mehr 30, oktiyabr 22)**

# DÖVLƏTİ MUQTƏDİR YƏNİ ÇE? (1)

Keçən dünya müharibəsi qurtardıqdan sonra İranı qeyri rəsmi, bəlkə rəsmi surətdə yabançı istemarçıların ağuşuna atmağa çalışan məhəbbət dəllalları müqtədir hökumət şüarı ilə ortaya çıxıb Vüsuqüddövlə kabinəsini vücuda gətirdilər.

Vüsuqüddövlə kabinəsi, hamı bilir ki, İranın azadlığını pozub qanuni- əsasini ayaqlamaq vasptəsi ilə Riza xanın müqtədir hökumətinin zəminəsini düzəltməkdən başqa bir iş görmüş isə, o da məclisi Şurayi Millinin tətili, İngiltərə dövlətindən ələni bir surətdə aldığı pulların gücü ilə İrana təhmil etmək istədiyi məruf qərardad idi.

Tehran ruznamələrinin müqtədir hökumət deyib, qulaqlarımızı gurultu ilə doldurmaqları qətən həmin siyasətin təkrarıdır.

Tehran siyasətmədarları o qədər kor, o qədər cahil və o qədər kövdəndirlər ki, hökumətin qüdrətini tək- tək şəxslərin əxlaqında axtarır və on bir vəzir vasitəsi ilə dərdlərimizə çarə edilə biləcəyinə xalqı inandırmağa çalışırlar. Dövlətin iqtidarı vəhşət tolid etmək, vurub, yıxıb, xalqı qorxutmaq və azadlığı məhdud etmək ilə əldə edilə bilməz.

Bunu, özlərini bütün İran camaatının ağası, başı və nurçəşmi hesab edən tehranlı siyasət dəllalları bir kərə düşünməlidirlər.

Dövlətin qüdrəti xalqın ona olan meyl və rəğbətindən asılıdır. Xalqa dayanmayan bir hökumət dahilərdən və nabiğələrdən belə təşkil olunursa yaşaya bilməz, yaşasa da məmləkət və milləti fəlakətlərə düçar etməkdən başqa bir nəticəyə yetişməyə qadir olmaz.

Xalqsız, millətsiz bürokrat bir hökumət istər- istəməz qaba diktatorluğa təşəbbüs etməklə, xalqı özünə düşmən edər və özünün qüdrətini əldən verməyə məcbur qalar.

Xalqın məhəbbət və təvəccöhü olmadan və xalqın düşməni sayılan bir hökumət tez- gec rusvaylıq ilə yıxılmağa məcbur olar. Bu ictimai təbii qanunudur. Biz bunların hamısını düşünüb nəzərə aldığımız üçündür ki, xalqın hökumət işlərinə yaxınlaşdırılmasını irəli sürüb əncümənlər vasitəsilə milli bir dövlət vücuda gəlməsini tələb edirik.

Əgər bizim məhəlli muxtariyyət şüarımız İranın hər bir əyalət və vilayətində əməli olursa milyonlar ilə şərafətli insanlar dövlətin poştibanı olmağa yol tapar, bu vasitə ilə qüdrətli bir hökumət meydana çıxıb məmləkətin dərdlərinə əlac etməyə müvəffəq olar. Həqiqi mərkəziyyət isə bu vasitə ilə vucuda gəlməyə başlar.

Yarım milyon riyala özlərini satan Tehran mətbuatı bilməlidir kn, İranın həqiqi sahibi onun kəndlisi, zəhmətkeşi və vilayətlərdə yaşayan şərif əhalisidir. Bu qüvvələri nəzərə almayıb onların ehtiyacını təmin etməyə qadir olmayan bir dövlət yaşamağa qadir ola bilməz.

Tehran yazıçıları nahaq başımızı ağrıtmasınlar. Biz də qüdrətli bir dövlətə tərofdarıq. Biz də hər bir cəmiyyət və hər bir kəsdən artıq İranda əminamanlıq tərəfdarlarının iş başına gəlmələrinə talibik. Biz də var qüvvətimizlə ölkəmizin qanuni demokratik bir ölkə olduğunu arzu edir və bu yolda mal və canımızla

çalışırıq. Bununla belə Tehranın siyasətmədarlarının xain, yalançı və nalayiq olduqlarını hərgiz unuda bilmərik. Biz inkar etmirik, Tehranda da azadixah və şərif adamlar tapıla bilər. Lakin onların bugünkü siyasət bazarına yolları yoxdur. Ora, indi cahil mütəəssib və satılmış hovçuların barmağı ilə rəqs edir.

Tehran yalan danışır, hoqqabazlıq edir, azadlığa mail deyil. İran xalqlarının hamısını cəhalətdə saxlayıb zəli kimi onların qanını sormaqla şişmar qarnını daha da yoğunlatmağa çalışır.

Tehranın başçıları vilayət və əyalət əhalisi üçün haqqi- həyat qail deyillər. Onlar özlərini əşrəf məxluqat hesab edir, Onlar öz nəzərlərində filin burnundan düşmüş böyük adamlardan ibarətdirlər. Bu səfil və cahillər anlamırlar ki, vilayətləri bərbad edilib məmləkətin əhalisi kor, cahil və əsir halında qalmağa məhkum olursa, onların qüdrəti və xanlığı əllərində qala bilməz. Bu surətdə özgələr onların başlarına vurub çörəklərini əllərindən alar. Qarınlarının piyi də çox tezliklə əriyib gedər.

İran böyük bir məmləkətdir. Onun təbii sərvəti on beş milyon deyil, əlli bəlkə yüz milyonluq bir camaatın həyatını təmin edə bilər. Bu məmləkətin sahibi yoxdur. Onun həqiqi sahibi olan məhəlli xalqların əl-qollarını Tehran müftəxorları bağlamışlar.

Tehran hovçuları dürüst hərəmsəra xacələrinin əxlaqını büruzə verirlər. Özlərinin gözəllərdən istifadə etmək istedadları yoxdur, özgələri də hərəmsərayə yol vermək istəmirlər. Bu, uzun müddət davam edə bilməz, tez ya gec sütuhə gəlib, canı boğazına yığılmış xalq özünə çarə axtarmağa məcbur olar. O vaxt isə xacəsəralər üçün ələlə sürtüb əfsus deməkdən başqa bir çarə qalmaz. Tehran bunu düşünməli, bunu anlamalıdır. Güc ilə iş keçməz.

Ço dər tas ləğzəndə oftad mur, Rəhanəndəra çarə bayəd nə zur (2).

Çarə isə ləcacət atından düşüb, xalqa azadlıq vermək, əyalət və vilayət əncümənlərini dəvət edib camaatın ixtiyarını öz əlinə tapşırmaq və bütün İran əyalətlərində yaşayan şərif və pak ünsürlərin köməyi ilə məmləkəti tərəqqiyə doğru aparmaqdan ibarətdir.

Kor müstəbidlər bundan başqa hər bir küzəyə əl atmış olsalar, qulpu əllərində qalacaqdır.

**Mir Cəfər Pişəvəri**

**(“Azərbaycan” şümarə 35 aban 1, oktiyabr 23)**

1 Tərçümə: «Qüdrətli dövlət nə deməkdir». Bu başlıq İran mürtəcelərinin şüarına işarədir.

2 Qarışqa surüşkən tasa düşdükdə, xilaskar zor işlətmək deyil, çarə tapmalıdır.

# HƏQİQİ SİYASİ İŞÇİLƏR TƏRBİYƏ ETMƏLİ

Firqə böyük bir siyasi təşkilatdır. O, bir dəstə bisavad və məlumatsız adamların yığıncağından ibarət ola bilməz. Siyasi bir təşkilatın payəsi yalnız ehsasat üstə durarsa, o, təşkilat uzun müddət davam edib, böyük siyasi işlərin yükünə dözməz. Ehsasat və ani mənfəətlər dəyişib təğyir tapar. Onların sayəsində toplanan cəmiyyətlər də naçar pozulub ortadan getməyə məcbur olar. Əsaslı bir Firqə düşüncə, anlaq və siyasi məlumat üstündə qurulmalı, üzvlərinin biliyinə dayanmalıdır.

Minlərcə məlumatsız və siyasi biliksiz adamları bir neçə faydalı şüarlar ilə yığmaq mümkündür. Lakin onları uzun müddət saxlamaq o vaxt mümkün olar ki, Firqə yüzlərcə anlaqlı, bacarıqlı, siyasi cəhətdən məlumatlı adamlar yetişdirməyə müvəffəq olmuş ola.

Bunsuz iş qabaqdan gedə bilməz. Firqə başçıları orduların əfsərlərinə bənzər. Nizami və hərbi məlumatı olmayan bir əfsər heç bir vaxt qoşunu fəth və zəfərə nail edə bilməz.

İşimizin əvvəli olduğu üçün bu vaxta qədər göbələk kimi yağış nəticəsində çıxıb foriyyətlə məhv olub gedən siyasi Firqələrdən ibarət olunmalıdır.

İstər Azərbaycan, istərsə İranın ayrı nöqtələrində bu günə qədər yüzlərcə Firqələr və cəmiyyətlər vücuda gəlmişdir. İndi isə onların əksərindən quru bir ad belə qalmamışdır. Nə üçün? Ondan ötrü ki, o Firqələri təşkil edib onların başında duranlar siyasi məlumata malik deyilmişlər.

Biz bu nöqsanı ciddi bir surətdə rəf edib Firqə üzvlərinin ehsasatını təhrik etməkdən artıq onların məlumatını artırmağa çalışmalıyıq.

Hələlik geniş və elmi- siyasi bir mədrəsə açmaq imkanımız yoxdur. Lakin əldə olan vasitələrdən həddəksər istifadə etməkdən sərfnəzər etmək olmaz.

Siyasi Firqələrin pozulmalarının illətini xalqın təbii əxlaqında və ölkənin ab- havasında arayıb axtaranlar iştibah edirlər. Dünyada cəhalətə, infiradi həyat sürüb qeyri mütəməddin bir halda əbədi olaraq qalmağa məhkum bir millət yoxdur. Bəşər müəyyən şərait altında tərəqqiyə doğru yeriməyə məcburdur. İctimaın qanunlarında dəxi təbiətin qanunlarında olmadığı kimi istisna yoxdur. Burada sadə bir səbəb var. O, Firqə vücuda gətirmək istəyənlərin siyasi savadsızlığı və Firqələri idarə etmək üçün layiq başçılar yetirməyə əhəmiyyət verilməməsidir.

Bizim Firqəmiz ümumi savad cəhətdən fəqir deyildir. Lakin ümumi savad kifayət etməz. Siyasi işlə məşğul olan əşxas bu işdə bəsir və müsəllət olmalıdır.

Firqəmiz Tudə təşkilatından geniş kəndli və fəhlə dəstələri almışdır. Bu dəstələrin çoxu ehsasat üzərində cəlb edilmiş həssas və sadə adamlardan toplanmışdır.

Kəndli və fəhləyə ani mənfəət göstərib, cəlb etmək müşkül bir iş deyildir. Lakin onları təşkil edib siyasi mübarizədə münəzzəm bir surətdə çalışdırmaq, bu asanlıq ilə mümkün ola bilməz.

İndi istər mərkəzdə, istərsə kənd və şəhərlərdə Firqə işçilərimizin vaxtının hamısını işğal edən kəndlilərin şikayət məsələsidir. Əlbəttə, bunun ayrı səbəbləri də var. Məsələn, jandarmların başladıqları vəhşiyanə hərəkətlər də var. Lakin əsas səbəb dörd il müddətində kəndliyə verilən saysız- hesabsız vədələrdir.

Onlara bu vədələrin yüzdə onu qədər siyasi bilik və Firqəvi tərbiyət verilsəydi indi qabağa bu böyük müşkülat çıxmazdı. Siyasi mübarizə od yandırmaq, tufan çıxarmaq deyildir. Odu və həriqi yandırmaq asandır. Lakin onu söndürmək, ya istənilən məqsəd üçün ondan istifadə etmək güç, bilik və anlamaq istər...

Bizim siyasi cəhətdən savadsız olan işçilərimizin çoxu od yandırmaq, həriq vücuda gətirmək, yəni işin asan qısmində çox çalak və ustaddırlar. Lakin söndürməyə ya məqsədə aparmağın fikrində belə olmamışlar.

Ona görə kəndlilər arasında çalışan Firqə üzvləri belə ani istifadə görmədikləri halda məyus olur, əl-ayaqlarını itirir, hətta bəzən Firqədən kənar durmaq istəyirlər.

Liqvan hadisəsi, həmçinin kəndlərdə baş verən indiki hadisələr isbat edir ki, keçmiş təşkilat xalqı öz dalınca aparmaq əvəzinə cərəyana tabe olub onun ardınca getməyə məcbur imiş. Belə bir təşkilat uzun müddət davam edə bilməz.

Firqə başçıları bu naxoş və yaramaz işə axır qoymalı. Kütləni intizam və rəhbərlik altına almaq üçün Firqə şöbələrini düzgün əsas üstündə qurmalıdırlar.

Əvamfəriblik, kəndlinin ani mənafeyi üzərində ehsasatını təhrik edib, yaman gündə başına buraxıb komitələrin qapısına çəkmək xəyanətdir.

Biz sizdən yüz minlərcə üzv tələb etmirik. Biz sizə icazə vermirik bitərəf kəndlinin xoşuna gəlmək üçün bacarıb verə bilmədiyimiz bəzl və bəxşişlər ilə onları iğfal edib Firqəyə yazdırasız. Bizə yüz nəfər ani mənfəət üçün gələn adamlardan isə bir nəfər Firqəmizin məram, nizam və məqsədini anlayan üzvün faydası daha artıq ola bilər.

Çalışın üzvlərin siyasi biliyini artırın. Özünüz yəni Firqə başında duranlar siyasi bilik ilə mücəhhəz olun. Firqəmizin məramnaməsində böyük siyasi və ictimai məsələlərə işarə edilmişdir.

Komitə üzvlərimizin əksəri əgər o dairədə siyasi məlumata malik ola bilsələr, Firqə çox böyük qədəmlər götürə bilər. Ondan əlavə, məmləkətin qanuni- əsasisi, onun yaxşı və pis tərəfləri Firqə başçıları tərəfindən dəqiq bir surətdə xalqa anladılmalıdır.

Demokratlıq və dünyada olan demokrat dövlətlərin quruluşu və demokratizm yolunda aparılan tarixi mübarizələr gərək Firqə başçılarının nəzərindən uzaq qalmasın. Şikayətlər, xüsusi davalar, şəxsi münaqişə və infiradi ərizələr təşkilatı boğub işdən salmaqdadır. Buna axır qoymaq üçün əqəllən Firqə üzvlərinə Firqənin məqsədini qandırmaq lazımdır.

Kəndlərdə at oynadıb yalan vədələr verən savadsız, məlumatsız avamfərib təəlimatçılara kəndlərdə yol verməməliyik. Bunlar Firqənin başına bəla açmaqdan başqa bir iş görə bilməmişlər.

Qabaqda duran Firqə vəzifəsi, siyasi bilik, həqiqi təşkilat yaratmaqdan ibarətdir.

Bu yolda hər bir savadlı və məlumatlı Firqə üzvü səfərbərliyə alınmalı, yerli komitələr var qüvvələri ilə işə girişməlidir.

**Mir Cəfər Pişəvəri**

**(«Azərbaycan» şümarə 37, aban 3, oktyabr 25)**

# HARA GEDİRSİZ DURUN!

Firqəmiz işə başladıqdan sonra Tehran irticaı çox bərk təkan yeyib əcaib və qərib tədbirlər görməkdədir.

Bir tərəfdən kiçik, alçaq və dalda qalmış yazıçıları it kimi hürməyə vadar edib, şərəfsizlik, namussuzluq və yalançılıq lüğətnaməsində iftira, töhmət, uydurma və mövhum cinayətləri andıra bilən nə qədər lüğət və istilah varsa bizim tək- tük üzvlərimizə nisbət verməyə can atır. Digər tərəfdən bizim haqq sözümüzə qulaq

asmaq əvəzində xalqımızın nifrətnni qazanan murdar ünsürləri bizə hakim göndərmək, pul və silah gücü ilə səsimizi boğmağa çalışır. Üçünçü tərəfdən isə jandarm qüvvəsini kəndlərə dağıdıb, süni surətdə şuluqluq edib, araqarışdırmaq vasitəsi ilə xalqı yaği göstormək istəyir.

Biz bu murdar və alçaqlara yaraşan siyasətin iç üzünü çox yaxşı bilirik. Ona görə də indiyə qədər onlara etina etməyib öz tutduğumuz yola davam ednb, irəli gedirik. Lakin hər işin bir intəhası və axırı vardır.

Tehran ruznamələri biləxərə ixtira etdikləri töhmət və iftiraları təkrar edib yorulacaqlar. Xalq da o qədər cahil deyil, tez ya gec düşünər, anlar, qərəz ilə həqiqəti təşxis verər. Dövlətin alçaq məmurları isə əgər beş-üç gün hökumət sürməyə müvəffəq olsalar belə nəhayət, xalq öz başladığı işi axıra yetirib ölkənin hakimi ola bilən əyalət və vilayət əncümənlərini vücuda gətirməklə onların xəyanətlərinin qabağını alar. İndi jandarm məsələsi əhəmiyyətlidir.

İş belə gedərsə Azərbaycan kəndlisinin qabağını saxlamaq olmaz. İndiyədək Firqəmiz mərkəzdə və məhəllələrdə var qüvvəsi ilə kəndlini səbr və mətanətə dəvət edib, əmniyyəti saxlamağa müvəffəq olmuşdur. Lakin bu uzun müddət davam edə bilməz. Bundan başqa vangəhi bizim vicdanımız icazə verməz millətin qantəri ilə qazanıb verdiyi vergi onun heysiyyət və namusunu tapdalamaq üçün əmniyyə şəklinə düşüb kəndlərə göndərilsin.

İyirminci əsrdə xalqın mal, can və namusuna təcavüz etmək olmaz. Dağ basmaq və şallaq altında öldürmək, ağız tikmək, dodaq kəsmək zamanı keçmişdir.

Biz açıq deyirik, əgər jandarm rəisləri başladıqları cinayətlərdən əl götürməzsə, Firqə kəndlərdə çıxa biləcək toqquşmaya, ixtilala cavabdeh deyildir.

Kəndlinin səbr və taqəti tükənmişdir. Maliklər isə bu işə əbədən razı ola bilməzdilər. Malik deyir: Jandarm kəndə ayaq qoyduqda o kənd on ilədək abad ola bilməz.

Jandarm həm kəndli, həm ərbabın var yoxunu soyub qurtarmasa əl götürməz.

Jandarm rəisləri təqsiri mərkəzi dövlətin boynuna atıb (əlməmur, məəzur 1) məsələsinə çox da bel bağlamasınlar. Biləxərə məhəllin əmniyyəti onlara tapşırılmışdır.

Onlar hər bir tək- tək jandarmın gördüyü işə məsuldurlar. Onlar çox gözəl bilirlər ki, məmləkətin əfradının mal, can və heysiyyəti qanun mövcibincə müqəddəsdir. Ona heç bir kəs əl uzada bilməz. Kəndlinin evinə rəsmi məhkəmə və dadsitan əmri olmadan girmək olmaz. Jandarm və ya başqa dövlət məmurlarının hüquqi işlərə qatışmaları qanunən qadağan edilmişdir. Kəndlini döymək ya onun məhsuluna əl atmaq cürmdür. Kim olursa olsun onu cəzalandırır.

Kəmfürsətlik və məzlumkoşluq, fəqir və zəiflərin hüququnu paymal etmək böyük İran məmləkətini fəlakət və inqiraza sövq etmişdir. Moqollar, Ərəblər və sair millətlərin İran şahları üzərində qələbə çalmaları hamısı bundan irəli gəlmişdir.

Bu gün minlərcə məzlum Azərbaycanlıların nicat tapmaq üçün xarici təbəəsi olmağa çalışmalarına ayrı bir dəlil yoxdur.

Biləxərə kəndli də insandır. Yaşamaq və öz əlinin məhsulundan istifadə etmək istəyir. Əlinə keçirdiyi beş-üç tüfəngə məğrur olub, zülm və vəhşətlər törədən cəlladlar kor közlərini açıb baxsınlar. Bu gün kəndli-ərbab məsələsi artıq meydandan çıxıb tarixə keçmişdir. Belə bir dövrdə anasının əmcəklərini kəsən cəlladları

tüfəng və əmniyyə ilə mücəhhəz edib kəndlərə göndərmək cəzasız qalmaz.

Farsların bir məsəli vardır deyirlər:

«Gər nəkonəd şah xoda mikonəd» ( 2).

İndi isə məsələ daha aydındır. Əgər dövlət məmurları yerlərində oturmazsa, xalq özü qalxar, onu yerində oturdar. O vaxt xalqın intiqamı şədid və rəhimsiz olar. Yanğın ki, başlandı, yaş və quruya baxmaz, qabağına çıxanı yandırıb, yaxıb, məhv və nabud edər. Jandarm rəisləri od ilə oynamasınlar və hərcmərc salmağa çox da həvəs göstərməsinlər. Firqə bundan sonra məsuliyyəti öz boynundan atır.

Eyni zamanda jandarmlar unutmasınlar ki, Firqə üzvünü təhqir etmək, Firqə binasına yaxın düşmək olmaz. Tez- gec bu işə qarışan əllər kəsilər. Bizim axır sözümüz bu idi.

Qoy bütün dünya bilsin ki, Tehran jandarm vasitəsi ilə Azərbaycan kəndlərində süni şuluqluq və özbaşınalıq yaratmaq istəyir.

Qoy bütün dünya bilsin ki, Asiya despotizmi ruhu ilə ruhlanan mərkəzi hökumət məmləkəti sülh və aramiş yolu ilə idarə etməyo qadir deyildir.

Qoy bütün dünya bilsin ki, Azərbaycan xalqı bu cinayətkar dövlətin mənhus siyasəti nəticəsində nə bəlalar çəkmiş, nə səbəbə özünü idarəetmok üçün çarə axtarmağa başlamışdır.

Bununla biz öz vicdanı vəzifəmizi yerino yetirib onlardan soruşuruq: Hara gedirsiz? Durun! Başladığız oyunun axırını düşünüb papağızı qazi edin! Bu işin dalısı yaxşı çıxmaz.

**Mir Cəfər Pişəvəri**

**(«Azərbaycan» şümarə 38, aban 4, oktyabr 26)**

1 Tərcüməsi məmur olan üzürlüdür.

2 Tərcüməsi: şah da etmədiyi təqdirdə allah edər.

# GÜNÜN VƏZIFƏLƏRI

Viləyət və məhəlli konfranslar xatimə tapmaqla təşkilatımız münəzzəm və təbii hala düşmüşdür. Çün tez bir zamanda mərkəzi komitənin geniş ümumi iclasi olacaqdır. Bu iclasda birinci konqrəmizin qərarlarını həyata keçirmək üçün əməli tədbirlər görülməli dir. Vlayətlərdə və məhəllərdə olan mərkəzi komitə üzvləri və təşkilat rəhbərləri bu cəlsəyə hazırlıq ilə gəlməli dirlər.

Məclisin vəziyyəti və iş şəraiti gərək mərkəzi komitənin nəzərində qəti surətdə məlum olsun. Bu olmazsa görülən tədbirlərdə səhv və təqaza ola bilər.

Ümumi iclasın ən çox məşqül olacağı məsələlər, əyalət və vilayət əncümənləri intixabi və 15 ci məclis seçkilərindən ibarətdir.

Bu iki məsələnin hər ikisi əsas məsələdir ki, komitə gərək onların əməli yollarını müəyyən edib, ümum Firqə komitələrinə qəti və açıq dəsturlar versin.

Firqə ışçıləri nutmasınlar ki, intixab məsələsi ümumi və milli bir məsələ dir. Onda xalqın mühüm bir qismi gərək iştirak etsin.

İstibdad və diktatorluq əsası üzrə yerində qurulan rejimdə xalqın intixabatda şirktinə əhəmiyyət verməyib, onu ört basdır etməklə xala xatirin qalmasın deyib zahiri və puç şəkildə əncam verirdilər və bu vasitə ilə istə dikləri naməzədlər keçə bilirdi, həmi də zahiri qanunu muraat etmiş olurdular.

Bizim vəzifəmiz isə tamamı ilə bunun əksinə dir. Biz gərək çalışıb ümum millətin barmağını dövlət quruluşunda və qanun qoyan məqamatda dəxalət verək. Məclisin və əncümənlərın qüvvəti onlarda şirkət edən xalqın mahiyyət və ədədcə qəvi vəziyyət -çox və əzlığından asılı dir.

Demokratizmin həqiqi məfhumu xalq hakimiyyəti deməkdir. Hər bir işi və hər bir səbəbi öz xüsusi və təbəqati nəfinə tətbiq edən Tehran bürokratları bu gözəl adı və dərin prinsipi də xalqın nəzərindən salıb öz mənfəətləri (üçün) oyuncaq qərar vermişlər. Biz isə bu ali prinsipi dirildib, əmələn onun mənasını xalqa anlatmalı olduğumuzdan, qabaqda duran seçkilər bizim üçün çox böyük vasitə ola bilər.

Biz gərək xalqa əməldə isbat edək ki, əgər iranda həqiqi demokratızm tərəfdarı varsa o da bizik. Biz çox gözəl bilirik ki, bu iki böyük vəzifəni əncam verib meydana çıxarmaq çox müşkül və ağırdır. Lakin onu da bilirik ki, mal və can ilə mübarizəyə hazırlaşan bir Firqə hər cür müşkülata faiq gələ bilər. Firqəmiz bu yolda imtahan vermiş adamlardan təşkil olunmuşdur.

Bunuvnla belə, işi səhl saymayıb ümumi iclasa hazırlıq ilə gəlmək lazımdır.

Mərkəzi komitə bütün Firqənin başı və rəhbəri olduğu üçün onun gözü açıq, hədəfi məlum, yolu düzgün və işin vəsaiti sınanmış olmalı dir. Bu da onun üzvlərinin hazırlığından asılı dir.

**Seyid Cəfər Pişəvəri**

**(«Azərbaycan» şümarə 39, aban 6, oktyabr 28)**

# FİRQƏMİZİN ŞƏHƏR KONFRANSI MÜNASBƏTİLƏ

Doğrudur kəndli ilə ərbab məsələsini dəstaviz edənlər, kəndi birinci sıraya çəkib Firqə əfkar aməsini Təbrizin xaricinə mütüvəcceh etmişdir. Bununla belə şəhər Firqə təşkilatının artıq dərcə əhəmiyyəti olduğunu Firqə üzvləri unuda bilməzlər.

Şəhər, məxsusən Təbriz şəhri azərbaycanın düşünən başı və görən gözüdür. Ona çox diqqətli bir surətdə müvazib olmaq lazımdır.

Kəndli bizim dönməz üzümüz və bükülməz qollarıməzdır. Ona yüzdə yüz inanıb bel bağlaya bilərik. Ərbablar ilə xırda maliklər get gedə bizim hüsn niyyətimizi görüb, bu vaxta qədər düçar olduqları vəhşət və iztirabdan xilas olub, bizimlə yaxından təşrik məsai edəcəklər. Buna bizim şübhəmiz yoxdur. Leykn şəhər belə deyildir. Düşmənlərimizin sərf etdikləri pullar və malik olduqları vasitələr orada təsirsiz qala bilməz.

Bundan əlavə şəhərdə irticai siyasətdən istifadə edib xalqı soymaqla tüfeyli həyat sürən yüzlərcə ləşkəri və keşvəri məmurlar vardır ki, onların əllərinə aldıqları idarələr əfkar amməni asanlıqla zəhərləyirlər.

Bu nöqteyi nəzərdən, belə olsa şəhər təşkilatının vəzifəsi böyük və ağırdır.

Bu vaxta qədər bu təşkilata kifayət qədər əhəmiyyət verilmədiyini xüsusi surətdə qeyd etmək lazımdır. Tudə istər - istəməz təbəqati bir təşkilat halına düşdüyü üçün fəqət kargər və zəhmətkeş təbəqəyə dayanıb başqa təbəqələri: məsələn kəsəbə, tüccar, xırda malik, roşənfikr və dövlət məmurlarını cəlb etməyə təşəbbüs edrdisə az müvəffəq ola bilirdi. Firqəmiz var qüvvəsi ilə bu nöqsanı rəf etməyə çalışmalı dir. Şəhərdə Firqə işində çalışan işçilərimizə gərək bunu ciddi surətdə qandıraq ki, Demokrat Firqəsi milli bir Firqə dir, mürtəceələr və azərbaycan xaalqının təbii və milli hüququnu tapdalamağa çalışan xain ünsürlərdən başqa hər bir azərbaycanlı və azərbaycanda yaşayan İran təbəəsi bizim pirinsiplərimizi qəbul etmək şərti ilə ona üzv ola bilər və gərək hər bir azərbaycanlı, istər kargər olsun, istər rəiyət və ya malik və ya ərbab, bilsin ki, milli azadlıq və ümumi asayiş olmasa təbəqati azadlıq ola bilməz.

İndi bizim məmləkətimizin ixtiyari vəhşilər, oğrular, cəlladlar və xalqın haqq və ixtiyarını paymal edən müstəbidlər əlində dir. Bizim xalqımız Avrupa millətlərinin keçirdiyi qürun vüsta şəraiti altında yaşamğa məhəkumdurlar. Böyük Fransa inqilabının nəşr etdiyi insan və həmvətən hüququ elamiyyəsinin verdiyi azadlığa nail ola bilməmişik. Bizdə fərd azadlığı, məskn azadlığı, ictima və əqidə azadlığından heç bir əsər yoxdur. Kim güclü isə, istədiklərini gücsüzlərə təhmil edir. Kimin qüdrəti artıq isə, qüdrəti az olanları ayaqları altında məhv və nabud edə bilir. Kiçik bir pasban, əhəmiyyətsiz bir jandarm dünyada mütəməddin millətlər arasında ən böyük, ən müqəddəs sayılan qanunları bizdə vahiməsiz və qorxusuz bir surətəddə ayaqlayıb ortadan apara bilir. Belə bir ölkədə azadixah, bəşərdust və sağlam fikirli şəxslərin təbəqati mübarizə, şuari ilə meydana düşmələri müfid olan işlərdən deyildir. Bu sözləri ortaya atanlar qətən təcrübəsiz, məlumatsız və dünya siyasətindən uzaq adamlardır. Şəhər konfransımız qətən milli və ümumi azadlıq, şüari ilə başalanıb qurtamalıdır. Bunla biz hərgiz millətimizin əksəriyyətini təşkil edən zəhmətkeşləri unuda bilmərik. Onların mənafeyini daha düzgün bir surətdə təmın etmək üçündür ki, biz milli tərəqqi və demokrat bir rejim yaratmaq, şüari ilə çalışırıq.

Şəhər təşkilatımız gündən günə artmaqda və xətərnak hala düşmkdə olan işsizlik məsələsinə biqeyd qala bilməz. Həmçinin şəhər sənayeinin tərqqisi və ticarət yolları aramaq vasitəsilə bazarın xətərdən nicat verilməsi də şəhər konfransında nəzərdə tutulması lazım olan məsələ dir.

Biz üsulən karxanalarda Firqə hovzələrinə dayanırıq. Bu hovzələrdə siyasi məlumat cəhətdən çox az iş görülmüşdür. Konfrans şəhər komitəsi üçün elə şəxslər intixab etməli dir ki hovzələr və sazimanlarımıza siyasi qəza verməyə qadır ola bilsin.

Hər halda biz şəhər konfransına böyük siyasi bir hadisə kimi baxırıq və ümidvarıq Firqəmiz bu böyük məsələni də düzgün bir surətdə həll eməyə müvəffəq olacaq.

**Mir Cəfər Pişəvəri**

**(«Azərbaycan» şümarə 41, aban 8, oktyabr 30 )**

# HOVZƏLƏR FIRQƏNIN ƏSASIDIR

Birinci şəhər konfransımız göstərdi ki, şəhərdə hovzələrə təvəccöh edilməmiş, nətiycədə Firqənin intizamında sustluq vücuda gəlmişdir. Bu konfransımızın ən böyük xədəmatından dir. Biz heçvaxt eyb və nöqsanlarımızı deyib və yazmaqdan qorxmalı deyilik. nöqsanı ört basdır edib, eyb və iradlarını öz üzvlərindən gizlədən bir təşkilat yaşamaz və hədəfə yetməyə müvəffəq ola bilməz.

Konfrans bu sahədə demokratlara yaraşan bir dil ilə şəhər təşkilatımızın rəhbərliyini tənqid edib çox şiddətli bir surətdə bu nöqsanın ortadan qaldırılmasını mərkəzi komitə və şəhər təşkilatına tapşırdı.

Konfrans tam mənasilə şəhər hovzələrinin iç üzünü açıb meydana qoydu. Xoşbinlik və zahiri yaxşı göstərməyin xətərli olduğu bu vasitə ilə meydana çıxdı.

İndi biz öz işimizin tərəflərini anlamaqla və onların qüvvətlənməsinin çarələrini axtarıb tapmağa müvəffəq olduq. Ona görə onu çox sürətlə islah edib, təşkilatımızı külli konfransa dək münəzzəm və canlı bir hala sala biləcəyik.

Hovzələrdə fəaliyyət göstərib müstəqiymən xalq ilə tamasda olan Firqə üzvləri öz təcrübələrinə dayanmaqla bizə olduqca qiymətli yollar göstərib özlərinin sadə vəli dərin mənalı sözləri ilə gözlərimizi açdılar, həqiqəti olduğu kimi meydana çıxarıb bizi geniş məlumat ilə silahlandırdılar.

Bizə sadə üzvlərin öz gündəlik fəaliyyətləri haqqında verdikləri məlumat böyük filsoflar və yüksək savadlı ustadların qalın kitablarından daha faydalı və daha dəyərli oldu.

Aqil və təcrübəli Firqə üzvləri bu məlumatdan ciddi surətdə istifadə etməli dirlər.

Birinci konfrans vasitəsilə şəhər təşkilatımızın payası qoyulmuş idi. Bu konfransda Hizbe Tudeyi İran təşkilatı tamamı ilə Firqəmizə mülhəq olmaqla bütün azadixah qüvvələrə rəhbərlik etmək və böyük məqsədə yetişmək üçün vahid bir təşkilat vücuda gəlməklə, başsızlığa və təklifsizliyə axır qoyuldu.

Bu cəhətdən də şəhər konfransımızın qiyməti çox çox böyükdür. Konfransın intixab etdiyi taza komiytə keçmiş müvqqəti komiytənin iştibahlarından ibrət alıb hovzələrimizə artıq dərcə diqqət etməli dir.

Hovzəsiz komiytə qoşunsuz jenerala bənzər. Qoşunsuz jeneral tək başına müharibəni qazanmağa müvəffəq ola bilərsə, elə də hovzələri qeyri münəzzəm və üzvləri qeyr mütəşəkkil olan siyasi bir Firqə öz mübarizəsində eliyə bilər müvəffəqiyyət qazansın.

Taza komiytə özünü aldatmaq, nöqsanları örtüb basdırmaq kimi xətərli işdən daimən pərhiz etməli dir. İş nə qədər yaxşı olursa nöqsansız olmaz. Ona görə məsul işçi daimən gərək nöqsanlar ilə mübarizəyə hazır və amadə olsun.

Nöqsandan qorxmamali, nöqsanı rəf etməyə çalışmamaq qprxuludur. Nöqsan həmişə olacaqdır. Onsuz ictimai iş olmaz. Lakın onu rəf etmək, ondan ibrət almaq, onun təkrarına yol verməmək işin əsası şərti dir.

Konfransımız isbat etdi ki, Firqənin ərkanını təşkil edən əlaqəmənd üzvlər bu məsələni çox gözəl bir surətdə düşünmüşlər. Ona görə şəhər təşkilatımızın tarixində konfrans qurtarmaqla taza bir dövr başlanır. Bu dövrü biz cürətlə müvəffəqiyyət dövrü adlandıra bilərik.

**Mir Cəfər Pişəvəri - («Azərbaycan» şümarə 43, aban 10 noyabr 1 )**

# GÜNÜN MƏSƏLƏSİ HAQQINDA

Firqəmizin şüarları get- gedə İran azadixahdarı tərəfindən anlaşılmaqdadır. İrticai mətbuatın hay- küy salmasına və həqiqəti curbəcür rənglər ilə boyayıb meydana çıxarmasına baxmayıb, İranın siyasi mühiti çox sürətlə bizim xeyrimizə dəyişməkdədir.

Tehrandan və İranın ayrı şəhərlərindən aldığımız məktublardan məlum olur ki, Firqəmiz camiədə get- gedə öz həqiqi yerini tutub azadlığın dayağı, demokrasi üsulunun zamini olmağa başlamışdır.

İranın istiqlaliyyətini bitərəf və mulayim bir; siyasət yeritməklə saxlamağa çalışan vətənpərəst ünsürlər gözlərini açıb, bizi götürdüyümüz böyük və mərdanə qələmin bu yolla nagahani bir vəsilə olduğunu etiraf etməyə məcbur qalmışlar.

Sədrin süqutu, Fərruxun tamam vəsail ilə mücəhhəz olduğuna baxmayaraq, onun Azərbaycan valiliyinə həsrət qalması isbat edir ki, Firqəmizin qüdrəti birtərəfli siyasəti titrədib sındırmağa başlamışdır.

Vətənpərəst və azadixah kişilər açıq surətdə bizdən ümid gözlədiklərini yazır, bizi başladığımız işi axıra yetirməyə təşviq edir və özümüzü ümum məmləkət siyasətində müəssir bir amil olduğunu göstərir.

Bu həqiqətdir. Onların hüsniniyyəti bizə irticaın divanələrə yaraşan vasitələr ilə dünənə kimi adını belə eşitmək istəmədiyi Azərbaycana əl atması çox aydın bir surətdə göstərməkdədir.

Əgər oxucularımız ruznaməmizi diqqətlə təqib etmiş olsalar, təsdiq edərlər ki, biz heç vaxt Tehrana yəni irticaın başına və biganələrin ağuşuna atılan hərzə və hərcayi siyasət oyunçularına muraciət etməyib, onlardan heç bir ümid gözləməmişnk. Onların oynadıqları xəyanətkar oyunlar da bizim nəzərpmizi cəlb etmir. Kabinələrin dəyişməsi, vəzirlərin birbəbir əvəz olması bizim işimizdə böyük yer tutmayıb və tutmayacaq. Lakin Tehran indi bizim Firqənin ətrafında fırlanır və bizim sadə və təbii səsimizdən vəhşətə düşmüşdür.

İran camaatının qanını sorub, onu fəqr və fəlakətə salan müstəbidlərin artıq yuxusu aparmır. Bunlar milyonlarla xalqın varlığını qarət edib, onunla vücuda gətirdikləri cənnətlərdə rahat dura bilmirlər. Nə üçün?

Ondan ötrü ki, Azərbaycanda xalqın azadlıq və demokratlıq mübarizəsinə rəhbərlik etməyə qüdrəti olan böyük bir Firqə vücuda gəlib, millətin öz güçü ilə işi qabağa aparmağa başlamışdır.

Günün fikri, günün məsələsi, mətbuatın hərarətlə təqib etdiyi mövzu indi budur.

Fəqət buna görə kisələrin başı açılıb yalançı pəhləvanların bazarı rəvac tapmışdır. Axtarıb guşə və kənardan özünu Azərbaycana əlaqədar göstərən çürümüş kor və karları tapıb onların vücudundan istifadə etmək istəyirlər.

Azərbaycan xalqının siyasi haqqını xainanə yollar ilə ayaqlayıb məclis kürsülərini işğal edən irticai nümayəndələr də bir an hərəkətdən əl çəkmirlər. Siyasətin mərkəzi çox qorxulu yerlərə keçmişdir. Riza xanın gördüyü işi təkrar etməkdədirlər. Vəzirlər heyəti və məclis ikinci və üçüncü sıraya keçmiş, daxili işlərə qarışmağa səlahiyyəti olmayan hərbi orqanlar, hakimiyyət sürməyə və oyunda birinci rolu oynamağa başlamışdır. Mərkəz və şimal əhalisindən tutulan jandarm və nizami qüvvələrə belə etimad yoxdur. Cənubdan və mərkəzi şəhərlərdən qüvvə gətirib Tehranı bu vasitə ilə boğduğundan sonra bizim qabağımıza

maniə çıxarmağa can atırlar.

Biz kəndlərdə jandarm məmurlarının yandırdıqları odun əsas məqsədini bildiyimiz halda, əmniyyəti saxlamağa var qüvvəmizlə çalışırıq. Jandarm başçıları dildə əmniyyət tərəfdarı olub, məsələnin sülh yolu ilə həll edilməsinə hazır olduqlarını bəyan edir, əməldə isə bu günə qədər bir qədəm belə götürməyə hazır olmamışlar. Biz müəyyən jandarm rəisləri haqqında bir söz demək, ya tohin və təhqiramiz sözlər işlətmək fikrində deyilik. Lakin ümumiyyətlə, əldə olan dəlil və mədrəklər göstərir ki, bu vasitə ilə kəndlilərimizdə hərcmərc və şuriş yaratmaq yolu ilə işə başlamışlar.

Kəndliləri vurub. döymək, həbs və təbid etməklə cana doydurub əmniyyəti pozmağa vadar etmək istəyirlər. Əgər belə olmasaydı, onların verdikləri minlərcə ərizələr təsirsiz qalmazdı.

Bu çox həssas və ciddi bir məsolədir. Buna xalqımız çox diqqətlə yanaşmalıdır. Fərruxun görə bilmədiyi işi jandarm vəkilbaşılarının əlilə görməyə çalışırlar. Bunu düşündüyümüz üçündür ki, tohin və təhqirlərə əhəmiyyət verməyib, kəndlərdə vücuda gələn böyük narazılığın qabağını almağa bu günə qədər müvəffəq olmuşuq. Bundan sonra da bu siyasəti biz təqib edəcəyik. Lakin od ilə oynayan şuluq salanlar apardıqları siyasətin nəticəsini diqqətlə düşünməlidirlər. Kəndlini narahat edib, onu sıxıb ayaqdan salmaq od ilə oynamaqdan daha xətərlidir.

Hərcmərc salanlar özləri də onun qurbanı olmaqdan yaxa qurtara bilməzlər. Səədinin həkimanə sözünü yaddan çıxarmayın.

Əgər səd sal gəbr ataş furuzəd, Əgər yekdəm dər u oftəd besuzəd (1)

**Mir Cəfər Pişəvəri**

**(«Azərbaycan» şümarə 45, aban 12, noyabr 3)**

1 Tərcuməsi: Ataşpərəst yüz il od yandırsa da, bir an onun içinə duşdükdə yanar.

# DƏRDI DEYIR ÇARƏNI DANIRLAR

Tehran əfkar ümumiyyəsi hələ də bizim şüarlarımızın həqiqi ruh və mənasını dürüst anlamamışdır.... Onun aldığı məlumatın sərçeşməsi haman şayiələrdir ki, biganələrə satılmış casusların murdar vərəqparələrində bişirib, məchul imzalar altında eşiyə çıxardırlar. Mütərəqqi və azadixah ruznamələr hələ də bağlıdır. Nəşr olunanlar isə, özlərinə zəhmət verib biqərəz müxbirlərini Azərbaycana göndərmək, vəziyyəti yerində yoxlayıb oxuculara çatdırmaq istəmirlər. Mərkəzin "Demokrat" dövləti də "Azərbaycan" ruznaməsini xalqın əlinə çatmağa qoymur. İranı Şəhriyvərdən sonra tam mənası ilə rüsvay etmiş alətçilik və örtülü siyasət isə Tehranda hökmfərmadır. Buna görə də Tehran əhalisi bilmir ki, biz nə istəyirik və nə üçün mümkün qədər tez zamanda əyalət və vilayət əncümənlərinin təşkil edilməsinə çalışırıq.

Bu ən böyük xəyanətdir ki, Tehran dövləti namərdcəsinə icra etməkdədir.

Bununla belə hərdən bir həqiqət nuri mövhumat və xurafatın qalın buludları arasından görsənib. Təzahür edir. Tehran ruznamələrində qeyri iradi olaraq bəzi məqalələrə təsadüf olur ki, əgər oxucu münsif olarsa bu məqalələrdən həqiqəti bir dərəcəyə qədər başa düşə bilər.

Məsələn “Dariya” ruznaməsi əvəzinə çap olunan “Müzəffər” ruznaməsinin 110 cu şumarəsində “Azərbaycanın macərası” sərlövhəli məqaləsini götürək, əgər mülahizə etsəniz, həmin məqalə başdan başa elə həqiqətlərlə doludur ki, o həqiqətləri inkar etmək heç kimə mümkün deyildir. Lakin yazıçı bu məqaləsində dərdləri saymağa iktifa edib onların əlacın axtarmır.

Əlac nədir?

Bu barədə söhbət etməlidir. Əlacı biz tapmışıq. Daha indi dərdləri saymaq dövrü keçmişdir. Cərəyan ikinci mərhələyə çatmışdır. Bu mərhələdə vaxtı dərdləri saymağa gileygüzar etməyə sərf etmək olmaz. Nə etmək lazımdır? Onu deməlidir ki, naxoş tezliklə sağalsın və ölüm yatağından dursun.

Bundan başqa ağalar çox nazik bir nöqtəni yaddan çıxardırlar. Bu hal bizim öz yazıçılarımız arasında da vardır. O da bundan ibarətdir, elə xəyal edirlər ki, əgər bu dərdlər olmasaydı Azərbaycan öz siyasi və mədəni hüquqlarını almağa iqdam etməyəcək və bürokratizm və mövhum mərkəziyyətin mənhus rejiminə dözüb dayanacaq idi.

Məsələnin kökü buradadır. Biz muxtariyyəti yalnız xarabçılıqların əvəzini çıxmaq üçün istəmirik, biz İranın tərəqqisi və Azərbaycanın səadəti üçün bu yolu yeganə əlac yolu bilirik.

Bizə aydın olmuşdur ki. əgər Azərbaycan xalqı müstəqim və müstəqil olaraq öz daxili işlərini idarə etməzsə, heç vaxt səadət və xoşbəxtlik görməyəcəkdir. Biz müəyyən etmişik ki, əgər Azərbaycan irəliyə addımlamazsa, İran xalqı istibdadın zəncirindən xilas ola bilməyəcək və demokrasi üsulu əməli olmayacaqdır.

Danışığımız bunun üstündədir. Yazıçılarımız da bunu unutmamalıdırlar.

Əlbəttə hamımız iranlıyıq və irana əlaqəməndik. Lakin biz edə bilməril ki, iranlılıq naminə icazə verək ki, dörd nəfər müstəbid bildiyini etsin və azərbaycan xalqının başına olmazın bəlaları gətirsin.

Dəfələrlə yazdığımız kimi, yenə də deyirik biz əvvəlcə öz evimizin içini islah etmək, sonra isə bütün məmləkətin işlərinə bir çarə axtararıq. Dərdimiz budur.

**(“Azərbaycan” şumarə 46, aban 14, noyabr 5)**

# MƏSNUİ TƏƏSÜB

Eşitdiyimizə görə mürtəcelər və Seyid Ziya dəstəsi Tehranda məsnui surətdə təəssüb icad etmək fikrindədirlər. Hüseyn İttika, Zehtab və bu kimi şəyyadları pul vasitəsi ilə potlayıb, Azərbaycan namindən hayhuy salmaq fikrindədirlər.

Camal İmami, Sərtibzadə, Siqqətülislamının bədbəxtliyi o yerə çıxmışdır ki, kor, kar, kəsif, tiryəki və uzun müddət dəlixanada ömür sürən Hüseyn İttika ilə macəracu, anlamaz, ləcuc, tamahkar, kəcxəyal və nəcisdən nəcisraq olan Qulam Hüseyn Rizazadənin ətəyindən yapışmağa və ondan kömək gözləməyə məcbur olmuşlar.

Firqəmizin möhkəm silləsi yalançı pəhləvanları birləşdirmişdir.

Əmir Nüsrət İskəndərinin keçən günədək Sərtibzadəni görən gözü yox idi. Sərtibzadə isə burnunu aşağı salıb «Əmir Nüsrət ilə salaməleyk edən adamlar ilə, mən danışmaram» deyirdi. Doktor Müctehidi ilə Siqqətülpslaminin tarpxi düşmən olduqlarını Azərbaycanda bilməyən yoxdur. Bunların famili yarım əsr tamam bir- biri ilə şədid və qanlı mübarizə aparmışlar. Bu famillər bir- birinin adamlarını kafir və qanı halal bilir və heç vaxt bir- biri ilə təmas tutmazlar. Sərtibzadə isə bu əşxasın nəzərində iblisdən mənfur hesab olunurdu. Əmma indi bunların hamısı əlbir olub Hüseyn İttika və Zehtab vasitəsi ilə Azərbaycan xalqının səsini boğmaq və qanuni haqqını ayaqlar altına salmağa çalışırlar. Biz bu təşəbbüslərə, bu rəcəzxanlıqlara, bu yalan birliklərə gülüb öz işimizi təqib edirik və bizə sabit olmuşdur ki, iş təşkilatdan, sədaqət və iman üzrə toplanan birlikdən asılıdır.

Sərtibzadə, Əmir Nüsrət, Siqqətülnslami və doktor Müctehidinin ittihadı baş tutsa da, məşhur rus təmsilnevisi Krilovun yazdığı (Balıq, ördək və xərçəngin) birliyi kimi, arabanı yerdən təkan verə bilməz. Çünki, onların hər biri bir ayrı məqsəd təqib edir və arabanı öz yoluna tərəf çəkməyə çalışır.

Bizim Firqə təşkilatımız isə həmfikir, həmməslək və həməqidə adamlardan təşkil olunmuşdur. Biz Firqəmizin birinci kongrəsində çox açıq və sadə bir dil ilə demişik: Firqə bir məqsəd və bir hədəf təqib edənlərin təşkilatıdır.

Onun məram və nizamını qəbul edə bilməyənlər, buyurub gedə bilərlər. Biz kimsəni ikrah və güc ilə Firqəyə çəkmək fikrində deyilik. Bu sadə və təbii siyasət nətiçəsində Firqəmiz gündən- günə möhkəmləşib, mətin və möhkəm qədəmlərlə irəli gedir.

Biz Tehranda hayküy salan ağalara deyirik, əgər sizin doğurdan da Azərbaycana ürəyiniz yanırsa, buyurun, bu quy, bu meydan. Burada xalqın içərisində çalışıb öz fikrinizin doğruluğunu isbat edin. Daldan bambaça çıxarmağın mənası yoxdur. Azərbaycan məsələsi Azərbaycanda həll oluna bilər. Tehran əgər zirək və çox qoçaq isə buyurub öz kəsafətkarlığını təmizləyib, düzgün bir dövlət vücuda gətirsin. Ondan əlavə həqiqi Azərbaycanlılıq təəssübü Tehranda yaşayan zəhmətkeş və kəsəbə arasında axtarılmalıdır.

Bizim dəqiq hesabımıza görə, orada yüz mindən ziyadə Azərbaycanlılar səmimi- qəlbdən bizim tərəfdarımızdırlar. Siz onların arasında gedin, Farsca nitqə başlayın, görün sizə nə cavab verirlər. Əgər Azərbaycanlı dili ilə danışmağa başlasaz onda onların sizə nisbət bəslədikləri ehtiramın ləzzətini alarsız.

Siz məsnui Farslıq təəssübü ilə nifrətdən başqa xalq arasında bir nəticə əldə edə bilməzsiz. hələ özünüz belə yaxşı Farsi danışmağa qadir deyilsiz. Sərtibzadə qələt danışmaq qorxusundan beş kəlmə də olsa məclis tribununda söhbət etməyə cürət tapmamışdır.

Camal İmami isə Farslaşmış, bəlkə ingilisləşmiş bir adamdır, Siqqətülislaminin ləhcəsi uzaqdan Fars olmadığını bildirir. Əmir Nüsrət Farsi danışa bilməmək qorxusundan səsini çıxarmır. Bu adamların Fars mütəəssibi kimi meydana atılmaları əcaba məsxərəbazlıq deyildir, nədir?

Biz Fars camaatını biganələrə əsir edən İstəxr kimi, ya Lübnandan (1) İrana mühacirət edən Cavahirülkəlam kimi yazıçıların dərdini anlamamış deyilik. Onların dad- fəryadı təbiidir. Çünki, süt verən Azərbaycan adlı inəkləri, artıq onlara süt vermək istəmir. Sütünü öz əziz balasına sərf etmək istəyir. Lakin bizim Farslar demişkən (kasəye əz aş dağtər) (2) vəkilcığazlarımızın Farslıq təəssübü məzəlidir.

**Mir Cəfər Pişəvəri - («Azərbaycan» şümarə 47, aban 15, noyabr 6)**

1 Liviya deməkdir. 2 Tərcüməsi: aşdan isti kasa.

# XALQ ÖZ BAŞINA ÇARƏ EDİR

Beş- üç nəfər istifadəçi onsuz da aclıq və işsizliyə məhkum olan xalqın azuqəsini çəkib aparmaqla məsnui qəhətlik yaratmaq istəyirlər. Bu xüsusda Şəhristanlarda və Təbrizin özündə Firqəmizə müraciət edib çarə istəyənlərin sayı gündən- günə artıb, vəhşətnak bir vəziyyət almışdı. Ona görə, dəfələrlə Firqə tərəfindən dövlət idarələrinə müraciət edildi. Mütəəssifanə idarələrin başında duranlardan, icz və göz yaşlarından başqa bir cavab alınmadı. Nəhayət, işin qorxulu olduğunu nəzərə alıb əhaliyə öz vasitələri ilə bu xətərli oyuna xatimə vermələri tövsiyə olundu.

O gündən etibarən, Azərbaycan hüdudundan yağ, pendir, un, buğda, qoyun, ət, toyuq kimi xarbar şeylərinin çıxarılmasının əhali tərəfindən qabağı alınmağa başladı. Eşitdiyimizə görə bu şeylərin çoxusu hətta İran sərhəddindən də xaricə göndərilirmiş. Səlahiyətdar olan şəxslərin verdiyi rəqəmlər çox qorxuludur. İş belə davam etsəydi, yağın batmanı yüz tümənə də tapılmazdı. Hələ indi bazarda yeməli təmiz yağ tapmaq mümkün deyildir. Təqəllübçilər piy və başqa yağlardan təcavüz edib vazelin, parafin və gərçək yağına da əl atmışlar. Pendir, süt, qatıq qabili istifadə deyildir. Yağ baha olduğu üçün sütü çərxə verir, üzünü kərə üçün götürür, onun dadsız- tamsiz suyundan pendir və yoğurt düzəldib baha qiymətə xalqa satmaqdadırlar.

Miyanada minlər ilə qoyun, milyonlarla yumurta, toyuq və kamyonlarla yağ və pendir saxlanılmışdır. Məsələn oranın karvansaralarında üç milyon yumurta mövcuddur ki, kəndlilərdən çox ucuz qiymətə alıb Tehrana həml edirmişlər. İndi Təbrizin özündə yumurtanın biri bir riyaldan yuxarıdır.

Heç bir yerdən gəliri olmayan xalq bu məsnui bahalığa dözə bilməz. Tehranda müftə pul çoxdur. Bütün İranı qarət edib orada xərcləyən müftəxorlar hər qiymətə olsa yumurta tapıb zəhrimar edə bilirlər. Biz gözümüzün qabağında xalqımızın acından öldürülməsinə dözə bilmərik. Ehtikar və xalqı aclığa məhkum edənlərin cavabı odur ki, Bostanabad və Vasmınc, Türkmənçay və Miyana əhalisi verirlər.

Bir misqal yağ, bir batman buğda, bir baş qoyun, bir hələbi pendir xaricə çıxmayacaqdır.

Budur xalqın arzusu. Budur biçarələri acından öldürmək istəyən istifadəçilərin cavabı.

Ticarət malına isə, əgər ehtikar və azuqə cənbəsi olmazsa, mane olunmamalıdır. Məsələn, fərş, xuşkəbar, badam və bu kimi şeyləri azad bir surətdə aparıb dünya bazarlarına yetirməyin zərəri yoxdur.

**Mir Cəfər Pişəvəri**

**(«Azərbaycan» şümarə 47, aban 15, noyabr 8)**

# DÜŞMƏNİN HİYLƏSİNİ ANLAMAQ LAZIMDIR

Firqəmizin şədid müqaviməti və ciddi mətanəti sayəsində xaricdə qopardıqları məsnui tufandan məyus olan düşmənlərimiz axır günlərdə siyasətlərini dəyişməyə məcbur olmuşlar.

Bunlar təşkilatımızı içəridən gücdən salıb, dağıtmaq fikrindədirlər.

Biz bu kəsif siyasəti anladığımız üçün onun da çox tez bir zamanda sadə vasitələr ilə qabağını almağa imkanımız vardır.

Bununla belə yerlərdə Firqə rəhbərlərinin gözünü açıb onları başa salmaq lazımdır.

Seyid Ziyanın göndərdiyi pullara satılmış alçaq ünsürlər məmləkəti hərcmərc və qolçomaqlığa çəkməyə çalışan bəzi məqamların sayələri indi bir yerdə əlbir olub çalışmaqdadırlar.

Aldığımız məlumata görə Tehrandan qeyrinizami libasda məzacı quldurluq və diktatorluğa mayil olan neçə əfsər gəlmiş, Firqəmizə yaxın olan adamlara yanaşıb, bu vasitə ilə mühiti zəhərləməyə çalışırlar. Seyid Ziya adamları məxsusən bu axır günlərdə bu əfsərlər ilə sıx rabitəyə girib, Firqəmizə soxulmağa təşəbbüs edirlər. Bunlardan əlavə şəhərimizi tanıyıb Firqənin məhşur üzvləri ilə sabiqə və aşinalığı olan bir çox nacavanmərd adamların təzəliklə varid olduğunu və onların cürbəcür vasitələr ilə özlərinin şüarlarımızın bəzisinə tərəfdar göstərmələri Firqənin nəzərindən gizli saxlanıla bilməmişdir.

Bunları tanımaq Firqə işçiləri üçün çox müşküldür. Onlar çox yumşaq və haqbəcanib ləhn ilə sizə yanaşır. Məsələn, əncümən əyaləti və vilayəti, ya məclis intixabatını təmcid edir. Onun başlanması haqqında hərarətli dəlillər gətirir, fəqət dil məsələsinin lazım olmadığını meydana çəkib, ondan təcziyə kimi, ya Azərbaycanın İrandan ayrılıb başqa bir ölkəyə yapışdırılması kimi mənalar çıxarır. Bu vasitə ilə sizin qəlbinizdə şübhə yaratmaq istəyirlər.

Ya bərəks, dil məsələsi ilə yüzdə yüz tərəfdarlıq edib məclis intixabatını və əyalət əncümənini ayrı mənada təfsir edib, özü üçün barmaq yeri qoyur və qulaqasanların zehnini qaraldıb fikrini zəhərləməyə çalışır.

Hətta, əlimizdə mədrək və dəlil var ki, Tehrandan güclü miqdarda pul alıb gələn məcaracular Firqəmizə çox sol sözlər ilə soxulub Firqə rəhbərlərini sağ və mühafizəkar siyasət aparmaqda müttəhim edirlər.

Bunlar yer bölgüsü, cümhuriyyət və sərmayədarları məhv etmək şüarı ilə Firqəmizin içinə soxulmağa, Firqənin sadə üzvlərini narazı salmağa çalışırlar. Məxsusən jandarmların kəndlərdə gördükləri işlər nəticəsində kəndlilər arasında çıxan narazılıqdan xainanə bir surətdə suiistifadə edənlər də az deyildir.

Bir ayağı şəyyad,, külahbərdarlıq ilə özünü təbliğat idarəsinin nümayəndəsi adlandıran Katozyanın xəyanət dükanında, bir ayağı da Firqəmizin binalarında olan adamların gördükləri işlər və intişar verdikləri xəbərlər də bizim nəzərimizdən məxfi deyildir...

Azərbaycanın çörəyini yeyib Azərbaycan xalqının verdiyi maliyat ilə fahişələr kimi bəzənib- düzənib küçəyə çıxan xain məmurların danışıqları qeyrirəsmi olsa da, bizim üçün mədrəkdir. Görünür, dövlət dəstgahı öz vəzifəsini tamamilə unudub, bitərəfliyini əldən vermiş, siyasi bir Firqə halına düşüb bizimlə bir firqə kimi mübarizəyə başlamışdır.

Bu kimi vəzifəsini tanımayan məmurlara biz bu günə qədər heç bir söz deməyib, onların işlərini fəqət yaddaş edib saxlamağa qinaət etmişik. Onlar isə bizim mətanətimizdən və etina etməyimizdən suiistifadə edib cəriləşməkdə davam edirlər. İş belə gedərsə biz naçar olub onların gördükləri işləri açıb meydana qoymağa məçbur olacayıq.

Biz Firqəmnzin səlahiyyətdar iclaslarında açıq və aydın bir dil ilə demişik: Həmvətənlərimizin hamısını hər libasda, hər şüğl və hər işdə olur- olsun dost tuturuq. Sərbaz, əfsər madam ki, öz vəzifəsindən kənara çıxmayıb, bizim qardaşımızdır. Biz arzu edirik, arteşimiz fəqət xarici düşmənlər əleyhinə işlədilə və məmləkətin sərhəddini saxlamağa qadir ola. Arteşi məmləkət əhalisi və həmvətənlər əleyhinə işlətmək, ondan bu və ya digər firqə ziddinə istifadə etmək xəyanətdnr...

Mütəssifanə bəzi məqamat bunun xilafına olaraq arteş dəstgahını siyasi bir firqə şəklinə salıb, ondan irtiçai istifadələr etməkdədirlər.

Riza xan bu böyük bidəti qoymaqla İrana böyük xəyanət etmişdi. Həmin bidət nəticəsində idi ki, Kərim ağalar, Xudayar xanlar və Əhmədilər kimi oğrular bütün İranı soyub, qarət etməklə milyardlar əldə etdilər və o milyardları saxlamağa əlaqəmənd olub sərbazlıq vəzifəsini yaddan çıxarmaqla ölkənin həyatını təhlükəyə saldılar.

Riza xan siyasətini təkrar edənlər geçmişdən ibrət almalıdırlar. Əfsərləri qeyrinizami paltar geydirib Demokrat Firqəsi ilə siyasi mübarizəyə göndərmək arteşə xəyanətdir. Bu işi görən xainləri xalq özü arayıb, tapıb,, rüsvay etməlidir.

Bu sözləri yazmaqdan məqsəd kimsəni təhqir etmək deyildir. Biz istəyirik, Firqə üzvlərimiz bu işləri bilsinlər.

Bizim gizli siyasətimiz yoxdur. Təbliğatımız da həqiqətə dayanmalıdır.

**Mir Cəfər Pişəvəri**

**(«Azərbaycan» şümarə 49, aban 17, noyabr 8)**

# İKINCI DÖVRƏNIN ŞÜARLARI

Mərkəzi komitənin ümumi iclası üç ciddi cələsədən sonra xatimə tapdı.

Bu iclas yerlərdə komitələrimizin nizamnamh üzrə təşkilinin qurtarmasını qeyd etdi. Indi təşkilatımız azərbaycanın bütün şəhər və qəsəbələrində qanuni mərkəzlər vücuda gətirdiyini elan edə bilər. Kəndlərdə isə hovmə komitələrimiz vəə hovzələrimiz az deyildir. Leykən bu hovzə və komitələrin tamamilə möhkəmləşib intizama düşə bilmədiyini nəzərdə dutmaq lazəmdər.

Buna təşkilat işləri ilə məşğul olan firqə işçiləri artıq ciddiyətlə diqqət edib çox tez bir zamanda onlarda nəzərə çarpan nüqsanları rəf etmılidirlər. Biz indi deyə bilərik ki, firqənin iskleti ya çubbəndliyi möhkəm bir surətdə qurulub qurtarmışdır. Leykən bu kafi deyildir. Binanın tamamilə quruluşu, onun xəlqi təşkilat

altına almaq, ona rəhbərlik etmək vasitələri ilə mümkün ola bilr. Bu çox böyük və çox ağır bir vəzifədir. Bu vəzifəni əncam vermək üçün firqə “**hovzələrə doğru**” şüarını meydana atır. Məxsusən kənd hovzələrin çox ciddi surətdə nəzərdən keçirib bir aya dək bütün firqə üzvləri üzvlük haqlarını əda etməklə bərabər üzvlük vərəqəsi əldə etməlidirlər.

Firqənin daxili işlərə məşğul olmasından suistifadə edən jandarm və mürtəce qüvvələrin bəzi kəndlərdə firqə təşkilatını fişar altına alıb, hovzələrimizin tətilinə səbəb olmuşlar. Bu hovzələri tazadan möhkəm əsas üstündə qurulub işə baəlamalı və onların qabağına çıxa bilən hər bir müşgülatı rəf etmək üçün ciddi tədbirlər görməlidir.

Biz mükərrər yazmışıq ki, **hovzəsiz iş qabaqdan getməz**. Məxsusən qəsəbələr və şəhərlərdə bu işi birinci firqə vəzifəsi hesab etməyənlər firqəyə böyük zərbə vururlar. Karxana hovzələri isə bunlardan daha mühümdür. Hovzəsi olmayan komitələr sərbazsız əfsər kimi ismi- şərifindən başqa bir qüvvəyə malik deyildir. Bizim gücümüz xalqda olduğu üçün xalqı firqəyə bağlayan fəqət hovzələr ola bilər.

Bundan daha böyük, daha mühüm və daha ağır vəzifəmiz xalqın təqazalarını əncam verməkdən ibarətdir.

Hovzələrin möhkəmlənməsi və firqənin təkamüli fəqət meydana atılan şüarların icrasını təqaza edir.

**Bu günkü şüarlarımız əncümənlərin təşkili və on beşinci məclis seçgilərinin səri bir surətdə başlanmasıdır.** Bu iş böyük siyasi bir işdir. O, Firqəni xəlq ilə yaxınlaşdırıb, onun həqiqi rəhbəri məqamına yetirəbilən bir işdir.

Heç bir siyasi firqə tək öz üzvlərinin əli ilə istədiyinə nail ola bilməz. Daha artıq xəlq işlərinə qarışıb, Xəlqin arzularını daha da geniş dayirədə anlayıb onların əməli olmasına çalışarsa, o Firqə xəlqə daha artıq yaxınlaşıb, onun bitməz- tükənməz qüdrətindən dahada artıq istifadə edəbilər.

İkinci dövrədə Firqə işçilərimizdən bunu tələb edirik.

Sözün qisası daha yaxşı olar: bizim ikinci dövrədə əncam verəcəyimiz vəzifələrin **birincisi yerlərdə aşağı təşkilatı yəni hovzə və hovmə komitələrini möhkəmlətmək.**

**İkincisi, böyük mitinqlər və geniş konfranslar vasitəsilə əncümənlər və məclis intixabatının mə’nasını anladıb və onları bu yolda mübarizəyə hazırlamaqdan ibarətdir.**

Bir sözlə quruluş dövrəsi xatimə tapıb və təbliğat və əməl dövrəsi başlanmışdır.

Bu gündən etibarən Firqə siyasi qüdrət kəsb etmək yolunda mübarizə edir. Siyasi qüdrət əncümənlər və məclis nümayəndələrinin azadixah və Demokrat şəxslərdən intixab olunması sayəsində kəsb ediləbilər. Bunu heç bir Firqə üzvü unuda bilməz.

**Mir Cəfər Pişəvəri**

**(«Azərbaycan» şümarə 47, aban 20, noyabr 11)**

# AZƏRBAYCANIN SƏRVƏTİ AZƏRBAYCANDA QALMALIDIR

Bizim möhkəm və əməli şüarlarımız millətimizin məhvinə çalışan düşmənləri acıqlandırıb onları divanələr kimi mənasız hərəkətlər büruzə vermok və məntiqsiz sözlər danışmağa vadar etməkdədir.

Eşitdiyimizə görə Seyid Ziya dəstəsi və Azərbaycana özünü kəfil göstərmək istəyən beş- üç yalançı pəhləvan axır vaxtlarda sadəlövh və heç bir siyasi iş ilə əlaqəsi olmayan bazar camaatını çəkib Tehrana aparmağa çalışırlar. Biz əlbəttə evini, zindəganlığını, kəsbiç ticarətini tərk edib Tehranda mürtəce Farsların tohini və təhqiramiz hərəkətlərini öz xalqının qardaşlığına tərcih verən adamların getməsindən çox da təəssüf etmirik. Onlar çox tez bir zamanda gördükləri işin zərərini hiss edib, peşman olacaqlar. Bu peşmanlıq onlar üçün faydasız ola bilər. Bu bizə mərbut deyildir. Bizim nəzərimizi cəlb edən işin ayrı cəhətidir. Tehran bizim sərvət və varlığımızı bu vasitə ilə əlimizdən almaq, ölkəni fəqrü- fəlakətə sövq etmək istəyir. Firqəmiz bu ciddi məsələni nəzərdə tutmalıdır.

Biz işə başladığımız zaman düşmənlərimizin göstərəcəkləri əksüləməli unutmamışdıq. Çox gözəl bilirdik ki, onlar bizim qabağımıza cürbəcür əngəllər çıxara bilərlər. Məxsusən, məsnui işsizlik yaradıb, xalq arasında vəhşət yaratmaqla əllərinə bahana salıb xalqın malına və heysiyyətinə əl atmaqla sudan balıq tutmaq kimi alçaqlıqda onların mahir olduğunu mükərrər imtəhan etmişdik. Ona görə əmniyyəti saxlamağı, xalqın mal, can və heysiyyətini qorumağı əsas bir şüar olaraq təqib edib əmələn hər yerdə baş verən hərcmərcin qabağıpı almağa əvvəldən tədbirlər görmüşdük.

Azərbaycan xalqının düşmənləri isə bu zəhməti puça çıxarmaq yolunda iki ay tamam var qüvvələrini səfərbər edib cürbəcür oyunlar oynadılar. Lakin bizim təsmimiz xələlnapəzir idi. İndi düşmənə heç bir bahana verməyib, başladığımız böyük işi mətanət və xunsərdlik ilə təqib edib Firqəni möhkəm payə və əsas üstündə qoymağa müvəffəq olduq.

İndi xalqı qorxudub bu vasitə ilə sərvətimizi çəkib aparan xainanə siyasət ilə ciddi surətdə mübarizə etmək zamanı gəlib çatmışdır.

Bu işdə dəxi mətanət və xunsərdliyi hifz etmək lazımdır.

Düşmənlərin törətdikləri vəhşət və qorxunu ortadan qaldırmaq və xalqı Firqəmizin şüarlarının həqiqətinə inandırmaq üçün şəhərlərdə təbliğat işini gücləndirmək lazımdır.

Bu iş çox zəif bir haldadır. Mərkəzi komitəmizin ümumi iclası konfranslar və mntinqlər təşkilinə icazə vermişdir. Artıq Firqə daxili işlərini yoluna qoymuş, kafi miqdarda Firqə siyasəti ilə aşina olan adamlar yetirməyə müvəffəq olmuşdur.

Bu gündən etibarən təbliğata girişib, şüarlarımızı xalq üçün böyük iclaslar və geniş mitinqlər

vasitəsi ilə izah etməli və xalqın gözünü açıb onu peşmanlıq törədən işlərdən qaytarmalıdır.

Hərgah bu iş bir qədər ciddi şəkil alarsa, yəni xalqı vəhşətə salan ünsürlər vətənnmizin sərvətini çəkib aparmaqdan əl götürməzlərsə, onda xalq öz gücü ilə bu işin qabağını almalıdır.

Azərbaycanın tolid etdiyi sərvət onun doğma xalqının ehtiyaclarını rəf etməyə sərf olunmalıdır. Bunun əleyhinə çalışan xainlərə deyin: Biz ölümə məhkum olsaq da öz vətənimizdə, öz ana yurdumuzda dəfn olmağa iftixar edirik.

**Mir Cəfər Pişəvəri**

**(«Azərbaycan» şümarə 52, aban 21, noyabr 12)**

# KARLAR EŞİTSİN, KORLAR DA GÖRSÜN

Bir ayın içərisində Firqəmizin dəftərinə və ruznamələrimizin idarəsinə mindən artıq şikayət ərizələri gəlmişdir. Bu ərizələrdə dövlət məmurlarının və onların təchiz etdikləri əşrar və cəllad dəstələrinin Azərbaycan xalqı ilə etdikləri vəhşiyanə rəftar çox diri və canlı bir surətdə tənzim edilib, xalqımızın göz yaşları ilə ziynətlənmişdir. Siz əgər bir və ya iki gün idarələrimizə gəlib, bu ərizələri gətirən Azərbaycanlıların qiyafələrinə baxsaz onda biznm qəlbimizin yandığı, vicdanımızın üsyan etdiyinin səbəblərini anlarsız.

Azərbaycan xalqının dilini bağlayıb, onu zülm və fişar nəticəsində məhv etmək fikrindədirlər. Demokrat dünya və onun şəhərimizdə olan nümayəndələri bu fəcaye və vəhşilikləri əgər görə bilmirlərsə, onda öz azadixah və demokrat xalqlarının onlara tapşırdıqları vəzifəni layiqincə yerinə yetirmədikləri üçün vicdanən və əxlaqən bəşəriyyət müqabilində məsuldurlar. Əgər görüb, eşidirlərsə bəs nə üçün onu öz millətlərinin və öz ruznamələrinin nəzərinə yetirmək istəmirlər.

Xalq məhv olunur. İnsanların varlığı və heysiyyəti ayaqlar altında tapdalanır. Bu indiki əsr üçün nəngdir. Bu əsrdə mütəməddin millətlərin aliməqam nümayəndələrinin yaşadığı bir ölkədə xalqın dodaqlarını kəsir, dərilərini soyurlar. Keçən nömrədə üç ya dörd yaşlı qızın jandarm sərnizəsi ilə öldürülmüş cəsədinin qravürünü intişar verdik. O biri gün jandarm məmurlarının bir kəndlini çəkmə altında əzib həyatına xatimə verdiyi xəbəri yazdıq. Üç nəfəri öldürüb, doqquz nəfəri ağır surətdə yaralayan Sadiq Müctehidi azad bir surətdə Təbrizin küçə və xiyabanlarında gəzib, sinəsini daha qabağa verməkdədir. Ədliyyə pul alıb böyük cinayətkarı buraxmış, dadsitan isə, mizinin dalında kağızlar və pərvəndələr içərisində

qərq olub qalmışdır.

Sərdrudda bərbəriyyət dövrəsinin ağır vəhşiyyətini andıran cavan uşaqların dodaqlarına dağ basmaq əfsanə deyil, həqiqətdir. Bu həqiqəti örtüb basdırmaq üçün Tehran dövləti Azərbaycan ruznaməsinin Tehranda intişarını qədəğən edir və xalqın gözünü bağlayıb, qulağını kar saxlamaq istəyir.

Qoy bütün dünya bilsin və Azərbaycanın mərkəzində yaşayan mütəməddin dövlətlərin nümayəndələri gözlərini açıb görsünlər ki, Tehran dövləti Azərbaycan xalqından intiqam çəkir, ona azadlıq əvəzində cəlladlardan, qatillərdən himayət edən, onların cinayətlərinin üstünü örtən xain ədliyyə məmurları, cani jandarm rəisləri, vəhşi və qaniçən bəxşdar və dehdarlar verməkdədir.

Biz bu gündən etibarən cinayət qurbanlarını mütəməddin ölkələrin nümayəndələrinin qapılarına göndərməyə məcburuq. Qoy bütün dünya bilsin ki, Azərbaycanda qanun və ədalətdən bir əsər yoxdur. Tehran hökuməti və azadlığı məhv etməyə çalışan mürtəcelər xalqımızı ayaqlar altında məhv, nabud etmək fikrindədirlər. Qoy hamı bilsin ki, Azərbaycan xalqı özünün daxili işlərini idarə etməyə bəşəriyyət müqabilində məsuldur.

Qoy mənşur Atlantik kimi millətlər azadlığının əsasını təqib edən sənədlərdə bu cinayətləri təbrəə etmək üçün maddələr və dəlillər tapıb göstərsinlər.

Azərbaycan xalqı bu vəhşiliklərə baxmayıb yaşayacaq, özünün rəhbəri olan Demokrat Firqəsinin bayrağı altında zülm və əsarətə xatimə verəcəkdir.

**Mir Cəfər Pişəvəri**

**(«Azərbaycan» şümarə 53, aban 22, noyabr 13)**

## BIZ ÖZ ANADILIMIZ İLƏ OXUMALIYIQ

Yoldaşımla xiyabanda görüşdük. Onun ilə bərabər yol gedərkən, ittifaqən siyasətdən söz araya gəldi. Mənim bu yoldaşım bir az cürətli olduğuna görə o biri adamlar kimin siyasi söz danışmaqdan o qədər çəkinməz. Yoldaşım Azərbaycan Demokrat Firqəsinin barəsində öz əlaqəsini deyərək fəqət bu cəhətdən ki öz anadilimiz ilə danışmaq və yazmaq istəyirik bir az etiraf etməyə başladı.

- Axı canım! Türkücə ki, iş olmaz! Məsələn Türkücə siz neçə kitab yaza bilərsiz, necə oxumaq olar?

Sonra Moğulun istilasından bir şəmmə deyərək gilayə eləməyə başladı...mən çox təəsüflə istəyirəm bu barədə öz ana dillərinə bədbin olan adamlara etiraz etməklə bərabər bu cür qorxulu bir fikirdən əmələ gələn pis nəticəni şərh verəm. təəsüfliyəm bu babətdən ki, bu cür sözləri danışan adamlar Azərbaycanlı ola- ola öz milli xüsusiyyətlərin ayaq altına salmaq istəyirlər...

Rizaxan dövrəsinin siyasəti Azərbaycan barəsində istemari bir siyasət idi. Bir az diqqət eləsək bu mövzu kamilən aydınlaşar:

Keçmiş beynəlmiləl müharibə qurtardıqdan sonra dünyada böyük bir təğyirat üz verdi, Rusiyə ölkələrində tezarin mütləq hökuməti məhv olaraq sosializm üsuli Rusiyə üzərində həyata keçdi və yeni bir siyasət dünyada inkişaf etməyə başladı.

İmperialist dövlətlər onun inkişaf və tosiəsinin qabağın saxlamaq üçün məcbur oldular özlərinə bir əmniyyət hərimi düzəldib və arada böyük sərhədlər icad etsinlər. Məsələn sosializmin Avropada nüfuz etməməyindən ötrü Almaniyada nazismi vücuda gətirdilər...

Həmin məqsədi nəzərə alaraq Rizaxan müəyyən bir şəraitə məxsus dəsturlar ilə iranın hökumətin qəsb etdi. Görduyumuzə görə Rizaxan dövründə məşrutiyyət tətil oldu, Azərbaycan xalqı bu məşrutəni öz cavanlarının qanları müqabilində aldısa onları Rizaxan hökuməti tamam milli hüquqlarından məhrum etdi, bunun iki illəti var idi:

Əvvəl ba inki iranda sosializm vücuda gəlmək üçün heç bir şərait yoxdur, yenə də bəziləri bunu düşünməyərək öz aləmlərində xalqı fişar altında saxlamağınan siyasi nüfuzların qabağını almaq istəyirdilər.

İkinci, tarixi mədrəklərə görə Azərbaycan xalqı tamam qasib hökumətlərin nifrətli rejiminə qarşı üsyan etmişdir və dünyalarca zəhmət ilən aldığı məşrutənin asanlıq ilə tətil olmağına razı olmayırdı.

Rizaxanın hökuməti Azərbaycanın öz hüququnu ələ gətirmək üçün qiyam etməkdən cin dəmirdən qorxan kimin qorxurdu. Buna görə Azərbaycan barəsində istemari şum siyasətləri icra etməyə başladı, mədrəsələrdə Türki danışmaq şəri bir maneə oldu. Fars dilində mədrəsələrdən ötəri yazılan kitablar baçdan-dibə yalan, müzəxrəf kitablar olduğu üçün gün -bəgün bizim mühəssillərimiz həqiqi tarixi vəqayedən öz ana dillərində olan ədəbiyyatdan öz yerlərində yaşayan böyük qəhrəmanların və pişvaların şərhi halın bilməkdən xəbərsiz olaraq fəqri siyasi və mədəni tərəfinə sövq oldular...

Biz azərbaycanca yazmağa və oxumağa məzun olmamaq üçün öz milli nübuğumuzu, istedadımızı bu iyirmi ilin ərzində əldən verdik.

Azərbaycan barəsində istemari siyasət bu barədən sidq edir ki, 5 milyon fəal, müstəid Azərbaycan xalqını ehanət və təhqir etmək bir əndazəyə çatmışdı ki, onları öz ana dillərini danışmaqdan məmnu etmişdirlər, yəni dillərini bağlamışdılar.

Açıq deyim: bizi özlərinə nökər hesab edərkən anamızın qucağında öyrışdiyimiz dilimizi, geniş və vüsətli ədəbiyyatımızı tovqif etmişlər...

Aya bu ehanət deyilmi?!

Çün bilirdilər bu cinayətdir, buna binaən ayrı bir siyasi əməllər ilə öz məqsədlərini icra etdilər:

Mədrəsələrdə olunan təlimat hər bir cəhətdən müstəqil bir millət üçün faydasız olmağına görə bizim həqiqəti dərk etməyə imkanımız yox idi, bizim mühəssillər 12 il burada zəhmət çəkəndən sonra məcbur oldular Tehrana getsinlər.

Təlimat burada və Tehranda bu əsas üzərində əmələ gəlirdə ki, hamının dili Farsıdır! əgər bir millət Fars da olmasa gərək onu Fars etmək, məsnui farsizəban düzəltmək!..

Bunlar müvəffəq oldular ki, bu cür tərz- təlimat və təbliğat vasitəsi ilə bizim milli şüurumuzu məhv etsinlər və hətta bir iddəni öz içimizdən vücuda gətirdilər ki, onlar öz milli vicdanımızı aradan aparmaq üçün parazit olsunlar və bir əndazəyə kimin nəticə aldılar. Onların məqsədləri bu idi ki, bu vasitə ilə Azərbaycan xalqının nifrətinin inficarından cilovgirlik etsinlər, Azərbaycanın tarixi şərəfin, milli adab və rüsumunu pərdə dalında saxlasınlar. Çünki Rizaxanın istemarı niyyətlərinə Azərbaycan xətərnak sayılırdı və onun ərbabının mənafeyi xətərdə vaqe olurdu...

Mənim yoldaşım F...o ictimai parazitlərdən biridir. Aya onun təqsiri vardırmı? Mənim nəzərimcə yox! Amma mənim bu yoldaşım və ayrı bu cür adamlar öz milli vəzifələrin, tarixlərinin müqabilində müqəssir ola bilərlər, biz gərək milli istedadımızın inkişafında ciddi bir surətdə çalışan öz vüsətli maarifimizdən və ədəbiyyatımızdan istifadə edərək, milli vicdanımızı təqviyət edərək gələcək nəslimiz üçün geniş və mütləq azad bir şərait yaradaq!

Bizim cavanlar da gələcəkdə Azərbaycan xalqının nəzərində nifrətli olmamaq üçün gərək öz milli borclarını əda etsinlər, bizim üçün böyük ardır ki, öz –özümüzə düşmən olub və tarixdə pis ad qazanaq. Biz tamam milli və ictimai hüquqlarımızı təhsil etməklə bərabər öz şirin dilimizi vüsətləndirərək onu hifz edəcəyik. Azərbaycan xalqı bizdən çox- çox vəzifələr gözləyir. Bu vəzifələri icra etməkdə qüsur etsək tarix bizi sərzəniş edəcəkdir...

**Fəthi Xoşgənabi**

**(“Azərbaycan” şumarə 53, aban 22, noyabr 13)**

# BÖYÜK XALQ YIĞINCAQLARI

Şəhərlərimizədə İyalət və Vilayət Əncümənləri təşkili və məclis seçgilərinin başlanması xususunda bəhs etmək üçün böyük xəlq yığıncaqları də’vət edilmişdir. Bu yiğincaqlarda xəlqimizin doğma rəhbəri olan Firqə təşkilatı nəzarət edir. Aldığımız mə’lumata görə qəsəbə və kəndistanlarda bu yığıncaqlar nəzərə çarpmaqdadır.

Bununla Azərbaycan xəlqi özünün diri bir millət olduğunu subut etməkde dir. Tehran hökümətinin cahil və nadan məmurları Firqə təşkilindən sonra onun kəndlərdə qol- budağını kəsmək üçün insanlığı təhqir edən vəhşiyana tədbirlərə əl atdılar. Xoşbəxtana onların təşəbbusu firqəmizin xeyrinə təmam olub, kənd cəmaatını bizə yaxınlaşdırır və bu vasitə ilə Firqəmiz daha səri' bir surətdə kəndlərdə kök salmağa dəvam edir.

Doğrudur ki, yüzlər ilə kənd zəhmətkeşləri jandarm zülmündən dağlarda yaşamağa məcbur olmüşlar. Yenə də doğrudur ki, əhl və əyalını götürüb Firqəmizin qapılarına pənah gətirən kəndlilərə böyük köməkliklər edə bilməmişik. Lakin kəndli düşünüb anlamış ki,onun fəlakət və bədbəxtliyi müvəqqətidir. Əyalət və Vilayət Əncümni vicuda gəlirsə bu kimi cinayətlərə çox tez bir zəmanda xatimə veriləbilər. Ona görə də kəndli də var qüvvəsilə bu işın çox tez bir zəmanda başlanmasını tələb edir.

Biz bilirik ki, xəlqimizi əsarətdə saxlayan mürtəce’ qüvvələr var gücləri ilə onun bir milli təşkilat ətrafına toplanmasıının qarşısını almağa çalışmaqdan sərfinəzər etməyə cəklər. Lakin Firqəmizin götürdüyü düzgün və mətin xət- hərəkəti sayəsində onların arzuları ürəklərində qalıb ümidləri yə’sə mübəddəl olacaqdır.

İndi bütün azərbaycanda iki cərəyan vicuda gəlmişdir: Biri xəlqi üzüb, boğub, mal- meknət kəsb etmək istəyən dövlət məmurları, digəri isə azadlıq, demokrasi üsulunu əməli surətdə diriltməyə çalışan milli qüvvələr, birinci cərəyan zülm və biydadgərliyə dayandığı üçün gündən günə zəifleşib meydandan çıxır, ikinci isə insanların səadət və xoşbəxtliyini təmin etmək yolunda apardığı qəhrəmananə mübarizə nəticəsində qüvət və qüdrət kəsb edib, irəli gedir və xəlqi özünün ətrafında toplamaqla gələcək milli qüdrətin binasını möhkəmləndirir.

Böyük milli hərəkət artıq başlanmış, azadlığı təmin etmək yolunda meydana qoyolan şüarların icrası vəqti gəlib çatmışdır. İndi artıq töhmət və iftiralara qulaq asan yoxdur, iki ay yarımlıq ciddi fəaliyət böhtan deyənlərin siymasını aşıkara çəxarıb firqəmizin götürdüyü yolun doğru bir yol olduğunu isbat etmişdir.

İndi hamı bilir ki, Demokrat Firqəsi düşmənlərin dediklərinin xilafına olaraq İran istiqlal və təmamiyətinin nəf'inə çalışan bir Firqə dir. İndi dost və düşmən anlamışdır ki, milli muxtariyət təcziyə dəyildir. Kimsə azərbaycanı irandan ayırmaq istəməz. Onu bu, ya başqa biganəyə satan yoxdur. Bu sözlərin hamısı azadlığı boğmaq üçün mürtəce’lər tərəfindən meydana atılan xainanə töhmətlərdir.

Azərbaycan xəlqi çox sadə və təbii surətdə özünün siyasi, iqtisadi və ictimai işlərini idarə etmək istəyir. Öz qolunun gücilə öz millətinin özünə tərəqqi və təkamül yollarını açmağa çalışır.

Bütün azərbaycanı bürümüş mitinqlər, yığıncaqlar və ictimaların hədəfi isə budur. Bu vəqtə qədər azadlıq, birlik və demokratlıq barəsində dadlı söz çox danışılıb və şirin və'dələr çox verilmişdir. Xəlq indi sözə inana bilmir. O, çox həqli olaraq əməl istəyir. Bu günə qədər cür bəcür adlar ilə ortaya çıxan firqələr

isə xəlqə əməl nişan verə bilməmişlər. Firqəmiz isə böyük şüarları əməli etmək istəyir, mitinqlərdən məqsəd budur.

Xəlq çox açıq bir surətdə Əyalət və Vilayət Əncümənlərinin təşkilini tələb edir. Qanun- əsasımızın pozulmasına yol verməmək üçün 15-ci məclis seçgilərinin başlanmasını təqaza edir. Bu işə rəhbərlik etməyi firqəmizdən gözləyir.

İndi azərbaycanda dəvam edən mitinq və nümayişlərin mə’nası budur**.**

**«Mir Cəfər Pişəvəri.»**

**(«Azərbaycan», şümarə 54, Aban 23, noyabr 14)**

Beləliklə bütün azərbaycan xəlqi ayağa qalxır, kəndlər, qəsəbələr və şəhərlərdə 10- min, 20- min və 50- min nəfərlik mitinqlər təşkil olunub kətbi surətdə qərarlar çıxarılır və bu qərarlarda Demokrat Firqəsindən fövri surətdə Əyalət Əncüməninin təşkili və milli muxtariyətimizin təmini tələb edilir. Xəlqin əksəriyətini təşkil edən bu yığıncaqlar öz işlərini qətnamə ilə məhdud etməyib əmələ geçirir və həqlərini almaq və dediklərini həyata geçirmək üçün nümayəndələr intixab edib təbrizdə təşkil olunan konqrəyə göndərirlər.

Bu vasitə ilə azərbaycanda böyük Xəlq Konqrəsi təşkil tapır. Konqrə aban ayinin 29- da səhər saat 10- da Təbriz şəhərinin Şir Xurşid səhnəsində sərdar milli Xəttarxan qardaşının sinni riyasəti ilə iftitah olunur.

Ən qədim mücahıdlərdən ağayi «Səyid Divan» Azərbaycan azadixahları namindən konqrəni təbərik edir.

Sonra azərbaycanın ayri şəhərlərindən axıb gələn nümayəndələr hərarətli və atəşin sözlərlə konqrəni səlamladıqdan sonra birinci cəlsə təbəriklərə və e’tibarnamə komisionunun guzarişinə həsr edilir. Gün ortadan sonra ağayi Pişəvəri ümumi vəziyətimiz və konqrənin vəzifəsi həqqində müfəssəl bir nitq edir. Onun nitqi səkkiz yüz nəfərdən təşkil tapmış xəlq nümayəndələri tərəfindən dəfələr ilə alqışlanır, beləliklə nümayəndələr firqəmizin siyasətinə inandıqlarını isbat edirlər.

Ağayi Pişəvərinin nitqi isə bu cumlələrlə qurtarır:

«Biz artıq özümüzü idarə etmək istəyirik. Biz azərbaycanı irandan ayırmayıb fəqət azərbaycanın daxili muxtariyətini istəyirik.

Azərbaycan Hindustan dəyil, bura azərbaycandır. Onun müşə`şə' tarixi vardır, bu millət diridir. Azərbaycan milləti tarixə Səttarxan, Baqir xan və Şeyx Məhəmməd Xiyabanılar vermişdir. Onun iftixarlı tarixi vardır. Biz milli muxtariyət söhbəti edirik, ticarətimizi, behdaştimizi, ma'arifimizi, post və təleqrafımızı və bütün işlərimizi xəlqimiz idarə etməlidir. Azadlığı alarlar, onu verməzlər. Əgər bizim xəlqimizin qabağına silah ilə çıxsalar, qoy bu Milli Konqrə öz milli heyətini difa' etmək üçün cəvanlarımızın silahlı milli qüvvələrini yaratsınlar.»

(Bütün salon ayağa qalxır, arası kəsilməyən gurultulu şurəngiz urra səsləri neçə dəqiqə dəvam edir.)

***

Bu urra səsləri, bu ayağa qalxmaq isə, qiyam və nehzətimizədə xəlqin həqiqi surətdə iştirakı və həqiqət halda bu nehzətin başlanması deмək idi. Milli qiyamın mə'nası da elə budur.

***

Bu konqrə özünün tarixi müraciətnaməsilə iranın səlahiyətdar məqamatına və azərbaycanda olan xarici dövlətlərin nümayəndələrinə müraciət edir. Əgər bu müraciətnaməyə diqqət olunarsa bizim bugünkü siyasətimizin əsasını təşkil etdiyi aşıkara çıxar.

***

Müraciətnamənin eyni budur: ünvanlar.........

Bu ill aban ayynın 29- 30-cu günlərində təbriz şəhərinin Şir Xurşid salonunda 150- min nəfərin imzasilə ümum Azərbaycan şəhər və hovmələrindən toplanan ümumi mitinqlər tərəfindən seçilmiş yeddi yüz nümayəndələrin şirkəti ilə təşkil tapan böyük xəlq konqrəsi özünün dördüncü iclasında ittifaq ara ilə öz tələbatının əsası məsələlərini aşağıdakı maddələrdə qeyd olunan e`lamiyə vasitəsilə İran mərkəzi hökümətinə bildirəməyi qərara aldı:

«1- Azərbaycan xəlqi burda yazılmasına yer olmayan saysız tarixi səbəblərə və hadisələrə görə özünə məxsus milliyyət, dil, adab- rüsum və sayir xüsusiyata malikdir. Bu xüsusiat ona həq verir ki, iranın istiqlal və təmamiyətini müraat etməklə bərabər bütün dünya millətləri kimi Atlantık e`lamiyəsi mucibincə öz müqəddəratını təyin etmək üçün azad və muxtar olsun.

2- Konqrə Azərbaycan xəlqinin iranın başqa əyalət və vilayətlərilə olan mədəni, iqtisadi və siyası rabitəsini nəzərə almaqla bərabər, bu xəlqin indiki İran dövlətinin təsisi həqqində göstərdiyi fədakarlıqları (vaqiən indiki İran dövləti azərbaycanlılar vasitəsilə tesıs olunmuşdur) nəzərə alıb heçvəch ilə razı dəyil onun məşəru' və qanuni təqazalarını ki, milli muxtariyətdən ibarətdir, iranın sərhədlərinə xələl gətirib, onun təcziyəsi üzərində qərar versin.

3- Azərbaycan xəlqi var qüvvəsilə iranda məşrutə şəkli almış demokrası üsulunun tərəfdarı dır. Azərbaycan milləti iranın təmam əyalət və vilayətləri kimi iranın məclis- şovrəyi milisinə nümayəndə göndərəcək və adilanə maliyat verməkde şirkət edəcəkdir.

4- Azərbaycan xəlqi rəsmən və ələnən e’lan edir ki, bütün dünyanın diri millətləri kimi (iranın təmamiyət və istiqlalını gözləməklə bərabər) özünün daxili işlərini idarə etməkdən ötrü milli hökümət yaratmağa həqlidir. Və o bacardığı qədər iranın təmamiyət və istiqlalını muraat etməklə bərabər azərbaycanı demokrası və hakimiyyət- milli üsulu ilə idarə edəbilər.

5- Azərbaycan xəlqi azadlıq və demokratlıq yolunda böyük zəhmətlər çəkib çoxlu qurbanlar verdiyinə görə istir özünün muxtar hökümətini həqiqi demokratlıq əsası üstündə qursun. Buna görə də konqrə tərəfindən təsvib olunmuş daxili nizamnamə üstündə özünün məclis millisini intixab edib və lazim görür ki, azərbaycanın milli və daxili höküməti bu məclisin nümayəndələrinin arasından intixab olunub onun qabağında məsül olsun.

6- Azərbaycan xəlqinin öz milli və ana dilinə məxsus əlaqəsi vardır. Özgə dilin təhəmili, onu tərəqqi və təməddün kərvanından dalı salmış və onun milli fərhəng və maarıfinin yolunu bağlamışdır. Bu narəva təhmilin qabağını almaq və Azərbaycan tərəqqisinə lazim gələn bütün vəsilələri vicuda gətirmək üçün Azərbaycan xəlqinin milli konqrəsi Heyət Milli-yə dəstur verir: Çox tez bir zəmanda Azərbaycan dilinin bütün dövlət idarələrində mərsüəm və onun tədrisini təmam mədrəsələrdə (istər dövləti istərsə milli) əməli etsin.

7- Yüz əlli min nəfərin imzası və yeddi yüz nəfər nümayəndənin iştirakilə təşkil tapan milli konqrə Azərbaycan millətinin iradəsilə özünü Müəssislər Məclisi e'lan edib, azərbaycanın daxili işlərini idarə etmək üçün 39- nəfərdən ibarət bir Milli Heyət intixab edərək onlara ixtiyar verir ki, millətin milli istəklrini əməli etmək üçün lazimi tədbirlər görüb, səlahiyətdar məqamat ilə müzakirəyə girişsinlər, eyn zəmanda Azərbaycan Məclis Millisinin və habelə Məclis- Şovrəyi Milli intixabatını icra eləsinlər.

Axırda konqrə İran dövlətinin və dünyanın böyük demokratik dövlətlərinin nəzərini yuxarıda yazılanlara cəlb edib izhar edir ki, bu mətalibin icrası üçün fəqət təbliğ və təşkil vasitəsilə iqdam edib nizai-daxili və qardaş qanı tökməyə icazə verəməiəcək, vəli əgər mərkəzi dövlət istərsə onun qanunu və təbiyi həqqini silah gücü və qəhər- qələbə ilə ortadan aparsın o vəqt naçar hər qimətə olursa olsun, öz hüququndan müdafiə edəcək və ta bir nəfər azərbaycanlı qalanadək öz milli muxtariyəti uğrunda mübarizə aparancaqdır.

Məclis- Müsisan (Milli Konqrə) Milli Heyətə ixtiyar verir ki, azərbaycanın muxtariyətini təmin etmək üçün səlahiyətdar məqamat ilə əlaqəyə girişsin. Məsələni sülh və müsalimət yolilə həll etsin, vəli Milli Heyət heçvəch ilə azərbaycanın muxtariyəti və Milli Höküməti həqqində sərfinzər etmək və iranın təmamiyət və istiqlalını pozmaq ixtiyarına malik dəyildir.

Biz arzu edirik ki, bütün demokrası aləm bilənsin ki, dünyada bir millət vardır ki, hazır olub özünün var qüvvəsilə öz hüququndan müdafiə edib, asiyanın bir güşəsində azadlıq və demokratlıq baydağını qalxızıb istir fəqət öz kömeğilə özünün azadlığını təmin etsin.

Ümid edirik iranın səlahiyətdar məqamati və böyük demokratik dövlətlər bizim milli mənzurumuzun icrası üçün növ'pərvəranə köməkliklərdən ki, Mənşüri Atlantık onun əsası üzərində qoyulmuşdur, müzayiqə etmiyəcəkdir. Ehtiramat faiqə ilə.

**«(Milli Konqrə) Məclis Müəsisanın riyasət heyəti»**

***

Müraciətnamədən daha calib- təvəcceh, konqrənin qərarlarıdır ki, biz təbliğatçılarımızın istifadəsi üçün burada dərc edirik:

# AZƏRBAYCAN DEMOKRAT FIRQƏSI MK SININ ICLASI VƏ ÇIXARDIĞI QƏRARLAR

Pəcnşənbə günü aban ayının 17- də mərkəzə komitənin ümumi iclası bütün mərkəzi komitə üzvlərinin və vilayət məhəllərinin təşkilat başçıları və şəhər təşkilatının nümayəndələrinin iştirakı ilə cələsə, ağayi Pişəvərinin təvəsüti ilə iftitah olundu.

Ağayi Pişəvəri bir saat dünya ümumi vəziyyətinə dair və demokratik nehzətlərin tovsiəsi ətrafında və həmçinin iranda olan irticai vəziyyətə və mərmuz ünsürlərin İran millətinə xəyanət etdikləri və intixabatın təhrim və məclisin tətil edilməsinə dair söhbət etdilər.

Ağayi Pişəvəri azimayişi qanunlar ətrafında, o qanunlar ki dövlət iddia edir və qanun əsasını pozmuşlar, onlardan müfəssəl surətdə bəhs edib sübut etdi ki, azadlıq və demokrasini aradan aparmaqdan ötrü dövlət tərəfindən böyük bir nəqşə meydana gəlmiş və Rizaxanın siyasəti şədid surətdə izlənir və ərkane hərb dövlətə və məclisə rəhbərlik edir. Ağayi Pişəvəri azadixah qüvvələrin boğulmağı ətrafında danışıb və Tehran hökumətinin Azərbaycan haqqında etdiyi xəyanətlərə dair məxsusən bu axırlarda Tehran hökumətinin təhrikatı ilə Azərbaycanda əmniyyətin pozulmağı mövzuunda söhbət edib Azərbaycana çağrılmamış şəhrdari rəisinin qələt işləri barəsində və həmçinin Firqənin böyük vəzifələrindən və bizim təşkilatımızın bütün Azərbaycanda möhkəm olmağından və məclis intixabatının şüru olması və əyaləti və vilayəti əncümənlərin təşkil olunması barəsində səri surətdə izharat etdi.

Ağayi Pişəvəri məxsusən qeyd etdi ki, tezliklə Azərbaycan xalqının böyük konqrəsi Təbrizdə təşkil tapıb və millət özü fərmane intixabatı verəcəkdir.

Bütün ətrafdan gələn nümayəndələr ağayi Pişəvərinin məruzəsi ətrafında danışdılar.

Onlardan ağayi Borhani, Daneşiyan, Pənbei, Borçalı, Azad Vətən, doktor Axundzadə, Atəş Bəyat Maku, doktor Cahanşahlu, doktor Cavid və ağayi Kəbiri və başqaları söhbət edib öz danışıqlarında ağayi Pişəvərinin sözlərini təyid etdilər.

Ağayi Pişəvərinin nitqi və nümayəndələrin bəhsi qurtardıqdan sonra ümumi cələsədə əksəriyyətlə aşağıdakı qərarlar alındı:

Azərbaycan Demokrat Firqəsinin ikinci dövrəsinin birinci iclası pəncşənbə günü sübh ağayi Pişəvərinin ümumi siyasi vəziyyət və Firqənin gündəlik şüarları haqqında verdiyi güzarişi eşidib aşağıda qeyd olunan qərarları qəbul etdi:

1- Firqənin məşhur bəyannaməsi və birinci konqrəsinin elan etdiyi şüarları ümumiyyətlə iranda, xüsusi ilə Azərbaycanda dərin təsir bağışlayıb azadlıq və demokratlıq cərəyanın qüvvətləndirmişdir. Bunu ümumi iclas çox şadlıqla qeyd edib şüarların əməli surətdə başlanmasını qərara alır. Bu şüarlar Azərbaycan xalqının milli muxtariyyətini təmin etmək üçün əyalət və vilayət əncümənlərinin təşkili və məclise şura intixabatının təxirsiz bir surətdə başlanması vasitəsi ilə ola bilər.

2- Firqə quruluş dövrəsini xatəmə verdiyi üçün indi geniş təbliğatı işlərə başlayıb xalqı Firqənin ətrafına toplanaq üçün böyük yığıncaqlar və mitinqlər təşkil verə bilər və bu mitinqləri idarə etmək üçün hazırlanan ciddi Firqə fəallarının fəaliyyətə girişmələrini təmin edə bilər.

3- Əyalət və vilayət əncümənlərinin intixabatını xalqın öz gücü ilə başlamaq lüzumunu qeyd edib komitə yaxın bir zamanda bütün Azərbaycan xalqı arasından intixab olunan nümayəndələrindən böyük bir konfrans təşkil etməlidir.

4- Firqəyə yazılanları tamamı ilə təşkilata bağlamaq üçün üzviyyət vərəqələri çox tez bir surətdə paylanmalı və mərkəzi komitə tərəfindən təhiyyə edilən təmbr vasitəsi ilə həqqe üzviyyətləri yığmağa iqdam etməlidir.

5- Cavanlar arasında işləri möhkəmləşdirmək üçün bəzi məsul şəxsləri təyin etmək cavanlar arasında iş ciddi aparıb onları gələcək iş üçün hazır etsinlər.

Kəndlərdə qanunsuz olaraq kəndlilərə hücum edən jandarmların ümum camaatın qüvvəsi ilə qabağı alınsın.

İkinci cələsədə ağayi Qiyami əncümənе əyaləti və vilayəti xüsusunda geniş tozihat verdilər. Ətraf nümayəndələri də əncüməne əyaləti və vilayəti intixabatının başlanması xüsusunda hərarətli nitqlər etdilər.

Daha sonra mərkəzi komitə ağayi Qiyaminin nitqini eşitdikdən sonra aşağıdakı qərara gəldi.

Firqəmiz xalqın bütün ehtiyacatını düşündüyü və onu mürtəfe etməyə hər cür fədakarlıq göstərdiyi kimi xalqımızın əncüməne əyaləti və vilayəti olan ehtiyacını da düşünür.

Bu feli vəziyyətdə olan hərc-mərcliyin bəzi dövlət məmurlarının təəddi və ichafatı dövlət idarələrindəki qanunsuzluqların xalqın narazılığını və məmləkətimizdə səhih bir intizamatın yardılmasın fəqət və fəqət əncüməne əyaləti və vilayətilərin vasitəsi ilə ola biləcəyini Firqəmizin birinci konqrəsi hər şeydən əvvəl düşünüb bu barədə tapşırıq vermişdi.

Bundan başqa bütün məhəllərdən və Firqə hovzələrindən, minlərcə bitərəf vətəndaşlardan və azadixah haqq deyən ruznamələr tərəfindən bu barədə dərxast və təqazalar olunur. əlbəttə Firqəmiz artıq vaxt sərf etdiyinə görə bu müqəddəs vəzifəni əncam verməyə indiyə qədər müvəffəq olmamışsa da bundan sərf-nəzər etmək olmaz. Ona görə də mərkəzi komitənin ətraf təşkilat başçıları ilə olan müştərək cələsəsi qərara alır.

Ona görə ki, qanun əsasinin 26 cı (qovaye məmləkət millətdən naşi dir), 7 ci əsli (asase məşrutiyyət küllən və cüzən tətil ola bilməz), 26 cı əsli (hər bir əyalət və vilayətin xüsusi mənafeyi əncüməne əyaləti və vilayətilərin təsvibi ilə ola bilər), və eyni halda mütəmmime qanune əsasinin 90-91-92-93 cü əslləri sərahətlə əncüməne əyaləti və vilayətilərin vücudunu ərkane məşrutiyyətdən hesab edir. Əğlən və məntiqən də bu müqəddəs məqamatın təşkil olması illə milli və demokrasi hökumət qurmaq mümkündür və eyni zamanda bu əncümənlərin təşkil olunmasını Azərbaycan xalqı yəni əqəllən onun yüzdə doxsanı tələb edir. Ona görə ki, Azərbaycan Demokrat Firqəsi Azərbaycan xalqının idarəsinin məzhəri və onun həqiqi və vaqeyi rəhbəridir.

Azərbaycan Demokrat Firqəsinin mərkəzi komitəsi və təşkilat aşçılarının ümumi cələsəsi özünü müvəzzəf bilir Azərbaycan xalqının amal və arzularını və onun milli hökumətinin açarları olan əncümənе əyaləti və vilayətilərin qurulması üçün rəhbərlik etsin.

Firqənin MK sının heyət amiləsinə tapşırır ki, səlah bildiyi kimi bu vəzifəni çox səri bir surətdə əncam versin.

Sonra ağayi Padgan məclis intixabatına dair habelə 15 ci dövrənin təhrim olmağının illətlərin və bu işin qeyri qanuni olması ətrafında müfəssəl bəhs edərkən qanune əsasinin neçə mühüm əsllərini təhlil edib qeyd etdi ki, Azərbaycanda İran cəmiyyətinin üçdə bir hissəsi yaşadığına görə Azərbaycan millətinin haqqı vardır laəqəll 54 nəfər vəkil məclisə göndərsin.

Ağayi Padganın nitqi şurəngiz surətdə istiqbal olundu. ətraf nümayəndələri hərarətli nitqlər edərək öz danışıqlarında 14 cü məclisin qeyri qanuni qərarı əleyhinə hansı ki, 15 ci dövrə intixabatının təhrim edib onlara qarşı şədid etirazlar edərək intixabatın təxirsiz və ciddi surətdə başlanmasını tələb edir.

Ağayi Padganın məruzəsindən və vilayət nümayəndələrinin danışıqlarından sonra mərkəzi komitənin ümumi iclası ittifaq ara ilə aşağıda qeyd olunan qərarı aldı:

Məclisin qullabı və təhmili nümayəndələri mehr-mahda maddeyi vahidə ilə əsas əsliye məşrutiyyət sayılan məclis intixabatın, bidune mücəvvize qanun və bərxilafe əsase məşrutiyyət və qanun əsasi təhrim etmişlər. Halbuki, iran xalqı ümumən, Azərbaycan milləti xüsusən məclisin bu qanun maskası altında olan çöhrəsindən bezardır.

Azadlıq və məşrutəyə əlaqəsi olan milyonlarca xalqlar 15 ci dövrənin intixabatını özləri üçün bir həyati mövzu deyə tələb edirlər. Yüzlərcə yetişən teleqraf qətnamə və azadixah ruznamələrin yazdıqları atəşin məqalələr bunu isbat edir. Bu vəkillər biganə qüvasının iranda olmasını bəhanə tuturlar. Hansı ki, özləri həmin biganə qüvvələri İran daxilində olarkən intixab olmuşlar. Məclise Şurayi Millidə təsvib olunan bütün qanun və qətnamələr qanune əsasının mütabiqi olmalıdır.

Əgər bir qanun və qətnamə ki, qanune əsasının xilafına olsa İran milətti üçün heç bir əsəre qanunisi yoxdur və qabil icra deyildir.

Belə ki, qanun əsasının 7 ci əsli (əsase məşrutiyyət küllən və cüzən tətil ola bilməz) sözünü sərahətlə göstərir və qanune əsasının 5 ci əsli (müntəxəbin əz bəraye do sale təmam entxab miyşəvənd və ebtedaye in moddət əz ruziy əst ke montəxəbiyne velayat təmamən dər Tehran hazer xahənd şod. Pəs əz enqazye moddəte do sal bayəd nomayəndeqan mocəddədən entexab şəvənd və mərdom moxtarənd hər yek əz montəxəbiyne sabeq ra ke bexahənd və əz anha raziy başənd dobare entexab konənd.) və qanune intixabatın 53 cü maddəsi sərahətlə deyir beş ay intixabat dövrəsinin axırına qalmış gərək intixabat işinin müqəddəmatı fərahəm olsun və üç ay intixabat dövrəsinin axırına qalmış taza dövrənin intixabatına şüru olsun ta inki bir gündə olursa məşrutiyyət tətil olmasın.

Belə ki, mütəmmime qanune əsasinin 7 əsli bunu təkid edir. Bu əsllərə görə hər bir vaqei və təhmili nümüyəndə öz vəkalət müddətinin 21 isfənd 1324 də xatəmə vermiş olur və 53 cü əslin mədluluna görə 21 azərdən etibarən intixabata şüru olmalı və 21 mehrdən etibarən intixabatın müqəddəmatı işlərinə başlanmalı idi.

Doğrudur qanune intixabatın 53 cü maddəsi mocibincə intixabat işlərinə başlamaq üçün Şah tərəfindən fərman olası idi, mütəəsifanə iranda məşrutə qanunlarının bir çox qisməti ayaqlar altına salındığı kimi bu qanun da pozulmuş və millətin həqqe müsəlləmi olan qanune əsasının bu əslləri də tapdalanmışdır. Qanune əsasının nəsse sərihinə görə qanune əasasiye hökuməte millinin eləyhinə hər cür iqdam edənlər hüquqe ictimaidən məhrumdurlar. Və buna görə də bunların qoyduqları qanunları qanun və qəbul etdikləri qətnamə İran millətinə əsəre qanunisi yoxdur və mütəmmime qanune əsasinin 26 cı əsli (qovaye məmləkət naşiy əz mellət əst) cümləsi intixabat fərmanını verməyə hər bir məqamdan səlahiyyətlidir. əvvələn məşrutə və qanun əsasi İran millətinin və xüsusi ilə Azərbaycan xalqının qanı bahasına alındığı Azərbaycan xalqı 15 ci dövrənin məclis nümayəndələrini intixab etməklə məşrutənin əsasını hifz və qanun əsasının əsllərini icra edir. Ona görə də Azərbaycan Demokrat Firqəsinin MK sının və təşkilat başçılarının müştərək cələsəsi qət edir: Mərkəzi Komitənin Heyət Amiləsi xalqın həyatı arzusu olan və məşrutənin payası və qanun əsasının əsli olan Məclise Şurayi Millinin 15 ci dövrəsinin nümayəndə intixabatı işlərinə rəhbərlik edib və xalqın istədiyi kimi onu icra etsin.

Qanun əsasının 4 cü əslinə görə Bütün İran millətinə 162 nəfər nümayəndə intixab etmək üçün haqq verilmişdir. İndi bunu 200 nəfərə qədər artırmağa da həmin əsl mocibincə haqları vardır.

Ona gər ki, İran milləti ümumən cəmiyyətcə 15 milyondan yuxarı təxmin edilməmişdir. (betore hətm 12 milyondan təcavüz etməz). Azərbaycan xalqı bunun həddəqəl üçdən bir hissəsini təşkil edir. Ona binaən Azərbaycan xalqı İran məclisində 54 nəfər nümayəndə intixab etməsi məşru və qanuni haqqı dir.

əgər indiyə qədər Azərbaycan xalqına 21 nəfər nümayəndə intixab haqqı verilmişsə minlərcə Azərbaycan xalqlarının haqqını zaye edib və ayaqlar altına almışlar. Bu da onlardan birisidir.

Bu əsllərə görə həmin cələsə qət edir Azərbaycanın məşru haqı olan 54 nümayəndə intixab etməsi aşağıdakı hesab üzrə mövqe icraya qoysun.

Sonra ağayi Padgan 54 nəfər bütün Azərbaycan nümayəndələrinin surətin və tedadın hər məhəllin cəmiyyətinə görə oxuyub və şərh verdi və bu qərar ilə Azərbaycanın həddəqəll dörd milyon yarım cəmiyyətin nəzərə alaraq bütün Azərbaycan üçün 54 nəfər vəkil təyin olunur.

Bu qərar hərarətli və şurəngiz urra səsləri ilə mərkəzi komitənin qmum iclası tərəfindən təsdiq olundu.

**("Azərbaycan", şumarə 54, aban 23, noyabr )**

# CİNAYƏTLƏRİN MƏNŞƏYİ

Əmniyyətdən danışanda nəzərə xəlvət yollar, dərin dərələr, uzaq dağlar gəlir və oxucu elə xəyal edir ki, əmniyyətsizlik fəqət bu yerlərdə yolkəsənlər vasitəsi ilə ola bilər.

Mürurzaman ilə çox ibarətlər həqiqi mənasını itirdiyi kimi, bu ibarət də indi öz mənasını verə bilmir. Əmniyyətsizlik uca dağlar, xəlvət dərələrdən kəndlər və şəhərlərə köçüb ac, çılpaq, yoxsul və binəva xalqın verdiyi ağır maliyatlar ilə saxlanılan dövlət məmurları həramilər və yolkəsənlərin işini öz öhdələrinə götürmüşlər.

İndi ölkəmizdə heç kəs üçün əmniyyət yoxdur. Dövlət silahı ilə mücəhhəz olan jandarm özünü kəndlərdə hakimi mütləq bilir.

Kəndlinin çörəyini, qoyununu, yumurtasını, yağını zəhrimar elədikdən sonra, onun namusuna və canına belə təcavüz etməkdən çəkinmir. Bir vaxt Babi adı xalqı soymaq üçün bir bahana idi. Hər kəsin bir parça çörəyi var idi. Onun üstünə bu adı qoyub ayaqdan salırdılar. İndi də azadixahlıq və Firqə üzvlüyünü, cənab vəkilbaşı Babilik kimi töhmət vasitəsi qərar verib bu ünvan ilə göz çıxardır, baş kəsir, gön soyur, dodaq kəsdirir, ev qarət edir, öküz, inək apartdırır.

İndinin əmniyyətsizliyinə bir qədər diqqət olunarsa, bərbəriyyət dövrəsində nəziri olmadığı nəzərə çarpar. Sədi demişkən «Səngha ra bəste, səgha ra baz kərdənd» (1).

Dəstüpayi mərdom ra bəste iddeyi dozd, qatili, rahzən ra ba tofənghayi berno müsəlleh kərde qoftənd, bezənid, bekubid pedəre hərçe nəfəskeş əst dərbiyavərid (2).

Ədliyyə məmurları isə dəstpərvərdeyi simürğ (3) olduqlarından jandarmlardan ayaq dalı qoymurlar. Bunların biürzəliyi və cinayətkarlığı səbəbi ilə canilər, qatillər öz məqamından suiistifadə edən dövlət məmurlarının çinayətlərinə baxan yoxdur. Onun əvəzində yüzlərcə kəndliləri əsir kimi dəstə- dəstə gətirib məhkəməsiz, mühakiməsiz zindanlara doldurub xalqın rişəsini kəsməyə davam edirlər.

Qoy açıq deyək, indi əmniyyətsizlik sərçeşməsi ədliyyədir. Ədliyyə məmurları öz vəzifələrini əncam

vermək əvəzində (şərike dozd və yare qafilə (4) rolu oynayıb əmniyyəti xələldar edirlər. Onlar pul və nüfuz vasitəsi ilə cinayətkarları azad qoyub, bigünah kəndliləri toqifdə saxlayırlar. Əmniyyələrin cinayətlərindən göz yumub, onların hüququ işlərə müdaxilə etmələrinə açıq bir surətdə yol verirlər.

Məzlumların göz yaşları ilə yazdıqları ərizə və şikayətləri cavabsız qoyub, haradan mənfəət gözlənirsə ora qaçırlar. Bunların bu kəsif hərəkətlərinin nəticəsində oğurluq, rüşvətxorluq, sui- istifadə adi və təbii bir iş olmuşdur. Dövlət mizlərinin başında oturanlar yuxarıdan aşağıya, yəni vəzirdən pişxidmətə qədər, xalqı soymağı özləri üçün məşru haqq hesab edirlər.

Ajan, jandarm isə müstəqimən xalq ilə mərbut olduğu üçün bu kəsafötkarlığın məzhəri hesab olunur.

Bu günün əmniyyətsizliyinin, bu günün yol kəsənliyinin və rahzənliyinin şəkli budur.

Artıq heç bir qaçaq yer və pənah yoxdur. Firqə işçilərimiz zülm və cinayətlərdən qaçıb Firqə qapılarına pənahəndə olan məzlumların ahnaləsindən cana gəlmişdir.

Artıq çarə və əlac yolu qalmamışdır. Jandarm və ədliyyə başçıları görünür qəsdən və əmdən bu atəşə ətək vururlar. Bundan sonra xalq öz başıia çarə etməlidir.

Qoy dünya bilsin ki, beş- üç cinayətkarın əlində xalq nə günə qalmışdır. Qış gəlib qapını aldığı halda minlərçə kəndlilər ev və zindəkanlıqlarını tərk edib dağlarda yaşamağa məcbur olmuşlar. Dilənçiliyə məcbur olan ortabab əkinçilər naçar kəndləri tərk edib şəhərlərə pənah gətirirlər. Bu cinayətə tez ya kec son qoymaq lazımdır.

**«Mir Cəfər Pişəvəri.»**

**(«Azərbaycan», şümarə 56, aban 25, noyabr 16)**

1 Tərcüməsi: Daşları bağlamış, itləri isə açmışlar.

2-Tərcüməsi: Xalqın əl- ayağını bağlayaraq bir yığın oğru qatil və yolkəsəni berno tüfənglər ilə silahlandıraraq belə göstəriş vermişdilər: Vurun, döyün, nəfəsi gələn bütün adamların atasını yandırın.

3- Bu istilah burada irticaın əlaltısı olmaq mənasında işlədilmişdir.

4- Tərcüməsi: Oğru ilə şərik, karvan ilə yoldaş deməkdir.

# UŞAQ TOVLAYIRLAR

Biz Riza xan zamanında şoharlərimizi xərabazarə döndərmək məqsədilə aparılan xainanə siyasətdən artıq bəhs etmək istəmirik. Onu Azərbaycan xalqının düşmənləri də bu gün təsdiq etməyə məcburdular. Söz təzə ortalığa atılan yalançı pəhləvandardır. Bunlar bizim intişar verdiyimiz ciddi şüarların qabağına çıxmaq məqsədilə indi Azərbaycana dilsuzluq göstərməyə başlamışlar. Onu yaqlı sözlərlə, tumarlayıb yatırmaq ilə bərabər onun üçün xəlifənin kisəsindən bəzl, bəxşişlər də qabağa çəkmişlər. Keçən gün eşitdiyimizə görə şəhrdarimiz böyük bir elan nəşr edib, şəhərimizin xiyabanlarını asfalt etmək fikrində olduğunu xalqın qulağına çatdırmaq istəmişdi.

Görünür, dörd il tamam əhalimizin dad- fəryadlarına qulaq asmaq istəməyən Tehran siyasətmədarlarına Azərbaycan Demokrat Firqəsinin təşkili çox təkan vermişdir. Ona görədir ki, tez əl- ayağa düşüb xalqa rüşvət verməklə Firqənin qüvvətlənməsinin qabağını kəsmək istəyirlər.

Azərbaycan xalqı, məxsusən Təbriz əhalisi çox gözəl bilir ki, bu bihudə təşəbbüslərə fəqət Firqəmizin mürtəcelər qəlbində törətdiyi qorxu səbəb olmuşdur. Əgər belə olmasa idi, müxabirə olunan saysız- hesabsız teleqraflar, uzun- uzadı məqalələr, əlli min nəfərlik böyük mitinqlərdə çıxarılan qərarlar bu

günədək cavabsız qalmazdı. Bunların hamısı bir yana, əgər vaqiən Tehran mürtəceləri Azərbaycan xalqına ya əqəllən Təbriz camaatına haqqi- həyat qail olsaydı onun intixab etdiyi şəhər əncüməninin fəaliyyətinin qabağını almaq kimi xəyanətə hazır olmazdı.

Bizə etiraz edirlər ki, niyə Azərbaycan özünün abadlığı barəsində iqdamat edir. İranın ayrı əyalətləri də Azərbaycandan abad halda deyildir. Onlar isə səslərini çıxarmırlar.

Biz bunu da təsdiq edirik. Vəli başqa əyalətlərin bərbadlığı, bizi öz vətənimizi azad etmək fikrindən qaytara bilməz.

Biz şəhərlərimizin abadlığı, millətimizin fərhəng, behdaşt və iqtisad yolunda ciddi qədəmlər götürməspidən, bu kimi əhməqanə dəlillərə örrə sərfnəzər edə bilmərik.

Məqsədimiz bu məqalədə bu kimi bahanalara cavab vermək deyil. Biz əslən bəhs və münaqişə əhli deyilik. Bizim nəzərimizdə bir əməli qədəm yetmiş batmanlıq məsnəvi təşkil edən mübahisədən qiymətlidir.

Bizim möhkəm yumruğumuzdan titrəyən Tehran irticai indi camaatımızın başını tovlamaq üçün şəhərimizi asfalt etmək fikrinə düşmüş. Olsun, biz buna müxalif deyilik. Hələ əsrlərcə vətənimizi soyub, millətimizin var- yoxunu qəsb edən Tehranın irticai dövləti bizə çox borcludur. Qoy beş- üç xiyabani, xalqı tovlamaq məqsədilə də olsa, asfalt etsinlər.

Gülünc burasıdır ki, bu qədər dadfəryad və biyabırçılıqdan sonra, təzə dövlət bütcəsindən deyil, şəhərimizi borclu salmaqla verdikləri boş vədlərə əməl etmək istəyirlər.

Bunlar o qədər cahildirlər ki, qanun mövcibincə əncümən şəhrdarinin qərarı olmadan şəhər naminə bir dinar belə borc etməyə haqlı olmadıqlarını nəzərdə tuta bilmirlər və xəyal edirlər ki, xalqın bu sadə həqiqətdən xəbəri yoxdur və təsəvvür edirlər ki, Seyid Ziyanın tövsiyəsi ilə banklar üsulu yaddan çıxarıb Təbatəbai kimi nadan bir adama şəhər naminə borc verə bilərlər. Təbatəbailərin qanunən rəsmiyyətləri olmadığını da bunlar anlamaq istəmirlər. Bunlar özbaşınalıq və həyasızlığı o yerə yetirmişlər ki, şəhərin ağası xalq tərəfindən intixab olunan şəhər əncüməni olduğunu da əmələn inkar etməyə cəsarət edirlər. Bunu yazmaqdan məqsədimiz şəhərin asfaltına müxalifət etmək deyildir. Şəhər gərək asfalt olsun, bunun üçün gəlir mənbəyi də vardır. Bizi bu dələduzluq ilə, bu kimi amülmənfəə işlərə müxalif göstərə bilməzlər. Xalq özü bilir ki, Azərbaycan Demokrat Firqəsinin gurultulu səsi olmasaydı, mürtəcelər hətta, elam belə verməzdilər.

Eşitdiyimizə görə, şəhrdari işçilərinin maaşı belə aylarla təxirə düşür. Hələ əncümənin qərarı olmadan verilən maaşlar da oğurluq və sui- istifadə hesab olunur. Bu maaşları verənlər vaxtında gərək şəhər əhalisinin nümayəndələrinə haqq- hesab versinlər.

«Dərə xəlvət, tülkü bəy» oyunlarının vaxtı keçmişdir. Uşaq başı aldatmaq kimi, gülünc hərəkətlərin faydası yoxdur. Xalq bu kimi fırıldaqlara aldanmaz.

Xalqımızın nicatı onun həqiqi rəhbəri olan Demokrat Firqəsinin bayrağı altındadır. Bu Firqə qanunun himayətedicisi və gözətçisidir. Onun olduğu bir şəhərdə qanunsuzluq etmək olmaz.

Çağırılmamış qonaqlar şəhərimizin başını sındırıb ətəyinə qoz tökmək fikrindən göz yumsunlar.

Biz həmişə dempşik, haqqı verməzlər, onu almaq lazımdır.

Təbriz şəhəri öz haqqını almağa qadir bir şəhərdir. Onun intixab etdiyi əncümən gərək bütün şəhrdarlıq işlərinə nəzarət etsin. Biz düzgün düşüncəli və salamət fikirli dövlət məmurlarının vücudunu inkar etmirik. Lakin iş başında duranların çoxusunun oğru olduğunu da inkar etmək olmaz. Bu oğrular indi nəfəslərini arıdıb, şəhərin asfaltı bahanası ilə özləri üçün kisələr tikirlər. Onlar bilməlidirlər ki, kisələri boş qalacaq. Şəhər əncüməni özü bütün şəhər işlərinə yaxından nəzarət edəcəkdir.

Biz şəhər əhalisi tərəfindən seçilən nümayəndələrdən iş və fədakarlıq tələb edirik. Onlardan kim öhdəsinə xalq tərəfindən qoyulan vəzifəni ifa etməyə özünu layiq görmürsə istefa verib getməli, fədakarlığa və xalqa xidmət etməyə hazır olanlar isə işə başlamalı və öz qanuni vəzifələrini əncam verməlidirlər.

Əncümən çox sadə bir surətdə şəhrdarn rəisini çağırıb ona deyə bilər ki, ağa şəhərin sahibi vardır.

Sən onun qərarı olmadan heç bir iş görə bilməzsən, qanun sənə bu ixtiyarı verməmişdir.

Famili və xudmani bir surətdə çağrılan heyətlərin heç cürə rəsmiyyəti ola bilməz. Məmləkət məşrutədir. Hələ qanuniəsasimiz təğyir tapmamış və şəhrdarın hakimi mütləq ola bilməsi qanuni elan olunmamışdır. Şəhərin dəxli və xərci əncümən şəhrdarinin müstəqim nəzarəti altında ola bilər.

Əgər şəhrdar israr edərsə onda əncümən şəhər əhalisini toplar, onlara əncümən işə başlamadan, əncümənin rəsmi qəbzi olmadan vergi verməyəcəklərini elan edər.

Qoy Təbatəbai gedib Seyid Ziyadan Təbrizin qəssabları, hamamçıları, kəsəbəsi üçün tövsiyələr gətirsin və o tövsiyə vasitəsi ilə şəhərin ayidatını toplasın. Anladızmı?

**«Mir Cəfər Pişəvəri.»**

**(«Azərbaycan», şümarə 57, Aban 27, noyabr 18)**

# Diydi ke xune nahəqe pərvane şəm ra

# Çəndan əman nədad ke şəb ra səhər konə!

Biz dəfələr ilə kəndlərdə görülən vəhşiliklərin qorxulu nəticəsini yazıb dövlət məmurlarının kar qulaqlarına və kor gəzlərinə soxmaq istədik. Lakin özlərini Port Artor qalası fatehi hesab edən jandarm rəisləri kor tutduğunu buraxmayan kimi əlsiz) ayaqsız kəndlilər ilə vəhşiyanə rəftarlarını daha da şiddətləndirib onların mal- can və namusuna təcavüz etməkdən əl götürmədilər. Nəhayət bıçaq sümüyə dayanıb kəndlinin tab və təvani kəsildi, özünə çarə tapmaq fikrinə düşdü. İndi cəlladlar buyurub əkdikləri toxumun səmərəsini dərsinlər. Kim bilir bəlkə bunların hamısı qarətgərliyi şiddətləndirmək üçün taza ünvandır. Bəlkə çalışırlar bu ad ilə kəndləri xak ilə yeksan edib Azərbaycan kəndlisinin nəslini kəsib ortadan qaldırsınlar. Lakin iş bunu göstərmir.

Miyanadan, Sarabdan və Marağadan gələn xəbərlərdən məlum olur ki, canından doyub vəhəşətlərə təhəmmül edə bilməyən kəndli intiqam silahı ilə qiyam etmişdir. Qiyamçıların hədəfi jandarm cəlladlarını xəl-silah edib kəndlərdən uzaqlaşdırmaqdır! Bunlar var qüvvələri ilə əmniyyəti hifz etdikləri halda jandarm postlarını ortadan çıxarır, onların xilası ilə özlərini difa etməyə çalışırlar. Miyanadan və Sarabdan gələnlərin dediklərinə görə əmniyyələri xəl silah etdikdən sonra Fədailər çəkilib getmiş Şəhərin əmniyyətini polis məmurlarının ixtiyarına qoymuşlar.

Şayiata gərə Sərabda və Miyanada kəndlilərin əlinə çoxlu silah keçmişdir.

Bundan əlavə kəndlilər dövlət məmurları vasitəsi ilə kəndlərdə paylanan silahlardan çox sadə bir surətdə istifadə edə bilmişlər.

Müttəle adamların izharına görə Şəhriyvərdən sonra Azərbaycanı tərk edib qaçan nizami qüvvələrin silahları tamamı ilə kəndlilərin əlinə düşmüşdür. Çox kəndlilər öz namuslarını hifz etmək üçün öküzünü satıb tüfəng almışdır.

Bu silahların gücü ilə dir ki, dövlət məmurları apardıqları əhməqanə siyasətin mənasını düşünməyə məcbur olmuşlar.

Biz keçən nömrələrdə kəndlini döyüb, öldürüb, namusuna əl atmağı ataş ilə oynamaq adlandırıb demişdik ki:

Əgər səd sal gəbr ataş foruzəd

Əgər yekdəm dər u oftəd besuzəd

İndi Sarabın və Miyanın jandarm rəisləri bu sözlərin mənasını anladılar. əfsus ki, onlar üçün bu dərs çox baha başa gəldi. Onlar bir daha bu təcrübədən istifadə etməyə qadir ola bilməzlər.

Keçən gün zəncir və şallaq ilə döyülüb məcruh bir Sarablı idarəmizə gəlib deyirdi indi ölsəm də arzum qalmadı, ondan ötrü ki, qızımın namusuna əl atan xain cəzasını çəkdi.

Biz Sarab əmniyyə rəisinin öldürülməsindən xoşhal deyilik. Qardaş qanı tökməyi hərgiz vicdanımız qəbul etmir. Lakin kəndlini də bu işdə məzəmmət etmək olmaz. Madamı ki, jandarm zülmündən mərkəzə şikayətə gələnləri tutub zindanlara doldurmaqla xalqı boğmaq istirlər, biz də kəndli ilə həmsəda olub deyirik:

Dəmi ab xordən pəse bəd səqal

Beh əz omre həftad o həştad sal

Bununla belə biz dövlət məmurlarına bu hadisələrdən ibrət alıb rəftarlarını dəyişməyi tovsiyə edirik. Tökülən qanlara onlar millət qarşısında cavab verməlidirlər.

Zindanlar günahsız kəndlilər ilə doldurulduğu halda əlinə silah keçirmiş kəndli savuq-qanlılıqla rəftar edə bilməz. Get-gedə həriq artır, qabağına çıxan yaş və qurunun hamısını yandırıb məhv edə bilər. Yenə təkrar edirik:

Yoluzu dəyişin, dayanıb fikir edin. Cinayət və qan tökməyin səmərəsi zəhrnakdır. Xalqın istədiyini verin! Cinayətkarları tutub cəzalandırın. Kəndlinin mal, can və namusuna təcavüz edən jandarmları asın ta kəndli özü intiqamı üçün ayağa qalxmasın. Bundan başqa əlac yoxdur.

**Mir Cəfər Pişəvəri**

**("Azərbaycan" şumarə 58, aban 28, noyabr 19)**

# BÖYÜK MILLI KONQRƏMIZIN QÜDRƏT MƏNBƏYI

Bütün Azərbaycan şəhər və kəndlərində təşkil tapan böyük mitinqlərdə seçilmiş nümayəndələr şəhərimizdə toplanıb, böyük Milli Konqrəmizi bu gün təşkil verməkdədirlər.

Xalqımız tərəfindən çıxarılan qərarları imza edənlərin sayı yüz mindən təcavüz etmişdir.

Bu o deməkdir ki, illərcə əsarət və zülm zənciri altında yaşayan məzlum millət ayağa qalxıb gedəcək yolunu təmin etmək fikrindədir. Azərbaycan tarixi hadısələr çox görmüşdür. Lakin əsrimizdə bu günkü işin nəzirini nışan vermək olmaz.

Məşrutə inqilabi doğrudur xalqımızın başını ucaldıb, ona əbədi iftixar yaratmış, mərhum Şeyx Məhəmməd Xiyabani öz qiyami ilə bu iftixarı təşkil etmişdir. Lakin onlar təşkilat və sürət əməl cəhətdən Firqəmizin başladığı bu böyük işdən çox zəif və çox məhdud imişlər.

Sərdarmilli və Salarmillinin əslən Təbriz şəhərindən başqa kənd əhalindən səs verən olmamış, qiyamçıların fəaliyyəti fəqət Təbriz şəhərinin hüdudunda təmərküz tapmaq məcburiyyətində qalmışdır. Biçarə Şeyxin süqutunu da bunda aramaq lazımdır.

Doğrudur məşrutə inqilabında Təbriz şəhərinin göstərdiyi istiqamət tarixdə binəzir və fövqəladə işlərdəndir. Lakin böyük milli bir iş üçün bir şəhər əhalisi kifayət etməz. O günün şəraiti isə artıq Şeyx zamanında mövcud deyildi. İndi isə mühit tamamilə dəyişmişdir.

Artıq böyük xalq və əsasi hesab olunan kəndlərə dayanmayan bir qüvvə hərgiz öz arzusuna müvəffəq ola bilməz. Kəndli isə bizimlə olduğunu əmələn isbat etməkdə mal və can və namus və heysiyyəti ilə azadlıq yolunda aparılan mübarizəni axıra qədər aparmaq üçün çalışmaqdadır. Şəhərdə isə böyük təhəvvul və dəyişik əmələ gəlmişdir. İndi Təbrizdə iyimi minlik kargər qüvvəsi vardır. Bu qüvvə Şeyx qiyamında sifr mənziləsində idi.

Bundan əlavə Şeyxin rəhbərlik etdiyi demokrat təşkilatında, onun şəxsiyyətindən sivay, səmimi və fədakar adamlar çox az idi. Onları bir birinə bağlayan fikir və əqidə isə rovşən və aşikar deyildi. Hətta mərhum Şeyx özü də milləti hara apardığını aşikar bir surətdə elan edə bilmirdi.

Biz onun nitqlərini və onun rəhbərliyi ilə nəşr olunan Təcəddüd ruznaməsini oxuduqda, onu bir gün ciddi bir Azərbaycanlı, bir işkaldan qorxmayan cümhurixah hətta çox sol təcziəhçi, ayrı bir gün şədid mərkəziyyət tələb edən, müdhiş məşrutəçi görüb təəccüb edirik.

Halbuki, təəccüb yeri yoxdur. Çünki qiyam təsadüfi hadisələr nəticəsində vücuda gəldiyi üçün mərhum Şeyxin fəaliyyəti cərəyan və sövq təbiiyə tabe olmuş macəralar ona vaxtdan qabaq düşünüb müəyyən bir bərnamə aşkar bir hədəf təyin etməyə macal verməmişdir.

Bundan əlavə Şeyx səri müvəffəqiyətlərə məğrur olub, xalqı təşkil etmək, nehzətə qanuni şəkil vermək fikrinə düşə bilməmiş, firqə ilə hökumət işini bir birinə qarışdırmış, özü isə işin içərisində itib.

Biz başladığımız iş isə tamamiylə ayrı bir ruhda və başqa bir şəkildədir. Əvvələn bizim təkiyəmiz firqə təşkilatına deyildir, xalqa və ümum millətə dayanırıq və onu cəlb etmək üçün ciddi şüarlar və əməli vasitələr ilə işimizə davam edirik.

Saniyən bizim rovşən və aydın hədəfimiz vardır və danışdıqlarımız və işlərımız o hədəfə yetişmək yolundan kənara çıxmır.

Üçüncü, biz cərəyana tabe olmayıb bəlkə onu idarə etmək üçün tədbir görməyə çalışırıq.

Ddördüncü, biz hərgiz bərnaməsiz, nəqşəsiz düşünülüb, ölçülüb biçilməmiş bir iş görmürük və başladığımız işlərın əvvəldən nəticəsini bilirik.

Beşinci, bizdə vəhdəti fikir, vəhdəti əqidə vardır. İşçilərimiz və rəhbərlərimizə inanırıq və onları inandırmaq üçün heç bir fədakarlıqdan ayaq geri qoymuruq.

Bizim əlimizdə başçılarımıza ciddi itaət olduğu halda açıq və ciddi intiqad kimi böyük vəsilə və silahımız var.

Bir sözlə bizim. başladığımız iş yüzdə yüz müvəffəqiyyətlə əncam tapacaq, böyük Milli Konqrəmiz millətin müqəddəratını təyin etmək kimi böyük vəzifəni iftixar ilə əncam verməyə qadır olacaqdır.

**Mir Cəfər Pişəvəri**

**«Azərbaycan», şümarə 57, aban 27, noyabr 18**

# EY AZƏRBAYCANIN RƏŞİD VƏ QƏYUR SƏRBAZ VƏ ƏFSƏRLƏRİ

Siz ey Azərbaycanın rəşid və qəyur sərbaz və əfsərləri, siz ey Azərbaycan xalqının pak və doğma oğulları! Siz ey Azərbaycanın kəndli, kargər və təhsilkərdə cavanları! Sizin atalarız, analarız, bacı və

qardaşlarız sizi böyüdüb tərbiyə edib məmləkətimizin və öz ana-bacılarımızın namusunun hifzi üçün əynizə şərafətli sərbaz paltarı geyindirib sizi sərbazxanalara təqdim etmişlər. Siz yaddan çıxarmayın ki, beş gün əvvəl bir kəndli ya bir kargər idiz, ya bir nəfər əzilmiş Azərbaycanlı idiz və beş gün sonra da haman olacaqsız. Siz hər nə olsaz Azərbaycanın və Azərbaycan xalqının doğma oğlanlarısız. Məbada sizi üç ya beş nəfər mürtəce, macəracu Azərbaycan xalqının düşmənləri aldada, sizi öz xalqınızın üzünə çəkə. Xudanəkərdə öz ata-ana, bacı- qardaşlarınızın üzərinə atəş açmağa və onları öldürməyə sövq edə.

Siz aldanmayın! Əgər belə bir əmr hər kəsin tərəfindən olsa, bilin ki, o sizin və bizim ki, sizin doğma atalariziq düşmənidir. Siz Azərbaycan oğulları gərək öz dostunuzu və düşmənizi yaxşı tanıyasız. Bu gün hər rəşid və qəyur adamın ki, damarlarında Azərbaycanın qanı axır istər sərbaz və yaxud əfsər olsun gərək Azərbaycanın və onun xalqının azadlığına kömək etsin.

Bəsdir indiyə qədər Tehran mürtəce hökumətinin bizə etdiyi tohin və təhqirlər. Sizin analarızın südü o vaxt sizə halaldır ki, siz onların namuslarını hifz edəsiz. Sizin rəşadətiz və qoçaqlığız o vaxt müstəhsən və yaxşıdır ki, öz xalqızı zalımlardan difa edəsiz. Əlbəttə biz bilirik və inanırıq ki, siz heç vaxt 3 ya 5 nəfər bizim xalqımızın düşmənlərinin əmri və fərmanı ilə öz ana və atalarıza ağ olmasız.

Yaşasın Azərbaycanın qəyur və qanlı oğulları!

Yaşasın Azərbaycanın rəşid məmləkətinə, xalqına və öz doğma ata və analarına sadiq qalan sərbaz və əfsərlər!

**(“Azərbaycan”, şumarə 59, aban 29, noyabr 20)**

# VƏHŞƏT VƏ İZTIRABI KIM TOLID EDIR?

Keçən şümarəmizdə kəndlərdə tovlid olan müsəlləhanə hərəkətlərin səbəblərini göstərdikdən sonra “bu atəşi icad edən məmurlar tezliklə mücazat olmasalar səbir kasası ləbriz olmuş xalqın ümumiyyətlə Fədai dəstələrinə mülhəq olması ehtimalın” bəyan etdik.

Zahirdə işin gedişi göstərirdi ki, şəhərimizdə olan məsum məmurlar Sarab, Miyana, Marağa hadisələrindən ibrət alıb xalq ilə rəftarlarını dəyişəcək xüşunət o təzahürdən pərhiz etməklə işi sülh və saziş yolu ilə həll etməyə çalışacaqlar.

Yekşənbə günü ağayi Dövlətşahi ustandarlıq kəfili firqəmizin mərkəzi komitəsinə gəlib etdiyi dustanə müsahibədən sonra ağayi Rəfii və ağayi Şəbüstərinin başqa dövlət məmurları ailə görüşlərinin zahirindən dərin də belə ehsas olunurdu.

Bundan başqa Təbriz əhalisi qara, yağışa o insanın damarlarındakı qanı donduran soyuğa baxmayıb otuz min nəfərlik böyük mitiniqində nişan verdiyi intizam, mətanət və xunsərdlik göstərdi ki, vəhşət və iztirab yaratmaq istəyən xalq düşmənləri öz arzularına müvəffəq olmayacaqlar.

Bununla bəle firqəmizin rəisi haman otuz mindən ziyadə cəmiyyətin qarşısında rəsmi surətdə şəhərin əmniyyətini xələldar etmək üçün şübhəli adamlar o polis məmurları tərəfindən aparılan xainanə təbliğata var qüvvəsi ilə yol verməyəcəyini sərih bir surətdə bəyan etdi və bu vasitə ilə düşmənlərəin bahanalarına xatəmə verildi.

Bunların hamısına baxmayaraq doşənbə günü şəhər əhalisi şəhər divarlarına əcib bir elan yapışdırıldlğının şahidi oldu.

Bu elan Ağayi sərtip Dirəxşani tərəfindən imza edilmiş idi.

Təbiidir ki, qanuni bir məmləkətdə daxili əmniyyət qüvvələri (polis və jandarm) nizamı məqamata tabe ola bilməz. Rəis intizam adlı bir məqam qanun əsasımızda yoxdur. Başını itirmiş Tehran müstəbidləri görünür xalqı o qədər nadan hesab edirlər ki, bu sözlərin altında gizlənmiş olan hökumət nizamını qəlb pul kimi gözbağlıçılıq ilə onun hesabına qoymağa çalışırlar.

Elamiyyənin məzmunu nə olur olsun özü vəhşət və iztirab tolid edən bir əməldir. Bu işin özü isbat edir ki, dövləti məqamat əmdən vəhşət və iztirab tolid etməyə çalışır.

Ağayi sərtip Dirəxşani olsun ki, .şəxsən bu elanı mərkəzin əmri ilə yazmağa məcbur edilmişdir. Leykən o mərkəzə verilən yalan güzarişləri təkzib edib özünü belə bir ağır və msuliyyətli və qeyri qabil icra və qeyri qanuni məmuriyyətdən xilas edə bilərdi.

Biz şəhərimizdə saxlanılan sərbazları öz qardaşımız bilirik. Onlar ilə edilən vəhşiyanə rəftardan (föhş, kötək və mütəhəmmil olduqları min cür əzab və məşəqqətlərdən) bixəbər deyilik. Ona görə onları xalq əleyhinə silah işlətməyə vadar edə biləcəklərinə biz inana bilmirik.

Sərbaz cəllad deyildir. O fəqət məmləkətin mərzlərini müdafiə etməyə müvəzzəfdir. Onu qardaş qanı tökməyə vadar etmək olmaz. Belə bir əmr verilərsə sərbaz öz milli vəzifəsinə əməl edib xalqa mülhəq ola bilər. Bu hadisə dünyanın böyük milli hərəkətlərində çox ittifaq düşmüşdür.

Mərkəzi dövləti əllərində alət edən macəracular əgər Arteşi xalq əleyhinə qalxızmaq istəsələr, xalqa mülhəq olmaları və şərafətli əfsərlərin qeyri qanuni əmrlərdən imtina etmələriqeyri mümkün olan işlərdən deyildir.

Hətta biz pasbanları və jandarm məmurlarının mühüm qismini də xalq ilə qardaşlıq halında yaşamağa mütəmayil görürük. Tehranın ali qəsrlərinin isti və müzəyyən salonlarından fərman verən millət xainləri gözlərini açıb həqiqətin dönməz üzünə açıq göz ilə baxmalıdırlar.

Bir də mərkəz müstəbidləri nahaq yerə məmləkətin daxili mövzuun xaricdə həll etməyə çalışırlar. Azərbaycan xalqının müqəddəratı Azərbaycanın mərkəzi olan Təbriz şəhərində həll edilməlidir.

Xalq öz qanuni haqından artıq bir şey istəmir. Ona qane edici cavab əvəzində rəis intizamat və motoriyzə qüvvə göndərmək istəyənlərin gördükləri işin qəbahətini anlamaqdan aciz olduqları aşkara çıxır.

Nəng və iftizah bundan böyük olmaz ki, yüz milyondan artıq büdcəyə malik olan arteşi şahənşahinin Təbriz saxlosu Fədailər əleyhinə otuz sərbaz göndərmək üçün garajlara düşüb zor ilə kamiyon təhiyyə etmək istəyir.

Belə bir təşkilata malik olan jeneralın sakit və aram bir şəhərdə elamiyyə sadir edib rəcəzxanlıq etməklə xalqı qorxutmaq, Təbriz şəhərində, Marağa, Sarab və Miyandab hadisələrinin nəzirini vücuda gətirmək istəməsi uşaqlıq deyildir bəs nədir?

Vallah, billah bu hərəkətlər pisdir, qəbihdir, uşaqlıq etməyin! Şəhərdə heç bir xəbər olmadığı halda xalqı vəhşət və iztiraba salmayın. Kəndlərdə jandarmların yandırdığı atəşdən ibrət alın! Qoyun işlər sülh və müsalimət yolu ilə getsin. Xalqa yaziğiz gəlsin, onun intiqam hissini təhrik etməkdən əl çəkin, bu məmləkətin səlahına tamam olmaz.

**Mir Cəfər Pişəvəri - ("Azərbaycan", şümarə 60, aban 30, noyabr 21)**

# İRAN ŞAHƏNŞAHI HƏZRƏTLƏRININ XIDMƏTINƏ

# İran Məclise Şurayi Milli Rəysi cənab ağayi Məhəmməd Təbatbayiyə,

# Nəxostvəzir cənab ağayi İbrahim Həkimiyə.

Bu il aban ayının 30 – 29 cu Təbriz şəhərinin Şir və Xurşid salonunda 150000 nəfərin imzası ilə ümum Azərbaycan şəhər və hovmələrindən toplanan ümumi mitinqlər tərəfindən seçilmiş yeddi yüz nəfər nümayəndənin şirkəti ilə təşkil tapan böyük xalq konqrəsi özünün 4 cü iclasında ittifaq ara ilə öz tələbatının əsas məsələlərini aşağıdakı maddələrdə qeyd olunan elamiyyə vasitəsilə İran mərkəzi hökumətinə bildirməyi qərara aldı:

1 - Azərbaycan xalqı burada yazılmasına yer olmayan saysız - hesabsız tarixi səbəblərə və hadisələrə görə özünə məxsus milliyyət, dil, adab və rusum və sayır xüsusiyyata malikdir. Bu xüsusiyyat ona haqq verir ki, iranın istiqlaliyyət və tamamiyyətini müraat etməklə bərabər bütün dünya millətləri kimi Atlantik elamiyyəsi mocibincə öz müqəddəratını təyin etmək üçün azad və muxtar olsun.

2 - Konqrə Azərbaycan xalqının, iranın başqa əyalət və vilayətləri ilə olan mədəni, iqtisadi və siyasi rabitələrini nəzərə almaq ilə bərabər, bu xalqın indiki İran dövlətinin təsisi haqqında göstərdiyi fədakarlıqları (vaqiən indiki İran dövləti Azərbaycanlılar vasitəsilə təsis olunmuşdur) nəzərə alıb heç vəch ilə hazır deyil, onun məşru və qanuni təqazalarını ki, milli muxtariyyətdən ibarətdir, iranın mərzlərinə xələl gətirib onun təcziəsi üzərində qərar versin.

3 - Azərbaycan xalqı var qüvvəsi ilə iranda məşrutə şəkli almış demokrasi üsulunun tərəfdarıdır. Azərbaycan milləti iranın tamam əyalət və vilayətləri kimi iranın Məclise Şurayi Milisinə nümayəndə göndərəcək və adilanə maliyat verməkdə şirkət edəcəkdir.

4 - Azərbaycan xalqı rəsmən və ələnən elam edir ki, bütün dünyanın diri millətləri kimi (iranın tamamiyyət və istiqlalını gözləməklə) özünün daxili işlərini idarə etməkdən ötrü özü milli hökumət yaratmağa haqlıdır və o bacarıb iranın istiqlal və tamamiyyətini müraat etməklə Azərbaycanı demokrasi və hakmiyyət milli üsulu ilə idarə edə bilər.

5 - Azərbaycan xalqı azadlıq və demokratlıq yolunda böyük zəhmətlər çəkib, çoxlu qurbanlar verməyinə görə istəyir özünün muxtar hökumətini həqiqi demokratlıq əsası üstündə qoysun.

Buna görə konqrə tərəfindən təsvib olunmuş daxili nizamnamə üstündə özünün məclis millisini intixab edib lazım görür Azərbaycanın milli və daxili hökuməti bu məclisin nümayəndələrinin arasından intixab olub onun qabağında məsul olsun.

6 - Azərbaycan xalqının öz milli ana dilinə məxsus əlaqəsi vardır. Özgə dilinin təhmili onu tərəqqi və təməddün karvanından dalı salmış və onun milli fərhəng və maarifinin yolunu bağlamışdır. Bu narəva təhmilin qabağını almaq və Azərbaycanın tərəqqisinə lazım gələn bütün vəsilələri vücuda gətirmək üçün Azərbaycan xalqının milli konqrəsi Heyət Milliyə dəstur verir, çox tez bir zamanda Azərbaycan dilini bütün dövlət idarələrində morsum və onun tədrisini tamam mədrəsələrdə (dövləti və milli) əməli etsin.

7 - Yüz əlli min nəfərin imzası və yeddi yüz nəfər nümayəndənin iştirakı ilə təşkil tapan milli konqrə Azərbaycan millətinin iradəsi ilə özünü müəssislər məclisi elan edib Azərbaycanın daxili işlərini idarə etmək üçün otuz doqquz nəfərdən ibarət bir milli Heyət intixab edib onlara ixtiyar verir, millətin milli istəklərini

əməli etmək üçün lazımı tədbirlər görüb səlahiyyətdar məqamat ilə müzakirəyə girişsinlər. Eyn zamanda Azərbaycan milli məclisinin və həmçinin Məclis Şurayi milli intixabatını icra eləsinlər.

Axırda konqrə İran dövlətinin və dünyanın böyük demokratik dovlətlərinin nəzərini yuxarıda yazılanlara cəlb edib izhar edir ki, bu mütalibatın icrası üçün fəqət təbliğ və təşkil vasitəsi ilə iqdam edib nəza daxili və qardaş qanı tökməyə icazə verməyəcək. vəli əgər mərkəzi dövlət istərsə, onu qanuni silah gücü və qəhr və qəlbə ilə ortadan aparsın, o vaxt naçar hər qiymətə olursa - olsun öz hüququndan müdafiə edəcək və ta bir nəfər Azərbaycanlı qalanadək öz milli muxtariyyəti yolunda mübarizə aparacaqdır.

Məclis Müəssisan (Konqreyi Milli) Heyət Milliyə ixtiyar verir ki, Azərbaycanın muxtariyyətini təmin etmək üçün səlahiyyətdar məqamat ilə əlaqəyə girsin. Məsələni sülh və müsalimət yolu ilə həll etsin. Vəli Heyət Milli heç vəchlə Azərbaycanın muxtariyyəti və milli hökuməti haqından sərfnəzər etmək və iranın tamamiyyət və istiqlalını pozmaq ixtiyarına malik deyildir.

Biz arzu edirik bütün demokrasi aləm bilsin ki, dünyada bir millət vardır hazır olub özünün var qüvvəsi ilə öz hüququndan müdafiə edib asiyanın bir güşəsində azadlıq və demokratlıq baydağını qalxızıb, istəyir fəqət öz köməyi ilə özünün azadlığını təmin etsin. Ümid edirik iranın səlahiyyətdar məqamatı və böyük demokratik dövlətlər bizim milli mənzurumuzun icrası üçün növ - pərvəranəköməklərdən ki, mənşüre Atlantik onun üzərində qoyulmuşdur müzayiqə etməyəcəklər.

**Ehtiramat Faiqə ilə (Milli Konqrənin) Məclis Müəssisan Milli Rəyasət Heyəti.**

**(«Azərbaycan» şümarə 62, azər 2, noyabr 23 ) .**

# XALQIMIZIN BÖYÜK KONQRƏSI MÜVƏFFƏQIYYƏTLƏ QURTARDI

Azərbaycan xalqının tarixinə taza bir iftixarlı gün səbt edildi. O Azərbaycan xalqının öz qüdrəti ilə yaranmış olan Xalq Konqrəsi idi.

Bu Xalq Konqrəsi özünü Məclisi Müəssisan adlandırdı. Bu isə Azərbaycan xalqına şəfa gətirən və dərdlərinə məlhəm olacaq, arzularına yol açan bir mənbədir.

Xalq Məclisi Müəssisanı bir günəş kimi Azərbaycanın Təbriz şəhərində tülu etdi. Səttarxan və Bağırxanlar nəsli olan bu xalq öz qəhrəman və igid mücahid oğullarının mübarizələrindən ilham alıb mərd-mərdana meydana qədəm qoyaraq özünün milli muxtariyyətini və azadlığını almaqdan ötrü sözdən əmələ keçdilər.

Bu xalq təşəbbüsü ilə təşkil olunmuş Məclisi Müəssisan azadlıq yolunda şəhid olmuş mücahid və qəhrəman oğullarımızın əksləri ilə müzəyyən olub onların ruhları bütün mücahid nümayəndələrimizin başları üstündə pərvaz edirdi. Uzaq vilayətlərdən, şəhər və kəndlərdən gəlmiş nümayəndələrin də bir birlərinə hədsiz məhəbbət, əlaqə, birlik və üzlərində şadlıq görünürdü.

Tarixin şahidi olan bu Məclis Müəssisan Azərbaycan torpağı üstündə bir azadlıq bayrağı kimi dalğalanırdı.

Bu Məclisi Müəssisanda bir ruh, bir əqidə və möhkəm birlik görünürdü.

Nümayəndələrin hərarətli nitqləri milyonlarla Azərbaycan xalqının arzularını tərənnüm edir və dərdlərini istədiklərini aydın göstərirdi.

Bu Məclisi Müəssisan Azərbaycan xalqının milli iftixarıdır. Onun intixab etdiyi 39 nəfərdən ibarət Milli Heyətinə Azərbaycan xalqının müqəddəratı tapşırıldı.

Qoy bu Milli Heyətimiz, millətimizin heysiyyət, namusunu hifz edib xalqımızın azadlığının püştiybanı və onun apardığı mübarizəni işıqlandırsın.

Məclisi müəssisanın çıxardığı qərarlar bizim xalqımız üçün böyük səadət qapıları açıb, millətimizə azad yaşamaq üçün səadət yolları göstərəcəkdir.

Qoy bu çıxarılan qərarlar, bu müraciətnamə və deklarasionlar xalqımızın varlığı və diriliyini düşmənlərimizə bir daha göstərsin ki, Azərbaycan xalqı demokrasi, azadlıq və öz Milli Muxtariyyətini tələb edir və onu da öz qüdrəti ilə vücuda gətirir və gətirəcəkdir. Biz ümidvarıq ki, intixab olmuş Milli Heyıtimiz, Məclisi Müəssisanın ona tapşırdığı milli vəzifəni vicdan və namusla icra edəcəkdir.

**(“Azərbaycan” şumarə 62, 2 azər, noyabr 22)**

# AZƏRBAYCAN MILLI MƏCLISININ İNTIXABATI DƏSTURU

Bism illahil rəman ilrəhim

Bütün Azərbaycan xalqının mümsili və iradəsinin nümayəndəsi olan 30 aban 1324 Təbriz səhərində Şir u Xorşid salonunda təşkil olunmuş böyük Müəssislər Məclisinin qərarına görə bu gün azər ayının ikisində başlanıb həmin ayın dördünə qədər bütün Azərbaycanda Məclisi Milli intixabatının elanlarının intişarına dəstur verilir.

İntixabat elanının intişarından üç gün sonra bütün Azərbaycanda əxzi ara başlanmalı və on iki azərdə hər yerdə intixabat xatəmə tapmalıdır.

**Azərbaycan Milli Heyəti Rəisi- Əli Şəbüstəri**

**Nömrə 25- tarix 24/o/1**

# MILLI MƏCLIS İNTIXABATINI HANSI ŞÜAR İLƏ İCRA ETMƏLIYIK ?

Azərbaycan xalqının idarəsini təmsil edən bu böyük Millət Konqrəsi özünü Müəssislər Məclisi adlandırıb, tezliklə xalqımızın daxili muxtariyyətini təmın etmək üçün Milli Məclis intixabatının dəsturunu verdi.

Bu Milli Məclis Azərbaycan xalqının sərniviştini müəyyən etmək, ona tərəqqi və səadət yollarını açmaq üçün əsasi bir vasitə dir.

Biz arzu edirik bu milli vəzifəni ifa etmək üçün bütün millət təbəqə, sinif nəzərdə tutmayıb seçkilərdə iştirak etsin. Biz Firqəmizin namizədlərini keçirtməyi fəqət sadə nitq və yazı vasitəsilə təbliğ edəcək. ayrı dəstə və şəxslərdən geniş dairədə seçkilərdə şirkət etməsinə imkan verəcəyik.

Bunu inkar etmək olmaz ki, Azərbaycan kəndlisi Demokrat Firqəsini öz rəhbər və nacisi hesab edib, onun verdiyi namizədləri intixab edəcək və onun vicdani və imanı istədiyi kimi müqəddəratını Firqə rəhbərlərinə tapşırmaqdan çəkinməyəcəkdir. Bununla belə biz bütün Firqə üzvlərindən istər mərkəzdə istərsə şəhristanlarda, ümum xalqı iştirak etməyə təbliğ etmələrini tələb edirik.

Bu milli bir işdir. Burada ikrah və mümaniət böyük bir xəyanət dir. Qoy hər kəs istəyir özünü namizəd göstərsin və hər kəs artıq rəy almağa müvəffəq olursa vəkil seçilsin.

Məxsusən elanlarda namizədlərin adlarını yazıb intişar vermək, əmniyyəti xələldar etməyib, xalqı vəhşətə salmadan təşkil tapan yığıncaqlar, mitinqlər və məclislər mütləqən azad olmalı və hər kəs istədiyi şəxsi namizəd edib onu xalqa tanıtmalı dir.

Məclis Müəssisanımız, Məclis Şurayi Millinin intixabat nizamnaməsində olan nəvaqisi nəzərdə tutub daxili milli məclisimizin demokratik əsaslar üstündə qurulmasını təmin etmək qəsdi ilə intixabat hövzələrinin sayını artırıb, bəxşlərə imkan vermişdir ki, özləri müstəqimən istədikləri əşxası intixab edə bilsinlər. Şəhərlərdə isə təqribən kəndin dəxaləti olmadan intixabat işi müstəqil surətdə aparılmalı dir.

Bu Məclis Şurayi Milli intixabatını təğyir verib onu daha demokratik bir üsul üstündə qurmaq üçün qiymətli bir azmayış dir.

Bundan əlavə daxili nizamnaməmiz, intixabat gününü azaldıb əvəzində sandıqların miqdarını geniş bir dairə də artırmışdır.

Bu vasitə ilə təhdid, tətmi və sair xilaf qanun hərəkətlərin qabağı ciddi surətdə alınacaq dir.

Hələ nizamnamə mocibincə təyin olunan 5 gün rəy vermək müddəti də hər dövrədə bir gün azalıb nəhayət bütün demokratik ölkələrdə olduğu kimi bütün Azərbaycanda müəyyən bir günlərdə xalq öz rəyini verməyə müvəffəq olacaqdır.

Birdə bizim böyük konqrəmiz ən böyük bir işə iqdam edib ana və bacılarımızın da intixabatda şirkətini caiz görmüşdür. Bu isə Rizaşahın hoqqabazlıq ilə xanımlarımıza baziçə, ərusək və ləhv - u -ləəb vasitəsi üçün verdiyi zahiri azadlığı rədd edib nəslimizi tərbiyət edən ana və bacılarımızın insan məqamına yetişməsinə və onların böyük və müqəddəs saydığımız ana adını daşımağa layiq olmasına imkan verən böyük bir vasitə dir.

Əlbəttə nizamnaməmiz sabiqəsiz olduğu üçün nöqsansız deyildir. Bu nöqsanlar azmayişdən sonra rəf olub get - gedə düzgün və xalqımızın ehtiyacına və əxlaqına mütənasib bir hala gələcəkdir.

Bunların hamısı ilə bərabər xalqımız və bütün dünya bilməli dir ki, biz heçvəcə ilə iranın təcziyəsi və ya Azərbaycanın irandan ayrılmasına yol verməк istəmirik. Biz məşrutə və İran baydağına sadiq qalıb İran torpağının təmamiyyətini hifz etməyə var qüvvəmiz ilə çalışacayıq.

Xalq düşmənlərinin, daxili və xarici irticai ünsürlərin fitnə- əngiz təbliğatına baxmayıb, bu günə qədər çalışıb öz məramımızı sülh və aramiş yolu ilə təqib etmişik. Bundan sonra da bu siyasəti var qüvvəmizlə təqib edəcəyik. Əgər dövlət məmurlarının içərisində mihənpərəst və aqil adamlar olub, əmniyyə təşkilatının kəndlərdə yandırdığı ataş və yaratdığı cəhənnəmin qabağını almaq yolunda ciddi qədəm götürülsə idi, hətta kəndlərdə iş bu yerə çıxmaz idi.

Əgər bir gün həqiqi bir məhkəmə vücuda gələrsə oraya təqdim etmək üçün bizim kənədlərdə vücuda gələn hadisələrin həqiqi səbəblərini sübut etmək üçün insanları heyrətə salacaq qədər əsnad və mədarikimiz vardır.

Hər halda Firqə rəhbərləri və ümum Azərbaycan xalqı özünün milli vəzifəsini sədaqətlə icra edib Məclis Milli intixabatını vicdan və iman və sədaqətlə yerinə yetirməli dirlər.

Məxsusən Firqə işçilərinə tövsiyə edirik intixabat işində doğruluq və sədaqət ilə rəftar etsinlər. Təqəllüb, hiylə, təhdid və tətmi əsasən xəyanət bəlkə cinayətdir.

Milli Məclis bizim namusumuz, anamızdır. Ona pis göz ilə baxıb təqəllüb və neyrəng ilə onun damənin ləkədar etməyin.

Qoy sizin istədiyiz şəxs intixab olmasın, onun zərəri yoxdur. Amma çalışın iş düzgün və sədaqətlə əncam tapsın. Xalqın əl qolunu bağlamayın ! İnanın sizin yoluz düz və hədəfiniz müqəddəsdir. İşi ürək və təmiz əllər ilə əncam vermək lazımdır.

Qoy xalq sizin sədaqətinizi görüb həqiqi millət xadimi olduğuzu yəqin etsin İnanın müvəffəqiyyət doğruluqdadır.

İntixabat şüarlarımızı unutmayın.

Yaşasın Milli Muxtariyyətimiz !

Yaşasın Milli Dil və Milli Fərhngimiz !

Yaşasın Demokratik İranın təmamiyyət və istiqlalı !

Biz iranın mərzlərinin içərisində bütün dünyanın mütərəqqi millətləri kimi öz evimizin ağası olmaq, öz Milli Demokrasi üsulumuz ilə idarə etmək istəyirik.

İranın səadət və iftixaratına həmişə olduğumuz kimi bundan sonra da özümüzü şərik hesab edəcəyik.

**Mir Cəfər Pişəvəri**

**(« Azərbaycan» şümarə 63 azər 5 noyabr 26)**

# AZƏRBAYCAN MƏCLIS - MÜƏSSISAN MILLISININ QƏRARLARI

Seşənbə günü, aban ayının 29- da Azərbaycan xəlqinin böyük Milli Konqrəsi, ağayi Pişəvərinin ümumi övza' həqqində verdiyi mə'lumatı müzakirə etdikdən sonra aşağıdakı qərarları ittifaq ara ilə qəbul edir.

1- Böyük demokratik millətlərin fədakarlığı nəticəsində diktatorluq, zurguluq və nəjad üstünlüiü təbliğ edən qüvvələrin əbədi olaraq yıxıldığı və bütün millətlərə özünü idarə etmək, öz müqəddəratına hakim olmaq imkanı vicuda gəldiyi halda, Azərbaycan xəlqi təmam mə'nası ilə bir millət kimi ayağa qalxıb öz təbiyi və qanuni həqinə, öz gücü ilə malik olmaq istəyir.

2- Xəlqimiz sui- təfahum və töhmətlərə yol verməmək üçün öz müqəddəratını ələ aldığı halda, ölkəmizin irandan ayrilmamağını e'lan edir və bütün İran xəlqləri ilə qardaşlığını hifz etməyi özünə vəzifə bilir.

3- Milli Konqrə azadlıq dünşmənlərinin iftira və töhmətlərinin indidən qabağını almaq üçün açıq və aydın surətdə azərbaycanın irandan ayrilması və ya onun ayri məmləkətə ilhaq intışaratını ciddi surətdə təkzib edir.

4- Azərbaycan xəlqi məşrutə üsuluna sadiq qalıb, qanun- əsasının demokratik əsllərini icra etməyə çalışacaqdır.

5- Ümumi məşrutə qanunlarını muraat etməklə bərabər Azərbaycan xəlqi özünün daxili işlərini idarə və milli muxtariyatı təmin etmək üçün qanun əsasıdan istifadə edib, Əncümən- Əyaləti təşkilatını bir qədər genişləndirib, ona Məclis Milli adı verir. İran daxilində iranın təmamiyət və istiqlalını heçvəchlə xələldar etmədən, özünün Milli Hökümətini vicuda gətirir.

6- Böyük xəlq mitinqlərinin qərarına görə Xəlq Konqrəsi Azərbaycan Demokrat Firqəsinin rəhbərliyi ilə, Məclis Milli və Vilayət Əncümənləri və Məclis- Şovrəyi Milli intxabatının fövriyətlə başlanmasını qərara alır.

7- Hər bir millət öz müqəddəratına hakim olması o vəqt imkanpəzir ola bilər ki, o millət yaşadığı ölkəni idarəetmək üçün əsası qanunlara malik olabılsın. Biz çox yaxşı bilirik ki, tehranda təmərküz tapmış mürtəce'lər xəlqimizə bu ixtiyarı verməyəcəklər. Bəlkə özlərinin xain iradələrini xəlqə və məmləkətə təhəmil etmək üçün bizim qabağımıza əngəllər də çıxartmaqdan göz yummaq istəməyəcəklər. Ona görə böyük Konqrə xəlqimiməzin arzu və tələbatını əməli etmək üçün ciddi qədəm götürüb, özünü Müəssislər Məclısı e'lan edir. Milli muxtariyətmizi möhkəm payə üstündə qurmaq üçün Məclis Milli vicuda gətirir.

8- Təbii dir ki siyasi, milli, iqtisadi və mədəni muxtariyətə malik olmadan milli muxtariyət boş sözdən ibarət olub, qalar. Bu nüqteyi nəzərdən Məclis- Müəsisan, Milli bir hökümət yaranmasını və müstəqimən daxili işlərimizin bu hökümət vasitəsi ilə idarə edilməsini təxirsiz bir surətdə lazim görür.

9- Məclis- Milli intixabatı qurtarıb, Milli Hökümət rəsmiyət tapan günədək, Konqrə öz nümayəndələrindən 39 nəfərlik Heyəti- Milli nami ilə bir heyət intixab edir və qəbul etdiyi qərarların icrasını bu müvəqqəti heyətə tapşırır.

10- Bu heyət, Məclis Milli təşkil tapan günə qədər Azərbaycan xəlqinin milli işlərini idarə edəcək, Məclis Milli təşkil olan kimi onun vəzifəsi xatimə tapmış olacaqdır.

11- Mərkəzdə və şəhristanlarda başlanan intixabatı təmin etmək və Heyət- Millinin əmniyətini hifz etmək üçün Konqrəye- Milli hər növ' tədbir görməyə geniş ixtiyar verilir.

12- Milli Konqrə, dövlət idarələrinin başında duran məmurlardan Heyəte- Milliyə tabe` olub, onun göstərişlərinə və nəzarətinə itaət etməyi tələb edir və bunun xılafına rəftar edib, özünü hakim- mütləq göstərmək istəyənlərin tezliklə dövlət idarələrindən ixracını lazim görür.

13- Milli Konqrə bütün dövləti mədrəsələrdə Azərbaycan dilinin, məcburi surətdə tədris edilməsini Milli Heyətə tapşırır və bu milli vəzifəni əncam verməyə mane' olanları Azərbaycan xəlqinin düşməni hesab edib, onların irticai fikirər və xainanə hərəkətlərinə mane' olmaq üçün, ciddi tədbirlər görənsün.

14- Konqrə polis, jandarm və arteş təşkilatının tərkibbini pozmaq fikirində dəyildir. Onlar öz rəsmi libas və dərəcələrini hifz və vəzifələrini əncam verməkde davam edirlər. Lakin əgər onları idarə edənlərdən, bizim milli muxtariyətimizin əleyhinə bir iş baş versə, Milli Heyətə ixtiyar verilir ki, onların xəyanətlərinin qabağını almaq üçün ciddi tədbirlər görsün.

# YENƏ INTIXABAT BARƏSINDƏ

Bü gün şəhərimizdə Heyət Milli tərəfindən elan olunan Əncüməni Milli intixabatı başlanır. Xalqımız üçün nagəhani və bisabiqə olan bu iş olsun ki, beş gün hazırlıq müddəti az imiş. Bununla belə camaat arasında böyük hərəkət müşahidə olunur. Keçən il məclis intixabatında Təbriz şəhəri on min rəy vermişdi. Bunun yarıdan yuxarısı azadixah namizədlərə verilmişdi. Məsələn Firqəmizin rəisi ağayi Pişəvəri birinci nümayəndə intixab olunub beş mindən ziyadə səs almışdı. Ondan sonra ayrı azadixahlar rədif ilə əksəriyyət qazanməşlar.

Birləşmiş azadixahlar ilə münfərid nümayəndələr arasında əcib bir təfavut nəzərə çarpmaqda idi. ən məşhur və nüfuzlu nümayəndələr mindən ziyadə rəy qazana bilməmişlərdi. Bundan əlavə şəhər əncüməni intixabatı da göstərdi ki, Təbriz şəhəri azadixahlar ocağı və qalasıdır. Bu intixabatda azadixahlar istəyən namizədlərdən intixab olmayanı olmamışdı.

Heyəti Milli intixabatının nizamnaməsi mocibincə şəhər müstəqil surətdə rəy verəcək, kəndlərin nümayəndələri isə kəndə məxsus olub şəhərə qarışmadan intixab olacaqdır. Bu səbəbə indidən şəhərdə azadixahların müvəffəqiyyətini pi.guluq etmək iğraq olmaz.

Bu il, ehtimal şəhər hovzəsindən daha artıq rəy toplansın. Ondan ötrü ki, xalqın demokrat Firqəsinə iman və əlaqəsi fövqəladə qüvvətlidir.

Keçmiş məclis Şurayi Milli intixabatında yüzdən ziyadə namizəd var idi. Və əxzi rəy iyirmi gün davam etdi. Indi isə Tehrandan adət mocibincə Təbrizə intixab olmaq üçün gələnlərin ümidi kəsildiyinə görə davtələblərin sayı məhduddur. əxz rəy beş gündən artıq olmayacaq, bununla belə bu seçgidə on mindən ziyadə rəy toplanması ehtimalı qəvidir.

Firqəmizin nüfuzu o qədər çox və intizamı o qədər möhkəmdir ki, bu intixabatda hər kəsi namizəd göstərsə xalq tərəfindən intixab oluna bilər. Bununla belə Firqə öz prinsiplərinə sadiq qalıb müxtəlif təbəqələrə mənsub olan mütənəffiz, bitərəf şəxslərin intixab olmasına imkan verəcəkdir.

Bu demokratik Təbriz, hətta şəhristanlarda belə nəzəri cəlb etməkdə dir. Bununla Demokrat Firqəsi milli muxtariyyəti xalq üçün və həqiqi xalq hakimiyyəti vücuda gətirmək üçün təhsil etməyə çalışdığını isbat edir.

Bütün Firqə üzvləri gərək mərkəzi komitəmizin götürdüyü bu xətt- hərəkəti ciddi surətdə təqib edib onun gösterdiyi namizədləri intixab etmək yolunda ciddi fədakarlıq göstərsinlər. Hər bir Demokrat azı beş

nəfər bitərəf hazırlayıb intixabatda onlara şirkət verməlidir. Güc birlikdə, birlik isə fəqət təşkilat baydağı altındadır.

**Mir Cəfr Pişəvəri**

**("Azərbaycan" şümarə 64, azər 6, noyabr 27)**

# TEHRAN BU MÜAMILƏDƏ QAZANA BILMƏZ

Keçən şümarəmizdə Şimşək kargərlərinin ərizəsini dərc etdik. Bu ərizədə Tehran hökumətinin Azərbaycanlılar ilə etdiyi vəhşiyanə rəftardan fəciy bir pərdə təsvir edilmiş ümum İran sənayeni və dəmir yollarını vücuda gətirən Azərbaycan işçilərindən bir dəstə haman ərizə vasitəsilə öz ana yurduna müraciət edib öz doğma qardaşlarından kömək istəmişlərədi.

Kömür mədənlərinin qaranlıq və məsmum edici yeraltı dalanlarından qan tər tökən bu fəhlələri Azərbaycanlı olmaq və Azərbaycan dilində danışmaq üçün Tehran dövlətinin məmurları döyüb, əzib, öldürüb, zindanlara doldurmaq ilə xalqımızdan intiqam çəkmək istəyir.

Bunun nəziri Tehranın xiyabanlarında və qəhvəxanlarında da nəzəri cəlb etməkdə dir.. Polis və ərkan- hərb tərəfindən təhrik və təchiz edilmiş çaqukeşlər və baş kəsənlər indi Tehranın küçələrində Azərbaycanlı şikarına çıxır, silahsız və zəhmətkeş həmvətənlərimizin qanını axıtmaqdan zövq alırlar.

İnkar etmək olmaz ki, Azərbaycanlı əlli il Farsı danışsa yenə də milli ləhcəsini dəyişə bilməz. Məsələn doktor Rizazadə Şəfəq qırx il Farslar ilə müaşirət edib ali mədrəsələrdə Farsı ədəbiyyatı müəllimi olduğu halda, ağzını açan kimi Azərbaycanlı olduğu aşkara çıxar. Bu cəhətdən heç bir Azərbaycanlı öz milliyyət və dilini gizlətməyə qadir ola bilməz. Taza fələkə baş əymək istəməyib, öz milli qüruruna əlaqəmənd olan Azərbaycanlı heç vaxt dil və millətini inkar etməz. Ona görə pıçaq çəkənlər üçün onları tapmaq və onların mərdana xasiyyətlərindən namərdana istifadə etmək müşkül deyildir.

Tehrandan gələn mötəmid adamlardan biri deyirdi ki, artıq orada Azərbaycanlılar üçün yaşamaq qeyri mümkün bir hala gəlmişdir. Hətta Kor Mir Cavad ilə Rizazadəyə də eşitdiyimizə görə Fars pıçaqçıları padaş olaraq dadlı kötək vurub gözlərinin altını qaraltmışlar.

Biz millətimizə xəyanət edib onu Seyid Ziya kimi alçaqlara satanları özümüz tənbeh etməyi tərcih veririk. Onların Azərbaycanlı naminə biganələr tərəfindən təhqir olması bizim xoşumuza gələn işlərdən deyildir.

Amma kargər dəstələri və bitərəf Azərbaycanlılar, məxsusən milli qürur və milli heysiyyəti hifz etmək istəyən şərafətli və mərd həmvətənlərimizin hüququndan müdafiə etməkdə müsamihə eləmək bizim əqidəmizcə xəyanətdir.

Əgər Tehran bu xainanə hərəkətə tezliklə axır qoymazsa, biz də haman tədbir ilə cavab verməyə məcbur olacağız.

Əgər Tehranda Azərbaycan Demokrat Firqəsinin tərəfdarlığı və yaxud Azərbaycanlılıq cürəm isə, Azərbaycanda onu cürəm hesab edənlər cani və xain hesab olunub mücazat ediləcəkdir. İş belə gedərsə biz də xalqımızın əlində olan vasitələrdən istifadə edib zindana zindan ilə cavab verərik. Tehran isə bu müamilədən mənfəət apara bilməz.

**Mir Cəfər Pişəvəri**

**(« Azərbaycan» şümarə 65 azər 7 noyabr 28 )**

# İSTEMARÇILARIN TƏHDIDI BIZI TUTDUĞUMUZ HAQQ YOLDAN QAYTARA BILMƏZ. YA ÖLÜM, YA AZADLIQ, ÜÇÜNCÜ YOL YOXDUR

Biz heç bir qovm və heç bir millət və heç bir camaata düşmən deyilik. Özümüzə rəva gördüyümüz yaşamaq və tərəqqi etmək vəsilələrini özgələr üçün də rəva görüb bu günədək kimsənin tərəqqi və təalisinə müxalifət etməmişik. Hətta, Tehran irticai hökumətinin azadlığımız əleyhinə işlətməkdə olduğu xainanə tədbirləri də Fars millətinin hesabına yazmaq istəmirik. Milli əsarət və qaba istibdad üsulunun məzəsini anladığımıza görə əsir millətlərə ürəyimiz yanıb, onların əsarət və isteemar boyunduruğu altından xilas olmaqların səmimi- qəlbdən arzu etdiyimiz halda, zülfi- yarə toxunmaq qorxusundan onların azadlıq hərəkatı haqqında nəhayət dərəcə ehtiyat ilə danışmağa adət etmişik.

Asiya, Avstraliya və Afrika qitələrində isteemar halında yaşayan bədbəxt və biçarə insanların fəlakətli halı bizi mutəəsir edir. Bir ovuc qan içən mühafizəkarların hiss və təməinin qurbanı olan bəşər sızıltısı bizi ağladır. Amma nə etməli ki, məlun diploması mülahizələr bizi susdurub ruhumuzdan qopan etiraz səslərimizi dodaqlarımızda qurudub, fəzaya çıxmağa imkan vermir.

Bizim əsir Hindustan, biçarə Ərəb dünyası, məzlum Yunan camaatı, vaxtı ilə böyük mədəniyyətə malik olan yazıq Misir əhalisi barəsində deməli sözlərimiz çoxdur. Nə etməli ki, qonşuluq mülahizəsi ilə vicdanımızın verdiyi əzaba mütəhəmmil olub səsimizi çıxarmırıq. Farsların gözəl bir məsəli vardır: (Əgər be bedehkar çizi nəguyi, bestankar mişəvəd (1). Bu tamamilə doğrudur. Biz dünyanı əsarət altında saxlayan istismarçıların qonşuluğunu mülahizə edib sakit olduğumuzdan onlar sui- istifadə edib, bizim sadə və təbii haqqımızı paymal etmək üçün insanları təhqir edən və ədəbli adamlara yaraşmayan vasitələrə əl atmaqdadırlar.

Biz Hindustanı, Ərəb dünyasını, Misri, biləxərə öz vətənimizin əsas sərvətini təşkil edən cənub neft mədənlərini azad etmək şüarı ilə işə başlamışıq, isteemarçı və xalqların qanlarını soran mühafizəkar dövlətlərin daxili və xüsusi işləri ilə də işimiz yoxdur. Sadə bir surətdə öz evimizi istədiyimiz kimi idarə etmək istəyirik. Buna isə isteemar dünyası təhəmmül etmək istəmir.

Nə etməli, millətimiz qərinələr boyu təhəmmül etdiyi əsarət və hərc -mərcdən yorulmuşdur. İndi o da istəyir bütün millətlər kimi, öz səadətini təmin etmək imkanına malik olsun. Bu arzu heç bir millətin düşmənliyi üzərində əsaslanmamışdır. Biz min dəfə təkrar etmişik ki, istədiklərimiz məmləkətimizin sərhəddi daxilində məhdud olmuşdur. İrandan heç vəchlə ayrılmaq istəmirik və məşrutə üsuluna da səmimi- qəlbdən sədaqətimiz vardır. Bununla belə isteemar heykəlləri dünyanın o başından bizə qan tutmuş hərbi gözlərini bərəldib deyir: Yox, siz də İranın bütün əhalisi kimi əsarət halında qalmalısız. Bizim

müstəəmərələrimizin hifz və hərasəti bunu tələb edir. Bizim səltənət və qüdrətimiz millətlərin göz yaşları üzərində əsaslanmışdır. Bunu nəzərə almayan millət məhv və nabud olmağa məhkumdur.

Əmma biz öz növbəmizdə yaşamaq istədiyimiz üçün isteemarçıların təhdidinə qulaq asmayıb, azadlığımızın təmini üçün mübarizəni axıra qədər davam etdirməyə and içmişik.

**«Azərbaycan» şümarə 66, 25 noyabr. 8 azər**
1-Tərcüməsi: Borcluya söz deməsən o, tələbkar olar.

# AZƏRBAYCAN MƏCLISI MILLI İNTIXABATI MÜNASIBƏTI İLƏ MILLI HEYƏTIN BƏYANIYYƏSI

Azərbaycan Məclis Müəssisan Millisi axır cələsəsində otuz doqquz nəfərdən mürəkkəb bir heyət (Azərbaycan Heyəti Millisi adi ilə) intixab edib azərbaycan xalqının əsasi arzularının icrasını bu heyətə tapışırdı.

Heyəti Milli işə başlayan saatdan Məclisi Müəssisani Millinin dəsturatını ciddi və dəqiq bir surətdə icra etmək üçün fəaliyyətə keçib və sabit qədəmlər götürməyə çalışdı.

Heyəti Milli məmurdur Azərbaycanın Milli Muxtariyyətini təmin etmək üçün İranın tamamiyyət və istiqlalını riayət edərək Azərbaycanda Milli Məclis qurub və vilayət əncümənlərini təşkil edib Azərbaycanın küliyyə işlərində nəzarət və bu təşkilatın sayəsində Azərbaycan xalqının şüuni siyasi, ictimai, iqtisadi və maarifini millətin arzusuna mütənasib bir surətdə tərəqqi vermək üçün lazımı tədbirlər görsün. Heyəti Milli intixabatın müqəddəmatını fərahəm edib, aramış və əmniyyətin bərqərarlığı üçün lazım olan tədbirləri alıb öz şədid əlaqəsini əmniyyətin hifzinə ibraz etmişdir.

Heyəti Milli ümumi səhiy vəziyyəti nəzərə alaraq onun təmimi və maarifin tərəqqisi və ticarətin tövsiyəsi və kəndli ilə maliklərin arasında olan ixtilafatı həll və işsizlərə iş tapmaq üçün əsaslı bir proqram təhiyyə edibdir və ümidvardır ki, Məclisi Milli nümayəndələrinin movridi təvəccöhü olub onların icrası ilə xalqımızın həyatında müxtəlif ictimai və iqtisadi təbəddülat məşhud olsun və səadət qapıları bu fədakar millətin üzünə açılsın. Bu xüsusda intizarımız var ki, Məclisi Milli nümayəndələri geniş qədəmlər götürsünlər.

Azərbaycanın Milli Heyəti ayrı bir əllər vəsiləsi ilə Azərbaycan millətinə hərc-mərc icad etmək təşəbbüsündə olan nəqşələr ilə mübarizə və müqabilə etməyin lazım olduğunu təzəkkür vermiş və daxili mübarizə və dava çıxartmaq qəsdi ilə aparılan mərmuz siyasətlərə işarə etmişdir.

Azərbaycanın Milli Heyəti bilir ki, qoşunun islahtələb sərbazları və əfsərləri və qeyrətli jandarm və şərafətli pasbanlar heç vaxt azadlığın düşmənlərinin və Azərbaycanın məhəlli muxtariyyəti (ki, İranın tamamiyyət və istiqlal dairəsində təmin olunmalıdır) müxaliflərinə aldanmayıb özlərini Azərbaycan xalqının səmimi qardaşları bilib və irticai ünsürlərin əllərində alət olmayacaqdır.

Azərbaycanın Milli Heyətini öz mühüm vəzaifini icra etmək üçün xalqımızın hər təbəqədən səmimi hüsn- niyyət və himayətə müstəzhərdir.

Intizarımız var Azərbaycanın qəyur və azaditələb xalqı bu müqəddəs məram yolunda yəni Azərbaycanın muxtariyyəti və İranın tamamiyyət və istiqlalını təzmin etməkdə fədakarlıq və mücahidətdən dəriğ etməyib və Məclisi Milli nümayəndələrinin intixabında çox diqqət edərək azadixah, millətdust və vətənpərəst əşxas intixab etsinlər.

**Azərbaycanın Heyəti Milli Rəisi- Hacı Mirzə Əli Şəbüstəri**

**("Azərbaycan" şümarə 66, azər 8, noyabr 29)**

# XALQ BIZIMLƏDIR

Məclis Milli intixabatımız xalq tərəfindən çox ciddi surətdə istiqbal olundu. İkinci gündə şəhərimizdə yeddi mindən ziyadə rəy verildi. Vaxtın azlığı və hazırlıq aparılmadığı nəzərdə tutulursa sabit olar ki, bu fövqəladə bir işdir ki, fəqət böyük inqilablarda ittifaq düşə bilər.

Biz inqilab fikrində deyilik. Leykən xalqımızın ruhunda böyük inqilab vücuda gəlmişdir. Xalq çox tez bir zamanda özünə yol açıb hakimiyyət qazanmaq istəyir.

Keçən dövrə Məclisi Şurayi Milli intixabatına dövlət məmurları vasitəsilə yüz min tümən pul xərc edilmişdi. Münfərid şəxslər və cəmiyyətlər tərəfindən sərf olunan məxaric yarım milyona baliğ ola bilərdi. Fəqət hacı Zeynəlabdin Rəhimzadeyi Xoyi eşitdiyimizə görə yüz minədək xərc etmişdi. Bizim milli intixabatımız isə ovraq və elanati nəzərə almasaq xalq tərəfindən verilən bir iki min tüməndən çox olmayan ianə vasitəsi ilə əncam tapacaqdır. Şayəd bu işdə uzaq başı min beş yüz tüməndən yuxarı məsrəf olunmasın. Deməк bu böyük iş məccani olaraq xalqın ehsasatı və arzusu ilə düzəlir.

Indi şəhərimizdə bu iş ilə daimi surətdə məşğul olanların sayı təqribən yüz əlli nəfərə baliğdir. Bunların hamısı məccani olaraq öz milli vəzifələrini əncam verir. Yeri gəldikdə öz ciblərindən də xərc etməkdən çəkinmirlər.

Bu göstərir ki xalq arasında şədid milli təəssüb vücuda gəlmişdir. Tehran radiosunun hiyləgər iddiası kimi yox, bəlkə xalqımız üçün ürəkdən Azərbaycan adından əziz bir kələmə yoxdur. "Azərbaycan Azərbaycanlılarındır!" şüarı xalqa şədid bir surətdə təkan vermişdir.

Xalq öz milli iradəsini mərkəzləşdirmək üçün saatlar ilə intixabat sandıqlarının qabağında növbəyə durur və tərifəni aldıqdan sonra özünü səadətmənd hesab edib onu xoşbəxtlik tillisimi kimi qoynuna qoyub birinci Məclis Milli intixabatında şirkət etmək iftixarını övladı üçün yadigar qoymaq məqsədi ilə onu saxlamaq və gələcək nəslə yadigar qoymaq istəyir. Firqəmizin qüdrət mənbəyi isə bu pak və müqəddəs ehsasat dir. Bu ehsasat, bu niyyət və bu fədakarlıq ilə qazanılan haqqı heç bir güc paymal edə bilməz. Xalqın iradəsi möhkəm qayalar və polad dağlardan möhkəmdir.

Bu iradə Azərbaycanda Milli Müxtariyyət yaratmağa qərar vermişdir. Bu hər qiymətə olur olsun yaradılacaqdır.

**Mir Cəfər Pişəvəri**

**("Azərbaycan" şümarə 67, azər 9, noyabr 30)**

# AZƏRBAYCANLI HƏMVƏTƏNLƏR

Necə ki, bilirsiz mükərrər öz şədid əlaqəmizi Azərbaycanın hər yerində əmniyyətin hifzinə demiş və əmniyyəti pozmaq xalqı iztiraba salmaq üçün alınan tədbirlərin qabağını almışıq. Məxsusən Təbriz xalqına mütəzəkkir olmuşuq ki, əmniyyət düşmənlərinə və onların apardıqları mərmuz siyasətlərə aldanmasın və müztərib olmasınlar. Bu məsnui xəbərləri o kəsif və irticai əllər ki, xalqın vəhşətindən su istifadə edib onları soymaq xəyalındadırlar intişar verirlər. Azərbaycanın Milli Heyəti lüzumən elam edir: bu mövqedə ki, Azərbaycan xalqı öz səmimi əlaqəsin əmniyyətin hifzinə göstərməlidir, əmniyyətin ziddinə olan təşəbbüslərə əmələn hüsn-niyyət ilə müqabilə və ibraz etsin və bu elamiyyənin məfaddını nəzərə alıb bilsin ki, Azərbaycanın Milli Heyəti Azərbaycanın hər yerində hərc-mərc və ixtilal tolid etmək istəyənləri hər ism və ünvanı ilə olursa olsun və iztirab icad edib şəxsi və maddi istifadələr üçün icadı vəhşət eləyənləri Azərbaycanın və İranın tamamiyyət və istiqlalı düşmənləri kimi tanıyıb onların bu xəyanətkaranə təşəbbüslərinə mümaniət edəcəkdir.

**Azərbaycanın Heyəti Milli Rəisi- Hacı Mirzə Əli Şəbüstəri**

**("Azərbaycan" şumarə 66, azər 9, noyabr 30)**

# ON MIN NƏFƏRLIK MITINQ

Azər ayının 8 də axşam saat 4 də millət bağında Azərbaycan Demokrat Firqəsi və İttihadiyeyi Kargəran tərəfindən təşkil olunmuş mitinqi ağayi Məhəmməd Biriya açdı.

Ağayi Pişəvəriyə söz verildi. Ağayi Pişəvəri Azərbaycandakı fəlakətdən bəhs edib onun illət və müsəbbiblərini müfəssəl surətdə şərh verdikdən sonra fəqət və fəqət millətin qurtuluşun və Azərbaycan ölkəsinin səadətin Demokrat Firqəsinin təşkilində gördüyünü bəyan etdi.

Natiq Tehran hökumətinin Azərbaycana laqeyd baxdığından bəhs edib nitqin axırında söylədi: Hər millət öz müqəddəratını özü təyin etdiyi kimi Azərbaycan xalqı da gərək öz sərneviştini özü müəyyən etsin.

Ağayi Pişəvəri intixab mövzüundan danəşəb cmaıaty rəy verməyə dəvət etdi və bu tarixi rəyin böyük əhəmiyyətə malik olacağın bildirdi.

Natiqin sözləri böyük alqışlarla istiqbal olundu.

Sonra ağayi İlhamı xülasə surətdə Azərbaycanın gələcəyinə və Demokrat Firqəsinin fəaliyyətinə race söhbət etdi.

Mitinqin axırında Azərbaycan Demokrat Firqəsi tərəfindən təyin olunmuş kandidlərin adları oxundu. Mitinq böyük ruh yüksəkliyi ilə xatəmə tapdı.

**("Azərbaycan", şumarə 67, azər 9, noyabr 30)**

# BÖYÜK İŞDƏN KIÇIK İSTIFADƏ EDƏNLƏRƏ NICAT YOXDUR

Firqəmiz xalqın səadətini təmin etmək yolunda böyük bir qədəm götürmüşdür. Bu qədəmin iki böyük faydası vardır. əvvəli xalqımız öz iradəsi ilə qazandığı haqq və ixtiyardan istifadə edib bekarlığa axır qoymaq asayiş və əmniyyəti təmin etmək, şəhərləri xarabazar halından çıxarmaq, kəndlərdə jandarmların yandırdıqları zülm atəşini söndürmək və bunlar kimi saysız- hesabsız ani və fövri dərdlərə çarə tapmaq. İkinci tərəqqi və təali qapılarını millətin üzünə açıb məmləkətin mütərəqqi və mədəni bir məmləkət olmaq şəraitini təkamül yolu ilə vücuda gətirməkdir.

Bu böyük işlər üçündür ki, Firqəmiz yaradılıb, onun qəhrəman Fədailəri gecə- gündüz yuxu və istirahəti özlərinə haram edib şəhərlərdə və kəndlərdə can və dil ilə xalqı təşkil edib öz milli vəzifəsini anlatmağa çalışırlar.

Işlərimiz ilə yaxından aşina olanlar cavanlarımızın fəaliyyət, intizam və fədakarlığından heyrət etməkdən özlərini saxlamağa qadir ola bilmirlər.

Bütün ölkə ayağa qalxıb fəaliyyətə başlamışdır. Bu fəaliyyət olduqca münəzzəm, olduqca ciddi, olduqca fədakaranə dir. Hər kəs öz vəzifəsini daha tez əncam vermək istir. Hər kəs öz firqəsinin tapşırığını ya arzusunu əncam vermək yolunda daha artıq pul xərcləmək, daha artıq şəhamət büruzə verməyə can atır.

Iş işi gətirir. Hər bir müvəffəqiyyət ikinci müvəffəqiyyətə zəminə yaradır. Bu da xalqın ümidini artırıb onu işə çəkir və onun qüdrətini təşkilatın ətrafında təmərküz verir.

London radiosu keçən gecələrin birində guya demişdir ki, Azərbaycan Milli Məclisi intixabatında Fəqət Demokratlar şirkət ediblər. Bu həm doğru və həm yalandır. Ondan ötrü ki, bir az məədud müğriz və avam iddədən başqa Azərbaycan  xalqı ümumiyyətlə demokratdır. əgər onlar Firqəyə yazılmağa müvəffəq olmamışlarsa da özlərini Firqədən ayrı bilmirlər. Indi bizdə məxsusən kəndlər və qəsəbələrdə böyük bir təəssüb vücuda gəlmişdir. O təəssübü şərq əhalisinin ruhiyyəsinə dəqiq bir surətdə aşina olmayan Avropalılar üçün anlamaq müşküldür. Bizim xalqımızda bir elit düşüncəsi ar. Onun fikri və ruhiyyəsi sərmayədarlıq dövrəsinin icad etdiyi başlı başınalıq və infiradi tərz təfəkküründən çox fərqlidir. Bizim xalqımız çox cəhətdən el və tayfa halında yaşayır və ona görə bizdə əfrad tək başına düşünməkdən fayda his etmir.

Keçən gün intixabat sandığının qabağında bir qoca məriz xanıma təsadüf edilmişdir. Kunckav bir Firqə üzvü ondan "səni bu xəstə halda gəlib rəy verməyə vadar edən səbəb nə olmuş-" deyə soruşmuşdur. Yaşlı ana gözəl Azərbaycanımız kimi təbəssüm edib demiş: "Bala məgər eşitməmisən ki, palaza bürün el ilə sürün? El gəlib mən də gəlmişəm . mən ki, eldən ayrıla bilmərəm".

Bu sözün mənasını Londonda yaşayıb həyatın hədəfini öz mənafeyini güdüb, özü fərdi azadlığını düşünən siyasətmədarlar anlaya bilməzlər. Onu fəqət şərqin pozulmamış elit ruhiyyəsi ilə aşina olanlar anlaya bilərlər.

Şəhərimizdə hər məhəllənin özünə görə bir iftixarı vardır. Keçən gün "Şava" da başımıza xırda bir cəmiyyət toplanmışdı. Məhəllənin ağsaqqalı evinin qapısını açıb mətin qədəmlər ilə yanımıza gəldi. Əllərimizi sıxdıqdan sonra dedi:

“Siz bizim başladığımız böyük işi axıra aparacaqsız. Mən buna inanıram. Xalq və el sizin dalızca gedir, eldə qüvvət vardır. Bax biz həmin Şavada on beş tüfəngçi ilə Şüca ül Dövlənin qabağını saxlaya bilirik. Beş altı nəfər ilə Rəhim xanı Şazda Bağından qaçmağa məcbur etdik”. Ondan bir gün əvvəl Qutb Meydanında Xiyaban əhalisinin elit təəssübünün şahidi olmuşduq. Xiyabanlılar ağayi Müstəmein evini öz məhəllə sandıqları üçün döşəyib işə başlamışdılar. əvvəl məhəllənin ağsaqqalları və baş bilənləri gəlib rəy vermiş, sonra da bütün camaatı çağırmışlardı. Orada bir cavan çox təbii və sadə bir ləhn ilə Firqədən xahiş edir ki, onların iftixarı olan Salar millinin əksini hərgiz Sərdar Millinin əksindən uzaq qoymasınlar. O deyirdi mərhum Şeyxin iştibahı bunda idi ki, Xiyabanlıları saymadı, onlara palaz oğrusu deyib təhqir elədi. Ona görə Xiyaban əhli onun arxasında durmadı. Firqə bunu nəzərə almalıdır.

Keçən Milli Məclis intixabatında rəy verməyən qəsəbələrdən birisi də Şəbüstər olmuşdu. Bu il aldığımız məlumata görə orada neçə min tərifə alınmışdır.

Bu göstərir ki, xalq demokratlığı bir el kimi qəbul etmiş və Demokrat Firqəsini özünün başı tanımışdır. Bu cəhətdən London radiosu doğru demişdir. Amma həqiqət- halda isə o öz müxbirinin qərəzinə alət olub və irticai ünsürlərin təhti təsirində qalmaq ilə həqiqəti əksinə təfsir eləmişdir.

İntixabatımızda tək Firqə üzvləri deyildir, bitərəf xalqın hər təbəqəsindən iştirak edənlər Firqə üzvlərindən çox olmazsa da az deyildir. Hətta keçən Məclis intixabatını bəzi pullu və mütənəffiz namizədlərin təhdid və tətmiy nəzərdə dutub təhrim edən bazar camaatında bu Milli intixabatımızda çoxları iştirak etmişdir.

Məxsusən bəzi .şəhristanlarda intixabat ümumi şəkil almışdır. Hərgah intixabat hazırlığı üçün bir neçə gün vaxt verilsə idi bütün xalq onda şirkət etməyə müvəffəq olacaq idi.

Bunların hamısı xalqımızın ayılıb öz firqəsinin layiqincə tanıdığını isbat edir.

Bu böyük bir qüdrətdir. Firqə üzvləri gərək çalışıb bu qüdrəti Firqənin amal və arzuları yolunda işlətməyə müvəffəq olsunlar. Mütəəssifanə bəzi yerlərdə xalqın qüdrətindən su istifadə fikrinə düşənlərin də özlərini Firqəmizə bağlamaları nəzərə çarpmaqdadır.

Bəzi yerlərdə əllərinə silah keçən bəzi adamlar öz vəzifələrindən və öz hüdud və ixtiyarlarından xaricə çıxmağa da cəsarət edir. Məsələn kəndlini incidir ya ərbabın anbarına əl atmaq istir, ya yoldan keçən müsafirin malına tamah edir. Bu kimi hərəkətləri biz xəyanət hesab edirik. əgər Firqə üzvlərində belə adamlar görünürsə Firqə onlar ilə birəhmanə və amansız bir surətdə mübarizə edəcəkdir.

Böyük işdən kiçik istifadə edənlər xalqın düşmənidirlər. Xalq düşmənlərinə nicat yoxdur.

Azadixah və demokrat olan şəxs pak, təmiz və sadiq olmalıdır. Məxsusən kəndlərdə və şəhristanlarda olan Firqə üzvlərinə ciddən maliklərin malına və ya canına təcavüz etmək əkiydən qadağan olunur. Firqə üzvlərinin fədakarlığı, onların sədaqəti, düzlüyü və intizama tabe olmaları ilə təyin edilər.

Firqə intizamını pozub Firqədən icazəsiz öz başına hərəkət edənlərə Firqədə yer yoxdur. Firqə adından istifadə edib xalqın asayişini pozanlar ilə amansız bir surətdə mübarizə aparılacaqdır. əvvəl əmniyyət sonra azadlıq. əmniyyət olmayan yerdə azadlıq ola bilməz.

**Mir Cəfər Pişəvəri**

**(!Azərbaycan” şumarə 68, azər 11, dekabr 3)**

**(اذا جا نصرالله والفتح ورایت الناس یدخلون فی دین الله افواجا)**

# İza caə nəsrullah vəlfəth və rəyitinnas yədxolunə fiy diynillahi əfvacən

Firqəmizin təzəlzülnapəzir əzm və iradəsi sayəsində el tərpəndi, xalqın hər bir işə tərəddüd və sui zənn ilə baxan təbəqəsi yəni bazar və idarə xidmətçiləri də Milli Məclisimizdə şirkət üçün nizamnamə mocibincə və Milli Heyətimizin rəsmi elanı ilə təyin olunan müddətin axır günlərində intixabat sandıqlarına hücum edib rəylərini verməyə başladı.

əgər bu müddəti iki gün təmdid etmək mümkün olsaydı fəqət Təbriz şəhərində yüz mindən ziyadə rəy veriləcək idi.

Zarafat deyil fəqət şənbə günü xalq səkkiz minə baliğ rəy salmışdı. Bu İranın məşrutə tarixində görülməmiş bir işdir.

Şənbə günü sandıqların qabağına toplananları gördükdə İslamın fəth və zəfər günləri xatirə gələn (iza caə nəsrullah) ayeyi şəriyfəsinin həqiqi mənası nəzərdə mücəssəm olurdu. Xalq qələbəmizə inandığı üçün axın- axın, dəstə- dəstə gəlib rəy salır və aldığı tərifəni birinci məclisimizdən yadigar olmaq üzrə böyük xoşhallıq ilə müraciət edirdi.

Bu müvəffəqiyyətə iki böyük səbəb göstərə bilirik. əvvələn firqə üzvlərində vücuda gələn dərin iman və onun nəticəsində ibraz edilən qəhrəmanlıq, ikincisi xalqın içərisində tolid olunan etimad və inamdan ibarətdir. Bu iş hənuz təşkil tapıb gündən günə möhkəmlənməkdə olan cavan firqə təşkilatı üçün böyük bir imtahan idi. Firqəmiz fəxr və mübahat ilə çıxmağa müvəffəq oldu.

Tehran da böyük işimizi uzaqdan tamaşa edib müxalif ruznamələrin hayküy salmasına mütəəssir olan azadixah dostlarımız bəzən bizə kömək yetirmək fikrinə düşüb bu ya bir ayrı azadixahı təşviq edib Təbrizə yola salır və elə fikir edirlər ki. Onların rəhbərliyinə Firqəmizin ehtiyacı vardır. Bu niyyətlə şəhərimizə varid olan azadixahlar işimizi yaxından gördükdə özlərinin zəflərinə etiraf edir. Bu üç ay müddətində Firqənin mübarizə və atəş içində yaradıb tərbiyət etdiyi fəal qüvvəsini (kadrı) alqışlamaq onlardan iş öyrənməyə özlərini möhtac görürlər.

Firqəmizin vücuda gətirdiyi fəal qüvvə (kadr) seçgi işində öz qüdrət və istedadını büruzə verdi. Dünən mərkəzi sandıq məhəllində yaşlı bir Demokratın 48 saat tamam öz postunda davam etdiyi aşkara çıxdı. Bu adam postunu təhvil verdikdə gülümsünüb “öz vəzifəmi əncam verdiyim üçün xoşbəxtəm” deyib istirahət üçün evinə qayıtdı.

Biz də indi hamı çalışır. Hamı fəaliyyət göstərir. Özünün ürzə, ləyaqət və qeyrətini büruzə verməyə çalışır. Qoca, cavan, oğlan, qız, yaşlı xanım, beli bükülüb qocalmış köhnə mücahid, biləxərə hər kəs öz varlığı ilə ümum xalq işini axıra yetirmək istir.

Firqəmizin içində əzim bir qüdrət, insanı heyrətə salan bir aintizam vücuda gəlmişdir. Üzvlər artıq tərdid və təzəlzülə imkan verməyib Firqə rəhbərliyini can- dil ilə bənimsəyib iman və əqidə üzrə mərkəzi komitəmizin təsmimlərini icra edir. Islamiyyətin əvvəl günlərində görülmüş təəssüb üzrə vəzifələrini əncam verir. Firqədən fəqət sadə bir təbəssüm aldıqlarına iftixar edirlər.

İmdi bizdə ölümə getmək əmri almağa iftixar edən cavanlar tapılmağa başlamışdır. Həqiqi fədailər ictimai həyatımızın hər bir qismətində öz ləyaqət və fədakarlıqlarını isbat edirlər.

Firqə artır, və böyüyür, möhkəmləşir.

Bu qüdrət, bu ləyaqət və bu istedada məğrur başlar da əyilib xalqın əzm və iradəsinə təslim olur. Millət yolunda ölməyə hazır olan Fədailərin əllərini sıxır, gecə gündüz Firqə üçün çalışan və onun bu böyük hədəf və məqsədini əldə etməyə hazırlaşır.

Işimiz xalq işi olduğu üçün xalqın göstərdiyi hüsn- təvəccöh bizim üçün böyük fəth və müzəffəriyyət hesab olunmalıdır.

Ahənin qalalar, yıxılmaz səngərlərin hamısından möhkəm xalqın ürəgidir. Ürəkləri fəth edən qüvvənin müqabilində heç bir qala müqavimət edə bilməz. Firqəmiz xalqın ürəgini fəth etmişdir.

Bunu Məclisi Milli intixabatımız isbat etdi. Onu yəni o cəlb edilmiş ürəgi saxlamaq onun istədiklərini vermək zamanı gəlib çatmışdır.

Bu cəhətdən Firqəmizin yolu müşkül və vəzifəsi ağırdır. Eşqi qazanmaq asan, onu saxlamaq müşküldür. Biz imdi xalqın eşqini qazanmış, onu saxlamaq üçün daha böyük zəhmətlərə təhəmmül etməliyik.

**Mir Cəfər Pişəvəri**

**(“Azərbaycan” şumarə 69. Azər 12. Dekabr 3)**

# BIRINCI DƏFƏ OLARAQ AZƏRBAYCAN XANIMLARI İNTIXABATDA İŞTIRAK ETDILƏR

Zülm, əsarət, istibdab p zorun pəncısi Altinda qara çadiralarda, bütün aictimai hüquqlardan məhürum olan Ana və bacılarımiz, hər bir zıhmətə qtlaşa qatlaşa qoynunda gecə- gündüz bizləri bəsləyib boyüdən analarımiz bizim kişilərimizdədən daha artıq dərəcədə elmdən, maarifdən məhrum olmuşlar.İrtica bizim qeyrtli namuslu ana bacılarımızın üzünə elm, mədəniyyət qapılarını bağlamış, onları bütün bəşri hüquqlardan məhrum edib zavallı biçarə halına salmışlar.

Arvadların kişilər ilə bərabr hüquqa malık olması və intixabatda iştiraki taza bir məsələ deyildir.

Bəlkə bütün dünya demokrasi məmlkətlərində xanımlar öz haqlarina malik olmuşlar.Yəni dövlti işlərdə dəxalətləri var. Bu gün biz qadınların cəbhələrdə silah götürərək vuruşmalarınl gördük. Göylərdə uçan təyyarə, maşın idarə edən qadın da vardır, lakın bizim məmlkətdə qadınlarımızi biçarə və bədbaxt etmişlər.

Bu gün azərbaycan qadınları bütünİran qadınları üçün səadət qapıların açmaqda azərbaycanın mərd, qəhraman azadıxahları kimı bu yolda əvəllinci qədəmlərini götürdülər.Bəli mümkündür bəzii irticai qısa fikir adamlara qadınlarımızın rəy verməsi təəcüb gəlsin.Lakın heç təəcüb ediləsi şey yoxdur.

Qadınların dünya azadlığında böyük əhmıyti və şirkti olmuşdur.

Yunanda qadınlar ırtıcaı qüvvələrlə vürüşmüş, daş ilə, əsləhə ilə düşməni əzmışdır.Qadınlar camiənin üzünü ışıqlandırır.Bu gün azərbaycan xalqı öz tarixinə bir şey əlavə etdi.O da ana- bacılarımızın milli məclis vəkillərinə rəy verməlıridir.

Bu da azərbaycan dəmukrat firqəsinin bizim ana və bacılarımıza olan təvəccehidir.

Qoy dünya millətləri eşidsin və görsün ki, azərbaycanın qadınları ürəkləri şad və sevinc ilə dəstə- dəstə öz rəylərilərini məclis milli vəkillərinə verdilər.Ana bacılarımız bununla kıfayətlənməyəcəklər.Onlar hətta məclisə belh gələcəkdh özlərindənvəkillər intiab edəcəklər.Qoy analarımızın talei gülsün.Bu bütün İran xanımlarına bir müjdədir.

Bununla da ana və bacılarımız tarixin səhifələrinə qızıl xətt ilə öz doğru və həqiqi hüquqlarından difa etmək üçün adlarını səbt etdilər.

Tarix həmişə.Aazərbaycanın qadınlarının qəhramanlığını və azadxahlıqlarını qeyd edib gələək nəsillərimaz onlarn bu işlərni yad edəcəklər.

Xalq şairi əaqaye Biriya rüznaməmizdə çap edilmiş şerində deyir ki:

Günş səhər doğacaq « qutb»dan səadətlə

Bu qəmli mənzərədən qurtulub şərafətlə

Həmişə ömr elərsən cahanda asudə.

O şan lı dövrə fəqət hökmran olar tudə

Sevimli şairin sözləri Azərbaycan Demokrat Firqəsinin bütün xalqımızın məsum ana və baclarımın üzünə saçdığı günəş dir ki, xalqımız bu qəmdən və fəlakətdən xilas olub və öz milli muxtariyyətini yaradıb, həmişə səadətlə yaşayacaqdır.

Yaşasın Azərbaycanın şərafətli və namuslu azadixah ana, bacı və qızları.

**M. Tahir**

**«Azərbaycan» şümarə 69, azərin 12 si, dekabr 3**

# XALQ QAYĞISI İŞIMIZDƏ BİRİNCİ YER TUTMALIDIR

İşin səri və bərqasa bir surətdə pişrəfti Firqə rəhbərlərinin başlarını elə qatmışdır ki, onlar bəzi yerlərdə əsas vəzifələri olan xalq qayğısını də yadlarından çıxarmağa məcbur olmuşlar. Jandarmların cahilanə hərəkətlərinin gözlənilməyən bir şəkildə artması da quz balayi quz olub Firqə əfkar ümumisini tamamilə öz təbii yolundan kənara çəkməkdə dir.

Bu naxoşluq hərgiz Firqəmizin xeyrinə deyildir. Elin qeydinə qalıb onun gündəlik ehtiyacını düşünməyən siyasi işçi heç vaxt xalqa rəhbərlik edə bilməz. Elə rəhbərlik edən Firqə üzvləri gərək heç bir zaman bu həqiqəti yaddan çıxarmasınlar. Elin dabanı qızışıb aclıq, susuzluq, isti, soyuq düşünmədən irəli gedir. Bir an əvvəl öz məqsədinə yetişmək istir. O artıq ayrı məxsusən ani ehtiyaclar barəsində düşünə bilmir. Yürüş axırda onu yorub məyus edə bilər. Ona görə rəhbərlər bu xətərdən qəflət etməməlidirlər. Xalqın çörəyi, asayişi və əmniyyəti barəsində düşünmək onların borcudur. Çünki onlar xalqın başı hesab olunurlar.

Ən ağır, ən müşkül, ən ciddi mübarizə zamanında belə Firqə başçıları özlərinin bu böyük vəzifələrindən qəflət edə bilməzlər. El olsun ki, öz məqsədinə çatmaq üçün qanı isti olduğu halda bir şey fəda etsin. Vəli mübarizə yüngülləşdikdən sonra o ani və gündəlik ehtiyaclarını düşünəcək, onun rəf edilməsini başçılardan tələb edəcəkdir.

Yerlərdə xalqın müqəddəratını elə alan Firqəçilər də gözlərini açıb bu həqiqəti olduğu kimi görməli və ona münasib tədbirlər düşünməlidirlər.

Doğrudur Firqə kənd qiyamını idarə etmir. Doğrudur Firqənin yerli başçılarına dövlət idarələrinin işlərini öz öhdələrinə götürmək qadağan edilmişdir. Bununla belə baş verən bütün hadisələrə firqə qabağında başçılarımız cavab verməlidirlər. Firqə rəhbərləri gərək var qüvvələri ilə çalışıb əlinə silah alan kəndlini öz yolundan çıxıb əmniyyəti xələldar etməkdən saxlasınlar. Onu təbliğ etmək və başa salmaq vasitəsi ilə, pis iş görmək, xalqın mal və canına təcavüz eləmək fikrindən çəkindirsinlər.

Ticarət məsələsi bizim üçün həyat və mümat məsələsidir. Firqəmiz heç vaxt ticarət yollarının kəsilməsi ya teleqraf və post rabitələrinin qırılmasına tərəfdar deyildir. Yerli Firqə başçıları bu siyasəti hərgiz pozmayacaqlar.

Doğrudur Azərbaycandan buğda, un, ət və yağ kimi zəruri şeylərin çıxardılmamasına biz də tərəfdarıq. Bu Azərbaycan üçün həyati bir mövzudur. Işsizlik və əlacsızlıqdan şəhərlərimizi tərk edib getməyə məcbur olan xalqı bir də qəhətlik və bahalıq ilə fəlakətə salmaq olmaz. Leykən bu sadə və təbii tədbirə ümumiyyət vermək qələt bir işdir.

Məsələn badam, parça, xüşkəbar, şüşə və sair ticarət mallarının qabağını kəsmək olmaz və buna yol verilməməlidir. Ticarət olmasa xalq daha fəna bir hala düşər. Bərəks biz gərək çalışaq şəhərlərimizə pul gəlsin, elin zəhmət və rənci sayəsində tolid olan ticarət mallarımıza geniş bazarlar tapılsın. Biz bunun xilafına rəftar edən cahil adamları Firqə rəhbərliyi ki, səhldir Firqə üzvlüyünə də layiq görmürük.

"Nənəm mənə kor dedi, hər yetənə vur dedi" ilə iş keçməz. Başçı gərək öz gördüyü işin aqibətini və nəticəsini düşünsün. Ya əgər özünü düşünməyə və təsmim tutmağa qadir görmürsə özündən yuxarı olan

mərkəzi komitədən soruşsun. Indi Firqəmiz bir millətə rəhbərlik edir. Ona hər bir işdən əvvəl dəmir kimi intizam lazımdır. Firqə dəsturunu pozanlar ilə amansız bir surətdə rəftar edilməlidir.

Təşkilatımız vahid bir insan kimi hərəkət edib vahid bir yol ilə getməlidir. Başlı başına ola bilməz.

Xalqın mal və canına təcavüz etmək olmaz.

Firqənin əmr və qərarı olmadan heç bir taza işə əl vurmaq yaramaz.

Boynu yoğunluq. Bəd məstlik və sair alçaq hərəkətlərə imkan verilə bilməz. Xalq qayğısı dediyimiz sözün mənası budur.

**Mir Cəfər Pişəvəri**

**("Azərbaycan" şumarə 70, azər 13, dekabr 4)**

# BARA DEYIL BÖYÜK XƏYANƏTIN KIÇIK TƏZAHÜRATINDANDIR

Yekşənbə günü axşam Göy Məçid yanında qurulan qanlı səhnəni bəziləri bara hesab edib deyirlər ki, bu faciəni vücuda gətirənlər öz canlarının qorxusundan atəş açmağa əmr vermişlər.

Bu doğru deyildir. Tehran radiosunun əxbarına qulaq asanlar bilirlər ki, neçə dəfə sərləşgər Ərfəin işarəsilə mərmuz və xainanə fərmanlar verilmişdir. Haman gün nahar çağı təkrar edilən sərih və aşkar fərmanı da radio xəbərlərini eşidənlər qətən unutmamışlar. Bu xəbər müstəqimən atəş fərmani olduğu da bəllidir. Bu fərman ilə axşam ittifaq düşən hadisənin müstəqim rabitəsi vardır. Binaünəleyh Azərbaycanın əmniyyəti və asayişini ixlal etmək üçün çəkilən xainanə nəqşədə bu əməli bir başlanğıc hesab etmək olar.

Hadisə ittifaq düşən zaman şəxsi libas geyinib şah Hüseyn dəstəsini idarə edən əfsərlər də xalqın nəzərindən məxfi qalmamışdır.

Vərhram ilə Dirəxşani bu vasitə ilə şəhərə aşub salmaq və azadixahları təhdid etmək üçün bir ox ilə iki nişan vurmaq istəmişlər. Vəli onlar o qədər cahil, o qədər düşüncəsiz, o qədər nalayiq adamlardırlar ki, mühit və zaman və məkanı əbədən anlamağa nail ola bilmirlər.

Biz vaxtında sərhəng Humayun və başqa jandarm rəislərəinə şəfahən və kətbən təzəkkür vermişik ki, sizin başladığız siyasət xətərnakdır. Kəndlini soyub, üzüb, dağıtmaq xeyrizə tamam olmaz. Qardaş qanı tökmək zəminəsi hazırlamayın.

Onlar elə fikir edirdilər ki, biz qorxuruq ya onlar ilə ədavətimiz vardır. Ona görə kor tutduğunu buraxmaz məsəli mocibincə öz vəhşiyanə hərəkətlərini daha da şiddətləndirmək və xalqı fişar altında qoymağı bizim bitərəfanə nəsihətlərimizi qəbul etməyə tərcih verdilər. Bu səbəbə kəndli cana doyub ayağa qalxdı və jandarm bəsatını sadə bir təkan ilə bütün Azərbaycan kəndlərindən süpürüb eşiyə tökməklə özünü onun zülm və əsarətindən nicat verməyə müvəffəq oldu.

Vərhram ilə sərtib Dirəxşani dh zənn olunur sərhəng Humayun yolu ilə getmək istirlər vəilla silahsız sadə və bialayiş əhalini müsəlsələ bağlamağın mənası yoxdur.

Əgər mərkəzi hökumət bu kimi alçaq və xainanə siyasətlərə xatəmə verməz isə iş çox pis yerə çəkə bilər. Bu surətdə tamam məsuliyyət onların öhdəsinədir.

Ətrafdan aldığımız məlumata görə şəhər öz hüququnu müdafiə etmək üçün qiyam edən Fədai dəstələri tərəfindən şədid bir surətdə mühasirə halındadır. Sadə bir atəş böyük bir hadisə vücuda gətirə bilər. Firqəmiz xalq ilə yaxından təmasda olduğu üçün onun ruhiyyısinə kamilən aşinadır. Ona görə od ilə oynayanları xəbərdar edib onlara başladıqları oyunun xətərini anlatmağı özünə vəzifə bilir.

Yekşənbə gününün gecəsi bir günahsız Azərbaycanlı öldürülüb 11 nəfər isə yaralanmışdır. Vərhram ilə Dirəxşani müstəqimən bu cinayətə xalq məhkəməsi qabağında cavab verəcəklər. Indi Azərbaycan xalqının düşünən başı və müqtədir Milli Hökuməti vardır. Onun qanını bu asanlıq ilə tökmək olmaz.

Radio vasitəsi ilə atəş fərmanı verən Tehran və onu Azərbaycanda icra edən yalançı pəhləvanlar öz təkliflərini anlasınlar. Xalq intiqam çəkməkdən sərfnəzər edə bilməz. Təbrizdə 17 azər yaratmaq olmaz. Indi Azərbaycan xalqı ayaq üstədir, onu dizə çökdürməyə vadar etmək istəyən oğlanların anaları ağlar qalar. Azərbaycanlı öz haqqını özünün əzm və iradəsi sayəsində almış öz Milli Hökumətini vücuda gətirmişdir.

Tehran əgər bu rəşid və qəhrəman milləti Ərfələr, Dirəxşanilər, Vərhramların həva və həvəslərinə qurban vermək istərsə buyursun "bu quy bu da meydan".

**Mir Cəfər Pişəvəri**

**("Azərbaycan" şumarə 71, azər 14, dekabr 5)**

# ƏZIZ HƏMVƏTƏNLƏR!

Bildiyiniz kimi Azərbaycan xalqı öz ehtiyacatının təmini üçün Azərbaycandan ərzaq, əğziyə (buğda, yağ və sair xarubar) və zindəganlıq mayehtacının süduruna mümaniət edir.

Heyəti Milliyə verilən raportlara görə bəzi əşxas hətta malülticarə və xüşkibar və sair əcnasın südurundan da mümaniət edib malülticarə sahiblərini zəhmətə salırlar. Buna görə Heyəti Milliye Azərbaycan elan edir ki,

1- Felən Azərbaycandan aşağıda yazılan ərzaqdan sivay hər cins və malülticarənin göndərilməsi azaddır və heç kəs onların getmə işini mane olmağa haqlı deyildir.

Göndərilməsi məmnu olan ərzaq və əcnas felən bunlardır:

Qəllə (buğda, arpa, un) yağ, kərə, pənir, yumurta, toyuq, ət, qoyun, qaramal.

2- Azərbaycanın daxilində ərzaq və xarubar və malülticarənin həml və nəqli külliyyətən azaddir. Kəndlərdən şəhərlərə həml olunan hər şey azaddir və həmlinə mane olanlar təqib olunacaqlar.

3- Şəhərlərdə və kəndlərdə xalqın moridi ehtiyacı olan xarubar və əğziyə və əcnası ehtikar edənlər Azərbaycan xalqının düşməni sayılıb şədidən təqib və mücazat olunacaqlar. Hər kəs hər ünvan ilə bu dəsturun xilafına iqdam edə, Heyəti Milli tərəfindən təqib və şədidən tənbeh və mücazat olunacaqdır.

**Azərbaycn Heyəti Milli Rəisi- Hacı Mirzə Əli Şəbüstəri**

**1324 cü il, azər, nömrh 5**

**(“Azərbaycan”, şümarə 70, azər 13, dekabr 4)**

# BULUDLAR ÇƏKİLİR FƏZALAR IŞIQLANIR

Xalqımızın qəlbindən qalxan şüarlarımız dünyada bomb kimi guruldadı. Bütün ölkələrin radioları biri-birindən aldıqları xəbəri cürbəcür təfsir və təəbir ilə intişar verib bəşəriyyətin əfkarını vətənimizə mətuf etməklə fəzanı qaranlıq və ibham buludları ilə bir surətdə məstur etdi ki, dünyanın böyük dövlətləri belə həyəcana gəlib rəsmi yaddaşları ilə yekdigərinə müraciət etməklə məsələni aydınlaşdırmaq məcburiyyətində qaldılar.

Əlbəttə, bu işdə Tehran irticai mətbuatı və zor ilə iş başına keçən qocalıb əprimiş irtica heykəli, yəni Sədrüləşraf kabinəsi, əti, qanı, iliyi və sümükləri biganələrin malı olan sərləşkər Ərfə və onun əəvan- ənsarı böyük rol oynadılar. Faşizm və irtica ruhu ilə tərbiyət edilmiş Anqara radiosu və həmçinpn İran irticaının inanılmış köməyi hesab edilən London inspektorları isə onların dəyirmanlarına su tökməklə dünya əfkar ümumisini iğfal etmək, xalqımızı yaraşmayan iftiralar ilə töhmətləndirməyə müvəqqətən nail olan kimi göründülər.

Firqəmizin əzmi, iradə, mətanət və istiqaməti sayəsində, xalq fəzadakı qara buludlara əhəmiyyət verməyib, başladığı böyük işi təqib edib, sözdən işə keçdi. Nəhayət, böyük milli konqrəmizi təşkil edib, ondan milli bir məclisimüəssisan vücuda gətirməklə dünyanı vaqe olmuş bir əməl müqabilində qoydu.

Bu böyük işdən sonra millət buludları dağıtmaq, puç sözlər və movhum iftiralara böyük bir təkan ilə son qoymaqdan ötrü öz elamiyyəsini rəsmi surətdə bütün demokratik dövlətlərə, həmçinin Tehranın rəsmi məqamatına göndərib, bu vasitə ilə özünü aləmə tanıdıb. əsas sözlərini dedi. Elamiyəmiz xalqımızın qəlbi kimi saf, sadə, rast və səlis bir dil ilə yazıldığı üçün istər daxildə, istər isə xaricdə dərin bir təsir buraxdı.

Onun mənalı sözləri vasitəsi ilə dünya bildi ki, bizim iddialarımız təbii və tələbatımız qanunidir. Biz asi və şuriştələb deyilik. İran millətinin də istiqlal və təmamiyyəti ilə işimiz yoxdur. Sadə bir surətdə öz evimizin idarəsini öz əlimizə almaq istəyirik. Bu cəhətdən bir- iki müqriz və müfəttin yalançılardan başqa bütün dünya radiolarının ləhni dəyişdi. Hətta bəziləri bizim haqq sözlərimizdən tərəfdarlıq etmək üçün adilanə və münsifanə dəlillər belə bəyan etdilər.

Daxildə isə irticai mətbuatın zəhərli intişaratı gündən- günə zəifləşib, bitərəf və azadixah ruznamələr həqiqətin üstünü açmaqla öz milli vəzifələrini əncam verir və bizim milli işimizi xalqa tanıtmaq istəyirlər.

Azadlıq və demokratlıq əsaslarına vəfadar olan Cibheyi Azadi ruznamələri ilə şəhrivərdən sonra İran üfüqündə dan ulduzu kimi parlamağa başlayan «İrane Ma» ruznaməsi indi bizdən ciddi surətdə himayət edir,

Riza xanın alçaq nökəri və Muxtarinin kəsif xəfiyyəsi olan Məsudilərin üzlərinin maskasını yırtır və onların xalqımıza nisbət bəslədikləri xainanə fikirlərini ifşa edirlər.

Artıq bütün İran azadixahları üçün bizim tutduğumuz yolun düz olduğu barəsində şübhə qalmamışdır.

Azadixah mətbuat ciddi bir surətdə dövləti tənqid edib, çox doğru olaraq deyir: «Azərbaycan məsələsi Azərbaycanda fəqət həll ola bilər. Dövlət bu daxili və milli məsələni xaricə çıxarmaqla İranın istiqlaliyyət və milli hakimiyyətini xələldar edir.

Məxsusən fədakar Tehran yazıçıları xarici dövlətlərin bu xüsusda qopardıqları gurultuya etiraz edib onlarıı bu işə qarışmalarını zayid, bəlkə qeyriadilanə görürlər.

Riza şahdan qalan oğurluq pulları ilə Tehran vəkili çıxan doktor Əbdinin əracifi böyük xəyanətkarlığının qaba təzahürlərindən birisidir ki, 14-cü məclisin çirkin və kəsif simasını açıq bir surətdə nişan verir və bu xain cəmiyyətin haradan su içdiyini açıb xalqa göstərir.

Azadixah mətbuat isə dövlətdən Azərbaycan xalqının qanuni və təbii haqqını verməyi tələb edir və onu bir millət tanıyıb öz daxili ümuratını idarə etməyi təbii bir haqq adlandırır.

Bundan əlavə Tehrandan gələn mötəməd əşxasın izharatına görə, indi bütün İran xalqı öz nicat və səadətini bizim milli hərəkatımızda görür və ürək. döyüntüsü ilə bizim müvəffəqiyyətimizi arzu edir.

Hətta cənub şəhərlərdən gəlib əlimizə çatan məktublarda belə, xalqımıza, Firqəmizə və işimizə böyük ümid hissləri nəzərə çarpır.

Bunların hamısı göstərir ki, artıq tufan keçmiş və fəzalar qara buludlardan təmizlənməyə başlamışdır, bundan sonra irticai qüvvələr nə qədər can atıb çalışsalar, öz zərərlərinə tamam olacaqdır. Artıq dünya bizi tanımış və haqq sözümüz qulaqlara yol tapmışdır.

**Mir Cəfər Pişəvəri**

**«Azərbayian» qəzeti, № 72, 6 dekabr 1945 ci il. 15 azər**

# QARDAŞ QANI TÖKÜLMƏSIN

Firqəmizin və heyətimillinin ciddi iqdamatı sayəsində bu günə qədər şəhərin əmniyyəti hifz olunub, mövqedən istifadə etmək istəyən əşxasın narəva hərəkətlərinə imkan verilməmişdir. Bunu özünün mənafeyinə müxalif görən dövlət məmurları axır vaxtlarda cürbəcür xainanə təşəbbüslərə əl atır və şəhərimizin asayişini pozmaq istəyirlər.

Məsələn, bunlar özləri də bilir ki, Azərbaycanda jandarmlara nisbət şədid hissitənəffür vücuda gəlmişdir. Buna baxmayaraq, kəndlərdə silahlarını Fədailərə təslim edib şəhərə gələn jandarmları dübarə silahlandırıb şəhərin xiyabanlarına doldurur və ya onlara qeyrirəsmi libas geyindirib küçələrdə xalqı təhdid etmək kimi alçaq və yaramaz vəzifələrə müəyyən edirlər. Hamı bilir ki, sərbazlarımız və xırda əfsərlərimizin təvəccöhü xalqa olduğu üçün Dirəxşani ilə Vərəhram onları sərbazxanalarda həbs edib əsir halında saxlayır. Bununla

belə bəzi şərur və biçaqçılara əfsər və sərbaz libası geydirib küçələrə göndərir. Onların vasitəsi ilə xalqın ehsasatını təhrik etmək istəyirlər.

Biz başa düşmürük indi dejban Təbriz şəhərində nəyə lazımdır? Madam ki, sərbazlara sərbazxanadan kənara çıxmağa yol verilmir, dejban kimi cəlb edəcəkdir və onun xiyabanlarda gəzməsindən xalqı təhdid etməkdən başqa mənası nədir?

Biz çox gözəl bilirik ki, Tehran irticai xalqımızın verdiyi böyük təkən vasitəsi ilə mütəzəlzil olub, qorxudan Tehranı tərk etməyə çalışdığı halda, Azərbaycan xalqını bir- birinin canına salmaq və dünyaya özünü haqqbecanib göstərmək istəyir. Bizə məlumdur ki, Dirəxşani ilə Vərəhram Azərbaycan xalqının intiqam pəncəsindən qaçmaq üçün bahana axtarır və bu bahananı sərbaz ilə xalq arasında çarpışmadan ibarət bilir. Bu nöqteyinəzər ilə dir ki, Firqəmiz bu günə qədər onların oynadıqları oyunlara əhəmiyyət verməyib gördükləri cəsuranə və namərdanə tədbirləri cavabsız qoymuşdur.

İndi isə vəziyyət tamamilə dəyişmişdir. Fədai dəstələri şəhərin darvazalarına sirayət etməkdədir. Artıq şəhərin özü Dirəxşani və onun anlamaz həmkarı olan Vərəhramın əhməqanə hərəkətlərindən cana doymuşdur. Belə bir halda, biz Azərbaycanlı sərbaz və əfsərləri sərbazxanalarda əsir kimi saxlayıb, onları millət əleyhinə silah götürməyə vadar etməyin xətərini xalqa bildirməyə bilmərik.

Sərbazlar və əfsərlərimiz, onların qohum və əqrəbaları biləxərə bu tilsimi sındırıb Dirəxşanilərin xəyanətlərinə xatimə verməli, sərbazlarımız bir dəfə silahlarını töküb xalqa mülhəq olmalıdırlar.

Ataları, anaları, qardaş və bacıları Demokrat Firqəsinin azadlıq bayrağı altında mübarizə edən sorbazı uzun müddət quş kimi qəfəsdə saxlamaq olmaz. Millət və vətən yolunda şərəf və iftixar qazanmaq üçün nizami paltar geyən əfsərləri əhməqanə bir surətdə qardaş qanı tökməyə vadar etmək qabaqdan getməz.

Gedin balalarınızı, qardaşlarınızı, qohum və əqrəba, dost və aşnalarınızı sərbazxanalardan istəyin. Qoy sərbazların özləri bu şərafətməndanə qədəmi götürsünlər.

Böyük Fransa inqilabı, böyük Rusiya inqilabı, biləxərə dünyada vücuda gələn milli inqilablarda sərbazların götürdükləri qəhrəmanə qədəmləri onlara qandırın. Sərbaz həmişə millət ilə olmuşdur. Əfsərin iftixarı millət ilə əlbir olmaqdadır. O, fəqət sərhədlərdə düşmən ilə vuruşa bilər. Daxildə millətin poştibani gərək olsun. Biz bilirik, sərbazlar və əfsərlərimizi qəflətdə saxlamaq üçün, onlara ruznamə oxumaq və məmləkətin halından xəbər tutmaq imkanı vermirlər. Lakin millətin güc və qüdrəti qala və divar anlamaz. Hər vasitə və hər yol ilə olur- olsun onun fikri yerinə yetişər və istədiyi nəticəni hasil edər.

Siz gedib sərbaz və əfsərlərimizi başa salın, onların milli vəzifələrini şərh verin. Azadixahlar arasında onların yerlərinin boş qaldığını göstərin.

Qoy qardaş qanı tökməklə özlərinə şan və şərəf qazanmaq istəyən xainlərin əli boşa çıxıb burunları əzilsin.

Azərbaycanın sərbaz və əfsərləri bizim qardaşlarımızdır. Biz onlardan qardaşlıq gözləyirik. Gərək çalışıb, azadlıq düşmənlərinin əllərində alət olmasınlar.

Hətta İsfahan, Şiraz və Tehran sərbazları da Azərbaycan xalqının üzünə ataş açmaq istəmirlər. Onlar da bizim böyük işimizdən özlərinə nicat və azadlıq gözləyirlər.

Sərbazxanlar çox tez bir surətdə həbsxana və zindan halından çıxmalı, sərbaza xalq hərəkatında şirkət etmək imkanı verilməlidir. Sərbaz və şərafətli əfsərlərin ruhu bizimlədir.

Biz onları öz sıralarımızda görmək istəyirik. Yaşasın Azərbaycanın qəyur və azadixah sərbazları! Cavan və fədakar əfsərlərimiz! Azərbaycan sizdən ümid gözləyir, Demokrat qardaşlarız sizi köməyə çağırır!

**Mir Cəfər Pişəvəri**

**«Azərbaycan» qəzeti № 73, 7 dekabr  1945 ci il. 16 azər**

# MƏCLİSİ MİLLİ TƏŞKİLİ MÜNASİBƏTİLƏ

İntixabat müvəffəqiyyətlə başa çatıb Məclisimilli nümayəndələri bir- birinin ardınca mərkəzdə toplanmaqdadırlar. Bu böyük iş Firqəmiz üçün böyük bir azmayış idi. Firqə intixabat təbliğatını çox böyük müvəffəqiyyətlə axıra apardı. Əslən intixabatın özü xalqı cəlb etmək, camaata Firqə və milli heyətin məqsəd və məramını andırmaq üçün geniş təbliğat vasitəsi oldu.

Doğrudur, millətimiz çox uzun müddətdən bəri öz milliyyətini hiss edib, aşkar və qeyri aşkar, əmdi və qeyriəmdi olmaq üzrə, zaman və məkana görə özünün azadlıq və muxtariyyəti yolunda mübarizə aparmışdır. Lakin bunların hamısı bu üç ay müddətində aparılan mübarizəyə qətən müsavi tutula bilməz. İndi Azərbaycanlı sərih bir surətdə aparılan seçkilər və onlardan bəhs edilən məsələlər vasitəsi ilə həqiqi bir xalq və tam mənası ilə mədəni və həssas bir millət məqamına yetişmişdir.

Min illərlə tarixə malik olan İran dövlətinin arxasında bu gün on min nəfər tapmaq olmaz. Cavan dövlətimiz isə başını ucaldıb, iftixar ilə deyə bilər ki, bu gün onun arxasında milyonlar ilə kişi və xanımlar qan töküb, ölüb, öldürməyə iftixar ilə hazırdırlar.

Bu iş millətin qəlbindən çıxmışsa da, Firqəmizin onu təşkil etməkdə böyük xidməti olmuşdur.

Xalqımız haqşünas və saf ürəkli bir xalq olduğu üçün əmələn özünün mərdliyini göstərməklə Firqənin şüarlarını istiqbal etmək, onun göstərdiyi namizədlərə rəy vermək və onun istədiyi tədbirləri can və dil ilə icra eləmək yolunda böyük qədəmlər götürdü.

Bütün Azərbaycanda Firqənin göstərdiyi kandidlərin intixab olunması xalqın Firqəyə olan etimadını və inamını sübut etməkdədir. Artıq, xalq şəxsiyyətlər deyil, Firqəyə inanır və onun adına və beistilah onun markasına rəy verir. Bu isə, yeni və cavan bir Firqə üçün böyük müvəffəqiyyətdir.

Çox yerdə kəndlilər çox sadə bir surətdə «biz Demokrat Firqəsi göstərən kandidlərdən başqasına rəy verə bilmirik. Firqə kandidləri imtəhandan çıxmış adam lar olmaqla bərabər, Firqə qarşısında məsul olduqları üçün, bizə xəyanət edə bilməzlər» deyib öz rəylərini sandıqlara tökmüşlər. Kəndlinin məntiqi tamamilə doğru və düşünülmüş bir məntiqdir. Millətinə rəhbərlik etmək iddiasında olan bir Firqə belə də olmalıdır.

Tək kəndli deyildir, şəhərdə və bitərəf camaat, məxsusən kəsəbə və tüccar da sadə bir surətdə kəndlilərin məntiqi üzrə rəftar edib, Firqənin göstərdiyi kandidlərə rəy vermişlər.

Bu vaxta qədər İranda bu görülməmiş bir iş olduğu üçün, biz millətin gələcəyi üçün bunu falnik hesab edirik. Millət nə qədər münəzzəm hərəkət edərsə, nə qədər özünün Firqəsinə və başçılarına artıq inana

bilərsə, yüz o qədər tez bir surətdə öz arzularına yetişməyə müvəffəq olar.

Məclisimillimiz təzə bir müəssisə olduğu üçün onda cürbəcür nüqsanlar ola bilər. Bunu biz hərgiz unuda bilmərik. Lakin bu məclis ümum xalqa dayanıb təzə bir dövlət yaratmaq və milli muxtariyyətimizin binasını qoymaq kimi ağır və mühüm vəzifə daşıdığına görə, olduqca calibitəvəccöh, olduqca böyük bir məclisdir. Orada danışılan sözlər və çıxarılan qərarların xalqa yetirilməsinə artıq dərəcədə əhəmiyyət vermək lazım gəlir. Gərək roşənfikir və ziyalı cavanlarımız, məxsusən yazı və mətbuat ilə məşğul olanlar bu yolda böyük fədakarlıq göstərsinlər.

Biz gərək özümüzu millətimizə və bütün dünya millətlərinə tanıdıb, ölkəmizi idarə etməyə layiq olduğumuzu isbat edək.

Bunu da Məclisimillimizdən gözləyirik.

**Mir Cəfər Pişəvəri**

**«Azərbaycan» qəzeti № 74, 9 dekabr 1945 ci il. 18 azər**

# AZƏRBAYCAN HEYƏT MİLLİ NÜMAYƏNDƏLƏRİN MƏRKƏZİ NÜMAYƏNDƏSİ AĞAYİ BƏYAT İLƏ MÜLAQAT VƏ MÜZAKİRƏLƏRİ

Əvvəlcədən təyin olunmuş vaxt və qərar mocibincə dünən səhər saat 10 da yəni şənbə günü azər ayının 17 də ağayi Səracmir (Zükaüldövlə) nin mənzilində Heyət Milli nümayəndələri ilə ağayi Bəyat arasında mülaqat əmələ gəlmişdir.

Bü mülaqatın zimnində Heyət Milli nümayəndələri ilə Mərkəzi hökumət nümayəndəsi ağayi Bəyat arasında bir silsilə rəsmi müzakirat olmuşdur ki, bu müzakirə gün ortadan bir saat sonraya kimi idamə tapmışdır.

Aban ayını 29 və 30 da Azərbaycan Müəssisan Məclisinin təsvib etdiyi Azərbaycan Millətinin təqazalarını Heyət Milli nümayəndələri Mərkəzi Hökumət nüməyəndəsi ağayi Bəyata yetirib ona təzəkkür vermişlər ki, əgər mərkəz bu əsasi təqazalar ilə müvafiqət göstərsə cüzi məsələlər ətrafında müzakiratın çətinliyi olmayacaqdır.

Vəli ağayan Bəyat və Dövlətşahi israr edirdilər ki, əvvəl cüzi məsələlər ətrafında müvafiqət hasil etmək sonra əsası məslələrə keçmək.

Biz bu müzakiratın təfsilini gələcəkdə oxucularımızın nəzər diqqətinə yetirəcəyik.

**(“Azərbaycan” şumarə 74, azər 18, dekabr 9)**

# MƏRKƏZI HÖKUMƏT NÜMƏYƏNDƏSI İLƏ APARILAN DANIŞIQLAR HAQQINDA

Tehran hökuməti əcib bir mövcuddur. Bir tərəfdən məsələni yerində həll etmək məqsədi ilə şəhərimizə alirütbə bir məmur göndərib Milli Heyətimizlə rəsmən müzakirəyə girir. O biri tərəfdən məclis və mətbuatda bizim milli hərəkətimizin əleyhinə şədid həyahu qaldırıb başımızın üstündən xaricə ölkələrə əl uzadır, biganələrdən istimdad etməklə İran camaatının haqqı hakimiyyətini ixlal edir.

Biz mərkəzi dövlət nümayəndəsi ağayi Bəyata çox açıq surətdə millətimizin əzm və iradəsi sayəsində vücuda gələn Milli Məclisi Müəssisanımızın xələlnapəzir qərarlarını və onun bütün dünyaya elam etdiyi elamiyyəsini şərh verib dedik: Ancaq bizim Milli Muxtariyyətimiz təmin edildiyi halda dövlət nümayəndəsi ilə danışığa girişib mərkəzlə olacaq irtibatımızın hüdudunu təyin edə bilərik. Bu əsası qəbul etmədən əvvəl danışılan sözlər və edilən müzakirələrin faydası ola bilməz.

Ağayi Bəyat şəxsən bizim haqımıza etiraf edib üsul fikrimizin və prinsiplərimizin səhih olduğunu qeyd etdiyi halda onun ətrafında aydın və açıq bir söz deyə bilmədi.

O istirdi söz ilə bizim əsl məqsudumuzu yuyub, təmizləyib milli müxtariyyət ünvanını aradan aparsın. Onun danışıqları qətən öz vicdanının sədası deyildi. Ixtiyaratı məhdud və əl ayağı bağlı bir adam kimi çabalayıb durduğu yerdə qalır, vaxtı tələf etmək üçün cüziyyat üzərində uzun- uzadı mübahisəyə girirdi.

Nəhayət nümayəndələrimiz ona vəziyyəti olduğu kimi təsvir edib aydın bir lisan ilə millətin öz haqqını almağa qadir olduğunu və bu haqqı almaq yolunda tamam varlığı ilə mübarizəyə girişdiyini ona anladraq dedilər “xalq vahid bir şəxs kimi ayağa qalxıb öz milli hökumətini qurmuş, öz müqəddəratını əlinə almışdır. Bütün millət Milli Konqrə (Məclisi Müəssisan) tərəfindən intixab olunan Milli Hökumətin (heyəti Milli) arxasındadır. Bu gün- sabah Məclisi Millimiz açılacaq, qanuni və rəsmi hökumətimiz təşkil tapacaq, İrandan ayrılmamaq şərti ilə Azərbaycanın daxili işlərini idarə etməyə şuru edəcəkdir. Tehrana vaxtında ittila verilmişdir.

O gün qazanmaq və vaxtı tələf etməklə işi ört- basdır etmək fikrindədir. Bu isə çox səfiyhanə bir siyasətdir. Mərkəzi hökumət bu gün bizim uzatdığımız əli dalı qaytarmaq istərsə artıq o əl bir daha uzanmaz. Bu da mərkəzi hökumətin böyük və əsasi xəyanətlərindən olub qalar.

Azərbaycanlı özünün istedad və ləyaqətini büruzə vermiş və az bir zamanda böyük bir firqə və arxalı bir hökumət vücuda gətirmişdir və onu da saxlamağa qadirdir.”

Biləxərə müzakirat müəyyən bir nəticəyə müntəhi ola bilmədən xatəmə tapdı və sabit oldu ki, həqiqət amrdə dövlət ağayi Bəyatı iş həll etmək üçün deyil, onu tarikləşdirmək, bu vasitə ilə xalqın gözündən pərdə asmaq üçün Azərbaycana eezam etmişdir.

Ağayi Bəyatın hüsn- niyyəti və meyli bu işlərə onun özü üçün acı bir təəsüfdən başqa nəticə verə bilməzdi. Çünki su sərçeşmədən bulanlıq idi. Fəhiymi və onun əmsali həmişə oynadıqaları şətrənc oyununu onun əli ilə qazanmaq istirlərdi.

Bəyat oyunda məharətsiz bir adam deyildir. Lakin tərəfin oyun başlamadan əvvəl elan etdiyi kişi onun meydanını təngləşdirib pat demək ilə yaxasını mat olmaqdan xilas etməyə vadar etdi. Oyunçu bilər ki, şətrəncdə pat baş tovlamaq deməkdir.

Mərkəzi hökumət oyunu uduzdu.

**Mir Cəfər Pişəvəri**

**("Azərbaycan" şumarh 75, azər 19, dekabr 10)**

# AZƏRBAYCAN MƏCLİS MÜƏSSİSAN MİLLİSİNİN BƏYANIYYƏSİ

# AZƏRBAYCAN MİLLƏTİNƏ VƏ ÜMUM İRAN XALQINA!

**Həmvətənlər**

Bu gün bizim iftixarlı millətimizin xələl tapmayan iradəsi belə qərar tutmuşdur ki, bu günkü çətin şəraitdə möhkəm bir əzm ilə özünün unudulmaz keçmişinə və qədim mədəniyyətinə və azadliq nehzətlərində götürdüyü qədəmlərə layiq olan parlaq tariyxi vəzifəsin əncam verməklə brabər hər cür manei öz qarşısından qaldırsın.

Azərbaycanın keçmiş cəlalli əzəmətinə layiq olan bu böyük məmuriyyətə xalqımız iftixar edir.

Azadlıq və demokrası uğrunda, hansı ki, onu difa etməkdən ötrü azadixah millətlərin rəşid oğlanları mərdliklə canlarını bu yolda qurban ediblər, xalqımız bu əziz məqsədlər üçün mübarizə aparmağa yenə də iftixar edir.

Bizim millətin tarixi daimi iftixarat ilə doludur.

Bizim böyük əcdadımız Mad dövrəsindən ta şah İsmayil Səfəvi əsrinə qədər və məşrutə inqilabının başlanğıcına qədər azadlığı ələ gətirməkdən üçün xarici işğalçılar əleyhinə qəhramanliq ilə mübarizə aparmışlar və bu qəhrəmanlıqlar xalqımızın tariyxi səhifələrinin ziynətidir.

Azərbaycanın ğeyrətli mücahid və rəşid oğulları, misilsiz fədakarliqlarının nəticəsində və məşrutə inqilablarında istibdab hökumətinin əsasını və irtcaın sültəsini kökündən qazaraq, İran milləti üçün azadliq və demokratlıq aldılar. Qanun əsası Azərbaycanın şərafətli oğullarının qanları bahasına alınmışdır.

40 il qabaq bizim babalarımız cəng meydanlarında mərdliklə azadlıq və demokrasını ələ gətirməkəyə nail olmuşlar və bu əziz meyvəni dəfələrlə azadlıq düşmənlərinidən hifz etmişlər.

Amma Azərbaycan milləti, hansı ki, bu qədər məşrutə inqilabının yaranması üçün himayət və difa etmək yolunda fədakarlıq etmişdir, heçvaxt öz sonsuz mücahidətlərinin nəticələrindən istifadə etməyib, azadlıqdan nəsibsiz qalıb və vaqei demokrasıdan əsər belə görməyibdir.

Ona görh ki, mərkəzin mürtəce hökumətləri Azərbaycana həmişə həqarət gözü ilə baxmış və hər vaxt bu torpağa müstəmərə gözü ilə baxıb və heçvaxt Azərbaycanı istemar etmək fikrindən  və bu torpağın zəhmətkeş milətini istemar etməklərindən başqa arzuları olmamışdır. Tehranın azadlıq öldürən hökumətinin hədəfi həmişə bu olmuşdur ki, Azərbaycanı əbədi dalı qalmış şəraitində saxlasın, cəhalət və mövhumatı bu məmləkətdə genişləndirsin. Və irtica amillərini və fəlakəti təqviyət edib, elm, mədəniyyət qapılarını bu yerin azidaxah xalqının üzünə bağlasın

Parlaq tariyxi sabiqəsi və iftixarlı mədəniyyəti olan bir məmləkətə onun milliyəti, mili adab və rüsumu dağ kimi möhkəm dir və onun mədəniyyət çırağı illər boyu qədim dünyanı ışıqlandıran xalqımızı mərkəzi mürtəcelər və mədəniyyətdən və tarixdən və müstəqil şəxsiyyətdən məhrum olan bir millət kimi qələmdad edib hər cür ictimai imtiyazlardan məhrum göstərib ona nisbət ehanətdən və yenə alçaq nisbətlərdən çəkinməyiblər.

Tarix boyu dünyanın ən abad və cəmiyətlı olan yerlərindən olan və dünyanın sərvət mənşəi sayılan vətənimizi xərabazara döndərib fəqr və fəlakətə düçar ediblər.

Tehranın azadlığa zidd olan hökuməti bu torpaqda azadlığın hərgunə asarını ortadan aparıb, onun inkişaf və tərəqqi ocağını söndürübdür. Öz ləyaqətsiz və alçaq məmurlarını hüdudsuz ixtiyarat ilə Azərbaycanı xəraba etməyə, Azərbaycan millətin təhqir edib onun ana dilini və adab rüsumunu ortadan aparmağa göndərmişdir.

Onların məqsədləri ana dilimizi ardan aparmaq, milliyət və mədəniyyətimizin əsasını mütəzəlzil etməkdir. Ta bu vasitə ilə Azərbaycanlı öz parlaq tarixini xatırlamasın.

Bu xətərli nəqşənin icrasında mərkəzin məmurları hər cür fəcaie yaratmaqdan çəkinmədilər.

Azərbaycan oğulları ya zindan guşələrində və ya tunel altında və ya İranın cənub məntəqələrinin pis havalarında tələf olub ortadan getdilər.

Rizaxanın quldur hökuməti Muxtarinin polisi vasitəsilə Azərbaycanda istədiyini etdi, və bir çox Azərbaycanlı Rizaxanın zülm çəkməsi və Muxtarinin əsarət zənciri altında məhv oldular.

İşkəncə və məhrumiyyət fişarı həddindən aşdı.

Rizaxanlar və Muxtarilər ortadan getdilər, amm Azərbaycanlı ruhi də ölmədi, azadlıq ışığı sönmədi.

1320 ci il şəhriyvər hadisəsi yetişdi.

Beynəlmiləli vəziyət İranın daxilində yaşayan millətlərə də azdalıqdan və demokratlıqdan istifadə etmək şəraitini yaratdı. 4 aildən artıqdır ki, bu vaqiədən keçir.

Bu müddət içərisində Azərbaycan xalqı dəfələrlə öz azadlığının ehyası və qanun əsasının icrası üçün mərkəzi hökumətə müraciə edib, lakin hər dəfə ya xüşunət  və çoxlu etinasızlıqla üzləşib və ya qovulublar.

Bu müddət içərisində Azərbaycanlı mərkəzi hökumətdən sərniyzə, zor, qanun əsasının tapdalanması, azdlıq və demokratlıq üsulunun məhv olması və faşisti əməliyyatdan başqa bir şey görməmişdir.

Tehran mürtəceləri Azərbaycanı xarab etməklə və bu torpağın zəhmətkeş xalqını iflasa salmaqla Tehranın zahiri gözəlliyinə gün bəgün təvəcceh edib və bizim qanuni təqazalarımızı istehza və etinasızlıqla

qarşılamışlar. Azərbaycan xalqı qanun icazə vermiş həddə kimi öz qanuni təqazalarını təqib etdi. Lakin mərkəzi hökumətin mənfi cavabına rast gəldilər.

Aydın dır ki, beş milionluq bir millətin müqəddəratına bu qədər etinasızlıq və ehanət göstərmək, bu günku dünyada ki, Azərbaycandan kiçik millətlər istiqlal ya xudmuxtarlıq və ya demokraty hökumətə malik olublar, dözülməz bir işdir.

Buna görə də 150 min nəfər Azərbaycan xalqı tərəfindən intixab olunmuş nümayəndələr aban ayının 29 da Təbriz şəhərində yığışıb, Azərbaycan millətinin böyük konqrəsini təşkil verdilər.

Və bu böyük konqrənin polad təsmimləri təqibində siz Azərbaycan kişiləry və mərdana arvalarının səslərini eşidirsiniz ki, onlar tamam qüvvəlarilə azadlıq və demokrasının bərpası və millətin əsasının möhkmlənməsi və muxtariyyətin ələ alınması uğrunda qiyam etmişlər

**Azərbaycan Məclisi Milli İstəyir**

Bu müqəddəs qiyamın hədəfi elə bir üsulun təqviyəti və möhkəmlənməsidir ki, onun mucibincə demokratik şəraitində Azərbaycan muxtar və azad yaşamağa haqlıdır.

Bu məqsuda çatmaq üçün Azərbaycan Məclisi Milli açmağı əvvəllinci bir iqdam hesab edib onun təxirsiz olaraq əməli olmasını tələb edir.

Azərbaycan milləti öz vəkillərini mərkəzdəki, məclisi şurayi milliyə göndərməklə bərabər lazım görür ki, öz milli muxatriyyətinin hifzi və azrzularının əməli olunması üçün özünə məxsus bir məclisi millisi olsun. Bu bir haqdır ki, Azərbaycan millətinin böyük konqrəsinin təsvibindən keçmişdir. Biz bu muqəddəs və məşru haqqımizı almaqdan ötrü var qüvvəmizlə fədakarlıq edəcəyik.

14 cü məclis, 15 ci dövrənin intixabatının təhrimi ilə qanun əsasını ayaqları altına qoyub məşrutiyyət qarşısında böyük bir xəyanətə iqdam etmişdir. Ondan ötrü ki, qanun əsasının mütəmmiminin7 ci əsli mucibincə “məşrutiyyəti əsaası cüzən və küllən tətil olunmaz.”

Qanun əsasının 5 ci əsli də aşkar deyir: “intixab olanlar iki il müdtəinə intixab olurlar və bu müdəttin əvvəli tamam vilayət və əyalətlərdən intixab olmuş vəkillərin Tehranda hazır olduğu gündən başlanaraq iki il müddətindən sonra taza vəkillər seçilir. Və camaat keçmişdəki yaxşı vəkilləri tazadan intixab etməkdə muxtardırlar.”

İntixabat qanunun 53 cü maddəsi mucibincə intixabatın qurtarmasına beş ay qalmış taza intixabatın müqəddimatı fərahəm eilməlidir.

Və üç ay intixabatın qurtarmasına qalmış taza intixabat başlanmalıdır və bu tərtib ilə məşrutiyyət bir gün belə tətil olmamalıdır. Qanun əsasının bu əsli müsəlləmi üzrə məclisin xəyanətkar əksəriyyəti tərəfindən 15 ci dövrənin intaxabatının təhrim edilməsi qanun əsasının kamilən müxalifidir. Buna görə Azərbaycan millətinin milli məclisinin, mərkəzi və məclis şurayi millinin intixabatını icra etməyə mərdanalıqla qiyam edib müəffəq olacaqdır, bu fədakarlıqdan dayanmayacaqdır.

Azərbaycanlılar bu vasitə ilə məşrutiyyət inqilabının üsuluna və demokrasının paydarlığına nisbət öz iyman və əqiydələrini göstərib təsmim tutmuşlar ki, azadlıq və demokrasi düşmənlərinə öz polad iradələri ilə diş sındırıcı cavab versinlər.

**Millət Özü İntixabat Fərmanını Sadir Edir**

Qanun əsasi mütəmmiminin 26 cı əsli mücibincə “məmləkətin qüvvəsi millətdən ibarətdit”. Bu maddəyə görə intixabat fərmanını sadir etməyə millətdən başqa bir iüksək və saleh məqam yoxdur.

Buna görə millətimiz ciddi təsmim tutur ki, öz rəşid oğullarının fədakarlıqlarının səmərəsi olan qanun əsasını hifz edib və bu qanunun əslində millətə mənzur olan hüquqları difa edəcəkdir.

Bu gün azərbaycan milləti rəşadətlə və uca səslə məclisi milli intixabatının fərmanlnl sadir edir.

**Azadlıq Qurbalıq İstətəyər**

Azadlıq qurban vermədən ələ gəlməz.

Azərbaycan milləti öz məclisi millisini qurmaq və milli muxtariyyətini, ana dilini, biləxərə bir həqiyqi demokrası rejimini qurmaq yolunda bu qurbanlıqları verməyə səmim qəlbdən hazirdir.

İndiki Tehranın nalayiq və cinayətkar hökuməti bu yolda öz sərbazlarını mücəhhəz edib bizə elan cəng verir. Vəzifəmizdir ki, vaxtı tələf etmədən öz mübariz və qəhraman sərbazlarımızı, yani Azərbaycan millətinin iftixarlı və ğeyrətli oğullarını azadlıq almaq və demokrası qurmaq yolunda mübarizə meydanına göndərək. Azərbaycan milləti inanır ki, şərafətli əfsərlər, guruhbanlar, sərbazlar, jandarmlar və pasibanlar Azərbaycan millətinin düşmənlərinin dəsiysələrinə aldanmayıb,zəhmətkeş millətin pulu ilə alınmış əsləhədən qardaş qanı tökməyə istifadə etməyəcəklər və heçvaxt öz Azərbaycanlı bacıları, anaları, qardaşları və atalarına ki, Azərbaycan millətinin səadəti və azadlığı yolunda mübarizə edirlər şəmşir çəkməyəcəklər.

Biz inanırıq ki, bu müqəddəs nehzətin təqibində sayir əyalət və vilayətlər də azdlıq bayrağını qaldırıb və sayir yerlərin azadlıqdan məhrum qalmış və sitəm görmüş xalqları da intixabatın təhrimi səddini sındırıb, Tehran məclisinin mürtəce və nasaleh əksəriyyətinin ziddinə məclisi şurayi milli intixabatını başlayıb, bununla da vilayəti əncümənlərin qurulmağına iqdam edəcəklər. Azərbaycan milləti iftixar edir ki, yenə də məşrutiyyət inqilabı kimi azdlıq və demokrası yolunda İran millətinin rəhbərliyini öhdəsinə götürür.

Buna görə Azərbaycan Heyət Millisi iftixarlı Azərbaycan milləti adından və Azərbaycan xalqının ümum təbəqatı adından Azərbaycan əfradına dəstur verir ki, azadlıq düşmənlərinin cəbhəsini sındırmaq və millətin müqəddəs arzularını əməli etmək üçün axırıncı mərhələyə qədər irəli getsinlər.

Yaşasın Azərbaycan Milləti!

Yaşasın Azərbaycan Məclisi Millisi!

Yaşasın Azərbaycan Milli Muxtariyyəti!

Yaşasın Azərbaycanın Ana Dili!

Yaşasın iranın İstiqlaliyyəti!

**“Azərbaycan” şümarə 75, azər 19, desambr 10**

# MƏCLİS MİLİMİZDƏN NƏ GÖZLƏNİLİR

Azərin 21 də Məclis Milimizin iftitahi gözlənilir. Olabilsin ki, yolların bağlı olduğuna görə Ərdəbil, Xalxal və Astara nümayəndələri gəlib çıxa bilməsinlər. Bunla belə əksəriyyət vaxtında hazır olabiləcəkdir.

Məclisin qabağınd çoxlu əsaslı məsələlər durur ki onların hamısından əslən onun əsasi və daxili nizamnaməsını vücuda gətirmək işlərini düzgün yola qoymaqdır.

Bu iş bizdə sabiqəsiz olduğu üçün nöqsan ola bilər. Vəli işin binasını qurduqdan sonra nöqsanları rəf etmək müşkül deyildir.

Məclisin quruluşundan sonra Milli Muxtariyyətimizi əməli etmək yəni dövlət vücuda gətirmək məsələsi durur. Məclis gərək bu məsələni çox ciddi və dəqiq bir surətdə həll etsin. Qətn Milli hökumətimiz dövlət heyatı yəni vəzirlər kabinəsi şəklində olmalı. Məclis Milimiz özünün ən fəal, ən məlumatlı, ən fədakar üzvlərindən onu təşkil etməli dir.

Dövlətin bərnaməsinə, proqramına artıq diqqət etmək lazımdır. Bu bərnamə xalqımızın ehtiyacları, arzuları və təkamul və tərəqqi payə və əsasları üzərində tənzim edilməli dir. Milli şüarlarımız, Firqəmizin məramnaməsi, dövlətimizin proqramının əsasını təşkil etməli, xalqa verilən vədələri əncam vermək bərnamə vasitəsilə dövlətə tapşırmalıdır.

Hamı bilir ki, milli bir hökumət, milli müslləh bir qüvvəyə malik olmasa öz arzu və amalını icra edə bilməz və daimən xətərdə və təhdid altında qalar. Ona görə məclisimiz milli müslləh xalq qoşunu vücuda gətirmək üçün dövlətə ciddi tapşırıq verməli, xalq qüvvtininn təşkilini qanun vasitəsilə təmin etməlidir.

Bu məsələlər zahirdə nəzərə kiçik gəlirsə, həqiqəte əmərdə çox böyük və çox mühüm məsələlərdir. Milltimizin müqddəratı və vətənimizin gələcəyi bu məsələlərin düzgün surətdə həll edilməsinə bağlıdır.

**Mir Cəfər Pişəvəri**

**(« Azərbaycan» şümarə 76 azər 20 dekabr 1 )**

# AZƏRBAYCAN MƏCLİS MİLLİSİNDƏ

Azərbaycan Məclis Millisinin 1 - ci cələsəsi çərşənbə günü Azər ayının 21 - də səhər saat 9 yarımda rəsmən təşkil tapdı. İddeyi hazirin 75 nəfərdən ibarət idi. İbtida ağayi Nizamüldövlə Rəfii məclisi açıq elan edib dedilər, bism illahi rəhman əlrəhim, nəzər be təqzaye əhaliye Azərbaycan ba muxtariyyət dər daxle İran mən bu gün Məclis Milliye Azərbaycanı açıq elan edirəm. Əlhəmdövlillah. bəndə bu gün məmur oldum ki, Azərbaycan Məclis Millisini açıq elan edəm. İcazə istirəm ağayi Vilayi ilə Bəyat Makuyi müvəqqəti münşigərlik simətinə mənsub olsunlar. Ağayi Rəfiinin pişnahadı əksəriyyətlə qəbul oldu.

Ağayi Qiyami pişnahad etdilər ki, ələlüsul məclisin daxili nizamnaməsini təsvib etmək üçün bir Heyəte Rəiseye Müvəqqəti lazımdır. Buna görə də mən ağayi Pişəvərini, doktor Məhtaşı, İlhamini Müvəqqəti Heyət Rəisə üçün pişnahad edirəm.

Ağayi Qiyaminın pişnahadı əksəriyyətlə qəbul olub Heyət Rəiseye Müvəqqəti öz yerlərində hazır oldular.

Ağayi Pişəvəri - əgər icazə versiz məclisin nizamnaməsini ağayi Vilayi oxusunlar. Mən pişnahad edirəm ki, nizamnaməni oxuduqdan sonra tək - tək maddələrinə rəy alınsın. Nizamnamə barəsində hər kəsin pişnahadı olsa yazıb Heyət Rəisəyə versin ki, gələcəkdə onu nəzərdə tutsunlar.

Ağalardan bir xahışım vardır, Məclise Milli mitinq deyildir, əl vurmaq və ibraz ehsasat etmək məclisə yaramaz.

Bu qism ibraz ehsasat məclis üçün münasib deyildir. əgər biz istəyək işimizi qabaqdan aparaq gərək məclisin daxili nizamnaməsini kamilən müraat edək.

Ağayi Vilayi nizamnaməni oxumağa başladılar.

Nizamnamə oxunduqdan sonra ağayi Pişəvəri hər maddənin ətrafında geniş surətdə tozihat verdilər. Bəzi maddələr barəsində aşağıda qeyd olunan şəkildə nümayəndələr tərəfindən təzəkkürat verilib:

Ağayi Haşimniya: vəzir və rəis qəziyyəsi nə cür olmalıdır ? Aya vəzir haman rəislərin işin görəcək ya ayrı işə məmurdur ?

Ağayi Pişəvəri: xeyir vizarət təşkil tapdıqdan sonra rəyasət olmayacaq. Fəqət Azərbaycanın ətraf şəhərlərində və aşağı idarələrdə rəis olacaqdır. Böyük işlərə vəzir rəsidəgilik edəcəkdir.

Ağayi Moiri, - ərz edirəm vizarəte xarici əgər Tehranda bir maahidə ya qərardad bağlaya ki, bizim zərərimizə olanda nə etməliyik ?

Ağayi Pişəvəri: ağayi Moirinin dediyindən belə anlaşılır ki, biz gərək bu barədə çox dəqiq olaq. Hənuz Tehran məlum deyil bizim muxtariyyətimizə nə cür baxır. Əgər o bu barədə aqilanə rəftar etməsə onda bizimlə Tehranın münasibatı bu məclisin öz əmrinə bağlıdır.

Babgin Qoruqçiyan: Azərbaycanda vizarəte xaricə də olmalıdır. Zira dövlət bu günə qədər Azərbaycanı hər heysdən xərabə qoyub ona bir maşın karxana təhiyyə etməyibdi. Buna görə bizim gərək xarici vizarətimiz də olsun ta onun mocibincə xarici dövlətlə daxil müzakirə olub karxana və sair sənəti şeylər varid edək.

Ağayi İlhami, ağayi Bagin gərək təvəccöh etsinlər ki, iqtisadiyyat ilə siyasəte xaricinin çox fərqi vardır. Vizarəte xaricə ölkələrilə siyasi münasibat saxlamaq üçündür nə ticarət etmək üçün. Buna görə bizim xarici siyasətimizi İran dövləti özü idarə edəcəkdir. İqtisadiyyatımızı əlbəttə özümüz idarə edə bilərik.

11 - ci maddə oxundu. Ağayi Şahin dedi: mən yüzdə 25 verməyə əqidəm yoxdur.

Atəşxan Bəyat Maku: biz ağayi Pişəvərinin dediyi kimi İran dövlətinin istiqlaliyyətinə müvafiq və əlaqəməndik. Azərbaycanın yüzdə 25 aydatını gərək Tehrana göndərək. Zira əlavə əz məsarife daxili xaricdə diplomati idarə etməyə çox büdcə lazımdır və genə də bizim Tehranakı nümayəndələrimizə orada hüquq veriləcəkdir.

Məclisin daxili nizamnaməsi əksəriyyətlə təsvib olduqdan sonra ağayi Pişəvəri dedilər: Bu nizamnamənin mümkündür çox nəvaqisi olsun. Buna görə də hər kəsin pişnahadı ya ıradى varsa yazsın Heyəte Rəisəyə versin ta onu oxuyub nizamnaməni islah etsinlər. Əlbəttə nizamnamə sonra bir də məclisə gətiriləcək ta dübarə təsvib olsun.

Ağayi Moiri: ərzim yoxdur fəqət budur ki, onu bir neçə nüsxədə yazıb nümayəndələrə versinlər.

Ağayi Pişəvəri: əlbəttə bu nizamnamədən bir nüsxə hər vəkilə veriləcəkdir.

İndi biz nizamnamə mocibincə daimi Heyət Rəisə seçməliyik. Ağayan hər kəsi səlah görsələr bu məqama namizəd etsinlər. Mənim əqidəmcə ağayi Şəbüstəri ki, əziz və fəal dostumuzdur, bu məqama namizədliyə layiqdir. Ağalar yenə də öz əqidələrində azaddırlar.

Ağayi Şəbüstəri 69 məxfi rəy ilə Azərbaycan Məclis Millisinin daimi rəyasətinə intixab oldular.

Sonra ağayi Rəfii (68 rəy ilə ), Padgan (70 rəy ilə ), Covdət (63 rəy ilə ), müavinəte rəyasəte məclisə intixab oldular.

Ağayi Məhəmməd Əzima ( 59 rəy ), və Mir Rəhim Vilayi (54 rəy ), məxfi rəy ilə münşiliyə intixab oldular.

Ağayan Dilməqani (56 rəy ), Murad Əli Teymür i( 55 rəy ), Əsğər Dibaiyan ( 57 rəy ) məxfi ilə Üzviyyəte Heyət Rəisheyi Məclisə intixab oldular.

Ağayi Pişəvəri: mən ağayi Şəbüstərinin Rəyasəte Daimi Məclisə intixab olmağını təbrik edirəm. İndi bizim vəzifəmiz qurtardı. Ağayi Şəbüstəri buyursunlar öz vəzifələrini əncam versinlər.

Ağayi Şəbüstəri məclisin rəyasət mizinin arxasında qərar tutub dedilər:

Ağayanın bəzisinə məlumdur ki, 29 abanda 700 nəfər nümayəndə Məclise Müssisane Azərbaycanda iştirak etmişdilər ki, 150 min nəfərdən mütəcaviz Azərbaycanlı onları özünün tərəfindən nümayəndə intixab etmişdir. Məclise Müəssisan öz arasından 39 nəfərlik bir Heyət intixab etdi. Bu Heyət də 9 nəfərlik bir Heyəte rəisə öz aralarından intixab etdilər ki, Azərbaycan Heyəte Millisi adlanırdı. Heyəte Milliye Azərbaycana tapşırılmışdı ki, Azərbaycanın intixabatının vəsailini fərahəm etsin. Bu Heyət də 21 gün zərfində bütün Azərbaycanda intixabatı başlayıb xatəmə verdi. Bu gün çox iftixar edirəm ki, Azərbaycan Məclise Millisi rəsmən iftitah tapıbdır. Bu məclisin iftitahsilə Heyəte Milliye Azərbaycanın vəzifəsi axirə çatır. Buna görə də Azərbaycanı gələcəkdə idarə etmək üçün bir dövlət lazımdır. Demokrasi üsulunda qeyd olduğu kimi biz də məclisdə əksəriyyətə malik olan hizbin sədrini dövlət təşkil verməyə dəvət edirik. Ağayi Pişəvərini ki, Demokrat Firqəsinin möhtərəm sədri ki, bizim ən fəal, ciddi, səmimi dostlarımızdandır və Azərbaycanın azadlığı uğrunda böyük fədakarlıqlar edibdir, Azərbaycan dövlətını təşkil verməyə dəvət edirəm. Xahiş olunur böhrana tezliklə xatəmə verməkdən ötrü öz kabinəsini təcili surətdə təşkil verib gün ortadan sonra məclisə müərriflik etsinlər.

Məclis saat 11 yarımda qurtarıb ikinci cələsə saat 3 ə mövkul oldu.

**(«Azərbaycan», şümarə 78, Azər 22, dəkabr 12 )**

# AZƏRBAYCAN MİLLİ DÖVLƏTİNİN TƏRKİBİ

Azərbaycan Məclis Millisinin dünən gün ortadan qabaqki cəlsəsində Azərbaycan Demokrat Firqəsinin rəısı ağayi pişəvrini Azərbaycan Milli Dövlətini təşkil verməyə namzəd və məmur etdi.

Ağayi Pişəvəri gün ortadan sonraki cəlsədə öz kabınəsin aşağıda qeyd olunan tərtib üzrə Məclis Milliyə müərriflik etdilər:

| | |
|---|---|
| 1- Baş vəzir | ağayi Seyid Cəfər Pişəvəri |
| 2- Daxilə vəziri | aqay Doktor Səlamullah Cavid |
| 3- Xəlq Qoşunları vəziri | ağayi Cəfər Kaviyan |
| 4- Fəlahət vəziri | ağayi Doktor Məhtaş |
| 5- Maarif vəziri | ağayi Məhəmməd Biriya |
| 6- Səhiyyə vəziri | ağayi Doktor Orəngi |
| 7- Maliə vəziri | ağayi Qulamriza İlhami |
| 8- Ədliə vəziri | ağayi Yusif Əzima |
| 9- Yol, Post, Teleqraf və Telefon vəziri | ağayi Kəbiri |
| 10- Ticarət və İqtisad vəziri | ağayi rza rəsuli |

11 - İş və Zəhmət vəziri təyin olunana kimi o vizarətxanaya mərbut olan işlərə Baş vəzirlik nəzarət edəcəkdir.

Kabınə müərriflik olduqdan sonra ittifaq ara ilə təsvib olub, sonra məclis tərəfindən ağayi Zəynəlabdin Qiyami Divani- Təmiz rəyasətinə və ağayi Firidun İbrahimi Azərbaycan Müdəiyül-Ümumluğuna intixab oldular.

Ağayi Pişəvəri öz dövlətinin bərnaməsini geniş surətdə təşərih edib və Azərbaycan Milli Hökümətinin proqramını (bərənaməsini) aşağıda qeyd olan təfsil üzrə qəraet etdilər.

**(«Azərbaycan», şümarə 78, Azər 22, dəkabr 12 )**

# AZƏRBAYCAN MİLLİ HÖKUMƏTİNİN PROQRAMI

Azərbaycan Milli Nazirlər Kabineti, Azərbaycan xalqının illər boyu arzu etdiyi milli muxtariyyətini vücuda gətirmək və bu vasitə ilə Azərbaycan xalqının milli ehtiyaclarını həll edib onu inkişaf və təkamülə sövq etmək üçün aşağıdakı vəzifələri özünün yaxın hədəfi və proqramı təyin edir.

1- Milli muxtariyyətimizi dünyaya tanıtmaq, onun davam və bəqasını təmin etmək üçün ciddi tədbirlər gölrüb, səlahiyyətdar məqamat ilə müzakirəyə girişmək, İranin istiqlal və ərzi bütövlüyünə xələl gətirmədən milli dövlətimizi demokratik əsaslar üzrə qurmaq və bu yolda qabağa çıxa bilən çətinlikləri aradan qaldırmaq.

2- Milli muxtariyyətimizi möhkəm əsaslar üzrə qurub, onu xalqa yaxınlaşdırmaq məqsədi ilə çox tez bir surətdə vilayət əncümənlərinin seçgilərinə başlamaq və yerli idarələrin nəzarətini onların ixtiyarına vermək.

3- Şəhərlərimizin abadlığı üçün yubadılmadan şəhər əncümənlərini, demokratik əsaslar üzrə seçib, onların işlərini düzgün bir surətdə cərəyana salmaq.

4- Yerlərdə sağlam azadlıqsevər adamlardan rayon və qəsəbə başçıları seçib, onların vasitəsi ilə keçmiş zalimcəsinə hərəkətlər və xalqı təhqir edici əməllərin qarşısını alıb, bütün ölkədə təhlükəsizlik və asayişi təmin etmək.

5- Jandarm və polis idarələrini xain və xalqı əzib fəlakətə sövq edən şəxslərin əlindən çıxarıb, azadlıqsevər və vətənsevər şəxslərə tapşırmaq və onların işlərini xalqın arzu və ehtiyaclarına mütənasib bir hala salmaq.

6- Vergi qanunlarını nəzərdən keçirmək və maliyyə idarəsinin gəlir və xərclərini təftiş etdikdən sonra, çox tez bir surətdə milli büdcə layihəsini Milli Məclisə təqdim etmək. Ümumiyyətlə mali siyasətin gəlir və xərclərin əsasını məmləkətin inkişaf və təkamülü üzərində qurmaq.

7- Muxtariyyətimizi, Milli Məclisimizi və Milli Dövlətimizi qurmaq və onun gələcəyini təmin etmək üçün kəndlərdə və şəhərlərdə yaranmış fədai dəstələrini bir mərkəz ətrafında mərkəzləşdirmək, milli xalq qoşunu yaratmaq və bu qoşunun silah və tənzimatını müasir hala salmaq məqsədi ilə ciddi tədbirlər görmək.

8- Mədəniyyət və maarif sahəsində dövlətimizin qabağında iki böyük məsələ durur. Birincisi öz milli dilimizi bütün məktəblərdə rəsmi olaraq qəbul və icra etmək, ikincisi isə ümumiyyətlə savadsızlığa qarşı mübarizə aparmaq, pulsuz və icbari təhsili milli yoluna qoymaq. Bunların hamısından çox, Milli Hökumətimizin ali təhsil məsələsinə əhəmmiyyət verib, milli universitet əsasını qurmağa çalışmalıdır.

9- Ticarət və iqtisad sahəsində Milli Hökumətimiz birinci növbədə milli sənayeimizə əhəmmiyyət verib, mövcud zavodları düzgün yoluna qoyacaq. İkinci növbədə də yeni zavodlar açmaqla, məmləkətin sənayeinə olan ehtiyaclarını təmin edəcəkdir. Ticarət sahəsində dövlətimiz Azərbaycanın ticarət mərkəzi ola bilməsi üçün tədbirlər görəcək və yollar arayacaqdır.

10- Yolların təmir və çəkilməsi də, poçt və teleqraf və telefon kimi əlaqə vəsaitinin genişləndirib, müasir hala salınması hökumətimizin əsasi vəzifələrindəndir.

11- Kəndli ilə ərbablar arasında yaranan münaqişələri aradan qaldırmaq üçün qarşılıqlı razılıq şərti ilə, ciddi qanun layihəsi tərtib edib, bu yol ilə kəndli və ərbab məsələsini həll və təsdiq etmək.

12- Kəndlərdə və şəhərlərdə gündən-günə artmaqda olan işsizliyin qarşısını almaq üçün dövlət torpaqlarını tezliklə əkinçilər arasında bölüşdürmək. Həmçinin Azərbaycanı tərk edib onun xaricində milli muxtariyyətimiz əleyhinə təbliğat aparanların da yerlərini zəbt edib kəndlilərin ixtiyarına qoymaq ilə torpaqsız kəndlilər ayaqlandırılmalıdır. Bundan əlavə xalqımızın əksəriyyətini kəndlilərin təşkil etdiyi üçün gələcəkdə Aqrar Bankı elə bir surətdə gücləndirmək lazımdır ki, eliyə bilsin kəndliyə kredit verməklə torpaq məsələsini həll etsin və ərbablar öz istək və rəğbətləri ilə torpaqları kəndlilərə adilanə qiymətə sata bisinlər.

13- İşsizliklə ciddi mübarizə etmək üçün ciddi tədbirlər görmək, əlsənayisi, yol işləri, zavodlarin təsisi, əkinçilik və ticarətin artması vəsaitindən ciddi surətdə istifadə etməyi lazım görür.

14- Fəhlə və zəhmətkeşin məişətini düzgün yola qoymaq üçün iş və əmək qanun layihəsini hazırlayıb məclisə təqdim etməli və eyni zamanda işçilərin sığorta edilməsini icbari etmək üçün tədbirlər görməlidir.

15- Səhiyyə işinə diqqət yetirib birinci növbədə ümumi və keçici xəstəliklərin qarşısının alınmasi və xüsusilə kəndlərdə və aşağı sinfə mənsub əhaliyə həkim və dərman çatdırmaqla xalqın səhiyyəsini təmin etməlidir.

16- Milli Şura Məclisi tərəfindən bu ana qədər qərara alınmış qanunları, Azərbaycan xalqının həyatına və milli muxtariyyətinə münasib bir surətdə islah edib təzə faydalı layihələr təqdim etmək.

17- Xüsusi mülkiyyət haqında Azərbaycan Milli Hökuməti, məmləkətin bütün sahələri üçün xüsusi mülkiyyəti qəbul edib, məmləkətin və xalq iqtisadiyyatının inkişafına və xalqın vəziyyətinin yaxşılaşmasına səbəb olan hər növ xüsusi hərəkətlərə köməy edəcəkdir.

18- Azərbaycan Milli Hökuməti, ölkədə yaşayan ümum əhalinin vicdan və inam azadlığına ehtiram edəcəkdir.

**19-** Azərbaycan Milli Hökuməti, Azərbaycanlılarla birlikdə Azərbaycanda yaşayan bütün vətəndaşları xüsusi ilə kürdlər və başqalarını hüquq və qanun qarşısında eyni hesab edir.

**20-** Azərbaycan Milli Hökuməti, mərkəzi İran hakimiyyəini tanımaqla yanaşı bu hökumətin Azərbaycanın muxtariyyətinə müxalif olmayan, Azərbaycan xalqının təsisçilər məclisi və Azərbaycan məclisinin müraciətnamə və qərarlarında qeyd olunan milli hüquq tələblərinə zidd olmayan tədbirləri həyata keçirəcəkdir.

Proqramın ətrafında geniş surətdə müzakirə edikdən sonra səsə qoyulub, Azərbaycan Milli Hökumətinin proqramı səs çoxluğu ilə qəbul olundu.

**(«Azərbaycan», şümarə 78, Azər 22, dəkabr 12 )**

# AZƏRBAYCAN MİLLİ DÖVLƏTİNİN ELAMİYYƏSİ

Azərbaycan Məclis-Millisinin intixab etdiyi Azərbaycan Milli Dövləti iranın istiqlal və təmamiyyətini hifz etməklə bərabər işə şüru etdiyini bu vasitə ilə bütün xəlqə  e`lam edir.

Bu e`lamiyyə müntəşir olan gündən e'tibarən malikiyyət-xüsusi məhfuz olmaq şərtilə bütün Azərbaycanda olan dövlət idarələri taza hökumətin təhti-ixtiyarına geçdiyindən ümum dövlət məmurlarına öz vəzifələrini düzgünlük və sədaqət ilə əncam vermələri tapşırılır, və taza dövlətin əmrlərinə itaət edib onun dəsturu ilə rəftar edən karməndlər üçün münasib iş şəraiti vicuda gətiriləcək. İşləməkdən imtina edənlər isə kəmal-ehtiram ilə istədikləri yerə göndəriləcəklər.

Azərbaycan Milli Hökuməti xəlqin səadət və xoşbəxtliyindən ötrü qurulduğu üçün ümum xəlqi fəaliyyətə, düzlüyə, asayiş və əmniyyəti hifz etməyə bir-birilə qardaşvari yaşamağa də'vət edir.

Əmniyyəti ixlal edən və xəlqin mal və canın, namus və həyatina təcavüz eləyənlər, həmçinin dövlət malına xəyanət əli uzadıb dövlət idarələrindən sui-istifadə edənlər və ya dövlət idarələrində xərabkarlıq, müsamihə və öz vəzifəsində kütahlıq etmək kimi xainanə təşəbbüslər büruza verənlər isə xəlqin düşməni hesab olunub və millət və dövlət yannında nifrət və inzicar qazanmaqdan əlavə qanuni məhkəmə vasitəsilə mücazat ediləcəklər.

Hamıdan xəlqə və ölkəyə və Azərbaycanın gələcəyi yolunda ciddiyyət gözlənir, dövlət isə onun şəraitini vicuda gətirməyə çalışacaqdır.

Azərbaycan Milli Vəzirlər Heyətı eyn zəmanda Azərbaycanda məmuriyyətləri olan xarici dövlətlərin diplomasi nümayəndələrinə itila' verir ki, kəma-fissabiq onların beynəlmiləl qanunlar şəraitində olan həq və ixtiyarları kəmal-diqqət və ehtiram olunacaqdır. Həmçinin demokratik dövlətlərin ətba'inin asayiş və əmniyyətini hifz etmək yolunda Milli Dövlət heç bir fədakarlıqdan xuddarlıq etəmiyəcəkdir.

Bugundən e'tibarən dövlətə mütəəlliq olan mənqul və qeyri-mənqül əmval və həmçinin nəğd və cins və e'tibar Milli Dövlət ixtiyarına geçdikdən onların saxlamağına müvəzzəf olan dövlət məmurları geçmişdə verdikləri təəhhüd və qəbul etdikləri məsuliyyət üzrə onları hifz və hərasət etməyə məcburdurlar. Bu əmvalı heiyfu-meyl edənlər ağır cəzalar ilə mücazat görcəklər.

Artıq Azərbaycan Milli Hökuməti təhəqqüq tapmış, xəlqin iradəsilə Daxili Milli Dövlətimiz vicuda gəlib rəsmi surətdə xəlqimizin arzu və amalını icra etməyə başlamışdır. Xəlq isə öz Milli Hökumətinə var qüvvəsilə müsa'idət göstərib onun fəaliyyəti üçün münasib şərait vicuda gətirəməlidir.

Yuxarıda qeyd edidiyi kimi dövlət var qüvvəsilə əmniyyəti hifz etməyə çalışır. Ona görə xəlq üçün nigaran olmağa heç bir dəlil yoxdur. Hər kəs öz işınə məşğul olmalı, öz istədiyi kimi yaşamalıdır. Bazarı bağlamaq, mədrəsələri tə`til edib vəhşət və iztirab yaratmağın mə'nası yoxdur, hökumət öz bərənaməsini xəlqin ehtiyacatı üzərində qurmuşdur. Ona görə xəlqi narahat edən hadisələrə yol verilməyəcəkdir.

Təsadüfi hadisələrə isə çox tez bir zamanda xatimə veriləcək. Macəracular, asayişı ixtilal edənlər saleh məhkəmələr tərəfindən mühakimə və şədid bir surətdə mücazat olunacaqlar.

Heç bir pis ittifaq düşməyəcək, heç kəsin hüququna təərrüz olmayacaqdır. Milli Hökumət nəzmiyyə idarəsini taza qüvvələr, vəsi' ixtiyarat ilə gücləndirmişdir. Hərci-mərc və naəmnliyə artıq meydan

verilməyəcəkdir. Məxsusən mədrəsələrimiz həman sabiq proqramlarını tə'qib etməli, mühəssillərimiz var qüvvələrilə imtahanlara hazırlaşmalıdırlar.

Kəndlərdə və şəhəristanlarda isə ciddi surətdə işə başlanıb adi hal vicuda gələcək və dövlət məmurları Fədailərin ğeyri-məsul əşxasın dəxalti olmadan öz vəzifələrini əncam verməyə qadir olacaqlar. Fədai dəstələri intizam altına alınıb müəyyən mərkəzə tabə' olacaq və bu vasitə ilə hər bir sui-hadisə ehtimalının qabağı alınacaqdır.

Gedin çalışın asudə olun, millətimizin gələcəyi və səadətini təəmin etmək üçün qəbul etdiyiniz vəzifəni sədaqət və iyman ilə əncam verin. Dövlət ümum həmvətənlərdən bunu tələb edər.

O günlərdə Azərbaycan xəlqinin gələcəyi barəsində hər kəs bir cür düşünürdü. Hetta Firqəmizin rəhbərliyi sayəsində vicuda gələn Milli Hökumətə iki ürəkliliklə də baxanlar var idi. Aşağıdakı məqalə o vəqt Firqə sıralarında çalışan bə'zi mürəddəd rövşənfikirlərin nəzərindən bir nümunə olmaq üçün burada dərc edilir. Bu məqalə Azərbaycanın 79-cu nümrəsində «Novruz» isim-müstə'arı altında yazılmışdır.

**(«Azərbaycan», şümarə 79, Azər 23, dəkabr 14 )**

# AZƏRBAYCAN MƏCLİSİ MİLLİSİNİN DAXİLİ NİZAMNAMƏSİ

1- Azərbaycan Məcclis Millisi nümyəndələrin yarısından çoxu Təbrizdə olduğu vaxt iftitah olunur.

2- Məclisi Millinin birinci cələsəsi nümatəndələrdən ən çox yaşlısının rəyasəti və iki nəfər ən cavan nüməyəndələrin katibliyi ilə açılır.

3- Məclis iftitah edildikdən sonra ələni rəy ilə müvəqqəti sürətdə bir rəis və iki katib intixab olunur.

4- Bu müvəqqəti heyət fovrən nümayəndələrin etibarnamələri və intixabat cərəyani haqqinda güzariş vermək üçün Heyət Nəzarətə danişmaq icazəsi verir.

5- Etibarnamələr nəzərdən keçirildikdən sonra məxfi rəy ilə aşağıdakı qərar üzrə 9 nəfərdən ibarət bir daimi heyət intixab olunur.

Heyəti Rəiysə: bir nəfər rəis, üç müavin, iki katib, üç üzvdən ibarət olur.

**Heyət Rəiysənin Vəziyfələri**

1- Məclisin cələsələrini idarə etmək.

2- Məclis tətil vaxtında, onun vəzifələrini öhdədar olub dövlət tərəfindən verilən qanun layihələrini azmayiş üçün qəbul edib ümumi icalısın təsvibinə yetirmək.

3- Heyəti Rəyasəti Məclis, millətin mali və idari işlərini müntəzəm surətdə idarə edib onun illik büdcəsini tənzim və onun gəlir və çıxarını müəyyən edir.

4- Heyəti Rəyasəti Məclis, daxili və idari işlərini dolandırmaqdan ötrü sadə bir idarə və hesabdarlıq təşkil edir və onun işlərini müstəqiymən öz təhti idarəsində saxlayır.

5- Heyəti Rəyasəti Məclisi Millinin idarə işlərinə nəzarət etmək üçün məclisin bazrəslik idarəsini vücuda gətirir.

6- Məclisin açıq iclaslarında qonaq sifəti ilə hazır olmaq üçün xarici diploması nümayəndələri və ruznımə müxbirləri, həmçinin məclis nümayəndələrinin zəmanəti ilə qonaqlara məxsus dəvətnamələr vasitəsilə icazə verilir. Leykən bu şəxslərin müzakiratda iştirak etməyə və izhar əqidə və ehsasat eləməyə haqları yoxdur.

7- Məclisdə rəisin icazəsi olmadan danışmaq olmaz. Növbədən xaric danışmaq üçün, məclisin xüsusi qərarına ehtiyac vardır.

8- Dəsturdan əvvəl danışmaqdan ötrü də məclis xüsusi qərar qəbul etməlidir.

9- Nümayəndələr növbət ilə danışmalı. Bu növbə münşilərdən biri vasitəsilə qeyd və rəyis vasitəsilə elan olunmalıdır.

**Mütəfərriqə Maddələr**

1- Məclisin cələsələri iki növ dur: ələni və məxfi

2- Ələni cələsələrdə diplomasi nüməyəndələr, ruznamə müxbirləri və tamaşaçılar şirkət edə bilər.

3- Məxfi cələsələrdə şirkət etmək üçün, nümayəndələr və vəzirlər və onların müavvinlərindən başqa kimsəyə icazə verilmir.

4- Məclisin danışıqlarında nümayəndələr və heyəti dövlət üzvlərindən və vəzirlərin müavinlərindən başqaları şirkət edə bilməzlər.

5- Qonaqlar və ruznamə müxbirlərindən intizami pozmaq istəsələr, rəis onları iclasdan ixrac edər. Həttə onu müvəqqətən saxlandıra bilər. Əgər onun əməli şədidi olursa saleh məhkəmə vasitəsilə mücazat olunar.

6- Məclis cələsələrinin vaxtını təyin etmək heyət rəiysənin vəzifələrindən olduğu halda, nümayəndələrin onbir nəfərinin kətbi təqazasilə də iclas çağrıla bilər.

7- Məclis binasına silah ilə daxil olmaq olmaz.

8- Məclis Milli üzvlərindən iki əsası komision təşkil olunur. Birinci Malliyə komisionu, ikinci Xalq Qoşunları İşləri komisionu.

9- Müddəiyülümumi küll və Rəiysi Təmiz təyin etmık, məclis vəziyfələrindəndir.

**Dövlət Təşkili Haqqinda**

1- Azərbaycan Milli Muxtar Dövləti, məclis vasitəsilə təyin və təsvib olunur.

2- Məclisi Milli də əksəriyyət qazanan firqənin rəhbəri (lideri) məclis rəisinin dəvəti ilə Heyət Dövləti intixab edib təsvib üçün Məclisi Milliyə təqdim edir.

3- Dövlət, yanı qüvayi mücriyyə, məclis yanı qüvayi müqənninədən tamamiylə ayrı olmalıdır.

4- Azərbaycan Milli Dövləti Vizarətxanaları ibarətdir:

**1) Baş Vəzir**

**2) Daxilə vəziri**

**3) Maliyyə vəziri**

**4) Xalq Qoşunları vəziri**

**5) Ədliyyə vəziri**

**6) Fəlahət vəziri**

**7) Səhiyyə vəziri**

**8) Yol, Post- Teleqraf və Telefon vəziri**

**9) Ticarət və İqtisad vəziri**

**10) İş və Zəhmət vəziri**

**11) Maarif vəziri**

5- Məsul vəzirləri Baş Vəzir təyin edir. Leykən onun təsvibi Məclisi Millinin vəzifələrindəndir.

6- Heyət dövlət müştərək bir surətdə Məclis Milli qabağında məsul olduğu kimi vəzirlərin tk təki də şəxsən məsuldurlar.

7- Məclis Heyət dövlətdən və tək tək vəzirlərdən sual və istiyzah edə bilər və bu halda vəzirlər cavab verməyə məcburdurlar.

8- Əgər dövlətin təqdim etdiyi layihələrdən biri rədd olunursa vəzir onu islah edib tazadan məclisə təqdim edə bilər.

9- Rəiysi Dövlət vəzirləri müərriflik etdikdən sonra dövlətin proqramını Məclisi Milliyə təqdim edər. Məclis onun islah ya rədd edilməsində muxtardır.

10- Hər il dey ayının əvvəlinə qədər dövlət ölkənin büdcəsini Məclisi Milliyə təqdim etməli və məclis isfəndin əvvəlinə dək onu təsvib etməlidir.

11- Məclisi Milli müvəzzəfdir Azərbaycan dövlət ayidatının yüzdə yetmiş beşini Azərbaycanın öz daxili məsarifinə təxsis edib yüzdə igirmi beşini dövləti mərkəzi məsarifindən ötrü Tehrana göndərməyə icazə versin.

12- Azərbaycanın dəxli və xərci Azərbaycanda təmərküz tapmalı, fəqət mərkəzi dövlətə təxsis olunan qismətlər isə Tehrana göndərilməlidir.

**"Azərbaycan" şümarə 79, azər 23, desambr 14**

# AZƏRBAYCANIN DAXİLİ DÖVLƏT RƏİSİ İLƏ TƏBRİZ PADİGANİ FƏRMANDEHİ ARASINDAKI QƏRARDADIN MƏTNİ

Çün Azərbaycan daxili dövləti Azərbaycan Milli Məclisi tərəfindən azərbaycanda əmniyyəti hifz etməyə məmur olmuşdur, aramişi hifz etmək nüqtyi-nəzərindən heçgünə suitəfahüm tövlid etməmək və qardaş qani tökməmək üçün üçüncü ləşgər fərmandehi ilə dəfəat ilə müzakirat və müşavirələr olmuşdu.

Bir neçə gün təbadül-əfkardan sonra biləxərə tarix 22-azər-mah səneyi 1324-də pənşənbə günü saat səkkiz-yarım gün ortadan sonra timsar sərtib Dirəxşani əsləhəni yerə qoymaq üçün müvafiqət və Təbriz padigani ilə həmkarlıq etməyə dayir və Azərbaycan Dövlət Heyəti ilə hövmə də e`lam edib aşağıdakı qərarın əqdinə müvafiq olduğunu izhar etdilər:

1-Təbriz padigani tərəfindən ağayi timsar sərtib Dirəxşani və Heyət Dövlət Daxili canibindən ağayi Seyid Cə’fər Pişəvəri tə’yin olub və şürut məşəruhəni imza etdilər.

2-Təbriz padigani əfradından heçəks dəsturi-sanəvi sadır olmayınca sərbazxana mühəvvətəsindən xaric olmayıb və Daxili Dövlət onların vəsail-zindəganisini və onların maaşını fərahəm gətirsin.

3-Silahların külliyəsi anbarlarda cəm’avərlik olunub Azərbaycan Daxili Dövlət tərəfindən tə’yin olunmuş əşxasın mühafizəsində olmalıdır.

4-Ağayian əfsərandan hər hankısı öz məsqətülrə’slərinə və ya digər nüqtələrə getmək meylləri olsa müsafirət edəbilərlər və Dövlət-Milli hazırdır ki, imkan və vəsil hüdudunda onların müsafirətini fərahəm gətirsin.

5-Həmkarlığa mayil olan və azərbaycanın Arteş-Millisində xidmət etmək istəyən əfsərlər, təhlif və mərasim-sövgənd əncamından sonra dövlət Onları xidmətə qəbul edib və onların zindganlıq vəsiləlrini təəmin edəcəkdir.

6-Üstvarlar və güruhbanlar və sayir əfrad-padigan mərasim-təhlif və sövgənd-vəfadarlıq əncamından sonra, əsləhələr onlara qaytarılacaq və öz sərbazlıq xidmətlərini idaməyə məşğul olacaqlar.

7-Bu qərardad iki nüsxədə təhiyyə olunub ağayi timsar sərtib Dirəxşani Fərmandeh-Ləşkər 3-Azərbaycan və digər tərəfdən ağayi Seyid Cə’fər Pişəvəri Rəis Dövlət Daxili Azərbaycan tərəfindən imza edilib, mübadilə olunmuşdur.

**Üçüncü Azərbaycan ləşgərinin fərmandehi -Sərtib Dirəxşani (imza)**

**Azərbaycan Daxili Dövlət Heyətindən -Seyid Cəfər Pişəvəri (imza)**

# TƏBRİZ PADİGANİ ÖZ ƏSLƏHƏSİNİ YERƏ QOYDU

Təbriz padigani əfsər ərşədlərindən mütəşəkkil komisionda əxz olunmuş təsmimlər nəzərən qan tökmək və qardaş qırqını olmamaq üçün, itlafi nüfus-dövlət, tüccar və sayir şəxslərin əmvali dağılmamaq məqsədinə müvafiq dəstur verirəm ki, külliyi Təbriz padigani öz əsləhəsini yerə qoysun və sadır olmuş e`lamiyyəyə müvafiq rəftar etsinlər.

**Üçüncü Azərbaycan ləşgərinin fərmandehi**

**Sərtib  Dirəxşani (imza)**

# 3-CÜ LƏŞGƏR SƏRBAZLARININ QAÇMAĞI VƏ MÜTƏVARI OLMAĞI

Azərbaycan Milli Dövlət rəisi və 3-cü ləşgər fərmandhi mabeynində olan qərardadın ikinci maddəsində səriyhən qeyd ediləmişdi ki:

«Təbriz padigani əfradından heçəks dəstur sanəvi sadir olmayınca sərbazxana mühəvvətəsindən xaric olmayıb....»

Qərardad imza olandan sonra bilafasilə ağayani əfsəran  sərbazxananı tərk edib, öz mənzillərinə getdilər və sərbazlar da sərpərstsiz qalıb, bilatəklif sərbazxanadan qaçmağa şüru etdilər. Bədiyhi dir ki, bu xilaf əməl sərbazlıq məqamına tövhin olmaqdan əlavə mümkündür ki, şəhərin əmniyyətinə də əsaslı lətmə vırsın. Binaən-əleyh Heyət-Dövlət-Milli Azərbaycan bu əmrin aqibtindən cilovgirlik etmək üçün əmr verilmişdir ki, fövri surətdə müəssir iqdamat olunsun və şəhərin əmniyyəti təəmin və hifz olunsun.

Elə təsəvvür vardır ki, bu pişaməd Mərkəzi Hökumətin dəsturundakı axirinci cümlənin nəticəsidir.

# DÜNƏN GECƏKİ ATIŞMALAR

Dünən gecə şəhərin hər yerində kamil əmniyyət bərqərar idi və intizamat məmurları tərəfindən çox ciddi iqdamat olunub şəhərin əmniyyəti vicuda gəlmişdir. Dünən gecə bə'zi nüqtələrdə baş verən atışmalar fəqət şadəmanlıq nəticəsi idi ki, 3-cü ləşgərin müqaviməti qurtardığına görə edilirdi.

# AZƏRBAYCAN MAARİF VƏZİRİNİN ƏMRİYYƏSİ

## NÖMRƏ 1

Azərbaycan Milli Konqrəsinin təsmimi, Məclise Millinin qərarı və Milli Dövlətin bərnaməsi üzrə Azərbaycan xalqının iradəsi ilə balalarımızın ana dilimizdə təlim və tərbiyə etmək üçün aşağıdakı maddələr nəzərə alınsın:

1 - Bütün milli və dövləti mədrsələrdə Azərbaycan dilində təlim və tərbiyə işlərini qurmaq üçün hazırlıq aparılsın.

2 - Birinci maddənin icrası üçün Azərbaycan maarif vizarəti cənbində milli tədris kitabları təhiyyə etməkdən ötrü dərs kitabları şöbəsi yaradılsın.

3 - Dərs kitablarini təhiyyə edən heyət alim və mücərrəb dəbirlərdən təşkil verilsin.

4 - Azərbaycan dilində nəşr olunan bütün dərs kitablarına həmin heyət nəzarət edib öz nəzəriyyəsini maarıf vizartinə bildirsin.

5 - Dərs kitabları şöbəsində ədəbiyyat - tarix - hesab - fizik - coğrafi və sair qismətlərə aid olan kitablar hazırlansın.

6 - Dərs kitabları şöbəsinin rəyasətinə təcrübəli və sahib məlumat bir şəxs intixab edilsin.

7 - Dərs kitabları şöbəsi beş günə qədər şöbənin bərnamə və büdcəsini təyin edib təsvib üçün maarif vizartinə versin.

8 - Dərs kitabları şöbəsinin məsulları müvəzzəfdir ki, bir aydan gec olmamaq şərti ilə birinci klasdan 4 cü klasa qədər bütün elmi və fənni dərs kitablarını Azərbaycanda təhiyyə edib nəşr olunmasına əncam versin.

9 - Bütün milli və dövləti mədrsələrin müdirlərinə dəstur verilir ki, dərs kitabları çap olunub nəşr edildikcə hər klasa aid olan kitablardan istifadə edib bilafasilə ana dilinə tədris başlansın.

10 - Lazımdır ki, hörmətli mədrəsə müdir və müəllimləri, maarıf işçiləri və maarifə əlaqəmənd olan sair ağalar dilimizin və milli mədəniyyətimizin tərəqqi və tovsiəsinə əsas və amil olan yuxarıdakı maddələrın icrasına tezliklə iqdam etsinlər.

**Azərbaycan Maarıf Vəziri - M. Biriya**

**(«Azərbaycan» şümarə 84, dey 2 , dəkabr 23 )**

# TƏBRİZDƏ AZƏRBAYCAN DÖVLƏT DARÜLFUNUNU TƏŞKİLİ HAQQINDA AZƏRBAYCAN MİLLİ HÖKUMƏTİNİN QƏRARI

Millətimizin arzulzrını və Azərbaycan Milli Konqrəsinin qərarlarını nəzərə alıb Milli və mədəni tərəqqimizi təəmin etmək üçün Azərbaycan Milli Hökuməti üzümuzə gələn dərs ilindən vətənimizin mərkəzi Təbriz şəhərində Azərbaycan dövlət darərülfununun təşkilini zəruri saydığı üçün aşağıdakı qərari qəbul edir.

1-Azərbaycanın Maarif Vizarəti, darülfununun təşkili üçün lazim olan büdcəni tənzim edib bir aya qədər Heyət Dövlətə təqdim etsin.

2-Azərbaycan Dövlət Darülfununi hələlik uç fakültədən ibarət olmalıdır. 1)-Tibb fakültəsi, 2)-Fəlahət fakültəsi. 3)-Pədaqoji fakültəsi, ki, buda Tarix və Dil, Ədəbyat, Fəlsəfə, Hüquq, Riyaziat şö’bələrindən təşkil tapmalıdır.

3-Maarif Vizarəti on güün müddətində Azərbaycan Darülfununu üçün lazim olan binani seçib Heyət Dövlətə iltila' verməlidir.

4-Azərbaycan Maarif Vizarəti indidən darülfununun ustadlar heyətini seçməyə və darülfunun üçün Azərbaycan dilində elmi vəsait hazırlamağa başlamalıdır.

Azərbaycan Milli Hökumətinin Baş Vəziri **«Pişəvəri»**

# DIL HAQQINDA AZƏRBAYCAN MİLLİ HÖKUMƏTİNİN QƏRARI

Xəlqimizi dövlət dəstgahına yaxınlaşdırmaq və ümumun ehtiyacatını sadə bir surətdə anlamaq və həmçinin Milli Dili və Milli Mədəniyyətimizin tərəqqi və təkamül yollarını təmizləmək üçün Azərbaycan Milli Hökuməti özünün 16-dei tarixi cəlsəsində aşağıdakı qərari qəbul etmişdir.

1-Bu gündən e’tibarən Azərbaycanda, Azərbaycan Dili Rəsmi Dövlət Dili hesab olunur. Dövlətin qərarları və rəsmi e’lanlar, həmçinin Xəlq Qoşunları hissələrinə verilən fərmanlar və qanun layıyhələri mütləqən Azərbaycan Dilində yazıləmalıdır.

2-Bütün idarələr (dövləti, Milli, ticarəti və ictimai) öz işlərini Azərbaycan Dilində yazmağa məcburdurlar. Bu dildə yazılmayan dəftər və mədarik rəsmi hesab olunmaiacaqdır.

3-Məhkəmələrdə işlərin cərəyanı təmami ilə Azərbaycan Dilində aparılmalı və bu dili bilməyənlər üçün mütərcim tə’yin olunmalıdır.

4-Azərbaycanın bütün idarə, müəsissə və ticarətxanalarının tabloları mütləqən Azərbaycan Dilində yazılmalıdır.

5-Rəsmi iclaslar və yığıncaqlarda, süxənranlıq və müzakirə Azərbaycan Dilində olmalıdır.

6-Azərbaycanlı olmayıb başqa dil ilə danışanlar və ümumi dövləti idarələrdə xidmət edənlər Azərbaycan Dili ilə yazıb -oxumağı və danışmağı öyrənəməlidirlər.

7-Maarif vizarəti idarə məmurlarını Azərbaycan Dili ilə aşina etmək məqsədi ilə ayri dillərdən sivayı, onlar üçün idarələrin cənbində böyüklər üçün məxsus kilaslar açmalıdır. Bu kilaslarda hazir olanların iş müddəti bir saat azalmalıdır.

8-Azərbaycanda yaşayan başqa millətlər öz işlərini öz ana dillərində aparmağa həqlidirlər. Leikən onlar öz rəsmi e'lanları və yazılarında öz Milli dilləri ilə bərabər Azərbaycan Dilini, rəsmi dövləti dil olaraq, işlətəmilidirlər.

9-Azərbaycanda yaşayan xırda millətlərin xüsusi Milli məktəblərindəki tə'lim öz ana dilllərində olduğu halda, Azərbaycan dilinin də tədrisi məcburidır.

10-Azərbaycan Milli Hökuməti maarif vəzirinin məktəblərdə dərslərin Azərbaycan Dilində olması həqqindəki qərarını təsvib və təyiyd edib, mədrəsələrin Milli Dilə keçməsini bütün müəllim və müəllimələrə bir Milli vəzifə kimi tapşırır.

**Azərbaycan Milli dövlətinin baş vəziri « Pişəvəri»**

**(«Azərbaycan», şümarə 96, dey 19, yanvar 9 )**

# YETİM VƏ SAHABSIZ UŞAQLARIN TƏRBİYƏSİ HAQQINDA AZƏRBAYCAN MİLLİ HÖKUMƏTİNİN QƏRARI

Qərnlər boyu dəvam edən istibdad rejimi və çürümüş irticai vəziyətin yaratdığı şərait mucibincə millətimizin istiqlalını və gələcək nəsilimizin əsasını təşkil edən uşaqlarımızın mühüm bir hissəsi yetim və sərpərstsiz qalıb insanlığı təhqir edən fəlakət və dilənçilik halında küçə və xiyavanlarda aclıq və libassızlıq və cür-bəcür naxoşluqlar vasitəsilə xəzəl kimi saralıb və məhv olub getməkdedirlər.

Azərbaycan Milli Hökuməti xəlqin istifadə və səadətini və həmçinin gələcək nəsilin təməddün və səhhət cəhetindən tərqqisini təəmin etmək üçün bu acı hala bir an əvvəl xatimə verməyə iqdam edib, yetim və biykəs cəvanları küçələrdən yığıb tərbiyət etmək üçün aşağıdakı qərari qəbul etmiş və onun tezlik ilə icra edilməsini lazim görmüşdür.

1-Məclis Milli rəisinin iftixari sədarəti altında maarif və səhiyyə vizarətının nümayəndələrindən Azərbaycanın xeyirxah və millət sevən şəxslərindən ibarət bir heyət intixab edilməli, yetim və bisərpərəst uşaqların tərbiyəsi yolunda ciddi və əməli tədbirlər görmək, onun öhdəsinə qoyulmalıdır.

2-Üçdən 14 yaşına balığ olan və bisərpərəst qız və oğlan uşaqlarını tərbiyət emək üçün birinci növbədə Təbriz şəhərində iki qız və iki oğlan tərbiyətxanası təsis olunmalı və ayrı şəhərlərdə də bu müəssisələrin misli vicuda gətiriləməsi üçün müqəddimə vəsaili təhiyə etəməlidir.

3-Üç yaşından aşağı olan səğirləri saxlamaq və onların həyatini təəmin etmək üçün Səhiyyə vizarəti vasitəsi ilə pərvəriş evi daha təsis olunmalıdır.

Qeyd-Maarif vizarətinin təsis etdigi yetimlər məktəbində 400 fəqirin təhsil və tərbiyəsinə imkan verilməli, Səhiyyə vizarətinin səğirlər pərvərişgahında 100 nəfərə baliğ körpə qəbul edilməlidir.

4-Səhiyyə və Maarif vizarətxanaları bu müəssisələrin büdcəsini on günə qədər tənzim edib və Dövlət Heyətinə təqdim etəməlidir.

5-Məclis Milli rəisinin iftixari riyasəti altında təşkil edilən Heyət (xeyriyə əncüməni) xeyirxah, insaniyətpərvər və maarif sevən insanların köməyy ilə əanə toplayıb bütün yetim, beçara və sahabsız uşaqları, həmçinin ayəry mədrəsələrdə təhsil edən yoxsul uşaqların təhsil və tərbiyət vəsaylını hiə etəməlidir.

6-Azərbaycan Maarif vizarəti nəzdində təşkil olunan Azərbaycan əncümən-xeyriyəsi Azərbaycanın bütün şəhər və qəsəbələrində öz şö'bəlrini təşkil etməyə çalışmalı, xeyirxah insanların köməyi ilə fəqirlik və beçaralığa xatimə verilməlidir.

7-Azərbaycan əncümən xeyrihsi cəvan nəsili fəlakətdən xilas etmək və onun tə'lim və tərbiyəti yolunda böyük əanələr verən və digər köməklər göstərən əşxasın adların ruznamələr vasitəsilə müntəşir edib, millət namina onlardan qədirdanlıq etəməlidir.

8-Azərbaycan Milli Hökuməti bütün həmvətənləri, millət üçün nəng və ləkə olan dilənçilik ilə ciddi mübarizə aparmağa də'vət edir və azəraicanın böyük adi və şərəfli şöhrətini xələldar edən bəlanın çox tez bir zəmanda rəf' edilməsi yolunda Milli Hökumət hamıdan himmət tələb edir.

**Azərbaycan Milli Hökumətinin Baş Vəziri «Pişəvəri»**

**(«Azərbaycan», şümarə 96, dey 19, yanvar 9 )**

# AZƏRBAYCAN MİLLİ MƏCLİSİNİN VİLAYƏTLƏR, MAHALLAR VƏ BÖLÜK ƏNCÜMƏNLƏRİ SEÇGİSİ XÜSUSUNDA 13 NÖMRƏLİ QƏRARI

**(Birinci fəsil təşkilat)**

1- Bütün Azərbaycan vilayat, mahallar və bölüklərində, vilayəti, mahal və bölük əncümənləri təşkl olunur.

2- Vilayət əncümənləri seçgisi iki ildən bir, mahal və bölük əncümənləri isə ildən ilə tazalanır.

3- Əncümənlərin vilayətlərdə iddəsi 25 nəfər, mahallard 25 nəfər və bölüklərdə isə 15 nəfərdən ibarət olmalıdır.

4- seçgilər gizli, müstəqim, müsavi və ümumi olmalıdır.

5- Əncümən işlərini idarə etmək üçün aşağıdaki tərtib ilə heyət rəisə seçilir: vilayət 11 nəfər, mahal 9 nəfər, bölük 5 nəfər

6- Bütün azərbaycanda 20 yaşına çatmış azərbaycanlılar (arvad və Kişi) əncümənlər intixabatında şirkət edə bilərlər.

7- Heyət rəisə gördükləri iş haqqinda əncümənlərin qarşısında məsuldorlar.

8- Yaşı 25 dən az və 70 dən çox olmayan azərbaycanlılar əncümənlərə intixab ola bilərlər.

**(İkinci fəsil)**

9- Əncümənlərin hər biri öz məhəllində Dövləti və Milli idarələrin işlərinə, xüsusən aonların xərclərinə nəzarət etməlidirlər.

10- Əncümən dövlət məmurlarından narazı olub və ya onların işlərinə etiraz olduqda mərbutə vizarətxanalara ittila verməlidirlər.

11- Əncümən seçgilərinin əməli yolu və cüziyyatı məxsus nizamnamə mücibincə təyin olunur. Daxilə vizarəti nizamnaməni tənzim edib Milli Dovlətin təsvibindən sonra Məclisin təsvibinə təqdim edir.

12- Maddədən ibarət olan bu qanun Azərbaycan Məclis Millisinin seşənbə günü 18 dey 1324 tarixli heyət rəisəsinin 9 cu cələsəsində ittifaq ara ilə təsvib olundu.

**Azərbaycan Məclis Millisinin Rəisi- Hacı Mirzə Əli Şəbüstəri**

**“Azərbaycan” şumarə 97, dey 26, janvar 10**

# AZƏRBAYCAN MİLLİ MƏCLİSİNİN BƏLƏDİYYƏ SEÇGİSİ XÜSUSUNDAKI 14 NÖMRƏLİ QƏRARI

**(birinci fəsil təşkilat)**

1- Tamam azərbaycanın şəhər və qəsəbələrində tam bir demokratik üsulu ilə məxfi, müstəqim, ümumi və müsavi bələdiyyə seçgisi icra olur.

2- Bələdiyyə əncümənləri 4 dərəcəyə təqsim olunur:

a- Təbriz, hökumət mərkəzi,

b- əvəllinci dərcə şəhərlər, fərmandarlıq mərkəzi

c- ikinci dərcə, mahal mərkəzi,

d- bölük mərkəzi.

3- Bələdiyyə əncüməninin üzvlərinin sayı aşağıda yazılan qərar üzrə olmalıdır:

a- Mərkəzi hökumətdə 65 nəfər, Fərmandarlıq mərkəzində 47 nəfər, Mahal mərkəzində 31 nəfər, Bölük mərkəzi 25 nəfər.

4- Bələdiyyə əncüməni öz işlərini idarə etmək üçün ümumi iclasda məxfi rəy ilə heyət rəisə intixab etməlidir.

5- İcraiyyə heyətinin sayı mərkəzdə 17 nəfər, fərmandarlıq mərkəzində 11 nəfər. Mahal mərkəzində 9 nəfər, bölük mərkəzlərində 7 nəfərdən ibarət olmalıdır.

6- Heyəti amilə, icraiyyə heyətinin qarşısında məsul olduğu kimi, icraiyyə heyəti də bələdiyyə əncüməninin qarşısında məsul olmalıdır.

7- Bələdiyyə əncüməninin dövrəsi bir il olacaqdır.

8- Bələdiyyə rəisi, müavin və iki münşiləri, ümum bələdiyyə əncüməninin üzvləri tərəfindən seçilir.

**Təbsirə**- İgirmi yaşına çatmış arvad və kişi intixab olub və aintixab edə bilər.

**(İkinci fəsil- vəzifələr)**

9- Bələdiyyəyə mərbut olan işlərin müqərrəratı (şəhərin əvariz, tikinti işləri, su mövzui, ışıq işləri, nəzafəti və ğeyrə) icraiyyə heyəti tərəfindən tənzim edilib və bələdiyyə əncüməninin ümumi iclasında təsvib olunmalıdır.

10- Bələdiyyə büdcəsinin tənzimi və təsvibi və bələdiyyə məxaricinin nnəzarəti əncümənin vəzifələrindəndir.

11- Bələdiyyəyə mütəəliq olan əmlakın satışı və bələdiyyənin ehtiyaclarını təmin etmək üçün əmlak müamiləsi, bələdiyyə əncüməninin vəzifələrindəndir.

**(üçüncü fəsil, mütəfərriqə maddələr)**

12- Bələdiyyə əncümənlərinin seçgi şərtlərinin təyini üçün bu qanuna mərbut olan başqa cüziyyatı müəyyən etmək, ayrı nizamnamə mücibincə tənzim olub, dövlət təsvibindən sonra Məclis Milliyə, təsvib üçün göndərilir. 12 maddədən ibarət bələdiyyə seçgisi qanunu Azərbaycan Məclis Millisinin seşənbə günü 18 dey 1324 tarixli heyət rəisəsinin 9 cu cələsəsində təsvib olundu.

**Azərbaycan Məclis Millisinin Rəisi- Hacı Mirzə Əli Şəbüstəri**

**Azərbaycan Məclis Millisinin katibi, m. Vilai**

**“Azərbaycan” şümarə 97, dey 20, yanvar 10**

# AZƏRBAYCAN MİLLİ HÖKUMƏTİNİN QƏRARI

Tehran hökumətinin xainanə siyasəti nəticəsində Azərbaycanın bütün şəhər və kəndlərində vücuda gələn mali və ticarəti böhran gündən günə şiddətlənməkdə və nəticədə ümum Azərbaycan xalqının iqtisadi həyatı şədidən müxatirəyə düşməkdədir.

Bu əsəfnak halı müşahidə edən Azərbaycanın tüccar, kəsbə və malikləri mükərrər surətdə kətbən və şıfahən Milli Hökumətə müraciət edib təcili əlac istədikləri və Milli Hökumətin əlində olan geniş məlumat icab edir ki böhranın qabağını almaq üçün ciddi tədbirlər görüb Azərbaycanın ticarət malları üçün bazar axtarsın. Bu mövzu milli dövlətin bərnaməsində və xalqın nümayəndələri tərəfindən təsdiq və qəbul edilən başqa sənədlərdə daxı qeyd edilmişdir.

Azərbaycan xalqını bundan artıq Tehran hökumətinin oyunlarına qurban etmək olmaz. Tez ya gec gərək iqtisadi böhran xatəmə tapsın. Bunun üçün Milli Hökumət müstəqimən xarici ölkələr ilə ticarət münasibatı vücuda gətirməli və bu münasibatı ticarəti peymanlar vasitəsi ilə düzgün yoluna qoymaq qəsdi ilə Milli Hökumət özünün 24 dey tarixli cələsəsində tüccar və ərbabların müraciətnaməsini dəqiq mütaliə edib və bu xüsusda aşağıarı qərarı qəbul etdilər:

1 – Ticarət iqtisadi vəzirinin rəyasəti altında iqtisad və maliyyə vizarətxanalarının alirütbə və xibrə məmurlarından bir komisiyon intixab olunsun. Bu işə lazım olan ittilaat və mədariki toplayıb çox tez bir zamanda işə başlasın və səlahiyyətdar xarici məqamat ilə danışığa girişsin.

2 – Bu peymani Azərbaycan üçün daha mənfəətli bir surətdə həll etmək məqsədilə ticarət və maliyyə vizarətləri Azərbaycanın varidat və sadiratını dəqiqən müəyyən edib onların kamil amar və ehsaiyyəsini bir həftəyə qədər Heyət Dövlətə təqdim etsinlər.

2 – Azərbaycan sadırat mallarının həqiqi ərzişin müəyyən etmək üçün ticarət vizarəti maharibədən əvvəlki qiymətləri bir daha nəzərdən keçirib, məşruh və müfəssəl bir surətdə ittilaat toplasın və yuxarıda qeyd edilən komision ixtiyarına qoysun.

3 –Xarici ölkələrlə müstəqim ticarət peymanını əməli və qanuni surətdə tənzim və icra etmək üçün qanun layihəsi hazırlanıb Məclis Milli nəzərinə yetirilsin.

**Azərbaycan Milli Hökumətinin baş vəziri - Mir Cəfər Pişəvəri**

**« Azərbaycan», şümarə 101, dey 25 , yanvar 15**

# MƏCLİS MİLLİMİZİN RƏYASƏT HEYƏTİNƏ

Məlum olduğu üzrə Məclise Milli və Milli Hökumətimiz özünü Məclise Müəssisan elan edən Konqreyi Millinin qərarı üzrə təşkil olunub işə başlamışdır. Bu isə kafi deyildir. Lazım gəlir çox tez bir zamanda ölkənin üsul idarhsını və dövlət təşkilatını demokratik əsaslar üzrə qurmaq üçün Məclise Müssisan dəvət edilib qanun əsasi yazılsın. Ona görə Məclis nümayəndələrindən aşağıda adları qeyd olunan 15 nəfrin imzası ilə bir layihə hazırlanıb məclisə təqdim olunur və iki fovriyyətlə onun müzakirə və təsvib olunması təqaza

edilir. Məclis nümayəndələrindən ağayan: Əli Maşınçi – Atəşxan Bəyat Maku - Əbdülhüseyn Əhmədi - Rəhimzadə Badkubəçi – Əbdüləli Pəjühidə - Çavuşi - Dadaş Təqizadə - Həsən Zəfiyri - Rəssam Müvəzzezadə - Davud Georgiyan - Şahın - Pənbei - Mərfət Səfayi - Hilal Nasiri – Pişnəmazi.

# MƏCLİS MÜƏSSİSAN VƏ QANUN ƏSASİ HAQQINDA MƏCLİS MİLLİNİN TƏSVİB ETDİYİ QANUN LAYİHƏSİ

1- Azərbaycanın Məclis Millisi ölkənin demokratlıq üsul üzrə idarə edilməsi lüzumunu nəzərə alıb qanun əsası (konstitusion) layihəsi tənzim etmək üçün Milli Hükomətimizin baş Vəziri Aqayi Mir Cəfər Piyşəvərinin sədarəti və aşağıda adları qeyd olunan əşxasın üzvlüyü ilə 15 nəfərdən ibarət bir heyət intixab edir:

Aqyan: Diybaiyan, Məhəmməd Əziyma, Sadıq Padəqan, Firiydun İbrahiymi, Zeynəlabdin Qiyami, Xanım Şəms Ciddi, Əbdullah Rəhiymi, İsmail Şəms, Doktor Cavid Məhtaş, Atəş Bəyat Maku, Simon Mıqırdiçiyan, Xanım Əfiyfə Turki, Əbdüləli Pəjuhiydə, Şeyx Musa Kəyani.

Bu heyətə tapşirir ki, bir ayın müddətində azərbaycanın əsası qanununun (konstitusion) layihəsini tənzim edib Məclis Milliyə təqdim etsin.

2- Xalqın nəzərini bilmək və vətənpərəst əşxasın fikrindən istifadə etmək üçün layihə Məclis Müəssisan təşkilindən qabaq qəzetlərdə yazılıb, ümumun nəzərinə yetişsin və əşxasın göstərişlərini toplayıb istifadə etmək üçün qanun əsasi tənziminə məmur olan heyət tərəfindən müəyyən bir komision təşkil olunsun.

3- Əsası qanunlar təhiyyə və tənzim edilirkən Azərbaycan milli, mədəni, siyasi, aiqtisadi və ictimai vəziyyəti nəzərdh dutmaq ilə bərabər onun hər cəhətdən tərəqqi etməsini təmin etmək üçün xarici ölkələr ilə azadanə əlaqə və xüsusən ticarət rabitəsi yaratmaq vəsiylələri layihədə daha aydın və daha açıq bir surətdə göstərilməlidir.

**Azərbaycan Məclis Millisinin Rəisi- Hacı Mirzə Əli Şəbüstəri**

**“Azərbaycan” şumarə 102, dey 26, janvar 16**